Elşən Hacızadə

# NOBEL İQTİSADİYYATI

Bakı - "Elm" - 2020

*Azərbaycan İqtisadçılar İttifaqı və*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*Enerji İqtisadiyyatı Mərkəzinin Elmi Şuralarının*
*birgə qərarları əsasında nəşr olunur.*

ISBN 978-9949-01-594-8

*Elmi məsləhətçi*
**Akademik Z.Ə.Səmədzadə**

*Rəyçilər*
**i.e.d, prof. M.A.Əhmədov**
**i.e.d, prof. V.T.Novruzov**
**i.e.f.d, dos. E.Z.Səmədzadə**

UOT 33:330.8: (479.24)
DOI PREFIX: 10.36962/EHNOBECO
ORCID ID 0000-0001-5447-9676
JEL Classification Codes: A10, B50, C1, D00, E02, F01, G00, H1, H21, İ00, J30, J8, L2, L50, M2, N00, O1, P00, Q18, R4, Z13.

**Hacızadə E.M.** Nobel iqtisadiyyatı (*monoqrafiya*). Bakı: "Elm", 2020, 368 s.

İqtisadiyyat üzrə Nobel mükafatının təsis edilməsi və onun laureatlarının ötən 50 il ərzindəki yaradıcı fəaliyyətləri, ümumilikdə, iqtisad elmində yeni bir mərhələnin formalaşdırılması üçün zəmin olmuşdur. Monoqrafiyada predmetli təhlil və konseptual əsaslandırmalarla postkeyns dövrünün tədqiqatçılarının nailiyyətlərinin, Nobel mükafatı laureatlarının iqtisad elminin nəzəriyyələrinin məzmununu təkmilləşdirdiyi, onun yeni axın və istiqamətlərinin formalaşdırdığı fəaliyyət nəticələri ilə uzlaşdırılan mərhələsinin "Nobel iqtisadiyyatı" adlandırılması şərtləndirilmişdir. Bundan başqa, tədqiqat işində "İqtisadiyyat üzrə Nobel mükafatı laureatları" ifadəsi, ilk dəfə lakonik olaraq, "nobelçi iqtisadçılar" termini ilə əvəzləndirilməsi məqsədəuyğun hesab edilmişdir.

Monoqrafiyada həmçinin Nobellər nəslinin şəcərəsi, onların Azərbaycandakı fəaliyyəti yeni araşdırmalar çevrəsində təqdim olunmuş, Bakı neftinin və neftçilərinin əməyinin Nobel mükafatı fondunun formalaşmasının əsas qaynaq elementi kimi çıxış etməsi faktı bir daha əsaslandırılmışdır. Bundan başqa, burada Nobel mükafatının özəllikləri neqativlər və pozitivlər aspektində xarakterizə olunaraq bu sferada tarixi gerçəkliyə çevrilən kuryoz və odioz hadisələr işıqlandırılmış, nobelçi iqtisadçıların keçdiyi həyat yolu təhlil olunmuş, onların elmi kəşfləri və tədqiqat motivasiyası ilə iqtisad elminin tərəqqisini və modernləşdirilməsini, həyat keyfiyyətinin artımını, bilik iqtisadiyyatına keçidi sürətləndirən xidmətləri əlahiddə və qruplaşdırılmış halda sistemləşdirilərək geniş elmi təqdimatda verilmişdir.

İqtisadiyyat sahəsi üzrə tədqiqatçıların, tələbə və doktorantların, həmçinin geniş oxucu kütləsinin istifadəsi üçün nəzərdə tutulur. Monoqrafiyanın Nobel mükafatı, Nobel iqtisadiyyatı və nobelçi iqtisadçılar haqqında biliklərin ensiklopedik əsasda aydınlaşdırmasına və bu barədə peşəkar və ixtisaslı rəy yaradılmasına kömək edəcəyi də hədəflənmişdir.

**ISBN: 978-9952-523-20-1**

© E.Hacızadə, 2020

# GİRİŞ

Nobellərin Bakıdakı fəaliyyəti və Alfred Nobelin təsis etdiyi populyar beynəlxalq mükafat arasındakı əlaqə Azərbaycanda daim diqqət mərkəzində olmuşdur: bir yandan çoxsaylı qlobal təsisat, digər tərəfdən Bakı nefti ilə bağlı birinci sənaye inqilabında yaşanan ilk dünya neft həyacanı. Necə də həyəcanlanmamalı!? Dünyada məşhur mükafatın yaranışına gedən yolda zəmanənin ən öncül neft şirkətlərindən olan "Nobel qardaşlarının neft istehsalı şirkəti" Bakıda təşəkkül tapmışdır. Həm də onun yaradıcılarından biri məşhur mükafatın da təsisçisi olmuşdur. Bu görüntülü, düşündürücü məqam yerinə yetirilən tədqiqat işinin də mərkəzi həlqələrindən birini təşkil etmişdir. Lakin məqsəd olaraq tədqiqatın ana xəttini 50 il öncə bu mükafatın iqtisadçılarla bağlı nominasiyasının təsis edilməsi, onun laureatlarının keynssonrası dövrdə iqtisad elmini yeni nəzəriyyə və konsepsiyalarla zənginləşdirməsi, bununla bağlı yeni "Nobel iqtisadiyyatı" mərhələsinə keçidin və bu yeni dövrün özəlliklərinin təhlili təşkil etmişdir. Məqsədə nail olmaq üçün tədqiqat işində öncə Alfred Nobel və nobellər ailəsi haqqında informatik zəmində yeni ümumiləşdirmələrin aparılması, Nobel mükafatları fondunun yaradılmasında Bakı neftinin rolu və mühümlüyünə bir daha yəqinlik gətirən əsaslandırmaların müəyyən olunması, Nobel mükafatının qaydalar və prinsiplər çevrəsinin, bu sferada kuryoz və odioz hadisələrin panoramının canlandırılması, laureatların statistik forumunun təqdimatı, habelə Azərbaycanda Nobel Komitəsi təsisatının fəaliyyətinin qiymətləndirilməsi, mükafatı alan və ala bilməyən azərbaycanlılar haqqında bilgilərin sistemləşdirilməsi üzrə vəzifələr yerinə yetirilmişdir. Burada başlıca hədəf "**Nobel iqtisadiyyatı**"na mahiyyət vermək, anlayış olaraq, onu elmi dövriyyəyə gətirmək və postkeyns dövründə iqtisad elmində yeni

məxsusi bir mərhələ təşkil etməsini əsaslandırmaqdır. Bunun üçün isə Nobel mükafatının iqtisadiyyat üzrə ayrıca nominasiyasının təsis edilməsində İsveç bankının təşəbbüsünü tədqiq edərək qiymətləndirmək, bu mükafatın laureatlarının bioqrafiyasını, keçdiyi həyat yolunu öyrənmək, onların iqtisad elmini irəlilədən və zənginləşdirən başlıca nəzəriyyə və konsepsiyalarına müvafiq təhlili yanaşma göstərmək gərəkli hesab olunmuşdur. "Nobel iqtisadiyyatı"nın mahiyyətini müəyyənləşdirərkən Keynsdən sonrakı mərhələdə və 1969-cu ildən başlayaraq laureat adına layiq görülənlərlə yanaşı, həmin mükafatı hər hansı səbəbdən almamış, lakin sözügedən mərhələdə iqtisad elminə xüsusi yaradıcı xidmətlər göstərmiş görkəmli iqtisadçılar da diqqət mərkəzində saxlanılmışlar. Bundan başqa, tədqiqat işində "İqtisadiyyat üzrə Nobel mükafatı laureatları" ifadəsinə sinonim olaraq ilk dəfə qısaca "nobelçi iqtisadçılar" termini işlədilmişdir.

Xüsusilə, bir daha vurğulanmalıdır ki, nobelçi iqtisadçılar iqtisad elmin postkeynisçi və neokeynisçi yeni istiqamətlərinin açılmasını, onun metodoloji bazasının genişləndirilməsi və təkmilləşdirilməsini, habelə iqtisadi praktikanın köklü dəyişməsi təmin etmişlər. Reallıq belədir ki, iqtisad elmin ən yeni tarixi inkişaf mərhələsində elə ilk mükafatçı R.Friş tərəfindən elmi dövriyyəyə yeni anlayışlar - "makroiqtisadiyyat" və "mikroiqtisadiyyat" terminləri çıxarılmış, o, həmçinin həmkarı Y.Tinbergenle birlikdə müasir ekonometrikanın qurucularından biri olmuşdur. Bununla da iqtisad elminin riyazi işləmələr, modelləşdirmələr, staistik tədqiqatlar, müasir metodologiyalar və təhlil seqmentləri ilə möhkəmlənməsi dövrü başlanılmış, yeni iqtisadi fikir və məktəblər formalaşmış, M.Fridmanın simasında növbəti iqtisad məktəbinin - monetarizmin əsası qoyulmuşdur. Nobelçi iqtisadçıların sayı ötən 50 il ərzində 91-ə yüksəlmiş və həmin alimlər iqtisadi inkişaf, iqtisadi artım, iqtisadi rifah, optimal me-

xanizmlər, resursların optimal bölgüsüsü, ticarət, müqavilə, razılaşdırma, tarazlıq, siqnallar, sənaye konflikti, "sənaye təşkilatı", "ictimai seçim", "portfel seçimi", "oyunlar" və digər bu kimi nəzəriyyələr üzrə fundamental tədqiqatlar apararaq yeni işləmələr həyata keçirmişlər. Onlar iqtisadi fikir tarixi, dünya iqtisadiyyatı, konstitusiya iqtisadiyyatı, informasiya iqtisadiyyatı, ailə iqtisadiyyatı, kənd təsərrüfatı iqtisadiyyatı, maliyyə və kredit, investisiyalar, sosial sığorta və digər istiqamətlərdə mühüm yeniləşmələri təmin etmiş, giriş və çıxış məlumatlarının təhlili, insan kapitalı, iqtisadi psixologiya kimi iqtisad elmində yeni tədqiqat sahələri yaratmış, qlobal yoxsulluq, iqlim dəyişiklikləri, antikorrupsiya ilə bağlı uğurlu konsepsiyalar işləmişlər.

Nobelçi iqtisadçılar çalışdıqları universitetləri şöhrətləndirməklə iqtisad elmləri sahəsindəki nəzəriyyələr üzrə bilikvermə və dərslikyaratma sahəsini də inhisara almışlar. Hazırda dünyanın aparıcı universitetlərində ayrı-ayrı iqtisadiyyat fənlərinin tədrisində nobelçi iqtisadçılarının hazırladıqları dərsliklərə rast gəlinməməsini təssəvür etmək çətindir. Bütün bunlar monoqrafiyada hər bir nobelçi iqtisadçının xidməti baxımdan əlahiddə elmi istiqamət kimi, universitetlər çevrəsindən isə qruplaşdırılmış şəkildə verilmişdir. Bundan başqa, tədqiqat strategiyasında nobelçi iqtisadçıların uğurlarının miqyasılılığına zəmin yaradan amillər və fenomenlər, fəaliyyət göstərdikləri universitetlərdəki elmi infrastrukturdan faydalanma ilə yanaşı, beynəlxalq təsisatlarda, ali dövlət postlarında, ölkə rəhbərlərinin məsləhətçiləri qismində çalışmaları, mühüm statistik məlumatlara, qapalı informasiyalara giriş imkanlılığı da ön planda olmuşdur.

Tədqiqatın informasiya təminatını çoxşaxəli mənbələrdən istifadə təşkil etmişdir. Öncə tarixi reallıqların əsas nöqtələri müəyyən olunmuş, informasiyaların doğruluğu uzlaşdırmalar əsasında bir daha yoxlanılmış, təhlil və qiymətləndirmələr yerinə

yetirməklə müvafiq ümumiləşdirmələr aparılmışdır. Məlum olmuşdur ki, nobellər, nobel mükafatçıları, nobelçi iqtisadçılar haqqında aparılan tədqiqatlar, yazılan kitablar kəmiyyət və keyfiyyət ilə yetərincədir. Bu baxımdan müxtəlif dillərdə olan həmin yazılı mənbələrdə, internet resurslarında tez-tez rast gəlinə bilən oxşar informasiyalar yeni analitik rakusda təqdim olunmuşdur. Həmin mənbələr haqqında məlumatların əksər hissəsi tədqiqatın qaynaqlar bölməsində öz əksini tapmışdır.

Müəllif monoqrafiyanın buraxılışına göstərdiyi xüsusi dəstəyə görə Azərbaycan İqtisadçılar İttifaqına, onun sədri akademik Ziyad Səmədzadəyə, i.e.d, prof. Məhiş Əhmədova, i.e.d, prof. Vahid Novruzova, i.e.f.d, dos. Elşad Səmədzadəyə, həmçinin Elşən Əliyevə, Samir Sultanova, Namik İsazadəyə təşəkkürünü bildirir.

Monoqrafiya müəllifin ömür-gün yoldaşı Hacızadə Simuzər Akif qızına ittihaf olunmuşdur.

Monoqrafiyanın elektron variantı ***www.hajizada.com*** internet səhifəsində yerləşdirilmişdir.

# Nobellər ailəsi
# və
# Nobel mükafatları

# Alfred Nobel və Nobellər ailəsi

Nobellər az rast gəlinən soyadlarındandır. Onun Avropa, rus və türk mənşəli olması haqqında müəyyən fikirlər də mövcuddur. Ruslar bu soyadın daha çox slavyan mənşəli olduğunu irəli sürərək, hətta onun XVI əsrdə böyük knyaz İvan Qroznının (*1530-1584*) çarlığı zamanında Bütün Rusiyanın siyahıyaalma kitabında əksini tapdığını qeyd etmişlər. Bütün hallarda soyadları ilə bağlı görüntülənən reallıq nəslin kişi tərəfinin yaxın əjdadlarının yaşayış məskəni, peşə fəaliyyəti və həyat hadisələrinin digər bu kimi göstəricilərdən uzlaşma tapdığı bir yəqinlikdir. Bunun məntiqi əsasları ilə yanaşı, tarixi gerçəklik amilləri də vardır. Belə ki, nobellərin müasir varisləri onların ulu babalarının XVII əsrdə İsveçin "Nobbelev" kəndində yaşadıqlarını dilə gətirirlər. Bir sıra elm adamları Nobel soyadının bütpərəst köklərə sahib olduğu qənaətindədirlər. Lakin varislər qeyd edirlər ki, onların babaları Peter Olofsson XVII əsrdə elmə yiyələnmək məqsədi ilə İsveçin Nobbelev kəndindən Stokholma piyada gələrək universitetə daxil olmuşdur. Peter soyadını kiçik vətəni Nobbelev kəndinə uyğunlaşdırmaqla onu "Nobelius" adlandırmışdır. Peterə "Nobelius" soyadı elmi şöhrət gətirməsə də, xələfləri onu "Nobel" adı ilə məşhurlaşdırdılar.


Emmanuel Nobel

Tarixi araşdırmalar göstərir ki, bu soyadın ilk daşıyıcısı əyalət məhkəməsinin hakim kimi fəaliyyət göstərmiş Petrus Nobeliusdur (*1655-1707*). Nobel qardaşlarının atası Emmanuel Nobel (*1801-1872*) isə onun nəvəsidir.

Peter Olofssondan kök salan Nobellər sonradan tanınmış şəcərədə yeni bir nəsil formalaşdırmışdır. E.Nobelin atası həkim

kimi tanınmışdır. Bu soyadın daşıyıcısı olmayan məşhur isveç alimi, anatomiyaçı, botanik, həmçinin riyaziyyatçı, fizikanı, musiqini öyrənərək onları tədris edən Ulof Rudbek (*1630-1702*) də Nobellərin sələflərindən hesab edilir.

Sualtı bombalar ixtiraçısı kimi tanınan E.Nobel Stokholm Kral Texnologiya İnstitutunu bitirmiş, 1825-ci ildə isveç kəndli ailəsindən çıxmış Andrietta Alsel (*1805-1889*) ilə ailə həyatı qurmuşdur. Kəsici maşınlar ixtiraçısı, dəmir məmulatları emalatxanalarına malik, sahibkarlıq fəaliyyəti ilə məşğul olan E.Nobel biznesdəki uğursuzluqlardan yaxa qurtarmaq, müflis olmuş ailənin rifahını bərpa etmək məqsədi ilə 1837-ci ildə Sankt-Peterburqa gəlmişdir. Burada öncə onu uğurlar müşayiət etmişdir. E.Nobel qısa zamanda dəzgah, partlayıcı maddələr istehsalında irəliləyişlərə nail olmuş, sonradan müasir faneri ixtira etmiş və torpeda üzərində işlərə başlamışdır. Silah istehsalı üzrə Rusiya hökuməti ilə bağladığı müqavilələr onu daha zəngin etmişdir. E.Nobelin mühəndislik bacarığı, ixtiraçılıq istedadı övladlarına da keçmişdir. Bu genetikadan onun üçüncü övladı - Alfred Bernard Nobel (*1833-1896*) daha çox bəhrələnmişdir.


Andrietta Alsel

A.Nobel 1833-cü il 21 oktyabrda İsveçin paytaxtı Stokholm şəhərində dünyaya gəlmişdir. Bundan 9 il sonra 1842-ci ildə Alfred anası və qardaşları Robert Yalmar Nobel (*1829-1896*) və Lüdviq Emmanuel Nobellə (*1831-1888*) birlikdə Rusiyanın Sankt-Peterburq şəhərinə - orada biznes yaratmış atasının yanına köçmüşlər. Növbəti il, 1843-cü ildə isə burada Alfredin kiçik qardaşı Emil Emmanuel Oskar Nobel (*1843-1864*) dünyaya gəlmişdir. Ailədə 11 övlad olsa da, onlardan yalnız adları çəkilən 4 qardaş uşaqlıq həyatlarını davam etdirə bilmişlər.


Alfred Bernard Nobel

Atasının yanına köçdükdən sonra Alfredin təhsilində irəliləyişlər başlamış, o, Azərbaycanın Şuşa şəhərində doğulmuş məşhur rus alimi professor Nikolay Nikolayeviç Zinindən (*1812-1880*) kimya sahəsində biliklər mənimsəmiş, poliqlot kimi ana dili ilə yanaşı ingilis, fransız, alman, rus və italyan dillərində sərbəst danışmağı öyrənmişdir. Ədəbiyyata olan sevgisi onu bədii yaradıcılığa da həvəsləndirmişdir. Alfred Nobeldən "Nemezida" adlı yeganə facіə-pyes miras qalmışdır. Atası onu N.Zininin tövsiyyəsi ilə 1849-cu ildə Avropaya və Amerikaya təhsil almağa göndərmişdir. Bu təhsil səyahətində Alfred Parisdə iki il öncə partlayıcı xassəyə malik nitroqliserini kəşf etmiş italyan kimyaçısı Askanio Sobrero (*1812-1888*) ilə görüşmüşdür. A.Sobrero nitroqliserinin təhlükəli və idarəolunmaz xüsusiyyətini əsas gətirərək, onun istifadəsinin əleyhinə olmuşdur. Alfred isə nitroqliserinin barıtdan dəfələrlə üstün partlayıcılıq qabiliyyətini və onunla davranmada texniki çətinliyi nəzərə alaraq, bu sahədə idarəetməyə nailolma və özünün kommersiya maraqlarını təminetmə üzrə fəaliyyət göstərmişdir.

Rusiyaya qayıtdıqdan sonra Alfred rus ordusunun hərbi sifarişlərini yerinə yetirən ailə fabriklərinin işi ilə məşğul olmağa başlamışdır. Krım müharibəsinin (*1853-1856*) başlanması Nobel şirkətlərinin çiçəklənməsinə gətirib çıxarmışdır. 1859-cu ildə E.Nobel öz zavodunu ikinci oğlu Lüdviqə buraxaraq ailəsi ilə birlikdə vətəni İsveçə dönmüşdür.

İşini partlayıcı maddələrin öyrənilməsinə, xüsusən də, nitroqliserinin təhlükəsiz istehsalı və istifadəsinə həsr edən Alfred 1863-cü ildə detonatoru ixtira etmişdir. O, atasının yanına, İsveçə

qayıdaraq Stokholm yaxınlığında yerləşən Helenburqda nitroqliserin istehsal edən kiçik zavod yaratmışdır. 1864-cü ildə həmin zavodda tələfatlarla müşayiət edilən partlayış baş vermiş və nəticədə Nobellər ailəsinin kiçik oğlu Emil də həlak olmuşdur. Bu faciəyə baxmayaraq, Alfred Nobel nitroqliserinin ram edilməsi sahəsində işlərini davam etdirmiş və nitroqliserin istehsal edən yeni zavodlar zənciri yaratmışdır. İlk olaraq bu səylər Alfredin 1867-ci ildə yeni və idarəetməsi daha təhlükəsiz olan dinamiti ixtira etməsi ilə nəticələnmişdir. O, müəyyənləşdirmişdir ki, inert substansiya tərkibdə nitroqliserin diatomlu torpaq (*kieselguhr*) kimi istifadədə təhlükəsiz və asan olur. Nitroqliserin əsasında digər absorber və aşqarlarla olan bu qatışığı o dinamit (*yunanca - δύναμις - "güc"*) adlandırmışdır. Alfred bu ixtirası ilə bağlı mühazirələr oxumuş, onu nümayiş etdirmiş, cəlbediciliyini artırmaq üçün müxtəlif reklamlaşdırmalar həyata keçirmişdir.

Dinamit ABŞ və Böyük Britaniyada patentləşdirilmiş, dağmədən sənayesində və beynəlxalq nəqliyyat şəbəkələrinin tikintisində geniş istifadə olunmağa başlamışdır. Alfred, həmçinin dinamit istehsal edən "Latın" və "Anqlosaks" adlanan iki trest təsis etmiş, sonradan o, nitroqliserini digər partlayıcı maddələr - kollodiylə birləşdirərək dinamitdən daha güclü olan partlayıcı maddə (*dinamitli jelatin*) almış və onu da patentləşdirmişdir. Növbəti mərhələdə isə o, korditin sələfi, ilk tüstüsüz barıt nitroqliserinlərdən olan "ballistit"i ixtira etmişdir.

Alfred Nobel elmə, iqtisadiyyata, sosial həyata çoxlu töhfələr vermişdir. Onun patentləri sırasında ilki 1857-ci ildə qaz sayğacının ixtirası ilə bağlı olmuşdur. Sonrakı ixtira və patentlər isə daha çox partlayıcı maddələr üzrə həyata keçirilmişdir. Bütün həyatı boyu ona beynəlxalq səviyyədə 355 patent verilmişdir.

Orta və ali təhsilinin formal olmasına baxmayaraq, Alfred Nobel London Kral Cəmiyyətinin və İsveç Elmlər Akademiya-

sının üzvü seçilmişdir. 1893-cü ildə İsveçin Uppsal Universiteti ona fəxri doktor adı vermişdir.

Bütün ömrü boyu pasifist ideyalarının tərənnümçüsü olan Alfred Nobel bu ixtiralarının sülhə dəstək olacağı, bütün müharibələrə son verəcəyi qənaətində idi. Lakin ictimai həyatda onun reputasiyası fərqli idi. Pasifist inanclı olmasına baxmayaraq, ölümündən sonra onun biznesi əsasında 90-dan çox silah istehsalı zavodu yaradıldı. Həyatını səyahətlərdə, şirkətlərinin işinin tənzimlənməsi üçün işgüzar danışıqlarda keçirən, qeyri-səmimiliyi və gözə girməyi xoşlamayan, sakit təbiətli bir insan kimi o, ömrü boyu çox az dost qazandı və heç vaxt rəsmi nikahda olmadı, ailə qurmadı.

Həyatındakı sarsıdıcı zərbəni 1888-ci ildə Fransanın Kan şəhərində qardaşı Lüdviqin vəfatı ilə aldı. Belə ki, bu zaman bir jurnalist qardaşları səhv salaraq çalışdığı fransız qəzetində Alfred haqqında nekroloq dərc etdirdi. Onu "ölüm taciri" adlandırdı. Bu, Alfredə çox ciddi təsir etdi. Bunun ardınca onun ismi "qana batmış milyonçu", "dinamit kralı", "kütləvi qatil" kimi adlarla digər qəzetlərdə də yer aldı. Buna görə də Alfred "dünya miqyasında qlobal cani" kimi yaddaşlara düşməmək üçün varidatının böyük hissəsini ayıraraq, yaxınları və dostları ilə məsləhətləşmədən, ölümündən bir il əvvəl məşhur "Nobel mükafatları"nın təsis olunması barədə vəsiyyətini etdi.

Həmin vəsiyyət rəsmi olaraq 1895-ci ilin 27 noyabrında Fransanın paytaxtı Paris şəhərinin İsveç-Norveç klubunda imzalandı. Vəsiyyətnaməyə əsasən, onun 33,2 milyon isveç kronu (*indiki kursla təqribən 120-130 milyon ABŞ dolları*) təşkil edən varidatının təqribən iki milyonu varislərə ödəniş olaraq çıxıldıqdan sonra, qalan 31 milyonu qiymətli kağızlara çevrilməli, onlardan əldə edilən gəlirlər hər il bəşəriyyətə daha çox fayda gətirən şəxslərə mükafat kimi verilməli idi. Konkret olaraq, beş bərabər

hissədən ibarət mükafat mühüm kəşf və ixtiralar üzrə fizika, kimya və təbabət-fiziologiya, bəşəri idealları təcəssüm etdirən daha əhəmiyyətli bədii əsərlərə görə - ədəbiyyat və xalqların birləşməsinə, köləliyin məhv edilməsinə, mövcud orduların sayının azaldılmasına, sülh müqaviləsinin təşviqinə mühüm töhfələrə görə - sülhün möhkəmləndirilməsi sahələrini əhatə edirdi.

A.Nobel 1896-cı ilin 10 dekabrında İtaliyanın San-Remo şəhərində beyindaxili qansızmadan 63 yaşında dünyasını dəyişdi. Məzarı Stokholmun ən böyük qəbirstanlığı olan "Norra beqravninqsplatsen"dədir.

Vəsiyyətnamə reallaşdırılarkən məlum oldu ki, onun məzmun və quruluşunda bir sıra nöqsan və natamamlıqlar mövcuddur. Digər tərəfdən, Alfredin qanuni yaşayış yerinin hansı ölkə olmasının naməlumluğu da problem idi. Belə ki, o, uşaqlıq illərində (*9 yaşına qədər*) İsveç vətəndaşı kimi, sonradan isə Rusiya, Fransa və İtaliyada həmin ölkələrin vətəndaşı olmadan yaşamışdı. Bundan başqa, bu mükafatları gerçəkləşdirəcək fond da mövcud


"Villa Petrolea"

deyildi və onu təsis etmək lazım idi. Vəsiyyətnamədə həm də ilin qalibi olmayacağı təqdirdə hansı hərəkətin ediləcəyi də göstərilməmişdi. Müəllifin Sülh mükafatı nominasiyasının qalibini müəyyənləşdirən təsisat kimi Norveç parlamentini (*Stortinqi*) seçməsi də qeyri-vətənpərvərliyinə görə onu qınaq obyektinə çevirmişdi. Alfredin vəsiyyətnaməsindəki bu və ya digər çatışmazlıqlar Nobel fondunun təsisini və ilk mükafatın təqdim edilməsini 5 il ləngitdi.

Nobel fondunun yaradılması üçün təşkilatçılara 4 il lazım oldu. Nəticədə fond 1900-cü ildə özəl, müstəqil qeyri-hökumət təşkilatı olaraq yaradıldı.

A.Nobel vəsiyyətində pozitiv olaraq göstərmişdir ki, "...Mənim xüsusi istəyim odur ki, mükafat namizədin milli mənsubiyyətindən təsirlənməməlidir, skandinaviyalı və ya başqa birisi olmasından aslı olmayaraq, onu ən layiqlilər almalıdırlar".

A.Nobelin xatirəsi əbədiləşdirilmiş, onun şərəfinə çoxsaylı təsisatlar yaradılmışdır. Atom nömrəsi 102 olan sintezləşdirilmiş kimyəvi element - "Nobeliy", Ayın görünməyən hissəsində krater, 1983-cü ildə kəşf edilmiş asteroid, Ukraynada universitet onun adını daşayır. Bakıda isə Nobel prospekt vardır. Prospektin keçdiyi Ağ şəhər adlanan ərazidə 1884-cü ildə inşa edilərək Azərbaycanda sovet hakimiyyəti qurulanadək Nobel ailəsinin şəxsi iqamətgahı olmuş "Villa Petrolea" binasında Nobel Qardaşları Muzeyi fəaliyyət göstərir. Tarixi dəyər kəsb edən bina və ətraf ərazi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və həmçinin də Nobellər nəslinin hamiliyi altında bərpa edilmişdir. "Villa Petrolea" ərazisində muzeydən başqa, beynəlxalq biznes mərkəzi və Bakı Nobel Neft Klubu yaradılmışdır. 2004-cü ildə Azərbaycanda Nobel qardaşlarının irsini bərpa etmək üçün vətəndaş təşəbbüsü olaraq siyasi elmlər doktoru professor Toğrul Adil oğlu Bağırov (*1954-2019*) tərəfindən "Bakı Nobel İrsi Fondu"

yaradılmışdır. Həmçinin 2010-cu ildə "Villa Petrolea" iqamətgahında Lüdviq Nobelin nəticəsi Filip Nobel (*1970*) tərəfindən Azərbaycanda elmi dəstəkləməyi hədəfləyən Beynəlxalq Nobel Qardaşlıq Fondunun (*Nobel İnternational Fraternity Fund*) da əsası qoyulmuşdur. 2019-cu ildə Azərbaycan kinomotoqrafçıları tərəfindən "Nobel qardaşlarının ilk uğuru" adlı sənədli filmi çəkilmişdir. Bakıdakı "TEAS Press" nəşriyyat evi isə 2018-ci tanınmış jurnalist, Əməkdar mədəniyyət işçisi Müsəllim Həsənovun "Nobellər neft, milyonçular və qoçular şəhərində" adlı kitabını nəşr etmişdir.

Nobellərin nəsli davam edir. Müasir Nobel şəcərəsi isə 350-dən çox doğmaları əhatə edən doqquz budaqdan ibarətdir.

# Nobel mükafatları fondunun yaradılmasında Bakı neftinin rolu və mühümlüyü

Nobel mükafatları fondunun yetərli payının Bakı neftindən qaynaqlandığı bir reallıqdır. Bunun dəyərləndirməsi Nobellərin Azərbaycandakı fəaliyyətləri ilə bağlı hadisələrin nəzərdən keçirilməsini tələb edir.

Nobellərin Azərbaycanda fəaliyyətləri haqqında çoxsaylı yazılı mənbələr, foto-video materiallar mövcuddur. Bu mənbələrdə müxtəlif yanaşmalar baxımından Nobellərin şəcərəsi, İsveçdə, Rusiyada və Azərbaycanda fəaliyyətləri, Bakı neft sənayesinin inkişafındakı rolu, neftin hasilatı, emalı və nəqli sahəsində tətbiq etdikləri texniki yeniliklər, şəhərin ictimai həyatında iştirakı, habelə Nobel mükafatı fondunun Bakı neftindən qaynaqladığını əks etdirən məlumatlar geniş işıqlandırılmışdır. Həmin mənbələrə görə, Nobellərin Bakıya gəlişi "iltizam sistemi"nin[1] ləğvindən sonra, neft sənayesinin inkişaf yoluna qədəm qoyduğu XIX əsrin 70-ci illərinin əvvəlinə təsadüf etmişdir.

Bakıya qardaşlardan ilk olaraq Robert Nobel gəlmişdir. Bu, ailənin silah biznesi ilə bağlı olmuşdur. Belə ki, Nobellərin Rusiyadakı silah zavoduna Almaniyadan tüfəng qundağı üçün baha qiymətə gətirilən qoz ağacı sərfəli olmadığından və yaxın ərazilərdə qoz ağacı bitmədiyindən, bu məqsədlə digər region-

[1] İltizam (*müqatiə*) sistemi (*ingiliscə - revenue leasing - gəlir icarəsi*) dövlətin müəyyən haqq müqabilində fərdi şəxslərə (*icarədarlara*) əhalidən vergi və digər dövlət gəlirlərinin toplanması hüququnun verdiyi icarə sistemi. Azərbaycan neft təsərrüfatında XIX əsrdə neft quyularının yerləşdiyi torpağın sahibi ilə onu müəyyən şərtlərlə müvəqqəti istifadəyə götürən icarəçi arasında olan qarşılıqlı öhdəliklər sistemi kimi mövcud olmuşdur. Həmin sistem icarəçilərə neft quyuları qazmaq, neft hasil etmək və onun satışını reallaşdırmaq sahəsində əlahiddə hüquq verirdi. Bu zaman quyular müəyyən müddətə sahibkarların, adətən tacirlərin ixtiyarına keçir və onlar dövlətin xəzinəsinə vergi ödəyərək neft quyularından hasilatı inhisarlarında saxlayırdılar. 1872-ci ildə ləğv edilmişdir. Sistemin ləğvi neft təsərrüfatının kapitalist istehsalına keçidinə zəmin olmuşdur.

larda axtarış aparmaq qərara alınır. Mütəxəssislər onlara belə ağacın Azərbaycanda, xüsusən də, Lənkəran meşələrində çox olmasını bildirirlər. Lakin Lənkəranda bol qoz ağacı olan meşə massivləri tapılmadığından onu daha ucuz başa gələn tozağacı ilə əvəzləyirlər. R.Nobel yolüstü Bakıda qalaraq neft mədənlərini gəzir, burada yeni biznes üçün əlverişli vəziyyətin olduğunu müəyyənləşdirir və müvafiq istiqamətdə iqtisadi qiymətləndirmələr apararaq Sankt-Peterburqa qayıdır. O, Azərbaycanda olarkən qardaşı Lüdviqə Bakıda buruqlardan fasiləsiz neft axdığını və sərvətin tükənməz olduğunu bildirir və şəriklik əsasında burada bir neft müəssisəsi yaratmaq təklifi irəli sürür.

Qardaşlar həyatlarının Bakı dövrü kimi məşhurlaşan işlərinə kiçik bir ağ neft zavodunun təməlini qoymaqla başlayaraq, 1879-cu ildə burada "Branobel" və ya tam adı ilə "Nobel qardaşlarının neft istehsalı şirkəti" (*rusca - Товарищество нефтяного производства братьев Нобель*) adlanan səhmdar cəmiyyət yaradırlar. Əsas kapitalının məbləği 3 milyon rubla bərabər olan bu şirkətin təsisçiləri 3 qardaş - Lüdviq, Robert və Alfred Nobellərlə yanaşı, həmçinin çar ordusunun alman əsilli polkovniki baron Pyotr Aleksandroviç Bilderlinq (*1846-1912*) olmuşdur. Qısa müddətdə qardaşlar Abşeronun bir sıra neft mədənlərinin sahibinə çevrilməklə, çoxsaylı zavodlar almış, qabaqcıl texnologiyaları tətbiq etməklə onları yenidən quraraq qazanclarını artırmışlar. Nobellərin başlıca məqsədi Amerika ağ neftini Rusiyadan sıxışdırıb çıxarmaq və öz neft məhsullarını xaricə uğurla daşımaq olmuşdur. Bu başarı 1880-ci illərin əvvəlində güclü donanma yaratmaqla reallaşmış və "Branobel" Rusiyanın daxili bazarında ağ neft ixracı üzrə hakim mövqe tutmuşdur. Bununla yanaşı, 1892-ci ildə Rusiyanın Rostov-Don şəhərində "Branobel" başda olmaqla, "Yeddi firma ittifaqı" adlı sindikat da yaradılmışdır. Bu sindikata onlarla bərabər "H.Z.Tağıyev", "Budaqov qardaşları",

"S.M.Şibayev", "Kaspi", "A.İ.Mantaşev" və "Q.M.Lianozov" şirkətləri də daxil idi. Bununla bağlı imzalanmış sazişin məqsədi birgə fəaliyyət yolu ilə xarici ticarəti tənzimləmək, neft məhsulları ixracını artırmaq məqsədi daşıyırdı. Bu ilki isə, Neft İxrac Edən Ölkələr Təşkilatının - OPEK-in yaranışı üçün bir nümunə də hesab etmək olar.

Sahibkarlıq məntiqindən irəli gələrək, Nobellər sərvətlərinin genişləndirilməsi və bununla da neft sənayesində irəliləyişin təmin olunması məqsədi ilə ABŞ-ın Pensilvaniya ştatından Bakıya buruq ustaları gətirərək neft təsərrüfatının digər infrastruktur sahələrinin qurulması istiqamətində də xidmətlər göstərmişlər. Bir sıra mənbələrdə onların kapitalının 1880-ci ildə 4 milyon rubl, 1900-cü ildə 15 milyon rubl təşkil etdiyi, XIX əsrin sonunda isə 45 milyon rubla yüksəldiyi qeyd edilir.

Nobel qardaşlarının Bakıdakı əhəmiyyətli nailiyyətləri sırasına ABŞ-dan mütəxəssislər, zəruri alət və dəzgahlar gətirilməklə Abşeronda yeni rotor qazma üsulunun tətbiq edilməsini, silindrik neft çənlərinin yaradılmasını, neft nəqli xətlərinin, o cümlədən 1880-ci illərin sonunda Bakı-Batumi neft kəmərinin inşasını, 1881-ci ildə xətti telefon rabitəsinin qurulmasını aid etmək olar. 1883-cü ildə Zaqafqaziya dəmir yolunun çəkilməsində onların rolunu qeyd etmək lazımdır. Bundan başqa, 1877-ci ildə dünyada ilk neft tankeri olan "Zoroastr"ın (*Zərdüşt*) inşa edilməsi də Nobellərin Bakıda neft sənayesinin inkişafına mühüm töhfə kimi qiymətləndirilməlidir. Belə ki, atəşpərəstlərin peyğəmbərinin adını daşıyan "Zərdüşt" gəmisi L.Nobelin sifarişi ilə İsveçin Motala şəhərindəki zavodda quraşdırılmış və uzun müddət xidmətdə olmuşdur. O, XX əsrin 50-ci illərində Neft Daşlarında ilk quyuların qazılması üçün digər 7 gəmi ilə birlikdə batırılmışdır. İlk vaxtlar bu yataq "Yeddi gəmi adası" adlandırılmışdır. "Zərdüşt"ün ardınca digər tankerlər də yaradılmış və onlar da ümum-

bəşəri tərəqqinin böyük xadimlərinin adını daşımışlar (*"Budda", "Məhəmməd", "Musa", "Spinoza", "Darvin", "Linney", "Nordenşeld" və s.*). Ümumilikdə Nobellər 134 buxar və 212 yelkənli gəmiyə sahib olmuşlar. Onlar Volqa, Xəzər və Qara dəniz hövzəsində işləmişlər.

Nobellərin Bakı nailiyyətləri ilə bağlı bir məqama da diqqət yetirilməlidir. Belə ki, "Nobel qardaşlarının neft istehsalı şirkəti" komplekslilik baxımından xeyli fərqli statusda çıxış etmiş və dünya neft tarixinə ilk "şaquli inteqrasiyalı şirkət" kimi daxil olmuşdur. Lakin tarixi mənbələrdə Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin yaratdığı "H.Z.Tağıyev" şirkətinin fəaliyyəti bundan 3 il öncəyə (*1872*) təsadüf edir. "H.Z.Tağıyev" şirkəti korporativ model quruluşuna istinadən bütün neft əməliyyatlarını şəriksiz sərbəst yerinə yetirmişdir. Bu baxımdan da o, konqlomeratlıq statusuna görə "Nobel qardaşlarının neft istehsalı şirkəti"nin paradiqmal sələfi kimi çıxış edir.

1890-cı illərin sonunda Bakı rayonu neft hasilatında ABŞ-ı ötüb keçərək dünyada birinci yerə çıxmışdır. Nobellər isə həmin illərdə var-dövlətlərini kəskin artıraraq Bakıda fəaliyyət göstərən 20-yə qədər xarici şirkət arasında aparıcı mövqedə yer almışlar. Həmin dövrlərdə Rusiyada çarizm əleyhinə baş qaldıran inqilabi hərəkat Bakıda daha dinamik məcrada davam etmişdir. Belə vəziyyət isə fəhlə tətilləri və iğtişaşlarla müşayiət olunaraq Nobel qardaşlarının biznesinə əngəllər törətmişdir. Qardaşlardan biri o zaman bu barədə yazmışdı: "Elə gün olmur ki, mədən və zavodlarımızda fəhlələr iğtişaş salıb, maşın və avadanlıq sındırmasınlar. Ürəyimiz Bakıdadır. Bizi iflic vursa, Bakıdan vuracaq... "

1876-cı ilin payızında Robert Nobel səhhəti ilə bağlı Azərbaycanı tərk etdi. Bakıda biznesin idarəçiliyinə ümumi rəhbərlik Sankt-Peterburqdan çağırılan Lüdviq Nobelə tapşırıldı. R.Nobel isə neft sənayesində 1880-ci ilə qədər işlədi və ağır

xəstələndiyindən Bakını tamam tərk edərək xaricə köçdü. Faktiki olaraq, işdən uzaqlaşa da ömrünün sonuna kimi "Nobel qardaşlarının neft istehsalı şirkəti"nin şəriki olaraq qaldı. Bununla belə, vurğulanmalıdır ki, "Nobel qardaşlarının neft istehsalı şirkəti"nin böyük şöhrəti Lüdviq Nobelin adı ilə bağlıdır. Qətiyyətliliyi, inadcıl xarakteri və başlıca olaraq, xüsusi sahibkarlıq istedadı zaman və məkan amilindən irəli gələrək, onu dünya neft sənayesinin qurucularının öncülləri sırasına çıxarmışdı. "Pulu zəhmətlə əldə etməlisən, işləmirsənsə - o zaman da yeməməlisən" kimi düşüncələr L.Nobelin əsas həyat tezislərindən idi. Yüksək ixtisaslı mütəxəssisləri işə cəlb etmək, onların asudə vaxtı üçün lazımi şəraiti yaratmaq da bu istedadlı sahibkarın bines idarəçiliyinə əsas yanaşma prinsiplərindən olmuşdur.

Vurğulanmalıdır ki, Lüdviq Nobelin və oğlu Emil (*kiçik Emmanuel*) Nobelin (*1885-1951*) azərbaycanlı neft iş adamları Hacı Zeynalabdin Tağıyev (*1823-1924*) və İsa bəy Əbdülsalam bəy oğlu Hacınski (*1860-1919*) ilə xüsusilə isti münasibətləri olmuş, bir çox işgüzar məsələlərdə onlar bir-birinə köməkliklər göstərmişlər.

Buzovna kəndinin sakini Məzahir Səmədzadə xatırlayır ki, ötən əsrin əvvəllərində bu kəndin nüfuzlu və imkanlı şəxslərindən olan Ağabəy Məlikovun "Nobel qardaşları" şirkəti ilə işgüzar əlaqələri olub. Şirkət ondan 5 min qızıl pula aldığı ərazidə öz işçiləri üçün İsveç memarlığı üslubunda, hər birinin ayrıca həyəti və giriş qapısı olan, yataqxana və istirahət evi bina-ları inşa etdirib. Tağşəkilli giriş qapılarının üzərində binaların tikildiyi tarix həkk olunub: 1904 və 1907. Sonralar həmin binalardan müxtəlif məqsədlər üçün istifadə edilib. Buzovnalılar vaxtilə Nobellərə məxsus olmuş ərazini indi də "Nobel bağı" adlandırırlar.

Nobellər azərbaycanlı sahibkarlar kimi Bakıda memarlıq şedevrləri yaratmasalar da, burada özünəməxsus izlər qoyub get-


Ümummilli Lider Heydər Əliyev

mişlər. Belə ki, L.Nobelin təşəbbüsü ilə XIX əsrin sonlarında Bakının mərkəzinə yaxın ərazidə - keçmiş Qara şəhər (*indi Ağ şəhər*) hüdudlarında, qeyd edildiyi kimi, "Villa Petrolea" adlanan yaşayış qəsəbəsi inşa edilmiş, xaricdən və daxildən gətirilən minlərlə ağac və bəzək kollarının əkildiyi, yaşıllıqlara qərq olan rahat bir istirahət zonası yaradılmışdır. Torpaq Lənkərandan, ağaclar və kollar Tbilisi, Batumi, Rusiya və Avropanın müxtəlif yerlərindən, şirin su Həştərxandan gətirilmişdir. Parkda fəvvarəli hovuzlar qurulmuş, işçilər və mühəndislər üçün evlər, xəstəxana, yeməkxana, kitabxana, teatr və bilyard otağı tikilmişdir. Nobel qardaşlarının eyniadlı şəxsi iqamətgahı da burada yerləşmişdir. Parkın inşası tam başa çatmamış L.Nobel 1888-ci ildə həyatdan köçmüşdür. Bununla belə, "Qara şəhər"in ekoloji fəlakətli simasını bütünlüklə dəyişdirmək mümkün olmamışdır.

"Azərneftyağ" İstehsalat Birliyində bitum qurğusunun istifadəyə verilməsi mərasimində (*3 noyabr 2000-ci il*) ümummilli lider Heydər Əliyev çıxış edərkən Qara şəhər haqqında demişdir: "Azərbaycanda yüz illərdən bəri Qara şəhər adlanan şəhər ağaracaq, təmizlənəcək, burada gül-çiçək əkiləcək və bu, Azərbaycanın gözəl bir guşəsinə çevriləcəkdir. Mən bu sözləri 1976-cı ildə demişəm. İndi mən xoşbəxtəm. Ona görə xoşbəxtəm ki, görürsünüz, 24, 25 il bundan öncə mənim qoyduğum səylər, həyata


Prezident İlham Əliyev

keçirdiyim tədbirlər öz nəticəsini verib və bəyan etdiyim sözlərin hamısı indi həqiqətə çevrilib, bu, günün reallığıdır.” Bu arzuların gerçək davamı olaraq Prezident İlham Əliyevin təşəbbüsü ilə “Qara şəhər”in “Ağ Şəhər”ə çevrilməsi layihəsi uğurla həyata keçirilir. Bu möhtəşəm layihə barədə cənab İlham Əliyev nitqlərindən birində demişdir: “Vaxtilə xaricdən gəlmiş iş adamları Azərbaycanda neft sənayesində işləmişlər, böyük qazanc, milyardlarla vəsait əldə etmişlər. Ancaq bizim üçün nə qoyub getmişlər? Qara şəhəri qoyub getmişlər. Bu ekoloji fəlakəti qoyub getmişlər. O xarici neft baronlarının qazandıqları pulların hansı hissəsi ekoloji məsələlərə xərclənib? Oraya heç bir vəsait qoyulmamışdır. Sadəcə olaraq qazanc dalınca Azərbaycana gəlmişlər, böyük pullar əldə etmişlər. Ancaq bizə nə qoyub getmişlər? Qara şəhəri. İndi biz - müstəqil Azərbaycan bu ekoloji fəlakəti aradan götürürük. Bu da rəmzi xarakter daşıyır ki, Qara şəhər əvəzinə  “Ağ Şəhər” olacaq. “Ağ Şəhər” nəinki Cənubi Qafqazda, yaxud da, bu böyük regionda, dünya miqyasında ən gözəl şəhərsalma layihələrinin birinə çevriləcəkdir”.

L.Nobelin vəfatından sonra onu Bakı kampaniyasında atasının adını daşıyan oğlu Emmanuel Nobel (*kiçik Emmanuel*) əvəz etmişdir. “Nobel qardaşlarının neft istehsalı şirkəti”nin idarəçiliyi 1888-1919-cu illər ərzində onun tərəfindən aparılmışdır. Bu

zaman kəsiyində şirkət Azərbaycan neft sənayesində birinciliyini qoruyub saxlamış, Bakıda hasil edilən ümumi neft həcminin 25-28 faizinə sahib olmuşdur. Bu şirkətdə 25 mindən artıq fəhlə işləyirdi. L.Nobelin kapitalı qızılla 35 milyon rubldan çox qiymətləndirilirdi. Bu məbləğ isə Rusiyanın neft sektorundakı xarici kapitalının beşdə birinə bərabər idi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə də (*1918-1920-ci illər*) neft sənayesi iqtisadiyyatın əsas sahəsi olmuşdur. Bakı Kommunası - bolşeviklər tərəfindən müsadirə edilmiş neft mədənləri, Xəzər ticarət donanması, zavod və emalatxanalar cumhuriyyət hökumətinin 5 oktyabr 1918-ci il tarixli dekreti ilə öz sahiblərinə qaytarılmışdır. Yalnız hasil edilən neftin üçdə bir hissəsi hökumətin sərəncamında saxlanılmışdır. Bu dövrdə, digər xarici şirkətlər kimi "Nobel qardaşları" da neft hasilatı, emalı və ixracı sahəsində fəaliyyətlərini davam etdirmişlər. 1917-20-ci illərdə şirkətin Bakıda səlahiyyətli nümayəndəsi olan Artur Lessner Azərbaycan milli hökuməti üzvlərinin yerli sahibkarlarla görüşlərində, neft sənayesinin problemlərinin müzakirəsində iştirak etmişdir. Tarixi mənbələrdə Paris Sülh Konfransında Azər-



"Ağ Şəhər"

baycan nümayəndə heyətinə başçılıq edən Əlimərdan bəy Topçubaşovun (*1863-1934*) Parisdə Emanuel Nobellə dəfələrlə görüşlər keçirdiyi, müzakirələr apardığı, hətta ondan yardım istədiyi barədə də məlumatlar var.

1920-ci ilin aprelində Azərbaycanda milli hökumətin süqutundan və yeni qurulan bolşevik hökumətinin neft sənayesini öz əlinə almasından sonra Bakıda Nobellər dövrü də başa çatmışdır. Onların milyonlarla hesablanan varidatı isə xaricdəki banklarda möhkəmlənən, oturuşan kapitala çevrilmişdir.

Nobellərin Bakı fəaliyyəti haqqında danışdıqda ailənin kiçiyi, məşhur mükafatın təsisçisi Alfred də unudulmamalıdır. A.Nobel birbaşa neft sənayesi ilə məşğul olmasa da, qardaşlarına bütün bu işlərdə böyük yardımlar göstərmişdir. Onların çoxsaylı israrlı dəvətlərinə baxmayaraq, A.Nobel heç bir vaxt Bakıda olmamışdır. Lakin o, ixtira etdiyi partlayıcı maddələrin dağ-mədən sənayesində tətbiqi üçün sınaqlarını qardaşlarının şirkətində keçirmiş, Bakı mədənlərini bürüyən neft kəmərlərinin yaradılmasını, həmçinin neft gəmilərində buxar qazanlarının daxiliyanma mühərrikləri ilə əvəzlənməsini, ucuz olan mazutun gələcəkdə böyük mənfəətlər gətirəcəyi perspektivini əsas götürərərk, çənlər tikib onu saxlamaqla sonradan satışa çıxarılmasını qardaşlara təklif etmişdir. Bütün bu fəaliyyətlər və onlardan əldə edilən qazanclar A.Nobelin təsis etdiyi məşhur mükafatın fondunun əhəmiyyətli hissəsinin Bakı neftindən qaynaqlandığını söyləməyə əsas verir. Bu fikri çoxları o cümlədən, azərbaycanlı tədqiqatçılarla bərabər, ayrı-ayrı xarici tədqiqatçılar və elm adamları da bölüşürlər. Lakin daha tutarlı əsas, qeyd edildiyi kimi, Alfred Nobelin "Nobel qardaşlarının neft istehsalı şirkəti"nin təsisçisi və şəriki kimi sərvətlərinin böyük bir qismini Bakı neftindən, Abşeron neft mədəni rentası hesabına və həmçinin Bakı fəhlələrinin əməyi nəticəsində qazanması amilidir.

Nobellərin ailə arxivinə giriş imkanı olmuş isveçli tarixçi və maliyyəçi Erik Bergenqren (*1900-1977*) kitablarının birində məxsusi olaraq qeyd etmişdir ki, məhz "Nobel qardaşları" şirkəti rəhbərliyinin Alfred Nobelin vəsaitlərinin Rusiya şirkətindən mükafat fonduna verilməsi haqqında qərarı "ümumiyyətlə Nobel mükafatlarının yaranmasında həlledici amil olmuşdur".

# Nobel mükafatı: fərqli cəhətlər, qaydalar və prinsiplər

Müasir dünyamızda xeyli sayda mükafatlar mövcuddur. Lakin onların heç biri yaşı 120-ni haqlamış Nobel mükafatı ilə hələ də yetərincə rəqabət apara bilmir.

Alfred Bernard Nobelin vəsiyyəti əsasında 27 noyabr 1895-ci ildə təsis edilmiş, ən çox arzu olunan ali bir ödül kimi Nobel mükafatı (*isveççə - Nobelpriset, ingiliscə - Nobel Prize*) hər il çox önəmli elmi tədqiqatlara, inqilabi ixtiralara, mədəniyyətin və cəmiyyətin inkişafındakı böyük töhfələrə görə ayrı-ayrı şəxslərə təqdim edilir. Burada sülh üzrə Nobel mükafatı istisnadır. Belə ki, bu mükafat ayrı-ayrı şəxslərlə yanaşı, təşkilat və qruplara da verilə bilər.

Əsasən altı sahəni - kimya, fizika, fiziologiya və tibb, ədəbiyyat, sülh və iqtisadiyyat nominasiyalarını əhatə edir. Vəsiyyətdən kənar olan İqtisadiyyat üzrə Nobel mükafatı 1969-cu ildən verilir.

Mükafata medal, şəxsi diplom və böyük həcmdə (*10 milyon İsveç kronu - təqribən 1 milyon avro*) pul məbləğinin qəbzi (*çek*) daxildir. A.Nobelin qərarına görə, mükafat ən çoxu üç qalib arasında bölünməlidir. Qeyd olunmalıdır ki, ilk laureatlar pul mükafatını 150 min isveç frankı (*hazırkı 850 min avro*) həcmində almışlar. Bu məbləğ XXI əsrin əvvəlində artaraq bir nominasiya üçün 1,4 milyon avroya yüksəlmiş və sonradan indiki 1 milyon avro həcmində qərarlaşmışdır.



**Nobel mükafatının medalı və diplomu**

Kimya, fizika, ədəbiyyat, fiziologiya və tibb üzrə mükafatların medalları isveçli heykəltəraş Yohan Erik Lindberq (*1873-1966*), sülh mükafatının medalı norveçli heykəltəraş Qustav Vigeland (*1869-1943*) və iqtisadiyyat üzrə mükafatın medalı isə isveçli heykəltəraş Qunver Svensson Lundqvist (*1916-2009*) tərəfindən dizayn olunmuşdur.

Nobel mükafatı 1901-ci ildən verilməyə başlanmışdır. İlk laureatlar fizika sahəsində "γ (*qamma*) - şüaları"nı kəşf etdiyinə görə alman fiziki Vilhelm Konrad Rentgen (*1845-1923*), kimya sahəsi üzrə "ozmotik təzyiqin qanunauyğunluqları"nı tapdığına görə niderland kimyaçısı Yakobus Henrik Vant-Hoff (*1852-1911*), fiziologiya və tibb sahəsində "zərdab terapiyası" üzrə işlərinə görə alman bakterioloqu Emil Adolf fon Bering (*1854-1917*), ədəbiyyat sahəsində fransız şairi Rene Fransua Arman (*Syuli*) Prüdom (*1839-1907*) və sülh üzrə yarıya bölünməklə fransız siyasi xadimi, iqtisadçı Frederik Passi (*1822-1912*) və Qırmızı Xaçın əsasını qoyan isveçrəli sahibkar və ictimai xadim Anri Jan Dünan (*1828-1910*) olmuşlar.

Nobel mükafatları Fizika üzrə 1916, 1931, 1934, 1940-1942, Kimya üzrə 1916, 1917, 1919, 1924, 1933, 1940-1942, Fiziologiya və tibb üzrə 1915-1918, 1921, 1925, 1940-1942, Ədəbiyyat üzrə 1914, 1918, 1935, 1940-1943, Sülh üzrə 1914-1916, 1918, 1923, 1924, 1928, 1932, 1939, 1940-1943, 1948, 1955, 1956, 1966, 1967, 1972-ci illərdə verilmişdir. İqtisadiyyat üzrə mükafatlar isə 1969-cu ildən başlayaraq hər il təqdim olunmuşdur.

İsveç Akademiyasında yaranan cinsi təcavüz qalmaqalı və namizədlərin öncədən məlumatlandırılması səbəbindən 2018-ci ildə ədəbiyyat üzrə Nobel mükafatı verilməmişdir. Lakin bir il sonra bu nominasiya üzrə 2 qalib elan edilmişdir: 2018-ci il üçün polşalı ədib xanım Olqa Novaya Tokarçuk (*1962*) və 2019-cu il

üçün avstriyalı yazıçısı Peter Handke (*1942*) bu nüfuzlu mükafatın sahibi olmuşlar.

Təsis olunduğu vaxtdan indiyədək (*1901-2019*) "Nobel" mükafatı 917 nəfərə verilmişdir. Onlardan 865 kişi, 52 qadındır.

Fərqli tələbliliyi, çətin əlçatanlığı ilə daha çox nüfuz qazanmış beynəlxalq mükafatlardan biri kimi tanınan Nobel mükafatı üzrə namizədlərin irəli sürülməsi qaydaları müxtəlifdir. Lakin iki qayda ümumidir. Bunlardan birincisi - namizədliyin iddiaçının özü tərəfindən irəli sürülməsinin mümkünsüzlüyü, digəri isə Nobel Komitəsinin üzvləri və əvvəlki laureatların namizədlər irəli sürə bilməməsidir.

Xüsusi yaradılmış Nobel Komitəsi fevraldan oktyabra qədər il boyu namizəd siyahısı üzərində iş aparır. Namizədlərin siyahısı tam 50 il ərzində gizli saxlanılır.

Hər bir kateqoriya üzrə Nobel Komitəsi mövcuddur. Komitə dünyanın istənilən yerində müvafiq sahələr üzrə tanınmış institutlarla şaxələnmiş əlaqə sisteminə malikdir. Bu dairə bir neçə min adamı əhatə edir və onlar məktublar göndərərək Nobel mükafatlarına namizədlər təklif edirlər. Sonra cəlb edilən mütəxəssislərlə birlikdə hər bir namizəd üzrə müzakirələr aparılır.

Nobel Komitəsi öz qərarını hazırlayır, lakin onu qəbul etmir. Mükafatın verilməsi qərarı Nobel Cəmiyyəti tərəfindən həyata keçirilir. Namizədlərin adı və səsvermənin necə keçdiyi ictimaiyyət üçün gizlidir. Verilmiş qərarlar qətidir və yenidən baxıla bilməz. Ənənəvi olaraq, qaliblər oktyabr ayında elan olunurlar. Təcrübə göstərir ki, komitələrin təklifləri əksər hallarda mükafatın əvvəlcədən kimə veriləcəyini həll etmiş olur. Lakin cəmiyyət bu təklifləri nəzərə almaya da bilər.

Qaliblərin yekun seçimi İsveç Kral Elm Akademiyası, İsveç Akademiyası, Karolina İnstitutunun Nobel Assambleyası və Norveç Nobel komitəsi tərəfindən həyata keçirilir.

Səsvermədən sonra qaliblərə zənglər başlayır və mətbuat konfransında laureatların adları elan olunur. "Nobel həftəsi" adlanan bu tədbir bir neçə gün davam edir. Seçki ərəfəsində qaliblərin həyatda olması vacib şərtdir. Yalnız oktyabrda qalib olduğu elan edildikdən sonra dünyasını dəyişən laureatların adı mükaftçılar sırasında saxlanılır.

Mükafatın geri alınması mexanizmi yoxdur. Qaydalara görə, mükafat heç bir kəsə təqdim olunmaya da bilər. Bu, müvafiq komitənin üzvlərinin namizədlər arasında layiqlisini tapmadıqları halda baş verir. Belə vəziyyətdə təltif vəsaiti növbəti ilə keçirilir. Əgər növbəti ildə də eyni vəziyyət yaranarsa, onda vəsait Nobel fondunun qapalı ehtiyatına yönəldilir.

Fizika, kimya, iqtisadiyyat, ədəbiyyat, fiziologiya və tibb sahələri üzrə mükafatlar laureatlara hər il Alfred Nobelin anım günündə - 10 dekabrda İsveçdə, paytaxt Stokholmda təşkil edilən təntənəli mərasimdə İsveç kralı tərəfindən təqdim olunur. Fizika, kimya və iqtisadiyyat üzrə Nobel mükafatlarını laureatlara İsveç Kral Elmlər Akademiyası təqdim edir.



İsveç Kral Elm Akademiyası

İsveçin Stokholmdakı Kral İnstitutunun Nobel Assambleyası fiziologiya və tibb sahəsində laureatların seçilməsinə məsuldur.

Ədəbiyyat üzrə Nobel mükafatı laureatını müəyyən etmək İsveç Akademiyasına həvalə olunmuşdur.

Nobel sülh mükafatının laureatı Norveç parlamenti tərəfindən seçilmiş komitə - “Stroting” tərəfindən müəyyən edilir. Mükafat Norveç kralının iştirakı ilə Norveçdə keçirilən tədbirdə Norveç Nobel Komitəsinin direktoru tərəfindən təqdim olunur. Diplomlar hər laureat üçün fərdi qaydada tərtib edilir, onun bir hissəsi hər hansı bir təsvirlə, digər hissəsi isə yazı ilə tamamlanır. Bir qayda olaraq, kral mükafatlandırma mərasimlərinin hamısında - təqdimatda və təqdimatdan sonrakı ziyafətdə iştirak edir. Lakin 1935-ci ildə bu ənənəyə əməl edilməmişdir. Belə ki, həmin il Nobel sülh mükafatı qatı pasifist və faşizmə qarşı mübariz, alman jurnalisiti Karl Fon Osseskiyə (*1889-1938*) təqdim olunmalı idi. Alman rəsmiləri buna etiraz edərək Norveç Kralından həmin qərarın ləğv olunması üçün Nobel Komitəsinə təzyiq göstərməyi tələb etmişlər. O, isə qeyri-hökumət təşkilatını buna məcbur edə bilməmiş və eyni zamanda, Almaniya ilə münasibətləri korlamaq istəməyərək, mükafatlandırma mərasiminə gəlməmişdir. Bundan sonra isə nasist rəhbərliyi öz ölkəsinin vətəndaşlarına bu mükafatı almağı qadağan etmişdir.

Mükafatın təqdimat mərasimi ciddi dress-kod (*geyim kodeksi*) şəraitində (*kişilər frak, qadınlar axşam libası*) keçirilir. Mərasimə yalnız dəvətnaməsi olanlar buraxılır. Təqdimat mərasimi televiziya ilə birbaşa yayımlanır.

Mərasimdə laureat “Nobel xatirə mühazirəsi” söyləməlidir. Həmin mühazirə sonradan Nobel Fondu tərəfindən xüsusi cilddə nəşr olunur. Amerikalı dahi riyaziyyatçısı, 1994-cü ildə iqtisadiyyat üzrə oyunlar nəzəriyyəsinə görə Nobel mükafatı almış Con Neş təqdimat mərasimində iştirak etsə də, paranoid şi-

zofreniyadan əziyyət çəkdiyinə görə nitq söyləməmişdir. Burada digər bir maraqlı məqam da ondan ibarətdir ki, protokola görə, nitqdən sonra laureat kürsüdən enərək Krala təzim etməlidir. 1971-ci ildə isə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüş çilili şair-kommunist Pablo Neruda - Rikardo Elieser Neftali Reyes Basoalto (*1904-1973*) yaxıngörmədən əziyyət çəkdiyinə görə pilləkanlardan enən zaman yıxılmış və eynəyini itirmişdir. Belə vəziyyətdə o, qonaqlar arasında Kralı tanımamış və səhvən onun mühafizəçisinə təzim etmişdir. Bu hadisədən sonra Kral onu heç kimlə səhv salmamaları üçün səhnədə əyləşir. Təqdimetmə mərasimində digər hadisə 1975-ci ildə sovet riyaziyyatçısı və iqtisadçısı Leonid Kantoroviçlə bağlı olmuşdur. Belə ki, L.Kantoroviçə səhvən onun həmkarı Tyallinq Kupmansın medalı təqdim edilmişdir.

Mükafatın təqdimatından sonra Nobel ziyafəti başlayır. Süfrəyə verilən təamlar üç ay öncə təşkilatçılar tərəfindən təyin edilir və dequstasiya olunur. Onun hazırlanmasını ən yaxşı aşpazlara həvalə edirlər. Burada maraqlı məqam isə ənənədən irəli gələrək süfrəyə həmişə dondurmanın verilməsidir.

1994-cü ildən mükafatların təqdimatı mərasimində “Nobel konserti” də verilir. Həmin konsertə dünya ulduzları dəvət edilir, konsert Stokholm və Osloda müvafiq olaraq 8-10 dekabr tarixlərində keçirilir.

# Nobel mükafatı laureatlarının statistik forumu

Təmsiçiləri Nobel mükafatına layiq görülən ölkələr sırasında ABŞ liderlik edir. Dörd elmi nominasiyada - fizika, kimya, fiziologiya və tibb üzrə bu liderlik şəksizdir.

İqtisadiyyat sahəsində mükafatların 43 faizi bu ölkənin elm adamlarının payına düşür. Sonrakı yerləri Böyük Britaniya, AFR, Fransa, İsveç və Yaponiya tutur.

"İstedadlı" irqlər, dil qrupları və konfessialar kontekstindən yanaşıldıqda Nobel mükafatı alanlar sırasında Hind-Avropa ailəsi xalqlarının nümayəndələri, german və roman (*latın*) mənşəlilər, xristian-yəhudi əsillilər öndə gedirlər. Sonrakı yerləri slavyanlar, başqa Avropa xalqları, yaponlar, koreyalılar, çinlililər və Hind-Çin xalqlarının digər nümayəndələri tuturlar. Mərkəzi və Şərqi Asiya, Latın Amerikası və Afrika makroregionları xalqlarının nümayədələri isə bu çevrədə daha azdırlar. Müsəlman dünyasından ümumilikdə 12 nəfər, iqtisadçılar arasında isə, hələ ki, bir nfər belə nobelçi yoxdur. O da qeyd edilməlidir ki, bütün elmi istiqamətlərdə Nobel mükafatı alan alimlərin yalnız bir faizi müsəlmanlardır. Zaman-zaman elmin beşiyi olmuş Şərqdə əsrlərlə davam edən durğunluq prosesləri daha çox elmin inkişafına zərbə vurmuşdur. Məhz bu səbəblər də mükafatçılar sırasında müsəlman alimlərin genişliklə təmsil olunmasına məhdudiyyət gətirmişdir.

Müsəlmanlar arasında ilk Nobel mükafatını (*sülh üzrə*) 1978-ci ildə hərbi və dövlət xadimi, Misirin 3-cü prezidenti Məhəmməd Ənvər əs-Sadat (*1918-1981*) 1977-1983-cü illərdə İsrailin 7-ci baş naziri olmuş tanınmış siyasi xadim Menahem Beginlə (*1913-1992*) birlikdə İsrail və Misir arasında əsas sazişlərin bağlanması

və hazırlanmasına görə (*1978-ci ildə imzalanan "Kemp-Devid" sülh müqaviləsi*) almışdır. Pakistanlı fizik, görkəmli alim, fizika nəzəriyyəçisi Məhəmməd Əbdus Salam (*1926-1996*) isə elm sahəsində bu mükafata layiq görülən ilk müsəlmandır. O, mükafatı fizika sahəsi üzrə 1979-cu ildə "Elektrozəif qüvvət ilə əlaqədar işlərə verdikləri töhfələrinə görə" ABŞ fizikləri Şeldon Li Qleşou (*1932*) və Stiven Vaynberqlə (*1933*) birlikdə almışdır.

Kimya üzrə Nobel mükafatına 1999-cu ildə "Femtosekond texnikasından istifadə etməklə kimyəvi reaksiyalar zamanı meydana gələn keçid vəziyyətlərinin öyrənilməsinə görə" layiq görülmüş Misir-ABŞ kimyaçısı, ərəb kökənli Əhməd Zevayl (*1946-2016*), həmin sahə üzrə 2015-ci ildə Amerika biokimyaçısı Pol Modriç (*1946*) və isveç-britaniya biokimyaçısı Tomas Lindalla (*1938*) birlikdə bu mükafatı alan türk əsilli ABŞ biokimyaçısı Əziz Sancar (*1946*) da müsəlman nobelçilərdir.

Ədəbiyyat üzrə Nobel alan ilk müsəlman yazıçı 1988-ci ildə "Bütün bəşəriyyət üçün məna kəsb edən, incəliklərlə zəngin ərəb hekayələrinə və realizmə görə" bu mükafata layiq görülən ərəb əsilli tanınmış misirli roman ustası, dramaturq, ssenarist Nəcib Məhfuz (*1911-2006*) olmuşdur. Həmin nominasiya üzrə Nobel mükafatına layiq görülmüş növbəti müsəlman müəllif 2006-cı ildə "Doğma şəhərinin melanxolik ruhunun axtarışı nəticəsində mədəniyyətlərin toqquşması və qovuşması üçün yeni simvollar tapdığına görə" türk yazıçısı Fərid Orxan Pamuka (*1952*) olmuşdur.

Nobel mükafatına layiq görülmüş digər müsəlmanlar "Sülhə görə" nominasiyasının təmsilçiləridir. Bunlar Ə.Sadatla yanaşı, 1994-cü ildə fələstin ərəblərinin lideri Yasir Ərəfat (*1929-2004*), 2003-cü ildə iranlı hüquq müdafiəçisi Şirin Ebadi (*1947*), 2005-ci ildə 1997-2009-cu illərdə MAGATE baş direktoru vəzifəsində çalışmış misirli diplomat və ictimai xadim Məhəmməd Mustafa

Əl-Baradei (*1942*), 2006-cı ildə Banqladeşdən olan bankçı, iqtisad professoru Yunus Məhəmməd (*1940*), 2011-ci ildə "Sülhməramlı fəaliyətə və qadınların hüquq və azadlıqları, təhlükəsizliyinin təmin olunması uğrunda apardıqları mübarizəyə görə" qrup halında 2006-2018-ci illərdə Liberiyanın prezidenti (*Afrikada ilk qadın prezident*) olmuş siyasətçi Ellen Conson-Syorlif (*1938*) və liberiyalı sülhpərvər-fəal Qbovi Leyma (*1972*) ilə birlikdə Yəməndən olan hüquq müdafiəçisi, jurnalist və siyasətçi Təvakul Abdel-Salam Karman (*1979*) və nəhayət 2014-cü ildə uşaq hüquqları fəalı, hindistanlı Kailaş Satiarti (*1954*) ilə birlikdə "Uşaqlara və gənc insanlara qarşı mübarizəyə və uşaqlar təhsil almaq hüququ uğrunda fəaliyyətlərə görə" pakistanlı hüquq müdafiəçisi Malala Yusufzaidir (*1997*). Qeyd olunmalıdır ki, Şirin Ebadi Nobel mükafatı alan ilk müsəlman qadın, Malala Yusufzai isə Nobel mükafatına layiq görülən ən gənc laureatdır. Bütün bunlardan başqa, o da diqqətə gətirilməlidir ki, 2019-cu ildə Nobel Sülh mükafatına "Eritreya ilə sərhəd münaqişəsinin həllinə görə" Efiopiyanın Baş naziri, müsəlman ailəsində doğulmuş, lakin protestant inanclı olan Abiy Əhməd Əli (*1976*) layiq görülmüşdür.

Etnik baxımdan dünya əhalisinin 0,2 faizini təşkil edən yəhudilər bu mükafatın nominasiyalarında ön sıralarda dayanırlar. Yəhudilər və ya yəhudi əsillilərin bütün nominasiyalar üzrə ümumilikdə mükafatçılar arasında payları təqribən 22-23 faiz təşkil edir. ABŞ xalqlarından sonra ikinci yerdə durmaqla onlar, 2019-cu ilin də daxil olduğu statistikaya görə, iqtisadiyyat üzrə nominasiyada ən çox - 41 faizə yaxın paya malikdirlər. Ən az payları isə ədəbiyyat və sülh sahələri üzrədir.

Vurğulandığı kimi, Nobel mükafatına yalnız həyatda olan insanlar layiq görülürlər. Lakin 1931-ci ildə ədəbiyyat üzrə laureat, isveç şairi Erik Aksel Karlfeldt (*1864-1931*) və 1961-ci ildə sülh

üzrə laureat, isveç dövlət xadimi, 1953-cü ildən ömrünün son gününə kimi BMT-nin baş katibi olmuş Daq Yalmar Aqne Karl Hammarşeld (*1905-1961*) Nobel mükafatını sağlıqlarında ala bilməmişlər. Onlar namizədlik müddəti ilə mükafatın təqdim olunduğu zaman kəsiyində vəfat etmişlər. Mükafatları isə ölümlərindən sonra onların yaxınları almışlar. 1974-cü ildə vəfat etmiş şəxslərə mükafatın verilməsi qadağan olunmuşdur. İstisna 2011-ci ildə olmuşdur. Belə ki, yəhudi kökənli, kanadalı immunoloq, hüceyrə bioloqu Ralf Marvin Steyman (*1943-2011*) 2011-ci ildə fiziologiya və tibb sahəsi üzrə mükafatın elan edilməsindən 3 gün öncə vəfat etmişdir. Təşkilatçılar isə, deyilənlərə görə, bundan xəbərsiz olmuşlar. Beləliklə, Nobel mükafatı tarixində 3 insan ölümündən sonra laureat olmuşlar. Myanmar müxalifətinin lideri xanım Aun San Su Çji (*1945*) isə 1991-ci ildə layiq görüldüyü Nobel sülh mükafatını həbsdə olduğu üçün 21-il sonra, 2012-ci ildə ala bilmişdir.

Təsis olunduğu zaman Nobel mükafatlarının bir sahə üzrə iki dəfə verilməsi halı da nəzərdə tutulmamışdır. Lakin tarixdə mükafatın bir şəxsə iki dəfə verilməsi faktı bir neçə dəfə yaşanmışdır. Belə hal dörd elm xadimi ilə bağlı baş vermişdir. Mükafatı fərqli nominasiyalarda 1903-cü ildə fizika və 1911-ci ildə kimya üzrə polyak və fransız alim-eksperimentatoru, pedaqoq, ictimai xadim Mariya Skoldovskaya Küri (*1867-1934*) və 1954-cü ildə kimya və 1962-ci ildə isə sülh üzrə amerikalı kimyaçı Laynus Kral Polinq (*1901-1994*) almışlar. Mükafata eyni nominasiyada iki dəfə 1956 və 1972-ci illərdə fizika sahəsi üzrə amerikalı fizik Con Bardin (*1908-1991*), 1954 və 1980-ci illərdə kimya sahəsi üzrə ingilis biokimyaçı Frederik Senqer (*1918-2013*) layiq görülmüşlər. Nobel sülh mükafatını Qırmızı Xaç Komitəsi üç dəfə əldə etmiş, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (*UNHCR*) isə iki dəfə qazanmışdır.

Bir ailənin üzvləri olan Nobel mükafatçıları da vardır. 1903-cü ildə fizika sahəsində mükafat almış məşhur nobelçi Mariya Küri, onun həyat yoldaşı, fransız fizik Pyer Küri (*1859-1906*) və onların böyük qızı, 1935-ci ildə kimya üzrə Nobel mükafatı almış fransız fizik İren Jolio Küri (*1897-1956*), 1915-ci ildə fizika sahəsində mükafat almış britaniyalı fizik, kimyaçı, riyaziyyatçı və fəal idmançı Villiam Henri Breqq (*1862-1942*), oğlu avstraliyalı fizik ser Villiam Laurens Breqq (*1890-1971*), 1959-cu ildə tibb və fiziologiya sahəsində mükafat almış amerikalı biokimyaçı Artur Kornberq (*1918-2007*) və oğlu 2006-cı ildə kimya sahəsində mükafat almış amerikalı biokimyaçı Rocer Devid Kornberq (*1947*), 1969-cu ildə iqtisadiyyat sahəsində mükafat almış niderlandlı iqtisadçı Yan Tinbergen (*1903-1994*) və qardaşı 1973-cü ildə tibb və fiziologiya sahəsində mükafat almış niderlandlı etoloq və ornitoloq Nikolas Tinbergen (*1907-1988*), 1974-cü ildə iqtisadiyyat sahəsində mükafat almış Karl Qunnar Mürdal (*1898-1987*) və həyatı yoldaşı isveçli diplomat, siyasətçi və politoloq, 1982-ci ildə Nobel sülh mükafatı almış Alva Mürdal (*1902-1986*), nəhayət, 2019-cu ildə iqtisadiyyat üzrə Nobel mükafatı almış ABŞ iqtisadçısı Abhicit Vinayak Banerci (*1961*) və həyatı yoldaşı fransız iqtisadçı xanım Ester Düflo (*1972*) bu sıraya daxildirlər.

Vurğulanmalıdır ki, Mariya Küri həm də iki dəfə Nobel mükafatı almış qadın elm xadimidir. Burada həm də bir xüsusi məqama diqqət yetirilməlidir ki, Kürilər ailəsində 4 nobelçi və 5 Nobel mükafatı vardır. Bunlar 2 dəfə Mariya Küri, həyat yoldaşı, fransız Pyer Küri, onların böyük qızı İren Jolio Küri və onun həyat yoldaşı, 1935-ci ildə kimya üzrə xanımı ilə birlikdə kimya sahəsi üzrə Nobel mükafatı almış fransız fiziki Frederik Jolio-Küridir (*1900-1958*).

Nobel mükafatı alan 52 qadından 22-si elm sahələri üzrə lau-

reat olmuşdur. Ümumilikdə, elm sahələri ürə verilmiş Nobel mükafatlarının 2-3 faizi qadınların payına düşür. Qadınlar üçün məhsuldar Nobel ili 2009-cu il olmuşdur. Belə ki, həmin il 5 qadın bu nüfuzlu mükafata layiq görülmüşdür.

Son onilliklərin nəticələrinə görə, Nobel laureatının orta yaşı 62-dir. Amerika iqtisadçısı Leonid Qurviç 2017-ci ildə 90 yaşında bu mükafata layiq görülərək, ən yaşlı nobelçi olmuşdur. Uzun müddət Nobel mükafatları tarixinin ən gənc laureatı avstraliyalı fizik ser Villiam Laurens Breqq sayılmışdır. O, 1915-ci ildə atası Villiam Henri Breqqlə birlikdə mükafata layiq görülərkən 25 yaşında idi. Yalnız bir əsr sonra, 2014-cü ildə pakistanlı hüquq müdafiəçisi Malala Yusufzai 17 yaşında Nobel sülh mükafatı alaraq ən gənc laureat olmuşdur.

Dünyanın ən uzunömürlü Nobel mükafatçısı 1986-cı ildə fiziologiya və tibb elmi üzrə bu mükafata layiq görülən italiyalı neyrobioloq Rita Levi-Montalçinidir (*1909-2012*). O, 103 yaşında vəfat etmişdir.

Nobel mükafatları tarixində ondan imtina olunması ilə bağlı çoxsaylı hadisələr baş vermişdir. İlk belə hadisə mükafat birinci dəfə təqdim edilərkən qeydə alınmışdır. Belə ki, 1901-ci ildə ədəbiyyat sahəsində Nobel mükafatını məşhur rus yazıçısı Lev Nikolayeviç Tolstoyun (*1828-1910*) alacağı gözlənilsə də, ilk laureat "Sınmış güldan" şeiri ilə məşhurlaşmış fransız şair A.Prüdom olmuşdur. Buna görə də skandinaviyalı yazıçı və şairlər İsveç Akademiyasına məktub göndərərək, mükafatın aztanınan fransız müəllifə verilməsinə açıq etiraz bildirmişdilər. Lakin təşkilatçıların qərarı dəyişməmişdir. Rus Pravoslav Kilsəsinin Müqəddəs Sinodunun qraf Lev Tolstoyun pravoslav hesab edilməməsi barədə məşhur qərarının da həmin vaxta təsadüf etməsi isə onların əlində tutalqa olmuşdur.

Növbəti ildə L.Tolstoy Nobel mükafatını ala bilməmişdir və

bu, ardıcıl olaraq 5 il davam etmişdir. Rusiya Elmlər Akademiyası 1906-cı ildə yenidən onun namizədliyini irəli sürmək barədə qərar verəndə isə dahi yazıçı xaricdəki dostlarından həmin mükafatı almamaq üçün kömək istəmişdir. Mükafatın məbləği o zaman 150 milyon İsveç kronu idi. L.Tolstoy sonralar bu işdə ona kömək etmiş dostu, fin yazıçı Arvid Yarnefeltə (*1861-1932*) onu "böyük məbləğin öhdəsindən gəlmək kimi ağır əzabdan qurtardığına görə" minnətdarlığını bildirmişdir. Həmin ildə mükafatı italyan şair Cozue Karduççi (*1835-1907*) almış və buna sevinən L.Tolstoy dünyada Nobel mükafatından imtina etmiş ilk şəxs kimi tarixə düşmüşdür. Onun bu qeyri-adi addımından sonra isə xüsusi "Nobel imtinaçısı" termini yaranmışdır. Bütün bunlara rəğmən, 1910-cu ildə ictimaiyyətin təzyiqləri ilə təşkilatçılar bestsellerə çevrilmiş "Hərb və sülh" romanının müəllifinə, hətta onun özünün etirazını belə qəbul etməyərək, Nobel mükafatı vermək qərarına gəlmişlər. Lakin qərarın rəsmən elan edilməsinə 3 gün qalmış L.Tolstoy vəfat etmişdir. Mükafat isə alman yazıçısı Paul Yohan Lüdviq fon Heyzeyə (*1830-1914*) təqdim olunmuşdur.

İki laureat - fransız filosof, yazıçı və dramaturq, ekzistensialist (*latınca - exsistensia - varlıq, XX əsrdə fəlsəfədə ziyalıların baxışlarına cavab verə biləcək yeni dünyagörüşü yaratmaq cəhdi kimi meydana gəlmiş irrasionalist, subyektiv idealist fəlsəfi cərəyanlardan biri*) ədəbi-fəlsəfi cərəyanın yaradıcılarından biri Jan Pol Sartr (*1905-1980*) 1964-cü ildə və vyetnamlı siyasətçi, diplomat Le Dik Tho (*1911-1990*) 1973-cü ildə Nobel mükafatından şəxsən imtina etmişlər. Ədəbiyyat sahəsində mükafata layiq görülən J.Sartr imtinasının səbəbini bütün rəsmi təltiflərdən xoşlanmaması, sülh mükafatına layiq görülən L.Tho isə ölkəsində müharibə vəziyyətinin davam etməsi ilə əlaqələndirmişlər.

Nobel mükafatlarından imtinaya məcbur edilmək halları da baş vermişdir. Belə ki, məlumatlarda faşist lider Adolf Hitlerin (*1889-*

*1945*) 3 alman nobelçisini - 1938-ci ildə kimya üzrə laureat Riçard Johann Kunu (*1900-1967*), 1939-cu ildə kimya üzrə laureat Adolf Fridrix Johan Butenandtı (*1903-1995*) və həmin ildə fiziologiya və tibb üzrə laureat Gerhard Yohannes Paul Domaqkı (1895-1964) layiq görüldükləri mükafatlardan imtinaya məcbur etmişdir. Sonradan onlardan bəzisi laureat diplomu və medalını əldə etsə də, mükafatın məbləğini ala bilməmişdir. Tanınmış rus ədibi "Doktor Jivaqo" romanı ilə şöhrət qazanmış Boris Leonidoviç Pasternak (*1890-1960*) da 1958-ci ildə layiq görüldüyü ədəbiyyat üzrə Nobel mükafatını almamağa vətəndaşı olduğu SSRİ dövləti tərəfindən məcbur edilməmişdir.

# Kuryoz və odioz hadisələr

Görünən mükəmməlliklərinə baxmayaraq, beynəlxalq miqyasda bənzərsiz brend - Nobel mükafatının siyasi bir alət olması fikirləri də səslənir. Tənqid hədəfində Nobel Komitəsi də yer alır. Onun qərarlarını yanlış hesab edənlər kifayət qədərdir. Komitə isə qərarların qəbulunda subyektivliyi, lobbist təsiri istisna edir və göstərir ki, satınalınma hadisəsi mükafatın sonunu gətirər. Lakin buna baxmayaraq, Nobel mükafatı dövriyyəyə girdiyi andan onu qalmaqallı halların, kuryoz və odiyoz hadisələrin, çoxsaylı neqativlərin əhatə etdiyi bir reallıqdır. Belə vəziyyətlər daha çox sülh və ədəbiyyat nominasiyalarında müşa-hidə olunmuşdur. Buna görə də Nobel Komitəsi siyasi konyukturaya meyilliliyə və layiq olmayanları mükafatlandırdığına görə qınaq obyektinə çevrilmişdir. Bu, hətta mükafatın ayrı-ayrı adamlara deyil, bütöv kollektivlərə verilməsində də oxşarlıq təşkil etmişdir. Burada bariz nümunə olaraq üzv ölkələri arasındakı çoxsaylı qalmaqalla, miqrantlarla bağlı ədalətsizliklər, sanksi-yalar, ikili standartlar siyasəti və hətta "Brexit" sonrası dağılma ehtimalı yaşayan, 2012-ci ildə bu mükafata layiq görülmüş Avropa İttifaqı göstərilə bilər.

Nobel sülh mükafatı laureatlarının ən acı təəccüb doğuranları sırasında 1990-cı ilin 19-20 yanvarında bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlərdən birinin, Azərbaycan xalqına qarşı həyata keçirilmiş qətllərin əsas təşkilatçısı və baş məsuliyyətlisi, o dövrdə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi işləmiş, keçmiş SSRİ dövlətinin rəhbəri Mixail Sergeyeviç Qorbaçov (*1931*) liderlik edir. M.Qorbaçov bu mükafata "20 yanvar" hadisəsindən 9 ay sonra, həmin ilin oktyabrında "bugünkü beynəlxalq vəziyyətin əsas hissəsini xarakterizə edən sülh prosesindəki aparıcı roluna görə" layiq görülmüşdür.

M.Qorbaçov Azərbaycandakı qətliamları ilə yanaşı, SSRİ tarixinə müttəfiq respublikaların paytaxtları - Alma-Ata, Vilnüs, Riqa və Tbilisi şəhərlərində törədilmiş qanlı hadisələrində müəllifi kimi düşmüşdür. Onun adı dünyanın ən böyük paradokslarından biri kimi özünün rəhbərlik etdiyi imperial dövləti - SSRİ-ni dağıdan Qərb casusu kimi də məşhurdur. Bununla yanaşı, mənfi imicinə baxmayaraq M.Qorbaçovun adı ABŞ Konqresi Kitabxanasının kataloqlarının məlumatları əsasında şəxsinə həsr edilmiş monoqrafiyaların sayına görə tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısında 89-cu sırada yer almışdır.

Nobel mükafatı alan M.Qorbaçovla müqayisədə namizədliyi 5 dəfə irəli sürülən, lakin yenə də onu almayan, 1919-1948-ci illər arasında hind milli hərəkatının ən mühüm lideri, Hindistan milli-azadlıq hərəkatı rəhbərlərindən biri, pasifist, siyasətçi, filosof Mohandas Karamçand "Mahatma" Qandini (*1869-1948*) xatırlamaq yerinə düşür. Hind xalqı tərəfindən "Mahatma" (*Böyük Ruh*) olaraq yad edilən M.Qandi 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısında 8-ci sırada dayanır. O, ingilis müstəmləkəçiliyinə qarşı onların müəssisələrini və məhsullarını boykot etmək, işə çıxmamaq, oturaq tətillər və digər "güc tətbiq etməmək" metodlarından istifadə etməklə mübarizə aparmışdır. M.Qandinin doğum tarixi - 2 oktyabr ölkəsində Milli Tətil Günü kimi qeyd olunmaqla yanaşı, 15 iyun 2007-ci ildə BTM tərəfindən "Ümumdünya şiddətə yox günü" elan edilmişdir. O, 1948-ci ildə Nobel mükafatına layiq görüləcəkdi. Lakin sui-qəsdə məruz qalaraq 1948-ci ildə vəfat etdiyi üçün Nobel sülh mükafatı onun xatirəsinə hörmət əlaməti olaraq heç kimə verilmədi. İllər sonra Nobel Komitəsi ictimaiyyətə verdiyi açıqlamada Nobel mükafatını M.Qandiyə verməməkdən dərin peşmançılıq hissi keçirdiyini və mükafat verilərkən milliyətçi yanaşmaların olduğunu qəbul etmişdi. Nobel Komitəsi Tibet, Monqolustan, Rusiya Federasi-

yasının Buryatiya, Tuva və Kalmıkiya bölgələrində, həmçinin digər yerlərdə yaşayan butpərəstlərin dini lideri XIV Dalay Lama - Nqaqvanq Lovzanq Tençzin Qyamçxoya (*1935*) 1989-cu ildə "ayrı-ayrı insanlar, icmalar və xalqlar arasındakı münasibətlərdə mehribanlığın, sevginin və dözümlülüyün yorulmaz təbliğinə görə" Nobel sülh mükafatı veriləndə, bunun qismən də M.Qandinin xatirəsinə edildiyini açıqlamışdır.

Nobel mükafatı laureatları sırasında M.Qorbaçovdan əvvəl də, sonra da dövlət rəhbərləri olmuşdur. Əvvəlkilərdən biri dəfələrlə Böyük Britaniyanın baş naziri seçilmiş və dünyanın bugünkü simasını müəyyənləşdirən əsas şəxslərdən biri, tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısında 46-cı sırada qərarlaşan ser Uinston Leonard Spenser Çörçildir (*1874-1965*). O, 1953-cü ildə sülhə deyil, "II Dünya müharibəsi ilə bağlı memuarlarına görə" ədəbiyyat sahəsində Nobel mükafatına layiq görülmüşdür. Bu barədə xəbəri eşidəndə eks-baş nazir etrafla bildirmişdir: "Əminəm ki, sülh yaratdığıma görə layiq görməyiblər". Əslində, burada başqa bir həqiqət də var. Çünki ingilis baş nazirin ədəbiyyatçı istedadına münasibət şübhə doğurmaya bilməz. Belə bir fikir hakimdir ki, qanlı müharibələrin əsas fiqurantlarından olan birisinə sülhün yaradılması üzrə mükafatın verilməsi çətin durum yaratmışdır. Buna görə də "mütləq nobelçiyə" bu mükafat ədəbiyyat sahəsi üzrə verilmişdir. Lakin "nobelçi Qorbaçov" sindromu əvvəl yaşansaydı, U.Çörçil də sülhpərvər nobelçi olardı.

Qorbaçovdan sonrakı paradokslardan biri də 2009-2017-ci illərdə ABŞ prezidenti olmuş Barak Hüseyn Obama (*1961*) ilə bağlıdır. O, da Nobel sülh mükafatına işə başladığından cəmi 9 ay sonra "beynəlxalq diplomatiyanın və xalqlar arasında əməkdaşlığın gücləndirilməsinə sərf etdiyi böyük əməyə görə" layiq görülmüşdür. Bu hadisəni də dünya təəccüblə qarşılamışdı. Axı laureat o zaman eyni vaxta digər ərazilərdə iki müharibə aparan

ölkəyə rəhbərlik edirdi. O, həm də silahlanmaya ən çox vəsait xərcləyən dünya lideri idi. Deyilənlərə görə, B.Obama öz məsləhətçilərindən bu yüksək şərəfdən necə yayınmaq imkanları barədə astaca maraqlanmışdı. Lakin onun 2018-ci ildən Pakistanın Baş naziri vəzifəsində çalışan İmran Xan (*1952*) və belə vəziyyətlə üzləşmiş digərləri kimi hərəkət etmək imkanı vardı. İmran Xanın Pakistanla Hidistan arasında Kəşmir problemi ilə bağlı münaqişədə əsir düşmüş hindistanlı pilotu azad etməsi və qarşı tərəfə problemin sülh və danışıqlar yolu ilə həll təklifini ardıcıl verməsi məlumdur. Tərəfdaşları onun bu sülhsevər hərəkətlərini əsas götürərək rəhbərlərinin Nobel sülh mükafatına namizədliyini irəli sürmüşlər. Hökumətin "Tvitter" (*Twitter*) səhifəsində imza toplama kampaniyasında 300 mindən çox insan İmran Xanın namizədliyini dəstəkləmiş və bunun üçün Baş nazirdən razılıq istəmişlər. İmran Xan təvazökarlıqla namizədliyinin irəli sürülməsindən imtina edərək demişdir: "Hesab edirəm ki, mən bu mükafata layiq deyiləm. Məhz Kəşmir xalqının mənafeyinə uyğun olaraq bu problemi həll edəcək siyasətçi Nobel sülh mükafatına layiq olacaq".

Burada bir məqama da xüsusi diqqət yetirilməlidir. Belə ki, ABŞ prezidentlərinin "Nobel laureatı olmaq eşqi" hələ də davam etməkdədir. 45-ci ABŞ prezidenti Donald Con Tramp (*1946*) da mükafatın ona verilməməsindən şikayətçi olmuşdur. Pakistanın Baş naziri İmran Xanla görüşdən sonra o, jurnalistlərə açıqlamasında demişdir: "Əgər onlar onu vicdanla versəydilər, mən müxtəlif şeylər üçün Nobel mükafatı alardım, amma bunu etmirlər". D.Tramp xatırlatmışdır ki, sələfi B.Obamaya 2009-cu ildə Nobel sülh mükafatı verilib. "Onlar mükafatı Obamaya prezident postunu tutduqdan dərhal sonra verdilər və o özü anlaya bilmirdi, mükafatı nə üçün alıb. Və bilirsiniz nə var? Bu, Obamayla razı olduğum yeganə şeydir", - deyə D.Tramp söyləmişdir.

B.Obama və M.Qorbaçov öncəsi və sonrası da "sülhsevərliyi" ilə fərqlənən bu və ya digər dövlət rəhbərləri və xadimlərinin adları bu ali reytinqli mükafatın siyahılarında yer almışdır. İlk belə hadisə 1901-1909-cu illərdə ABŞ prezidenti olmuş Teodor Ruzveltin (*1858-1919*) 1906-cı ildə "Portsmut sazişinin imzalanmasındakı roluna görə" aldığı mükafatla bağlıdır. Ona bu ödül rus-yapon müharibəsində sülh sazişinin imzalanmasında göstərdiyi fəallığa görə verilmişdi. Lakin laureat özü hərbi döyüşlərin aktiv iştirakçısı olmuş və özünün müstəmləkəçi ambisiyaları ilə fərqlənmişdir. Bunlar isə aydındır ki, sülhsevərliklə bir araya sığmır. 1933-1944-cü illərdə ABŞ dövlət katibi olmuş Kordell Hall (*1871-1955*) da 1945-ci ildə "Qərb yarımkürəsində sülhün bərqərar olması, ticarətin gücləndirilməsi və BMT-nin yaradılmasında əldə etdiyi nailiyyətlərə görə" Nobel sülh mükafatı almışdır. Buna da çoxları etiraz etmişlər. Belə ki, K.Hall 1939-cu ildə Almaniyadan, Üçüncü Reyx rejimindən qaçaraq sığınmaq üçün gəmi ilə ABŞ-a gəlmiş min yəhudini geriyə - Avropaya göndərmiş və onların az bir qisminə Holokostdan yayınmaq müyəssər olmuşdur. Sonrakı sülh mükafatları da, əsasən, ABŞ nümayəndələrinə verilmişdir. 1938-1951-ci illərdə ABŞ ordusunun baş qərərgah rəisi, dövlət katibi və müdafiə naziri vəzi-fələrində işləmiş ordu generalı Corc Ketlett Marşall-kiçik (*1880-1959*) II Dünya müharibəsindən sonra iqtisadiyyatı çökmüş Avropa ölkələrinə yardım planı - "Marşall planı" yaratdığına görə Nobel sülh mükafatına layiq görülmüşdür. C.K.Marşall tarixə həm də Şimali Atlantika Müqaviləsi Təşkilatı - NATO-nun yadıcısı kimi düşmüşdür. Nobel sülh mükafatı ilə bağlı çox mübahisəli məqamlardan biri də 1973-cü ildə "Vyetnam müharibəsində atəşkəs haqqında razılığa gəlmək üçün" vyetnamlı siyasətçi L.Tho ilə birlikdə laureat olmuş, o zaman ABŞ dövlət katibi vəzifəsində işləmiş Henri Alfred Kissincerin (*1923*) adı ilə

bağlıdır. H.Kissincer o zaman çalışdığı adminstrasiyanın Vyetnama, Laos və Kambocaya aviazərbələr endirilməsini dəstəkləyənlərdən biri olmuşdur. Digər tərəfdən, bu mükafatdan imtina edən L.Tho da bu müharibə zamanı hərbi əməliyyatlara başçılıq etmişdir. Razılığın əldə olunmasına baxmayaraq, burada müharibə və terror bir müddət davam etmişdir.

Nobel sülh mükafatı ilə bağlı mübahisələr sırasında 1983-cü ildə "İnsan hüquqlarının müdafiəsinə görə" laureat, sonradan 1990-1995-ci illərdə Polşa prezidenti olmuş "Həmrəylik" həmkarlar ittifaqı təşkilatının yaradıcısı Lex Valensanın (*1943*) da adı çəkilir. Belə ki, bu polyak siyasətçi ölkəsində rejim dəyişikliyinə qarşı, onlarla vətəndaşın həyatına son qoyan, kütləvi iğtişaşlar yaradaraq bu mükafatı almışdır. Sonradan isə onun Polşa xüsusi xidmət orqanlarının gizli agenti olması üzə çıxmışdır.

1994-cü ildə fələstin lideri Yasir Ərəfat, həmin ildə İsrailin baş naziri olmuş İshaq Rabin (*1922-1995*) və İsrailin xarici işlər naziri vəzifəsində çalışmış Şimon Peres (*1923-2016*) "Yaxın Şərqdə sülhə nail olmaq üçün göstərdikləri səylərə görə" Nobel sülh mükafatına layiq görülmüşlər. Bu mükafat çox qısa müddətdə - tərəflər arasında 1994-cü ilin 14 mayında "Qəzza-İerixon" sazişi imzalandığından 5 ay sonra onlara verilmişdir. Mübahisə doğuran məqam ondan ibarət idi ki, M.Qandidən fərqli olaraq Y.Ərafat Fələstin dövlətinin yaradılması ilə bağlı milli azadlıq hərkatını radikal metodlardan istifadə etməklə aparırdı. Ondan sülhsevərliyi ilə bağlı məşhur bir sitat da gətirirlər: "Bizim üçün sülh İsraili məhv deməkdir". Bundan başqa, qarşı tərəf - İshaq Rabin və Şimon Peresin də adları sülhə adekvat çəkilmirdi. Burada cəlbedici digər bir meyl isə protokolun ABŞ-ın baş şahidliyi ilə imzalanması, bu işdə onun dominantlığı və həmin illərdə ölkənin prezidenti olmuş Uilyam Cefferson (Bill) Klintonun (*1946*) tarixə sülhsevər kimi düşməsi ilə də bağlı olmuşdur. Buna

görə B.Klinton mükafat almasa da, onun müavinini başqa olayla nobelçi etmişlər. Bunu şərh etməzdən öncə Y.Ərafatdan sonra ABŞ maraqlarını ifadə edərək Nobel sülh mükafatı alanları xatırlamaq gərəklidir. Burada, ilk növbədə, Cənubi Koreyanın 1998-2003-cü illərdə prezidenti olmuş Kim De Çjuni (*1924-2009*) göstərmək olar. K.Çjun çox qısa müddətdəki səylərinə görə prezidentliyinin 2-ci ilində - 2000-ci ildə "Şimali və Cənubi Koreyanın birləşməsi istiqamətində zəhmətli işinə, bütövlükdə isə Cənubi Koreyada və Şərqi Asiyada demokratiya və insan hüquqlarının möhkəmlənməsində səylərə görə" Nobel sülh mükafatı almışdır. Lakin mükafat qarşı tərəfə veilməmiş və iki ölkə arasında sülh və birləşmə əldə edilməmişdir. ABŞ maraqlarını ifadə edənlərin növbəti sırasına isə 2001-ci ildə 1997-2006-cı illərdə BMT-nin baş katibi olmuş "Dünyada daha mütəşəkkil və daha davamlı sülh yaradılması işinə verdiyi töhfəyə görə" Kofi Annan (*1938-2018*), 2002-ci ildə 1977-1981-ci illərdə ABŞ prezidenti olmuş Ceyms Erl (*Cimmi*) Karter-kiçik (*1924*) "Dünyada münaqişələrin sülh yolu ilə həllində göstərdiyi səylərə görə" qatılır. 2007-ci ildə isə Nobel sülh mükafatına, vurğulandığı kimi, B.Klintonun müavini 1993-2011-ci illərdə ABŞ vitse-prezidenti vəzifəsində işləmiş Albert Arnold (*El*) kiçik-Qor (*1948*) "İnsan fəaliyyəti nəticəsində qlobal iqlim dəyişikliklərinin öyrənilməsi və onların qarşısının alması üzrə ölçülərin hazırlanmasına görə" və 2016-cı ildə 2010-2018-ci illərdə Kolumbiyanın prezidenti olmuş Xuan Manuel Santos Kalderon (*1951*) "Ölkədəki yarım əsrdən çox davam edən vətəndaş müharibəsinə son qoyma səyləri üçün" layiq bilinmişlər. Burada diqqətçəkici məqamlardan biri də odur ki, X.Kalderona mükafatın verilməsinin rəsmi versiyası olaraq üsyançı qruplaşma üzvləri - FARC-la (*Kolumbiya İnqilabçı Silahlı Qüvvələri*) imzalanmış saziş göstərilir. Belə hallarda qarşı tərəf də mükafatlandırılmalı idi. K.Çjunlə olduğu kimi, bu-

rada da mükafat birtərəfli qaydada verilmişdir. Digər tərəfdən isə anlaşılmazlıq ondan ibarətdir ki, Kolumbiya xalqı referendumda həmin müqavilənin əleyhinə səs vermişdir. Bu isə o deməkdir ki, Nobel Komitəsi xalqın iradəsinə zidd addım atmış və sülhün qoxusu gəlməyən ölkədə, onun dövlət başçısına sülh mükafatı təqdim etmişdir. Həmçinin Albert kiçik-Qorun da aldığı mükafat adından göründüyü A.Nobelin sülh mükafatı prinsipləri ilə birbaşa üst-üstə düşməmişdir. Digər tərəfdən, onun qlobal iqlim dəyişiklikləri ilə bağlı qəti səyləri də xüsusi nəzərə çarpmamışdır. Mükafat sonrası tarixlərdə analoji fəaliyyətlərin olub-olmaması da bir iz yaratmamışdır. Albert kiçik-Qorla bağlı digər bir məqam isə bu mükafatı erməni əsilli amerika iqlimşünası Dork Saakyanla (*1954*) bölüşməsidir. A.Nobelin prinsiplərinə zidd formalaşdırılan ssenariyə minlərlə tanınmış iqlimşünasları deyil, məhz D.Saakyanın adının salınmasını da ermənilərin işinə yaramaq kimi qiymətləndirmək olar. Bununla o, ilk erməni nobelçi kimi tarixə düşmüşdür. Ondan əvvəl və sonra da Nobel Komitəsi lobbiçiləri erməni xalqının nümayəndələrini öz siyahılarına salmışdır. Lakin ermənilər bu mükafatı nə ədəbiyyat və nə də dəqiq elmi sahələr üzrə nominasiyalarda, hələ ki, ala bilməmişlər. İşin tezləşdirilməsi fürsəti isə çeşidli uyğunsuzluqları ilə seçilən sülh nominasiyasında, özü də qeyri-adekvat obrazda təmin olunmuşdur. Nəhayət 2019-cu ildə "Eritreya ilə sərhəd münaqişəsinin həllinə görə" Efiopiyanın Baş naziri Abiy Əhməd Əliyə verilən sülh mükafatının qarşı tərəfə verilməsi halı da "Nobel anlaşılmazlığının" yeni bariz bir nümünəsidir.

Nobel namizədləri sırasında total cinayətlər törətmiş M.Qorbaçovla yanaşı, fərdi cinayətkar adına da rast gəlinmişdir. Belə ki, 2000-ci ildə İsveçrə parlamentində 4 adamın qətlinə görə həbsdə olan amerika qanqsteri, "Crips" bandasının əsasını qoyanlardan biri, "Tuki" ləqəbi ilə məşhurlaşan Stenli "Tuki" Uilyamsın

(*1953-2005*) namizədliyi irəli sürülmüşdür. Həbsdə uşaqlar haqqında kitab yazmaqla humanist kimi məşhurlaşan Tuki 9 dəfə, o cümlədən 5 dəfə sülh və 4 dəfə ədəbiyyat üzrə Nobel namizədi olmuşdur. Sonda ölüm cəzasına məhkum edilmiş Tukinin bəraəti haqqında xahişnaməni zamanında ABŞ-ın Kaliforniya ştatının qubernatoru olmuş məhşur aktyor Arnold Alois Şvartsenegger (*1947*) rədd etmiş və o, Nobel tarixinə edam edilmiş ilk namizəd olaraq düşmüşdür.

Qeyd olunduğu kimi, daxili reqlamentə görə namizədliyi keçməyən nominantların siyahısı 50 il sonra açıqlanır. İndi bu siyahıya düşənlərin bir qismi üzrə artıq məlumatlar vardır. Onlara nəzərə yetirildikdə təəccübü gizlətməmək mümkün deyildir. 1917-ci ilin "sülhsevərləri" siyahısında rus inqilabçısı, sonradan çevriliş etməklə yeni yaradılan SSRİ dövlətinin ilk başçısı olmuş Vladimir İliç Leninin (*1870-1924*) adına rast gəlinir. Lakin Rusiyada qanlı vətəndaş müharibəsinin başlanmasında fəal iştirak etməsi V.Leninə ilkin seçkidən daha irəli getməyə imkan verməmişdir. 1935-ci ildə faşist partiyasının başçısı, İtaliya diktatoru Benito Amilkare Andrea Mussolini (*1883-1945*) də Nobel sülh mükafatına ən iddialı namizəd olmuşdur. Mükafat isə ona Efiopiyanıın hərbi istilasına görə verilməmişdir. 1939-cu ildə isə Nobel Komitəsi tarixində ən böyük səhvinin astanasında olmuşdur. Belə ki, müraciət edənlərin siyahısına Almaniya kansleri Adolf Hitlerin adı da daxil edilmişdir. İndi də məlum deyil ki, sülhün bərqərar olması sahəsində konkret olaraq hansı nailiyyətinə görə A.Hitlerin adı bu siyahıya salınmışdı.

Nobel sülh mükafatının təəssüfedici məqamlarının bir hissəsinin təqdimatı ilə yanaşı, bu şərəfə daha çox layiq olanlar da xatırlanmalıdır. Müasir dünyamızda belələrinin ilk sıralarına irqçiliyə və ayrı-seçkiliyə qarşı məşhur mübariz, ABŞ insan hüquqları müdafiəçisi Martin Lüter Kinq (*1929-1968*), XIV

Dalay Lama - Nqaqvanq Lovzanq Tençzin Qyamçxo, Aparteid əleyhinə apardığı mübarizəyə görə 27 il həbsxana həyatı yaşamış Cənubi Afrika Respublikasının ilk qaradərili prezidenti (1994-1999) Nelson Holilala Mandelanın (*1918-2013*) adları ilk sırada çəkilir. Burada, xüsusən, A.Nobelin sülh mükafatı üzrə ideyaları - xalqların barışığına nail olmağa və daimi orduların məhdudlaşdırılmasına səy göstərənlər, mükafatı bu kontekstdə alanlar, adları namizədlər sırasına düşənlər və düşməyənlər, həmçinin gələcəkdə həmin prinsiplərdən irəli gələrək sülhü bərqərar edənlər alqışlanırlar.

Nobel laureatları sırasında vətəndaşı olduğu ölkədəki siyasi sistemə, vəziyyətə, dağıdıcı fəaliyyətə, kövrək sülh yaratmaya, dissidentliyə, bu və ya digər müxalif və kosmopolit fikirlərinə, həmçinin də siyasi təzyiq, süni məşhurlaşdırma, dövlətin özünün siyasi səylərinə görə mükafat alma motivlərinin ehtimal edildiyi və nəzərə çarpdığı da az olmamışdır. Burada liderlik əlbəttə M.Qorboçova düşür. Sırada SSRİ dövlətinin vətəndaşı olub, ondan incik düşənlər: 1975-ci ildə sülh üzrə Nobel mükafatını sovet hidrogen bombası - kütləvi qırğın silahının müəlliflərindən biri, sonradan dissident olmuş Andrey Dimitryeviç Saxarov (*1921-1989*), 1990-cı ildə ədəbiyyat sahəsi üzrə Aleksandr İsayeviç (*İsaakiyeviç*) Soljenitsın (*1918-2008*) gəlir. Bu sferaya 1958-ci ildə ədəbiyyat sahəsi üzrə laureat Boris Leonidoviç Pasternakı da aid etmək olar. Vətəndaşı olduğu ölkənin prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun (*1954*) apadığı siyasətə qarşı çıxaraq 2015-ci ildə ədəbiyyat sahəsi üzrə Nobel mükafatı almış belaruslu yazıçı xanım Aleksieviç Svetlana Aleksendrovanın (*1948*), vətənini qınayan və 2006-cı ildə ədəbiyyat sahəsi üzrə Nobel mükafatına layiq görülmüş türk yazıçısı F.Pamukun da dolayısı ilə siyasi motivlərlə laureat olması bu qəbildəndir.

Mükafatvermənin A.Nobel prinsiplərindən ciddi kənarlaşması halları üstün olaraq II Dünya müharibəsi sonrası ABŞ-ın dünyada aparıcı mövqelər əldə etməsi ilə bağlanılır. Həmin illərdən başlayaraq amerikalılar öncə ədəbiyyat üzrə Nobel mükafatından soyuq müharibənin aparılmasında effektivli bir siyasi silah kimi istifadə etməyə başladılar. Bu baxımdan da bir çox layiqlilər - adları siyahıda olub və olmayanlar bu mükafatı ala bilmədilər. Sonradan bu təsir özünü digər sahələr də də göstərmişdir. Burada bariz nümunə kimi sənəti ilə bir çoxlarını geridə buraxaraq ədəbiyyatda yeni istiqamət yaratmış, dünya xəzinəsinə ibrətamiz əsərlər bəxş edən məhşur qırğız yazıçısı Çingiz Aytmatov (*1928-2008*) dühası öndə göstərilməlidir.

A.Nobel öz vəsiyyətlərində tələb etmişdir ki, mükafat həmin ildə yüksək nailiyyət əldə etmişlərə verilsin. Lakin elmdə bir çox hallarda nailiyyətlərin həqiqi əhəmiyyətliliyi illər ötdükdən sonra müəyyən olunur. Bu baxımdan laureatların seçimində yalnışlıqlar yaranır. Bununla əlaqədar bir neçə düşündürücü fakta nəzər yetirək.

1918-ci ildə “Ammonyakı onun elementlərindən sintez etdiyinə və bunu yarımsənaye miqyasında müvəffəqiyyətlə həyata keçirdiyinə görə” alman kimyaçısı Frits Haber (*1868-1934*) kimya sahəsi üzrə Nobel mükafatına layiq görüldü. Burada paradoksallıq ondan ibarətdir ki, heç kim bir neçə il əvvəl F.Haberin özünün yaratdığı qazın sınaqlarında şəxsən iştirak etdiyini və sözün həqiqi mənasında, minlərlə insanın bundan öldüyünü nəzərə almadı.

1926-cı ildə tibb və fiziologiya üzrə Nobel mükafatına “Spiroptera xərçənginin kəşfinə görə” danimarkalı mikrobioloq və patoloq Yohannes Andreas Qrib Fibiger (*1867-1928*) layiq görüldü. O, siçanlar üzərində apardığı təcrübələr əsasında xərçəngə səbəb olan helmintlərin təkcə gəmiricilərdə rast gəlin-

mədiyi barədə dolayı bir nəticə çıxarmışdı. Laureatın vəfatından sonra isə aparılan bir çox tədqiqatlar onun eksperimentinin nəticələrinin səhv şərh olunduğunu göstərdi.

1948-ci ildə tibb və fiziologiya üzrə Nobel mükafatı DDT-nin (*insektisid*) bir neçə buğumayaqlıya qarşı yüksək təsir gücünü aşkarladığına görə isveçrəli kimyaçı Paul German Müllerə (*1899-1965*) verildi. Başlanğıcda, onun yaratdığı yeni kimyəvi maddədən çox uğurla istifadə olunması ağcaqanad və gənə ilə yoluxulan xəstəliklərin səviyyəsini kəskin şəkildə azaltmağa imkan verdi. 1960-cı illərdə isə məlum oldu ki, o, ekoloji fəsadlıdır, insanlar üçün zəhərlidir və xərçəngin inkişafına zəmin yaradır. Həm də fəal tətbiqinin 20 ili ərzində böcəklərdə bu kimyəvi maddəyə qarşı immunitet yarandı və o, təsirsiz hala gələrək effektivliyini itirdi. 1980-ci illərdə isə artıq bir çox ölkələrdə DDT istehsalı və istifadəsi qadağan olundu.

1949-cu ildə tibb və fiziologiya üzrə Nobel mükafatı həm də "müəyyən ruhi xəstəliklərdə leykotomiyanın terapevtik təsirinin aşkarlanmasına görə" portuqaliyalı psixiatr və neyrocərrah Antoniyu Kaetanu de Abreu Freyre Eqaş Monişə (*1874-1955*) verildi. Sonradan məlum oldu ki, A.Monişin bununla bağlı tətbiq etdiyi müalicə metodu effektiv deyildir və pasiyentlərin sağlamlığı üçün təhlükəlidir. Nəticədə prefrontal leykotomiya bütün dünyada qadağan olundu.

1974-cü ildə ədəbiyyat üzrə Nobel laureatları İsveç yazıçıları - "məkan və zamanı dərk edərək azadlığa xidmət edən yazıçılıq qabiliyyətinə görə" Eyvind Olov Verner Conson (*1900-1976*) və "özündə şehdən tutmuş kainata qədər hər şeyi ehtiva edən yaradıcılığına görə" Harri Edmund Martinson (*1904-1978*) oldular. Bu müəlliflər, demək olar ki, İsveçdən kənarda tanınmırdılar. Nobel mükafatı isə, prinsipcə, qlobal əhəmiyyətli əsərlərin yaradılmasına görə verilir. Burada ən böyük etiraz həm də hər iki

yazıçının İsveç Akademiyasının üzvü olmasına və ədəbiyyat sahəsi üzrə laureat seçmində onların iştirakna idi. Bu isə, əslində, laureatların özlərini mükafatlandırması demək idi.

Nobel mükafatlarının təqdimatında kuryoz xarakterlilik bəzən iştirakçıların özləri ilə bağlıdır. Tanınmış britaniyalı fizik Ernest Rezerford (*1871-1937*) mötəbər araşdırmalarına görə laureat olmağa layiqlilər sırasında idi. Lakin o, 1908-ci ildə fizika sahəsində deyil, kimya üzrə Nobel mükafatına layiq görüldü. Alim özü də buna ironik yanaşmışdır. Göstərmişdir ki, bir maddənin digərinə çevrilməsini çox müşahidə etmişdir. Lakin fizikin gözlənilmədən kimyaçı olmasını ilk dəfə görmüşdür.

1994-cü ildə kanadalı fizik Bertram Nevill Brokhauz (*1918-2003*) və ABŞ fiziki Klifford Qlenvud Şall (*1915-2001*) neytron difraksiya metodunun yaradılmasından 39 il keçdikdən sonra fizika sahəsində "yoğunlaşdırılmış maddələri tədqiq etmək üçün neytron səpilməsi texnikasının təkmilləşdirilməsindəki qabaqcıl töhfələrinə" və "neytron spektroskopiyasını təkmilləşdirdiyinə görə" Nobel mükafatı aldılar. Bu hadisə Nobel mükafatı tarixinə kəşflə laureatlıq arasında ən böyük zaman fərqi kimi düşdü.

Nobel mükafatı tarixində təşkilatçıların mükafatı verməyə hazır olduqları, lakin özlərindən asılı olmayan səbəblərə görə bunu edə bilmədikləri hallara da rast gəlinmişdir. 1961-ci ildə ilk rus kosmonavtı Yuri Alekseyeviç Qaqarinin (*1934-1968*) kosmosa uçuşundan sonra Nobel Komitəsi SSRİ-nin hakimiyyət orqanlarından bu işə cəlb olunmuş konstruktorlar barədə məlumat verilməsini istəmişdi. Burada Nobel Komitəsinin mükafatı hansı nominasiyada təqdim etmək istədiyi məlum deyildi. Axı mükafatın nominasiyalarında kosmonavtika sahəsi nəzərdə tutulmamışdır. Bundan başqa, həmin mütəxəssislərin adları da dövlət sirri idi. Nobel mükafatları isə anonim şəxslərə verilmir.

Nobel Komitəsində konyukturaçılıq 2017-ci ildə bir daha çıl-

paqlığı ilə göründü. Belə ki, həmin ildə baş vermiş məlum qalmaqalla bağlı ədəbiyyat nominasiya üzrə İsveç Akademiyasının 18 üzvündən 7-si istefa verdi. Bununla da 2018-ci ildə mükafatçını müəyyənləşdirmək üçün jüridə yetərsay (*kvorum*) olmadı (*Nizamnaməyə görə kvorum üçün 12 səs gərəkdir*). Akademiyanın nizamnaməsinə görə, münsiflər ömürlük seçilir və onlar akademiyadan ayrıldıqdan sonra belə dünyalarını dəyişənədək yerləri boş qalır. Yalnız vəfat edəndən sonra boş qalan yerə namizəd elanı verilə bilər. Akademiklərin eyni zamanda və çox sayda istefa verməsi maraq doğurur. Bu akademiyanın üzvü, şairə və dramaturq Katarina Frostensonun həyat yoldaşı, məşhur İsveç fotoqrafı və rejissor, 71 yaşlı Jan-Klod Arno ətrafında baş verən, cinsi təcavüzlə səciyyələnən qalmaqalla bağlı olmuşdur. J.Arnoya qarşı ilk ittihamlar 2017-ci ilin sonunda baş vermiş və bu zaman 18 qadın onun qəbuledilməz davranışı ilə bağlı məhkəməyə şikayət etmişdir. Bundan başqa, məhkəmə prosesi maliyyə fırıldaqları və bəzi gizlin məlumatların sızması hallarını da müəyyən etmişdir. Belə ki, məlum olmuşdur ki, K.Frostenson həyat yoldaşı tərəfindən yerinə yetirilən bir sıra işləri və məxsusi layihələri Nobel Fondundan maliyyələşdirmişdir. 1996-2016-cı illər ərzində isə bir sıra namizədlər qərarlar haqqında öncədən məlumatlandırılmışlar. Gizlinlər aşkarlandıqda K.Frostensonun akademiyada qalıb-qalmaması ilə bağlı məsələ qaldırılmış, öncə əksəriyyət bunun əleyhinə səs versə də, sonra K.Frostenson özü akademiyadan təqaüdə çıxdığını elan etmişdir. Onun ardınca isə tərəfdarları da istefa vermişlər. Buna görə də 2018-ci il ədəbiyyat üzrə Nobel mükafatının verilməsi 2019-cu ilə keçirilmişdir. Həmçinin göstərilmişdir ki, mükafatın təxirə salınmasının səbəbi həm də itirilmiş nüfuzun bərpası ilə bağlı olmuşdur. Bunu müvəqqəti katib seçilən Anders Olssin də dilə gətirmiş, akademiyada böhranın yaşandığını və əvvəlki etibarın itirildiyini bildirmişdir.

Bütün bunlar bir daha onu göstərir ki, İsveç Akademiyasının tənqid hədəfinə çevrilməsi halları aşkar və davamlıdır. Belə ki, əvvəllər laureatların seçimində qeyri-obyektivlik məsələsi aktual idisə, indi bu dəfə məsələ daha geniş miqyaslıdır. Digər tərəfdən, bir məqama da diqqət yetirilməlidir. Belə ki, 2019-cu ildə gecikmiş ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüş avstriyalı Peter Handke 1990-1995-ci illərdə Yuqoslaviyada baş vermiş vətəndaş qarşıdurması zamanı serblərin tərəfində olması, ağır müharibə cinayətlərinin əsas cavabdehi kimi müqəssir bilinən Slobodan Miloşeviçə dəstək verməsi, serblərin Srebrenitsada bosniyalılara qarşı soyqırım törətməsini inkar etməsi ilə fərqlənmişdir.

Nobel Komitəsi arxivinin mühafizi, isveçli həkim-virusoloq, professor Erlinq Norrbynun (*1937*) fikrincə, ümumən, Nobel mükafatı alan, lakin ona layiq olmayanların sayı 30 faizdən çoxdur. Fizika və kimya üzrə alimlərin söhbətlərinə görə, ötən əsrin 50-60-cı illərinə qədər mükafatlar daha çox ünvanlı verilmişdir. Sonra isə Nobel Komitəsi bu ənənəni pozmuşdur. Son illərin mükafatlar mənzərəsinə nəzər yetirdikdə görərik ki, dəqiq elmlər sahəsində bu təltifat konkret bir elmi kəşf üçün deyil, hələ nəticəsi bilinməyən müəyyən bir prosesi öyrənmək üçün verilir. Nəticənin müsbət olub-olmayacağı isə məlum deyildir. Bir də, böyük elmi kəşflər hər il qeydə alınmaya bilər. Belə olduğu halda mükafatın elmi-texniki mülahizələr irəli sürənlərə verilməsinə zərurət varmı? Tarixi faktlar göstərir ki, 19 dəfə uyğun gəlməyən namizədlərə görə mükafat verilməmişdir. Bu əksərən nəhəng döyüşlərin qızğın zamanlarına düşmüşdür. Məlumatlara əsasən 22 dəfə də beynəlxalq təşkilatların müdaxiləsi ilə müəyyən şəxslərin mükafatlandırılması barədə Nobel Komitəsinin üzvləri razılığa gələ bilməmişlər. Bundan başqa, bir reallıqla da barışılmalıdır ki, bu və ya digər nailiyyətin elmi əhəmiyyətini müəyyənləş-

dirməkdə səhvlər olsa belə, mükafat heç vaxt ləğv edilmir. Onu əbədi qəbul edən, kəşfinin və ya sonrakı hərəkətlərinin taleyindən asılı olmayaraq, Nobel mükafatı laureatı olur.

Nobel mükafatı ssenarisindəki çoxsaylı kuryoz və odioz hadisələr, qeyri-ciddiliklər onun parodiyalanmasına gətirib çıxarmışdır. Belə ki, amerikalı fotoqraf Mark Abrahams (*1956*) “İnanılmaz tədqiqatların salnaməsi” (*Annals of Improbable Research*) adlı yumoristik jurnal təsis etmişdir. Həmin jurnal tərəfindən 1991-ci ildən başlayaraq Nobel mükafatının parodiyası olan Şnobel mükafatı (*İqnobel mükafatı, Antinobel mükafatı - ingiliscə Ig Nobel Prize*) adlanan mükafatlar verilir. Bu, Nobel həftəsi zamanı - hər il oktyabrda 10 nominasiya üzrə aparılan elmi-tədqiqat işlərində qeyri-adi və ya mənasız nailiyyətləri qeyd etmək üçün verilən satirik bir mükafatdır. Onun bəyan olunmasında məqsəd “nailiyyətləri şərəfləndirmək, əvvəlcə insanları güldürmək və sonra düşündürməkdir”. Mükafat Harvard Universitetinin Sanders Teatrında (*Memorial Hall - Harvard University*) hər il təşkil edilən müvafiq mərasimdə təqdim olunur. Şnobel mükafatının “İqtisadiyyat” nominasiyası da vardır. Məsələn, “canlı timsahla təmasın insanın qumar oyunlarına meyillənməsinə təsirini” tədqiq edən avstraliyalı alimlər Metyu Roklof və Hensi Qrir (*2017*), “söyüşcül müdirlərdən qisas almaq üçün işçilərin Vudu (cadugər) kuklalarından istifadəsinin effektivliyi”ni araşdıran altı amerikalı alim (*2018*), “hansı ölkənin kağız pulunun təhlükəli bakteriyaları daha yaxşı yoluxdurduğunu” öyrənən türkiyəli, niderlandlı və almaniyalı alimlər Həbib Gedik, Timoti A. Voss və Andreas Voss (*2019*) bu nominasiyanın qalibləri elan edilmişlər.

# Azərbaycanda Nobel Komitəsi təsisatı, mükafatı alan və ala bilməyən azərbaycanlılar

Nobel mükafatı alanlar sırasında azərbaycanlıların və Azərbaycanda doğulanların da adlarına rast gəlinir. Burada ilk öncə 1962-ci ildə fizika sahəsində Nobel mükafatına layiq görülmüş, Bakı şəhərinin Balaxanı qəsəbəsində yəhudi ailəsində anadan olmuş, Bakı Dövlət Universitetinin (*Baku State University*) tələbəsi olmuş görkəmli alim Lev Davıdoviç Landaunun (*1908-1968*) adını qeyd etmək lazımdır. L.Landau nəzəri fizikanın bir çox sahələrinə fundamental elmi töhfələr bəxş etmişdir. Onun elmi nailiyyətləri sırasında kvant mexanikasında sıxlıq matrisi metodunun kəşfi, plazma fizikasında "Landau sönməsi"nin izahı, kvant elektrodinamikasında "Landau qütbü" və ikinci növ faza keçidləri, diamaqnetizmin kvant, ifrat axıcılıq, iki-komponentli neytronların, ifrat keçiriciliyin "Ginzburq-Landau" nəzəriyyələri mühüm yer tutur. Nobel mükafatını isə L.Landau ifrat axıcılığın riyazi nəzəriyyəsinin kəşfinə görə almışdır. Onu XX yüzilliyin əfsanəvi fiziki adlandırırlar. Adı 1921-ci ildə fizika sahəsi üzrə Nobel mükafatı laureatı, müasir nəzəri fizikanın yaradıcılarından biri, tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısında 43-cü sırada dayanan Albert Eynşteyn (*1879-1955*) və 1922-ci ildə fizika sahəsi üzrə Nobel mükafatı laureatı, müasir fizikanın banilərindən biri, adı danimarkalı alim Nils Bor (*1885-1962*) kimi nəhəng fiziklərlə eyni sırada çəkilən akademik L.Landau Danimarka və Niderland Elmlər akademiyalarının, Amerika Sənət və Elmlər Akademiyasının (*American Academy of Arts and Sciences*), Fransa Fizika Cəmiyyətinin, London Fizika Cəmiyyətinin və London Kral Cəmiyyətinin üzvü olmuşdur. O, Nobel mükafatı

ilə yanaşı, Sovetlər İttifaqının ən ali mükafatlarına - Sosialist Əməyi Qəhrəmanı adına, Lenin və üç dəfə Stalin mükafatlarına layiq görülmüşdür.

2003-cü ildə "Qadın və uşaqların, xüsusilə, İranda insan hüquqları uğrunda mübarizə və demokratiyanın inkişafına töhfəsinə görə" Nobel sülh mükafatına layiq görülmüş hüquq müdafiəçisi Şirin Ebadinin də azərbaycan əsilli olduğu bildirilir. Ş.İbadı 1947-ci ildə Həmədan şəhərində anadan olmuşdur. Dövrünün ticarət hüququ üzrə ilk alimlərindən olan atası Məhəmmədəli Ebadi 1948-ci ildə ailəsi ilə Tehrana köçmüşdür. Ş.İbadı 1969-cu ildə Tehran Universitetinin hüquq fakültəsini bitirmiş, 1975-ci ildə İranın ilk qadın məhkəmə sədri olmuşdur. O, 1979-cu il İran islam inqilabından sonra təqaüdə çıxmaq məcburiyyətində qalmışdır. Sonradan Ş.İbadi 1990-cı illərdən başlayaraq müxtəlif qəzet və dərgilərdə mütəmadi yazılar dərc etdirməyə başlamışdır. Həmin vaxtlar o, həm də universitetdə hüquqdan dərs demiş, qadın və uşaqlar üçün müxtəlif kampaniyalar təşkil etmiş, bir çox ağır cinayət işlərində vəkillik fəaliyyəti göstərməklə, hüquq müdafiəçisi kimi məşhurlaşmışdır. Bunun nəticəsi kimi, o, 2003-cü ildə Roma Papası İkinci İohan Pavel (*1920-2005*), çex yazıçısı, dramaturq, dissident, insan hüquqları müdafiəçisi və dövlət xadimi, Çexiyanın keçmiş prezidenti Vatslav Havelin (*1936-2011)* də yer aldığı 165 namizəd arasından seçilərək, Nobel sülh mükafatına layiq görülmüş və adı bu mükafatı alan ilk müsəlman qadın kimi tarixə düşmüşdür.

Ş.İbadı 2005 və 2008-ci illərdə ABŞ-ın "Foreign policy" və İngiltərənin "Prospekt" dərgisinin keçirdiyi sorğuda "Dünyanın ilk 100 intellektualı" siyahısında ilk 20-liyə düşmüşdür (*10 və 12-ci yer*). Hazırda Böyük Britaniyanın paytaxtı Londonda yaşayan Ş.İbadı mütəmadi olaraq dünyanın nüfuzlu dərgilərində şərhçi kimi çıxış edir.

Ş.İbadinin azərbaycan əsilli olduğu barədə müxtəlif yazılı məlumatlar mövcuddur. Qonşu ölkələrin mətbuatında onun iranlı, farsdilli olduğu daha çox önə çəkilir. Yerli mətbuatda isə azərbaycan türkü olması qabardılır. Ş.İbadinin məşhur BBC kanalında azərbaycanca danışdığı, çıxışılarında digər millətlərlə yanaşı, cənubi azərbaycanlıların da İranda yaşadıqları problemlərdən bəhs etdiyi göstərilir. Müasir Azərbaycan Respublikasında olmasına rəğmən, buradakı siyasi, sosial-iqtisadi duruma, hüquqi şəraitə bu ölkənin uğurlarına qısqanclıqla baxanların, onu sevməyənlərin yazılarından daha çox müşahidə etməklə yanaşan xanım Ş.İbadinin özünün kütləvi informasiya vasitələrində heç bir zaman azərbaycanlı türkü olmasını dilə gətirdiyinə, hələ ki, rast gəlinməmişdir.

Kollektiv nailiyyətlərə görə Nobel mükafatına layiq görülənlər arasında Azərbaycan Respublikasının vətəndaşı, azərbaycanlı alim də olmuşdur. Belə ki, 2005-ci ildə Norveç Sülh Komitəsinin qərarı ilə nüvə enerjisinin hərbi məqsədlərlə istifadəsinin qarşısının alınmasında və nüvə enerjisinin sülh məqsədləri ilə mümkün olan ən təhlükəsiz şəkildə istifadəsinin təminatında göstərdiyi səylərinə görə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik - MAGATE və onun baş direktoru (*1997-2009*) Məhəmməd Mustafa Əl-Baradei Nobel Sülh mükafatına layiq görülmüşdür. MAGATE və Məhəmməd Əl-Baradei arasında bərabər hissəyə bölünən mükafatın laureatlar qrupunda təşkilatın əməkdaşı azərbaycanlı alim, fizika-riyaziyyat elmləri namizədi Bəxtiyar Tahir oğlu Siracov (*1957*) da vardır.

B.Siracov 20 ilə yaxındır ki, MAGATE-də Azərbaycanı təmsil edir və o, hələlik burada çalışan yeganə azərbaycanlıdır. Qeyd edilməlidir ki, bəzi nominasiyalarda Nobel mükafatı fərdi şəxslərə deyil, bütövlükdə bir komandaya verilir. İqtisadiyyat, fizika və kimya üzrə mükafatlandırma aparılarkən bu hallar tez-tez

müşahidə olunur. Bu zaman Beynəlxalq Nobel Komissiyası həmin komandanın bərabər gördüyü işi qiymətləndirirək, onlara ümumi mükafat təqdim edir. Qazanılmış pul mükafatı da komanda üzvləri arasında bölüşdürülür.

Qrup halında da olsa, B.Siracov bu mükafata layiq görülən ilk və hələlik yeganə azərbaycanlı kimi tarixə düşmüşdür. Bu barədə alimin öz fikirləri də maraqlıdır: "Bizim təşkilatın dünyada sülhün təmin olunmasında əvəzsiz rolu var və bu rol da 2005-ci ildə Nobel mükafatının verilməsi ilə nəticələndi. Beynəlxalq Nobel Komissiyası bizim işimizi dəyərləndirib və Nobel Sülh mükafatı ilə təltif edib. O mükafat bizə də şamil edilir. Siyahı uzundur. Çünki hamımız sülh prosesinin qorunmasında çox zəhmət çəkmişik. Mən də fəxr edirəm ki, bir azərbaycanlı kimi adım o siyahıda var".

Belə bir maraqlı məqama da diqqət yetirməmizdə fayda vardır ki, müasir dünyamızda Nobel mükafatı ilə yanaşı, müəyyən mənada, onun oxşarı kimi 1972-ci ildə Almaniya federal hökumətinin təsis etdiyi və Almaniya universitetlərinin təqdimatı ilə coğrafiyanın müstəqil elm kimi əsasını qoyanlardan biri, alman təbiətşünası və səyyahı Baron Fridrix Vilhelm Henrik Aleksandr fon Humboldtın (*1769-1859*) adını daşıyan "Aleksandr fon Humboldt Fondu" tərəfindən verilən "Humboldt" mükafatı da mövcuddur. O, elm sahəsində Nobel mükafatından sonra ikinci nüfuzlu mükafat hesab edilir və "Kiçik Nobel" adlanır. Bu mükafata layiq görülənlərin bir qismi elə çox keçmədən "Böyük Nobel"i də əldə edirlər. Belə ki, mövcudluğu tarixində "Kiçik Nobel"dən "Böyük Nobel"ə keçid alan 40-a yaxın alim var. "Kiçik Nobel" müvafiq tədqiqatlara və dərc edilmiş məqalələrə görə Almaniyada yaşamayan alimlərə verilir. Namizədlər Almaniya alimləri və ya həmin mükafatın laureatı olanlar tərəfindən irəli sürülür. Hər il müxtəlif elm sahələri üzrə 100-ə qədər

mükafat verilir və mükafatın məbləği 60 min avro təşkil edir. Mükafatın bir özəlliyi də odur ki, onu alan şəxs birbaşa avtomatik olaraq təsisçi dövlətə - Almaniyaya dəvət edilir. Bu mükafatı hazırda Almaniyada yaşayan azərbaycanlı riyaziyyatçı alim, professor Məsud Arif oğlu Əfəndiyev (*1953*) də almışdır. M.Əfəndiyev 1970-ci ildə Zaqatala rayonundakı Şıxəli Qurbanov adına orta məktəbi qızıl medalla bitirmişdir. O, 1990-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasında çalışarkən bu mükafata layiq görülmüş ilk azərbaycanlı olaraq Almaniyaya dəvət edilmişdir.

Bununla belə, qeyd edək ki, Azərbaycanda Nobel mükafatının L.Landaudan öncə də qazanılması fürsəti olmuşdur. Tarixi mənbələrə görə, görkəmli oftalmoloq, tibb elmləri doktoru, professor, Əməkdar Elm Xadimi Sona İbrahim qızı Rəhimova - Vəlixan (*1883-1982*) da Nobel mükafatına təqdim edilmişdir. Sona xanımın adı Azərbaycan tarixinə ilk ali tibbi təhsili olan və ilk tibb elmləri doktoru elmi dərəcəsi alan qadın kimi düşmüşdür. O, 1908-ci ildə Peterburq Tibb İnstitutunu bitirmiş, 1923-1939-cu illərdə Azərbaycan Tibb İnstitutunun göz xəstəlikləri kafedrasında assistent, dosent və professor vəzifələrində çalışmış, 1939-1971-ci illərdə isə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri olmuşdur. Əslən Azərbaycanın Qazax mahalından olan Sona xanım Vəlixanın atası Moskva və Vyana universitetlərinin tibb fakültəsində təhsil almış ilk azərbaycanlı həkim-psixiatr İbrahim Molla Rəhim oğlu Rəhimov da (*1849-1927*) tanınmış tibb mütəxəssislərindən olmuşdur.

Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri (*1945-1950*), ilk oftalmoloq qadın (*1933*), tibb elmləri doktoru elmi dərəcəsi almış ilk azərbaycanlı qadın Sona xanım Vəlixanın elmi yaradıcılığı, qazandığı nailiyyətlər bir çox elmi mərkəzlər,

beynəlxalq elmi təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Ən başlıcası isə onun "Endoftalmitin patoloji anatomiyasına dair" məqaləsi Nobel Komitəsinin diqqətini cəlb etmiş və 1940-cı ildə onun mükafata namizədliyi qeydiyyata alınmışdır. Lakin, qeyd edildiyi kimi, II Dünya müharibəsi zamanı Nobel Komitəsinin fəaliyyətində yaranan durğunluq nəticəsində (*1940-1942-ci illərdə fiziologiya və tibb sahəsi üzrə Nobel mükafatı heç kimə təqdim olunmamışdır*) Sona xanım Vəlixanın elmi işi Nobel Mükafatına layiq görülə bilməmişdir.

Bununla belə, Nobel mükafatını əlahiddə və qrup şəklində almağa Azərbaycanın və azərbaycanlıların kifayət qədər potensialı vardır və bu potensial Nobel zirvəsindən də yüksəkdə reallaşacaqdır.

Ayrı-ayrı elm sahələri üzrə Nobel mükafatına layiq görülənlərin həyat hekayəsinə nəzər saldıqda görərik ki, bunun üçün öncə güclü elmi mərkəzlərə sahib olmaq, elmi məktəblər yaratmaq gərəkdir. Azərbaycanlı alimlərin dünyanın aparıcı ölkələrində bu mükafatı alması üçün isə ulu öndər Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində xaricə təhsil almağa göndərmə strategiyasından bəhrələnilməlidir. Elmə xüsusi maraq göstərən istedadlıların, xarici ölkələrdə doktoranturalarda oxumaq, inkişaf etmiş dövlətlərin, beynəlxalq elmi təsisatlarda çalışmaq haqqı qazananlara dövlət dəstəyi verilməli və bu istiqamətdə stimullaşdırmaları təmin edən xüsusi dövlət fondları yaradılması və müvafiq strategiyaların işlənib hazırlarması məqsədəuyğun olardı.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, elmtutumlu sahələrin inkişafına yönələn dövlət səviyyəli struktur islahatları, normal iqtisadi inkişafın qarantına çevrilir. Dövlətin köməyi ilə inkişaf etmiş ölkələr dünyada elmi-texniki tərəqqinin (*ETT*) ən yüksək sürətinə nail olmuşlar. Onlar daha iri elmi-texniki potensiala malikdir. Bu, inkişaf etmiş ölkələrin başlıca xüsusiyyətidir. İnkişaf

etmiş ölkələrin əksəriyyətində elmi-tədqiqat işlərinə və tədqiqatların praktiki tətbiqinə olan bütün milli xərclərdə dövlətin payı 30 faizə qədər yüksəlir. ETT-nin ən mühüm göstəricisi elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə (*ETTKİ*) olan məsrəflər hesab edilir. Bütün dünyada bu məsrəflərin mütləq əksəriyyəti - 90%-ə yaxın hissəsi inkişaf etmiş ölkələrin payına düşür. Bundan başqa, bir müddət əvvəl yeni iqtisadi inkişaf yoluna qədəm qoymuş Pakistan və Hindistan, Çin və digər bu kimi ölkələr praktiki problemlərin həllində xüsusi rol oynayan elmi tədqiqatın mühümlüyünü rəhbər tutaraq diqqətəlayiq nailiyyətlərə sahib olmuşlar. Yeni əsrdə 10 iqtisadi qüdrətli ölkə sırasına çıxmağı qərarlaşdırmış Türkiyə də innovativ inkişafa, elmtutumlu infrastruktura tam keçməyi gerçəkləşdirərək böyük uğurlara imza atmışdır. Bunun nəticəsidir ki, uzun illər aslılıqda olduğu hərbi məhsulun daxili istehsalı 20 faizdən 70 faizə yüksəlmişdir.

Sosial-iqtisadi inkişafın mərkəzində insan faktoru dayanır. Bilik, ixtisas, səriştə, təhsilə əsaslanan insan kapitalı və ya iqtisadi interpretasiyada insanın gələcək əmək gəlirlərinin çıxılmış dəyəri yeni həyat dəyişikliklərinin mühüm amilini təşkil edir. Məhz buna görədir ki, ayrı-ayrı ölkələr elmi tədqiqatların kommersiyalaşması, onların dünya bazarına çıxışının təminatı məqsədi ilə bu və ya digər ölçüdə insan kapitalının formalaşmasına, elmi potensialın inkişafına, institusional boşluqların aradan qaldırılmasına resurslar ayırırlar.

Azərbaycan Respublikasında da elmin və təhsilin inkişafı həmişə olduğu kimi, indi də dövlətin sosial-iqtisadi, hüquqi, mənəvi, mədəni və milli təhlükəsizlik sahələrini əhatə edən siyasətinin başlıca istiqamətlərindən biridir. Məhz buna görədir ki, Prezident İlham Əliyev tərəfindən ölkədə elmin, təhsilin, İKT-nin və yüksək texnologiyaların inkişafı prioritet sahə elan olunmuşdur. Bütün bunlardan irəli gələrək, neft kapitalının insan

kapitalına, Azərbaycanın regionun güclü informasiya-kommunikasiya mərkəzinə çevirilməsi istiqamətində mühüm dövlət tədbirləri həyata keçirilir, yüksək texnologiyalar sektorunun inkişafına xüsusi önəm verilir. Hazırda Azərbaycan kosmik ölkələr klubunun üzvü kimi 2 telekommunikasiya və 1 Yerin optik müşahidə peykinə sahibdir. Bundan başqa, yüksək texnologiyalarla bağlı strateji hədəflərə nail olmaq məqsədilə ölkədə nüvə texnologiyalarından dinc məqsədlərlə istifadə üçün "Milli Nüvə Tədqiqatları Mərkəzi" QSC yaradılmış, Atom Elektrik Stansiyası (*AES*) quruculuğuna, "AES strategiyası"na keçidə start verilmiş, Bakıda və regionlarda yüksək texnologiyalar parkları fəaliyyətə başlamışdır. Ölkədə elmi və elmi-texniki siyasəti həyata keçirən dövlət ali təşkilatı olan AMEA - Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətinə hərtərəfli dəstək verilir, təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir.

Bütün bunlarla yanaşı, Azərbaycanda Nobel mükafatlarına sahib çıxmaq üçün birbaşa işlər də aparılmaqdadır. Bu məqsədlə ölkədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 iyun 1996-cı il 70 nömrəli qərarı ilə Azərbaycan Nobel İnformasiya Mərkəzi yaradılmışdır. Bu təsisat öz profilinə görə Mərkəz olaraq dünyada beşincidir (*ABŞ, Almaniya, İngiltərə, Rusiya*). Qeyd olunmalıdır ki, həmin təşkilatın yaradılmasının təşəbbüskarı və yaradıcısı Beynəlxalq Nobel İnformasiya Mərkəzinin üzvü, tarix elmləri doktoru, professor Bəybala Aydabala oğlu Ələsgərovdur (*1954*). O, 2005-ci ildə Qafqaz və Orta Asiya ölkələri üzrə səlahiyyətli nümayəndə, 2013-cü ildə isə Beynəlxalq Nobel İnformasiya Mərkəzinin vitse-prezidenti seçilmişdir. Yarandığı gündən indiyədək bu qurum 10-dan çox insanın Nobel mükafatına təqdimatını vermişdir. Onlardan ən uğurlusu 1999-cu il üçün fiziologiya və tibb sahəsi üzrə namizədliyi irəli sürülümüş, Bakı Dövlət Universitetinin Bitki fiziologiyası kafedrasının

müdiri vəzifəsində (*1979-2016*) çalışmış, ABŞ-ın İllinoys EA-nın həqiqi üzvü, Əməkdar Elm Xadimi, biologiya elmləri doktoru Nemət Abbasəli oğlu Qasımov (*1940-2016*) olmuşdur. N.Qasımov bu mükafatı almanın astanasında olmuş, lakin gizli səsvermədə amerikalı rəqibi onu iki səslə qabaqlamışdır. Tanınmış yazıçı, dövlət və ictimai xadim, akademik Kamal Abdulla da 2012-ci ildə Nobel mükafatına namizəd olmuşdur. Nobel Komissiyası ilk dəfə olaraq Azərbaycandan ünvanlanan müraciətə müsbət cavab verərək, onu quruma təqdim edilən "Sehirbazlar dərəsi", "Yarımçıq əlyazma" və "Unutmağa kimsə yox..." əsərlərinə görə namizəd olaraq qeydə almışdır.

Azərbaycan Nobel İnformasiya Mərkəzi fəaliyyətini davam etdirir. Onun nəzdində Nobel mükafatı üzrə bütün istiqamətlərdə xüsusi ekspert qrupları yaradılmışdır. Qalır ki, bu təsisatdan milli elm adamları, ictimai dəyərlər yaradanlar yetərincə istifadə etsinlər.

# İsveç Bankının təşəbbüsü və İqtisadiyyat üzrə Nobel mükafatı təsisatı

Nobel mükafatları yaranışından təxminən 70 il sonra, 1968-ci ildə İsveç Bankı özünün 300 illik yubileyində "Nobel pentoqramında" yer almayan iqtisadiyyat istiqaməti üzrə yeni nominasiyada müvafiq mükafatın təsis olunması təklifi ilə çıxış etdi. Bir il sonra isə İsveç Kral Akademiyası bununla razılaşdı. Bütün bunlardan öncə isə keçmişlərə diqqət yetirməyimiz gərəklidir. Tarix göstərir ki, 1951-ci ildə ABŞ Maliyyə Nazirliyi ilə Federal Ehtiyatlar Sistemi[2] arasında Amerikanın mərkəzi banklarının yenidən müstəqillik əldə etməsi üzrə bir razılaşma qəbul olunmuşdur. Bu razılaşmaya qədər isə onlar 20 il xəzinədarlıq sərəncamları yerinə yetirmişlər. Eyni vaxtlarda və eyni məzmunda - 1955-56-cı illərdə avtonomluğu ölkənin yeni konstitusiyası ilə təmin olunan Alman Federal Bankı - Bundesbank (*Deutsche Bundesbank*) da o zaman AFR-in Federal kansleri (*1949-196*3) olmuş Konrad German Yozef Adenauerun (*1876-1967*) siyasi hücumları ilə üz-üzə idi. İsveç Mərkəzi Bankı da bu təxmini gerçəklikləri yaşayırdı. Belə ki, hökumətə tabe olan bu bank da gəlirlərini hökumətlə bölüşmək istəmirdi. Bundan irəli gələrək, 1957-ci ildə İsveç Mərkəzi Bankı uçot dərəcəsini 1% artırmaqla müstəqilliyə cəhd etdi. Buna qəzəblənən Baş nazir Taqe Fritof Erlander (*1901-1985*) böyük səs-küyə səbəb olması ilə bağlı onun rəhbərini işdən

[2] Federal Ehtiyatlar Sistemi (*Federal Reserve System - FED*) Mərkəzi Bank funksiyalarını yerinə yetirmək və ABŞ-da kommersiya bank sisteminə mərkəzi nəzarəti həyata keçirmək üçün 23 dekabr 1913-cü ildə yaradılmış müstəqil federal agentlikdir. Təsisatı üçün əsas Federal Ehtiyat haqqında qanun olmuşdur. FED etimadnaməsini ABŞ Konqresindən alır. Bununla belə, Konqresdən maliyyələşmə almır. Fəaliyyətindəki müstəqillik pul siyasəti ilə bağlı qərarların ABŞ Prezidenti və ya başqa bir icra və ya qanunverici hakimiyyət orqanı tərəfindən təsdiq edilməməsi ilə təmin olunur. FED-in İdarə Heyəti üzvlərinin səlahiyyət müddəti prezidentliyin və Konqres üzvlərinin bir neçə müddətini əhatə edir. FED-in fəaliyyətinə Konqres tərəfindən nəzarət olunur. Konqres vaxtaşırı FED-in fəaliyyətini təhlil edir və qanunvericiliklə onun vəzifələrini dəyişə bilir.

azad etməyə tələsmədi. Müstəqillik sevdasını irəlilətməyə çalışan bank rəhbəri də təmkin gösərərək bir qədər geri çəkildi və növbəti fürsəti gözlədi. Bu fürsət dövlət istiqrazlarından alınan gəlirin hərəkəti ilə yaşandı. Parlament gəlirlərin xəzinəyə köçürülməsini istədikdə, bank rəhbərliyi pulların birja və kreditləşmə ticarətinə, elmi-tədqiqat bazasının yaradılmasına və həmçinin 1968-ci ildə bankın 300 illik yubileyinin qeyd olunmasına yönəldiləcəyiini elan etdi. Parlament, buna baxmayaraq, vəsaitin çox hissəsini götürdü və banka da bir qədər vəsait qaldı. Bu zaman bankın yubileyi də yaxınlaşmaqda idi. Bankda fikirləşirdilər ki, bəlkə bu pullar iqtisadiyyat üzrə Nobel mükafatının təsis edilməsində istifadə olunsun. Bununla bağlı bank işçiləri və mütəxəssislər kimya və fizika üzrə Nobel mükafatçılarını təyin edən İsveç Kral Elmlər Akademiyası ilə əlaqə qurdular və onların təklifi bəyənildi. Bundan sonra danışıqlar Nobel fondu ilə aparıldı. Onlar da ideyanı qiymətləndirdilər. Burada İsveç Mərkəzi Bankının mükafatın ödənişini təmin etməyi öz öhdəsinə götürməsi də xüsusi rol oynadı. Son maneə isə mükafatın yaradıcısının o zaman həyatda olan ən yaşlısını (*dinamitin müştərək ixtiraçısı*) razı salmaq idi. O, tərəddüdən sonra mükafatın “Alfred Nobelin xatirəsinə iqtisadi elmlər sahəsində mükafat” adlandırılmasını israr etdi.

Bütün bunlarla yanaşı, iqtisadiyyat üzrə Nobel mükafatı təsisatı paradoksunu ABŞ Notr-Dam Universitetinin (*The University of Notre Dame du Lac*) iqtisadi fikrin tarixçisi və filosofu, iqtisad doktoru Filip Mirovskiy (*1951*) eyniliklə izah edir. Göstərir ki, İ təşəbbüsü İsveç daxili siyasətindən qaynaqlanmışdır. Onun sözlərinə görə böyük tarixi yol keçmiş İsveç Bankı 1960-cı illərdə özünü dövlət nəzarətindən azad edib, müstəqil olmağa səy göstərirdi. Bu yolda əsas üsullardan biri kimi iqtisadiyyatın siyasi sferaya deyil, elmə çevrilməsinə çalışırdı. Bu nominasiya isə iqtisadiyyatın nüfuzunu elmi fənn olaraq möhkəmləndirdi.

İsveç Mərkəzi Bankı 1999-cu ildə nəhayət müstəqillik qazandı və dünya iqtisadiyyatının əsas problemi işsizliklə mübarizə deyil, mərkəzi bankların daha çox rol oynadığı inflyasiya ilə mübarizə oldu.

İqtisadiyyat üzrə Nobel mükafatı müasir dünyada iqtisad elmindəki nailiyyətlərə görə verilən ən nüfuzlu təltifat olaraq rəsmən "Alfred Nobelin xatirəsinə İqtisadi Elmlər üzrə Sveriges Riksbank Mükafatı" (*Sveriges riksbanks pris i ekonomisk vetenskap till Alfred Nobels minne*) adlanır. Vurğulandığı kimi, bu mükafat Nobellər mirasından deyil, təsisçisi olan İsveçin Mərkəzi bankı - İsveç Bankı, Riksbank (*Sveriges riksban*k) tərəfindən maliyyələşdirilir. İsveç Konstitutiyasına görə, dövlətin aparılan pul siyasətinə məsul olan bank birbaşa parlamentə - Riksdaqa (*Riksdag - isveçcə - riks - dövlət, imperiya və dag - seym, parlament*) tabedir. Yeni nominasiya kimi həm də "İqtisad elmi üzrə Alfred Nobelin xatirəsinə İsveç Bankının mükafatı" adlandırılan bu təltifat 12 oktyabrda elan edilir və 10 dekabrda təqdim olunur.

Yaranışın 50 ili ərzində - 1969-2019-cu illərdə İqtisadiyyat sahəsində Nobel mükafatı 51 dəfə verilmişdir. Bu mükafata indiyədək 84 adam layiq görülmüşdür. Mükafat 25 dəfə bir, 19 dəfə iki, 7 dəfə üç tədqiqatçıya təqdim olunmuşdur.

İlk mükafat 1969-cu ildə "iqtisadi proseslərin təhlili üçün dinamik modellərin hazırlanması və tətbiqinə görə" Norveç və Danimarka alimləri Raqnar Friş və Yan Tinbergenə verilmişdir.

Nobel mükafatı laureatı olmaq iqtisadçılara dünya iqtisadi siyasətinin formalaşdırılmasında iştirak imkanları yaradır, onların elmi-əməli fəaliyyətinin qlobal kontekstdə reallaşmasını təmin edir.

Mükafatın səciyyəvi xüsusiyyəti onun təkcə elmi dairələrdə deyil, həm də geniş ictimaiyyətdə alim reytinqinin ali pilləsi olaraq dəyərləndirilməsindədir.

İqtisadiyyat nominasiyası Alfred Nobelin 1895-ci ildə şəxsən hazırladığı siyahıya daxil edilmədiyindən bir sıra mənbələrdə Nobellər ailəsinin bu təsisatın əleyhinə olduğu göstərilir. Digər tərəfdən, həm də A.Nobel özünə yaxın olan sahələrdə mükafatın təqdim edilməsini istəyirdi. Buna görə də "Nobel elmləri" siyahısına iqtisadiyyatla yanaşı, o zamanlar mövcud olmuş digər elmlər də salınmamışdır. İqtisadiyyat və riyaziyatla bağlı bu sahədə bir qədər konkretlilik vardır. Belə ki, Lüdviq Nobelin nəvəsi Peter Nobel (*1931*) iqtisadiyyat nominasiyası ilə bağlı iki tənqidi məqamı qeyd edir: "Birincisi - bu "Nobel mükafatı" anlayışına müdaxilədir, ikincisi, bank bu mükafatla birtərəfli qaydada Qərb iqtisadi tədqiqatlarını və nəzəriyyə yaranışlarını təltif edir. A.Nobelin vəsiyyəti bir qəribəlik deyildi, o hərtərəfli düşünülmüşdü. Məktubları şəhadət verir ki, o, iqtisadçıları sevməmişdi".

Lakin burada bir məqamı da nəzərdən qaçırmaq olmaz. Belə ki, əslində, ilk Nobel mükafatının sahibi peşəkar iqtisadçı olmuşdur. Bu fransız siyasi xadimi Frederik Passidir. O, isveçrəli həmkarı Anri Jan Dünanla birlikdə 1901-ci ildə Nobel sülh mükafatına layiq görülmüşdür. Frederik Passi Parisdə və digər şəhərlərdə siyasi iqtisaddan dərs demiş, məruzələr oxumuş, 1957-ci ildə özünün məşhur "İqtisadiyyatın problemləri" (*"Melanges economiques"*) adlı esse toplusunu nəşr etdirmişdir. Bundan başqa, o, digər irihəcmli elmi əsərlərin müəllifi olmuşdur. Azad ticarət prinsiplərinin ardıcıl tərəfdarı kimi tanınan F.Passi ticarətin xalqları və dövlətləri birləşdirdiyinə, həmçinin onun inkişafa və sülhə yardımçı olduğuna inanırdı. Bütün bunların nəticəsidir ki, o, çox uzun illər Paris Siyasi İqtisad Cəmiyyətinin prezidenti olmuşdur.

İqtisadiyyat A.Nobelin 1895-ci ildə şəxsən hazırladığı siyahıya daxil olmasa belə, o, digər elmlər üzrə verilən Nobel mükafatları ilə eyni səviyyədə qəbul edilir.

Bununla belə, iqtisadiyyat üzrə Nobel mükafatı dünya elmində də bir sıra mübahisələrə səbəb olmuşdur. Belə ki, bir çoxları iqtisad nəzəriyyəsinin elmi statusluğunu tanımamış və ya onun Nobel mükafatlarına daxil edilən təbiət elmlərindən aşağı statuslu olmasını bildirmişlər. Başqaları burada daha çox maraqların toqquşduğunu, dünyanın müxtəlif ölkələri, universitetləri və ayrıca iqtisadçıları arasında münaqişəli məqamlar yaratdığını, üçüncülər isə Nobel epopeyasında yaşamış və ömürləri bitmiş bir sıra digər qüdrətli iqtisadçıların burada yer almadığını söyləmişlər. Bu sırada xüsusi olaraq 8 iqtisad məktəbindən birinin - institusionalizmin banisi, görkəmli Amerika iqtisadçısı Con Kennet Gelbreyt (*1908-2006*), postkeynsçi istiqamətin görkəmli nümayəndələri, ingilis iqtisad elmində xanım Coan Vayolet Robinson (*1903-1983*), iqtisadi artım, məşğulluq və inflyasiya üzrə dəyərli elmi tədiqatların, "Kaldorun üslublu faktları" və "Kaldor-Hicks meyarları"nın müəllifi, macar-yəhudi əsilli ingilis iqtsadçısı Nikolas Kaldorun (*1908-1986*), məhşur Lerner əmsalı, Marşal-Lener şərti, Lerner-Samuelson teoremi yaradıcısı, Amerika iqtisadçısı Abba Psaçya Lernerin (*1903-1982*), qiymətli kağızların dəyərinin qiymətləndirilməsi üçün istifadə olunan "Blek-Şoulz düsturu"nun (*sonradan "Blek-Şoulz-Merton modeli" kimi məşurlaşmış*) ilk müəlliflərindən olmuş amerikalı iqtisadçı Fişer Şeffi Blekin (*1938-1995*), amerika və israil iqtisadçısı, keynsçiliyin görkəmli nümayəndəsi, professor Don Patinkin (*1922-1995*) və digərlərinin adları çəkilir. Bundan başqa, 1990-cı illərdəki və XXI əsrin əvvəllərindəki laureatların 1970-1980-ci illərdəki mükafatçılardan xeyli fərqlənərək buna heç də tam layiq olmadıqlarını göstərirlər. Yaranmış vəziyyətlə bağlı məşhur nobelçi (*1973*), amerikalı iqtisadçı V.Leontyev də oxşar fikirlər bölüşürdü. O, qeyd edirdi ki, "Nobel Komitəsinin fəaliyyətinin davam etdirilməsi problematikdir. Fikirləşirəm ki, artıq indidən

onun diqqəti tədricən iqtisadçı-nəzəriyyəçilərdən institusional iqtisadçılara keçid edir".

Başqa bir fikri isə iqtisadçı nobelçilər özləri səsləndirirlər. 1974-cü ildə iqtisadiyyat üzrə Nobel mükafatı almış ingilis-avstriya iqtisadçısı Fridrix Fon Hayek təltifat mərasimində tənqidi çıxış etmişdir. Göstərmişdir ki, "Nobel mükafatı insana iqtisadiyyatda heç bir kimsənin malik olmayacağı hakimiyyəti verir". O, narahat idi ki, mükafat siyasətdə və iqtisadiyyatda qərarların qəbul edilməsinə, o cümlədən ictimai fikirə və kütləvi informasiya vasitələrində iqtisadi problemlərin təqdimatına da təsir edəcəkdir. Düşünürdü ki, belə mükafata malik müəllifin bu və ya digər ideyaları insanları onun nəzəriyyəsinin son instansiyada həqiqət kimi qəbul edilməsinə məcbur edəcək və qanunvericilikdə möhkəmləndirəcək. Axı iqtisadi qanunlarda təyinat səviyyəsi digər təbiət elmləri sahəsindəkilərdən fərqlidir. Baş göstəricisi ÜDM, iqtisadi artım, inflyasiya və digərləri iqtisadiyyatdakı hərarəti obyektiv və qəti ölçə bilməzlər. ÜDM-in "atası" sayılan nobelçi (*1974*), amerika iqtisadçısı Saymon Smit Kuznes də insanları bu oxşar göstəricidən istifadə etməkdən çəkindirirdi. Koreyalı iqtisadçı, Böyük Britaniya Kembric Universitetinin professoru Xa Cün Çanq (*1963*) da bu fikri dəstəkləyərək ÜDM göstəricisi ilə bağlı seçimin çox ideoloji olduğunu göstərmişdir.

Anoloji münasibət ÜDM-lə yanaşı, digər iqtisadi göstəricilərə də şamil oluna bilər. Burada inflyasiya daha adekvat görünür. Belə ki, inflyasiya səviyyəsini xarakterizə edən istehlak indeksləri kəskin olaraq hesablama metodikasından asılıdır. Bu çevrədə daha çox istehlakın real strukturunu səciyyələndirən istehlak səbətinin tərkibi mübahisə obyektidir. Əgər istehlak səbəti inflyasiya səviyyəsi ilə bağlı insanların real ehtiyaclarına uyğun olaraq daim dəyişirsə, onda cari göstəricilər əvvəlkilərlə müqayisə oluna bilməz. Yox əgər inflyasiya səviyyəsi istehlak səbətini tamam

dəyişmirsə, onda göstəricilər əhalinin real xərclərini əks etdirməyəcək.

Riyaziyyatçılarla bağlı Nobel mükafatı çevrəsində də oxşar və digər münasibətlər də mövcuddur. Bu məsələdə ən çox adı diqqət çəkən şəxs İsveç riyaziyyatçısı Manqus Qustav Mittaq-Lefflerdir (*1846-1927*). Məlumatlara görə, A.Nobelin özünün həmvətəni və müasiri olan bu şəxsdən xoşu gəlmirmiş. M.Qustav isə bu mükafata ən real namizədlərdən biri ola bilərdi. A.Nobelin riyaziyyatı mükafatın nominasiyaları sırasına daxil etməməsini məhz bununla bağlayanlar vardır. Gəzən əfsanələrdə isə A.Nobelin sevgilisi, danimarkalı Anna Dzerinin riyaziyyatçı olmağa çalışan avstriyalı Frans Lemajla evlənməsi hadisəsi önə çəkilir. Bütün bunlar məsələdə müvafiq bir yanaşmanın olduğuna da ehtimal verir. Belə ki, A.Nobel riyaziyyatı öncə nominasiyalar siyahısına salmış, sonradan fikrini dəyişərək onu sülh mükafatı ilə əvəzləmişdir. Bununla belə, Nobel mükafatı laureatları sırasında bir çox riyaziyatçılar və ya riyaziyyat ixtisaslıları da vardır. Bu sırada, xüsusən, iqtisadiyyat sahəsində mükafatlar almış iqtisadçı-riyaziyyatçılar - R.Friş, P.Samuelson, V.Leontyev, L.Kantoroviç, M.Fridman, C.Neş və başqalarının adlarını çəkmək olar. Bununla belə, elmi nominasiyalarda Nobel mükafatçıları sırasında tarixçilərə, coğrafiyaçılara, politoloqlara və digərlərinə də rast gəlinir.

Riyaziyyat üzrə nominasiya olsaydı, yəqin ki, bu sırada Bakıda doğulmuş azərbaycanlı alim, riyaziyyatçı, süni intellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, ABŞ Kaliforniya Berkli Universitetinin (*University of California, Berkeley*) professoru olmuş Lütfəli Rəhim oğlu Ələsgərzadə - Lütfi Zadə (*1921-2017*) də yer ala bilərdi. Digər tərəfdən, fizika sahəsində müvafiq nominasiyanın olmasına rəğmən, onun sıralarında "The Telegraph" qəzeti "Creators Synectics" beynəlxalq şirkətinin çağdaş elm, siyasət, incəsənət dünyasının 100 dahisinin siyahısında 14-cü sı-

rada qərar tutan qaz (*neon gel*) lazerinin ixtiraçısı, "lazerin atası" adlandırılan, "şərqin Eynşteyni", müasir fizika elminin azərbaycanlı korifeyi, ABŞ Massaçusets Texnologiya İnstitutunun professoru, Təbrizdə doğulmuş Əli Cavan (*1926-2016*) da yer almamışdır.

Bir məqamı da xüsusi olaraq vurğulamaq lazımdır ki, görkəmli iqtisadçılara beynəlxalq mükafatlar verilməsi istəkləri ötən əsrin bütün tarixi dönəmlərində gündəlikdə durmuşdur. Bu sırada 1947-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının (American Economic Association) məşhur statistik Frensis Amasa Uolkerin (*1840-1897*) şərəfinə təsis etdiyi medal-mükafat xüsusi yer tutur. Bu mükafat hər beş ildən bir təqdim olunduğu üçün bir qədər geniş effektivlik qazana bilməmişdir. Yaşam tarixi ərzində mükafat cəmi 7 dəfə ünvanına yetişmiş, son təltif isə məşhur iqtisadçı, Nobel mükafatı laureatı Saymon Smit Kuznesə (*1901-1985*) nəsib olmuşdur. Nobel mükafatı ilə rəqabətə davam gətirməyən bu mükafat ötən əsrin 80-ci illərində mövcudluğuna son qoymuşdur. Burada, əlbəttə, iqtisadiyyat üzrə Nobel mükafatının artan reytinqi də özünü göstərmişdir. Bununla belə, "Riyaziyyat üzrə Nobel nominasiyasına" və digər elmlərə rəqib kəsilən bir sıra mükafatlar da vardır. Bunlar içərisində riyaziyyat sahəsində kanadalı riyaziyyatçı Con Çarlz Fildsin (*1863-1932*) öz adına təsis etdiyi "Fildov" (*Fields Medal*) və Norveç riyaziyyatçısı Nils Henrik Abelin adını daşıyan (*1802-1829*) "Abel" (*Abel Prize*), informatikada ingilis alimi, riyaziyyatçı, məntiqçi və kriptoqraf Alan Metison Türinqin (*1912-1954*) şərəfinə təsis olunmuş "Türinq" (*Turing Award*), coğrafiya üzrə isə Nobel mükafatının analoqu kimi çıxış edən fransız coğrafiyaşünası Votren Lüdun (*1448-1527*) ismi ilə adlandırılan "Votren Lüd" (*Fields Medal*) mükafatları daha məşhurdur. Yaponiyada ölkə imperatoru tərəfindən incəsənət üzrə "İmperator mükafatı"

(*Praemium Imperiale*) isə rəsm, heykəltəraşlıq, memarlıq, musiqi, teatr və kino sahəsində böyük məbləğdə pul ödənişi olan önəmli mükafat kimi tanınır.

İqtisadiyyat üzrə Nobel mükafatının da təltif qaydası digər sahələrdə olduğu kimidir. Bununla belə, müəyyən spesifikliklər də mövcuddur. Burada əsas məsələ ondan ibarətdir ki, Nobel Fondu çoxsaylı namizədlər arasından qalibləri seçmir və mükafatı ödəmir. Bu səlahiyyət İsveç Kral Elmlər Akademiyasına və İsveç Mərkəzi Bankına məxsusdur. Lakin bununla belə, Nobel Fondunun nizamnaməsinə görə, namizədlər - İsveç Kral Elmlər Akademiyası üzvlərinin, iqtisadiyyat sahəsində Alfred Nobel Xatirə Mükafatı Komitəsi üzvlərininin, iqtisadiyyat sahəsində Alfred Nobel xatirə mükafatı laureatlarının, İsveç, Danimarka, Finlandiya, İslandiya və Norveç universitetləri və ali təhsil müəssisələrinin müvafiq fənn üzrə professorlarının, İsveç Kral Elmlər Akademiyası tərəfindən seçilən azı altı universitet və institutun müvafiq kafedra müdirlərinin və İsveç Kral Elmlər Akademiyasının rəyini məqbul saydığı digər alimlərin təklifləri əsasında irəli sürülür.

Prosedura görə, iqtisadiyyat sahəsində Nobel mükafatı laureatlarının seçimi aşağıdakı mərhələlərdən keçir:

1. Nobel Komitəsi mükafatı almağa layiq saydığı namizədlər haqqında vahid nümunədə sorğu anketini rəy bildirmək üçün 3 min məşhur alimə göndərir (*sentyabr - mükafatın təqdim edilməsi ilindən əvvəl*);

2. Sorğu anketləri geri alındıqdan sonra (*son tarix - 31 yanvar*) emal edilir və anketlərdə adları daha çox göstərilən (*adətən, 250-300 alim tərəfindən*) namizədlər seçilir (*fevral*);

3. Namizədliklər qiymətləndirilmək üçün xüsusi seçilmiş ekspertlərə təqdim edilir (*mart - may*);

4. Ekspertlərdən alınan rəylər əsasında İsveç Kral Elmlər Akademiyası üçün məlumat hazırlanır və Nobel komitəsinin bütün üzvləri tərəfindən imzalanır (*iyun - avqust*);

5. Komitə hazırladığı məlumatı İsveç Kral Elmlər Akademiyasına təqdim edir və o, akademiyanın iqtisadiyyat bölməsinin iki iclasında müzakirə olunur (*sentyabr*);

6. İsveç Kral Elmlər Akademiyası böyük səs çoxluğu ilə laureatları seçir (*seçim qətidir və müzakirə olunmur*) və elan edir (*oktyabr*);

7. Laureat digər elmlər üzrə qaliblərlə birlikdə Stokholmda təntənəli mərasimdə mükafatı alır (*10 dekabr*).

İnternet texnologiyalarının inkişafı, elektron kommunikasiya vasitələrindən istifadənin genişlənməsi elm adamlarının reytinqi sferasında da yeni təsisatlar meydana çıxarmışdır. Nüfuzlu elmi təşkilatlar, jurnallar, assosiasiyalar müəlliflik hüquqlarının qorunması əsasında elmi əsərlərdən istifadə üçün sitatgətirməni təmin edən elektron sistemlər yaratmışlar. İndi Nobel mükafatlarına namizədlərin seçilməsində alimlərin kibernəkanda əsərlərinə istinadların reytinqi də prioritetlərdən sayılır. Bu yanaşma ümumi olduğundan iqtisad üzrə Nobel mükafatı laureatlarının seçimi prosesində də tətbiqini tapır.

İqtisadiyyat sahəsində Nobel mükafatını hər bir ölkənin vətəndaşı ala bilər. Lakin reallığın statistikasında meylliyi əks etdirən qütblü panoram mövcuddur. Bunu ötən 50 ilin tarixində mükafatçılar sırasında ABŞ iqtisadçılarının dominant mövqedə olması daha aydın göstərir. Belə vəziyyət oxşar cəhətləri ilə başqa Nobel nominasiyalarında da bu və ya digər dərəcədə eyniyyət təşkil edir. Statistika göstərir ki, 1969-cu ildən 2019-cu ilə qədər iqtisadiyyat sahəsində Nobel mükafatı alanların 70%-i ABŞ vətəndaşlarıdır. ABŞ-dan sonrakı sırada 8,5 laureatla Böyük Britaniya dayanır. Üçüncü yerdə 3 laureatla Norveç gəlir. Sonrakı

yerlərdə 2,5 Fransa[3] və hərəsi 1 laureat olmaqla İsveç, İsveçrə, İsrail, AFR, Niderland, SSRİ, Hindistan, Kanada və Finlandiya, 0,5 laureatla Kipr gəlir. 2007-ci ilə qədər 9 dəfə olmaqla ən çox mükafatın əldə edildiyi sahə makroiqtisadiyyatdır. 2018-ci ildən ən çox mükafat almış təhsil müəssisəsi isə 32 laureatla Çikaqo Universiteti olmuşdur.

Bu nominasiyada mükafatçıları o qədər də gənc hesab etmək olmaz. Təhlil və qiymətləndirmələr göstərir ki, iqtisadçı Nobel laureatlarına mükafatın təqdimedilmə vaxtında onların orta yaşı ötən 50 il üzrə 66,5 il təşkil etmişdir. Bu sferada ən gənc laureat 2019-cu ilə qədər amerikalı iqtisadçı Kennet Cozef Errou olmuşdur. 1972-ci ildə bu mükafatı alanda o, 51 yaşında idi. Lakin 2019-cu ildə gənclik rekordunu 1972-ci il təvəllüdlü fransız və amerika iqtisadçısı xanım Ester Duflo yeniləmişdir. Mükafatı alanda onun yaşı 47 olmuşdur. Ən yaşlı iqtisadçı nobelçi isə, vurğulandığı kimi, bütün digər nominasiyalı nobelçilər arasında da yaşca böyük olan, 90 yaşında bu mükafata layiq görülən amerikalı iqtisadçı Leonid Solomonoviç Qurviçdir. 1991-ci ildə bu mükafatı almış və 102 il ömür sürmüş amerikalı iqtisadçı Ronald Kouz (*1910-2013*) ən uzunömürlü iqtisadçı nobelçidir. Bu nominasiyada ən az ömür sürən laureat mükafatı 1975-ci ildə almış və 74 yaşında vəfat etmiş sovet riyaziyyatçısı və iqtisadçısı L.Kantoroviç olmuşdur.

İqtisadçı Nobel laureatları klubunda gender məsələsində kəskin fərq qalmaqdadır. Belə ki, iqtisadçı laureatlar arasında hələ də qadının sayı iki nəfərdir. Bunlar - 2009-cu ildə mükafatı almış ilk qadın amerikalı politoloq və iqtisadçı Elinor Ostrom və 2019-cu il laureatı xanım Ester Duflodur.

[3] İki vətəndaşlığı olan laureatların hər biri ölkəsinə əlavə 0,5 bal qazandırır. Yəni bir laureat həm İsrail, həm də ABŞ vətəndaşıdırsa, onda hər iki ölkəyə 0,5 bal əlavə edilir. Ölkələr qeyd olunarkən laureatın mükafat aldığı vaxtdakı vətəndaşlığı əsas götürülmüşdür.

Laureatları arasında mükafatın ünvanına illər sonra yetişməsi hallarına da rast gəlinir. Belə ki, amerikalı iqtisadçı Vilyam Spenser Vikri mükafatın elan edilməsindən 3 gün öncə ürək tutmasından dünyasını dəyişmişdir.

Bundan başqa, Nobel sülh mükafatına layiq görülən iqtisadçı da vardır. Bu, Banqladeşdən olan iqtisad professoru Yunis Məhəmməddir (1940). Y.Məhəmməd geniş mikromaliyyələşməni təmin edən "Grameen bank" ("*Kənd bankı"*) adlı bankın yaradıcısı, məşhur banqladeşli bankçıdır. O, Amerikanın "Foreign Policy" (*"Beynəlxalq siyasət"*) jurnalının 2008-ci il üzrə tərtib etdiyi "100 qlobal mütəfəkkir" siyahısında ikinci yerdə qərar tutmuşdur. Y.Məhəmməd 2006-cı ildə "Grameen bank"la birgə "aşağıdan iqtisadi və sosial inkişafın yaradılması istiqamətindəki səylərinə görə" Nobel sülh mükafatına layiq görülmüşdür.

Qeyd olunmalıdır ki, XXI əsrin əvvəllərindən bəri iqtisadiyyat üzrə Nobel mükafatları, əsasən, amerikalılara veilib. J.Tiroldan başqa bu mükafatı alan qeyri-amerikalılar britaniyalı K.Pissarides (*2010-cu il, amerikalı P.Daymond və D.Mortensenlə müştərək*), britaniyalı K.Qrencer (*2003-cü il, amerikalı R.İnqlə müştərək*), norveçli F.Kindland (*2004-cü il, amerikalı E.Preskottla müştərək*), olublar. XXI əsrdə laureat olan üç iqtisadçı alim - D.Kaneman (*2002-ci il*), R.Auman (*2005-ci il*) ABŞ və İsrail, xanım E.Duflo isə Amerika - Fransa olmaqla ikili vətəndaşlığa malikdirlər.

# İllər, laureatlar
# və
# tədqiqatlar

■ **İlk dəfə olaraq iqtisadiyyat sahəsində Nobel mükafatı 1969-cu ildə "İqtisadi proseslərin təhlili üçün dinamik modellərin hazırlanması və tətbiqinə görə" Norveç və Niderland iqtisadçıları Raqnar Friş** (*Ragnar Anton Kittil Frisch*) **və Yan Tinbergenə** (*Jan Tinbergen*) **verilmişdir.**

## Raqnar Friş



Raqnar Anton Kittil Friş (*1895-1973*) - Norveç iqtisadçısı.

3 mart 1895-ci ildə Norveçin paytaxtı Oslo şəhərində yəhudi ailəsində anadan olmuşdur. Oslo Universitetini bitirmiş, təhsilini Fransa və ABŞ-da davam etdirmişdir. 1926-cı ildə Oslo Universitetində doktor elmi dərəcəsi almış, 1931-ci ildə həmin universitetin Sosial İqtisadiyyat və Statistika İnstitutunun direktoru və professoru olmuşdur.

II Dünya müharibəsi illərində, nasist rejimində həbsxana həyatı yaşamışdır. R.Friş Hindistan və Misir hökumətlərinin iqtisadiyyat üzrə məsləhətçisi işləmiş, 1933-1955-ci illərdə "Ekonometrika" jurnalının redaktoru olmuş, 1949-cu ildə ABŞ Ekonometrik Cəmiyyətinin (*Econometric Society*) prezidenti seçilmişdir. 1965-ci ildə istefaya çıxmışdır.

R.Friş müasir iqtisad elminin formalaşmasında önəmli rol oynamış iqtisadçılardandır. O, "makroiqtisadiyyat" və "mikroiqtisadiyyat" terminlərini elmi dövriyyəyə çıxarmış, Nobel mükafatı üzrə həmkarı Y.Tinbergenlə birlikdə ekonometrikanın yaradıcılarından olmuşdur. İstehlak nəzəriyyəsinin - Valrasiyen riyazi əsaslarının bünövrəsini qoymuşdur. Zaman sıraları, xətti reqressiya, istehsal nəzəriyyəsi ilə bağlı tədqiqatlar aparan R.Friş,

həmçinin, tələbin təhlili, dinamik və makroekonomik modellər, ticarət və işgüzar fəallıq tsiklləri sahəsində fundamental elmi işlələrin müəllifi kimi də tanınır.

Əsas elmi əsərləri:

1. Tədavülün planlaşdırılması (*Circulation planning. - 1935*);

2. Tarazlıq və qeyri-tarazlıq haqqında (*On the notion of equilibrium and disequilibrium. - 1936*);

3. "Hindistan üçün planlaşdırma: metodologiya üçün seçilmiş tədqiqatlar" (*Planning for India: Selected explorations in methodology. - 1960*);

4. İstehsal nəzəriyyəsi (*Theory of production. - 1965*);

5. İqtisadi planlaşdırma üzrə tədqiqatlar (*Economic planning studies. - 1976*).

R.Friş Nobel mükafatı laureatı olmaqla yanaşı, 1955-ci ildə Harvard Universitetinin görkəmli iqtisadçı Y.Şumpeter adına mükafatına, İtaliya Milli Elmlər Akademiyasının (*The National Academy of Sciences of Italy*) A.Feltrinelli adına mükafatına və digər elmi mükafatlara layiq görülmüşdür. O, eyni zamanda, London Kral Statistik Cəmiyyətinin (*Royal Statistical Society*), Amerika İqtisadçılar Assosiasiyasının, Amerika Sənət və Elmlər Akademiyasının üzvü olmuşdur. Alimin adına "Friş medalı" təsis edilmişdir.

1978-ci ildə alimin şərəfinə "Ekonometrik Cəmiyyət", "Friş medalı" təsis olunmuşdur.

R.Friş 31 yanvar 1973-cü ildə 77 yaşında Osloda vəfat etmişdir.

## Yan Tinbergen



Yan Tinbergen (*1903-1994*) - Niderland iqtisadçısı.

12 aprel 1903-cü ildə Niderlandın Haaqa şəhərində anadan olmuşdur. 1926-cı ildə Leyden Universitetinin (*Leiden University*) fizika fakültəsini bitirmişdir. 1926-cı ildə fizika üzrə doktor elmi dərəcəsi almışdır. Millətlər Liqasında iqtisadi ekspert vəzifəsində çalışmış, Amsterdam Univesitetində (*University of Amsterdam*) mühazirələr oxumuşdur. 1933-cü ildə Rotterdam Universitetinin (*Erasmus University Rotterdam*) professoru olmuş, 1945-ci ildən Haaqa Mərkəzi Statistika Bürosunun prezidenti vəzifəsində çalışmış, 1947-ci ildə Ekonometrik Cəmiyyətin prezidenti seçilmişdir. 1966-cı ildə BMT-nin Planlaşdırma Komitəsinə rəhbərlik etmişdir. 1975-ci ildə istefaya çıxaraq Niderland İqtisadiyyat Məktəbində (*Netherlands School of Economics*) professor kimi fəaliyyət göstərmiş, "İqtisadi təhlilə töhfələr" (*Contributions to Economic Analysis*) adlı jurnal dərc etdirmişdir.

Y.Tinbergen iqtisadi tsikllərə statistik metodların tətbiqi, inkişaf etməkdə olan ölkələrdə iqtisadi proseslərin makroiqtisadi modelləşməsi, habelə bir sıra qlobal problemlərin qoyuluşu və həlli istiqamətindəki səyləri ilə də tanınmışdır.

Əsas elmi əsərləri:

1. İnvestisiyalaşmada metod və ona əlavələr (*A Method and its application in investment activity. - 1939*);
2. ABŞ-da işgüzar fəallığın tsiklləri (*Business cycles in USA. - 1939*);
3. İşgüzar fəallıq nəzəriyyəsinin statistik yoxlanışı (*Statistical testing of business cycle theories. - 1939*);

4. İqtisadi siyasət nəzəriyyəsi (*The Theory of economic policy. - 1952*);

5. İqtisadi siyasət: prinsip və formalar (*Economic policy: principles and design. - 1956*);

6. Gəlirlərin bölgüsü: təhlil və idarəetmə (*Income distribution: Analysis and policies. - 1975*);

7. Sülh və savaş: sosioiqtisadi siyasətin təhlükəsizliyinə daxil edilən suallar (*Warfare and welfare: Integrating security policy into socio-economic policy. - 1987*).

Y.Tinbergen Çili, Suriya, İraq, Liviya və digər ölkələrin hökumətlərinin iqtisadiyyat üzrə məsləhətçisi olmuşdur. O, 1975-ci ildə Roma klubu ilə əməkdaşlıq edərək özünün qlobalistika haqqında "Beynəlxalq qaydaqoymanın yeni formaları" (*Reshaping the international order. - 1976*) adlı məşhur monoqrafiyasını yazmışdır.

Nobel mükafatından başqa Y.Tinbergen 1967-ci ildə Avropa Mədəniyyət Fondunun (*European Cultural Foundation*) mükafatını və iyirmidən çox müxtəlif universitet və kolleclərin fəxri elmi dərəcələrini almışdır.

Y.Tinbergenin qardaşları da dünyanın görkəmli alimləri sırasıda olmuşlar. Kiçik qardaşı Niko Tinbergen (*1907-1988*) məşhur etoloq (*zoologiya*) kimi 1973-cü ildə tibb sahəsində Nobel mükafatına layiq görülmüşdür. Digər kiçik qardaş Lük Tinbergen (*1915-1955*) də məşhur ornitoloq (zoologiya) kimi tanınır.

Y.Tinbergen 9 iyun 1994-cü ildə 91 yaşında Haaqada vəfat etmişdir.

■ **1970-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "Statik və dinamik iqtisadi nəzəriyyədə və iqtisadiyyat elmində təhlil səviyyəsinin yüksəldilməsində fəal çalışdığı elmi işə görə" ABŞ iqtisadçısı Pol Samuelson** *(Paul Anthony Samuelson)* **layiq görülmüşdür.**

## Pol Samuelson



Pol Antoni Samuelson (*1915-2009*) - ABŞ iqtisadçısı.

15 may 1915-ci ildə ABŞ-ın İndiana ştatında Geri şəhərində Polşadan köç etmiş yəhudi ailəsində anadan olmuşdur. 1935-ci ildə Çikaqo Universitetini bitirmişdir. Harvard Universitetində və Massaçusets Texnologiya İnstitutunda işləmişdir. 1941-ci ildə Harvard Universitetində doktorluq dərəci almış (*Ph.D.*), 1947-ci ildə Massaçusets Texnologiya İnstitutunun professoru olmuşdur. II Dünya müharibəsi illərində və ondan sonrakı dövrlərdə bir sıra dövlət müəssisələrində, o cümlədən Maliyyə Nazirliyində planlaşdırma işində çalışmışdır. P.Samuelson məşhur RAND korporasiyasında, Federal Ehtiyat Bankında (*Federal Reserve Bank*) müşavirlik etmiş, 1960-cı illərin əvvəlrində isə ABŞ prezidentləri Con Kennedi (*1917-1963*) və Lindon Consonun (*1908-1973*) məsləhətçisi olmuşdur.

P.Samuelsonun əsas elmi nailiyyətləri qiymətin formalaşması, tələb və təklif arasında qarşılıqlı əlaqənin təhlilinə riyazi metodları tətbiq etməsi ilə bağlıdır. O, ekonometrika, makroiqtisadiyyat, iqtisadi artım və tarazlıq nəzəriyyələri sahəsində də önəmli tədqiqatların müəllifidir. P.Samuelson bir çox elmi əsərləri, monoqrafiyaları, dərslikləri bestsellerə çevrilmişdir.

Əsas elmi əsərləri:

1. İqtisadiyyat: təhlilə giriş (*Economics: An Introductory Analysis. - 1948*);
2. İqtisadi təhlilin əsasları (*Foundations of Economic Analysis. - 1947*);
3. Xətti planlaşdırma və iqtisadi təhlil (*Linear Programming and Economic Analysis. - 1958; P.Drofman və R.Solou ilə müştərək*);
4. Makroiqtisadiyyat (*Macroeconomics. - 1995*);
5. Mikroiqtasidiyyat (*Microeconomics. - 1995*);
6. İqtisadiyyat (*Economics. - 2006; U.Nordhosla müştərək*).

İqtisadiyyat sahəsində Nobel mükafatı alan ilk amerika iqtisadçısı kimi P.Samuelson həm də termodinamikanın riyazi aparatını iqtisadi hadisələrin tədqiqinə uyğunlaşdıran ilk iqtisadçıdır.

P.Samuelson 2003-cü ildə ABŞ prezidenti (*2001-2009*) kiçik Corc Uoker Buşun (*1946*) vergilərin ixtisarı ilə bağlı düşünülməmiş qərarına etiraz ərizəsinə imza atan 10 Nobel laureatı arasında olmuşdur.

P.Samuelson 1952-ci ildə Ekonometrik Cəmiyyətin, 1956-1959-cu illərdə Beynəlxalq İqtisadiyyat Assosiasiyasının (*International Economic Association*), 1961-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti kimi də fəaliyyət göstərmişdir. İqtisadiyyat və elm sahəsindəki əvəzsiz xidmətlərinə görə P.Samuelson 1947-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının Con Beyts Klark medalı (*John Bates Clark Medal*) və 1996-cı ildə ABŞ milli elm medalı ilə təltif olunmuşdur.

P.Samuelson 13 dekabr 2009-cu ildə 94 yaşında Belmont şəhərində (*ABŞ, Massaçusets ştatı*) vəfat etmişdir.

■ **1971-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "İqtisadi artımın sosial və iqtisadi strukturun, eləcə də inkişaf prosesinin bütövlükdə yeni və daha dərin anlaşılmasına gətirmiş empirik əsaslandırılmış şərhinə görə" ABŞ iqtisadçısı Saymon Kuznes** *(Simon Smith Kuznets)* **layiq görülmüşdür.**

## Saymon Kuznes



Saymon Smit Kuznes (*1901-1985*) - ABŞ iqtisadçısı.

30 aprel 1901-ci ildə Belarus Respublikasının Pinsk şəhərində yəhudi ailəsində anadan olmuşdur. İlk adı Semyon Abramoviç Kuznesdir. Xarkov Universitetinin hüquq fakultəsini bitirmişdir. 1921-ci ildə SSRİ-nin ümumittifaq həmkarlar təşkilatının Cənub bürosunda əmək bölməsində statist kimi çalışmışdır. Burada özünün "Xarkov şəhərinin 1920-ci ildə fabrik-zavod sənayesinin fəhlə və qulluqçularının pullu əmək haqqı" adlı ilk işini nəşr etdirmişdir. 1922-ci ildə ABŞ-a köçərək, Kolumbiya Universitetinə daxil olmuş və 1926-cı ildə burada iqtisadiyyat üzrə doktor elmi dərəcəsi almışdır. 1930-cu ildə İqtisadi Tədqiqatlar Milli Bürosunda işləməklə ABŞ milli gəlirinin hesablanması ilə məşğul olmuşdur. 1931-ci ildə Pensilvaniya, 1954-cü ildə Conson Hopkins, 1960-cı ildə isə Harvard universitetlərinin professoru olmuşdur. 1949-cu ildə ABŞ hökuməti yanında Sosial Elmlərin Tədqiqi Şurası İqtisadi İnkişaf Komitəsinin sədri təyin edilmişdir. S.Kuznes, eyni zamanda, 1950-ci illərdə İsrail, 1960-cı illərdə isə Çin hökumətlərində iqtisadiyyat üzrə məsləhətçi olmuş, 1954-cü ildə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti kimi fəaliyyət göstərmişdir.

S.Kuznes milli gəlir və milli məhsulun hesablanması, iqtisadi inkişafın və onun tsikllərinin bölgü ilə rabitədə statistik tədqiqat sahəsində elmi işləri ilə məşhurdur. Onun tədqiqatları nəhəng empirik materialın cəlb olunması və uzun dövri mərhələləri əhatə etməsi ilə fərqlidir. Alim həmçinin müxtəlif ölkələrin iqtisadi inkişafının müqayisəli tarixi tədqiqini aparmışdır. İqtisadiyyatda iqtisadi artımın sürətli və zəif tərəddüdlü iyirmiillik dövrünü ifadələndirən "Kuznes tsikli" adlı anlayış ümumi qəbul edilmişdir.

Əsas elmi əsərləri:

1. 1919-1938-ci illərdə milli gəlir və onun strukturu (*National income and its composition: 1919-1938. - 1941*);

2. İqtisadiyyatda dəyişikliklər (*Economic change. - 1953*);

3. Amerka iqtisadiyyatında kapital: onun formalaşması və maliyyələşməsi (*Capital in the American economy: Its formation and financing. - 1961*);

4. Müasir iqtisadi artım (*Modern economic growth. - 1966*);

5. Milləti iqtisadi artımı. Məcmui məhsul və istehsalın strukturu (*Economic growth of nations: Total output and production structure.- 1971*);

6. Artım və struktur dəyişiklikləri" (*Growth and structural shifts. - 1979*);

7. İqtisadi inkişaf, ailə və gəlirlərin bölgüsü (*Economic development, the family, and income distribution. - 1989*).

S.Kuznes Nobel laureatçısı olmaqla yanaşı, bir çox digər təltif və mükafatlara da layiq görülmüşdür. İqtisadiyyat və elm sahəsindəki əvəzsiz xidmətlərinə görə o, 1977-ci ildə Frensis Uoker adına medalla təltif olunmuşdur.

S.Kuznes 8 avqust 1985-ci ildə 84 yaşında Kembric şəhərində (*ABŞ, Massaçusets ştatı*) vəfat etmişdir.

■ **1972-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına Böyük Britaniya iqtisadçısı Con Hiks** *(Sir John Richard Hicks)* **və ABŞ iqtisadçısı Kennet Errou** *(Kenneth Joseph Arrow)* **"Ümumi iqtisadi tarazlıq və rifah nəzəriyyəsinə verdiyi yeni töhfələrə görə" layiq görülmüşlər.**

## Con Hiks



Ser Con Riçard Hiks (*1904-1989*) - Böyük Britaniya iqtisadçısı.

8 aprel 1904-cü ildə İngiltərənin kiçik Liminqton şəhərində anadan olmuşdur. İlk təhsilini Klifton kollecində almış, sonradan təhsilini Oksforddakı Beyllion kollecində davam etdirmişdir. Oksforddakı təhsili vaxtı C.Hiksin siyasətə, fəlsəfəyə və iqtisadiyyata maraq göstərmişdir. Akademik keyfiyyətləri onun gələcəkdə hansısa nailiyyətlər qazanacağına əsas vermirdi. Bunu sonradan özü də etiraf etmişdir. Belə ki, o təhsilini ikinci dərəcəlilər səviyyəsində başa vurmuşdur. Lakin iqtisadçılara olan tələbin yüksəlməsi və C.Hiksin bu sahəyə marağının artması onun 1926-cı ildə London İqtisad Məktəbinin (*London School of Economics*) dinləyici olmasını şərtləndirmişdir. Əvvəlcə əməyin iqtisadiyyatı üzrə ixtisaslaşmış, sonra isə riyazi bilikləri onun iqtisadi nəzəriyyə sferasına keçməsinə zəmin yaratmışdır. Tezliklə C.Hiks ümumi tarazlıq nəzəriyyəsinin yaradıcısı, XIX əsr fransız iqtisadçısı Leon Varlasın və həmin əsrin məşhur italyan iqtisadçısı, rifah iqtisadiyyatının təməlçilərindən olan Vilfredo Paretonun (*1848-1923*) təsiri altına düşmüşdür.

C.Hiks 1926-1935-ci illərdə ildə London İqtisad Məktəbində dərs demiş, 1935-1946-cı illərdə Mançester Universitetinin (*The*

*University of Manchester*) professoru olmuş, oradan da yenidən Oksforda qayıtmış, burada Naffild kolecində işləmiş, 1952-ci ildə Oksford Universitetinin (*University of Oxford*) professoru, 1965-ci ildən istefaya gedənə qədər isə Oksfordda Ol-Soulz kollecinin fəxri professoru olmuşdur.

1950-1960-cı illərdə C.Hiks həyat yoldaşı ilə birlikdə Birtaniya hökümətində vergi siyasəti məsələləri üzrə məsləhətçi funksiyasını yerinə yetirmiş, krallığın istiqlaliyyət əldə etmiş bir sıra ölkələrində iqtisadi məsələlərin tənzimlənməsinə cəlb olunmuşlar.

C.Hiks bir iqtisadçı olaraq özünün mikroiqtisadiyyat, xüsusilə də, dəyər nəzəriyyəsi sahəsindəki tədqiqatları ilə məşhurlaşmışdır. Bununla belə, həmkarları onu nəzəriyyənin praktiki olaraq bütün istiqamətləri üzrə fikir bildirmək qabiliyyətli iqtisadçılar nəslinə aid etmişlər.

Əsas elmi əsərləri:

1. Əməkhaqqı nəzəriyyəsi (*The Theory of Wages. - 1932*);
2. Dəyər və kapital (*Value and capital. an inquiry into some fundamental principles of economic theory. - 1939*);
3. Ticarət tsikli nəzəriyyəsinə töhfə (*A contribution to the theory of the trade cycle. - 195*);
4. Dünya iqtisadiyyatı haqqında oçerklər (*Essays in world economics. - 1959*);
5. Pul nəzəriyyəsi haqqında tənqidi oçerklər (*Critical essays on monetary theory. - 1967*);
6. İqtisadi tarix nəzəriyyəsi (*A theory of economic history. - 1969*);
7. Keynsçi iqtisadi nəzəriyyənin böhranı (*The crisis in keynesian economics. - 1975*);
8. İqtisadi perspektivlər. Pullar və iqtisadi artım haqqında yeni oçerklər (*Economic perspectives. further essays on money and growth. - 1977*);

9. İqtisadiyyatda səbəblər (*Causality in economics. - 1979*).

C.Hiks Nobel mükafatı laureatı olmaqla yanaşı, bir sıra digər mükafat və adlara da layiq görülmüşdür. O, Britaniya Elmlər Akademiyası (*The British Academy*), İsveç Kral Akademiyası (*Swedish Royal Academies*), İtaliya Milli Elmlər Akademiyası, habelə Amerika Sənət və Elmlər Akademiyasının üzvü olmuşdur. C.Hiks 1960-1962-ci illərdə Kral İqtisadi Cəmiyyətinin prezidenti olmuş, 1954-cü ildə ali zadəgan titulu almışdır.

C.Hiks 20 may 1989-cu ildə 85 yaşında İngiltərədə Blokli şəhərində vəfat etmişdir.

## Kennet Errou



Kennet Cozef Errou (*1921-2017*) - ABŞ iqtisadçısı.

23 avqust 1921-ci ildə Nyu-Yorkda Rumıniyadan köç etmiş yəhudi ailəsində anadan olmuşdur. K.Errou Nyu-York Şəhər Kollecində 19 yaşında təhsilini başa vurduqdan sonra ictimai elmlər üzrə ilk elmi dərəcəsini, bir ildən sonra isə Kolumbiya Universitetində riyaziyyat üzrə ikinci elmi dərəcəsini almışdır. Kolumbiya Universitetində ona iqtisadiyyat fakültəsində oxumaq təklif edilmiş və o, burada iqtisadi statistika ilə məşğul olmağa başlamışdır. II Dünya müharibəsi onun təhsil almasında fasilə yaratmış və K.Errou 1942-1946-cı illərdə kapitan rütbəsində hərbi meteoroloq kimi çalışmışdır. Müharibədən sonra 1946-1949-cu illərdə K.Errou Çikaqo Universitetində ABŞ və Avropanın bir sıra görkəmli iqtisadçılarının da cəlb olunduğu İqtisadi Tədqiqatlar Komissiyası (*"Kouls komissiyası"*) ilə əməkdaşlıq etmişdir. Bununla yanaşı,

o, eyni zamanda Kolumbiya Universitetində təhsilini başa vurmuş, "Rend korporeyşn" şirkətində strateji tədqiqatlarla məşğul olmuş və 1948-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1948-1968-ci illərdə K.Errou Kaliforniya ştatının Stenford Universitetində, 1968-ci ildən sonra isə Harvard Universitetində iqtisadiyyat professoru olmuş, eyni zamanda, Avstriyanın Vyana və İngiltərənin Kembric universitetlərində də işləmişdir. O, hökumətin iqtisadi məsləhətçiləri şurası ilə əməkdaşlıq etmiş, həmçinin, qeyri-hökumət təşkilatlarında və elmi cəmiyyətlərdə çalışmışdır.

K.Errounun tədqiqat maraqları olduqca genişdir. Onun fəaliyyət sistemi ciddi elmi aparatın aktual mövzularla uzlaşması ilə fərqlidir. K.Errounun tədqiqatları sosiologiya ilə iqtisadiyyatın qovuşması, riyazi metodlardan geniş isifadə ilə xarakterikdir. Sayı 100-ü aşmış elmi işləri sırasında bazar tarazlığı nəzəriyyəsi, sosial müdafiə məsələləri, iqtisadi qərarların optimallaşdırılması, tibbi sığorta, statistika, informasiyanın iqtisadi problemləri - siqnal nəzəriyyəsi, informasiyadan mənəvi zərər, onun cəmiyyətə müsbət və mənfi təsirləri kimi mövzular mühüm yer tutur.

Əsas elmi əsərləri:

1. İctimai seçim və fərdi dəyərlər (*Social choice and individual values. - 1951*);
2. Xətti və qeyri-xətti proqramlaşdırmanın tədqiqi (*Studies of linear and nonlinear programming. - 1958*);
3. Öyrənmənin təcrübədən keçən iqtisadi mahiyyəti (*The economic implication of learning by doing. - 1962*);
4. Riskli qərarların qəbul edilməsi nəzəriyyəsi üzrə oçerklər (*Essays on the theory of risk bearing. - 1963*);
5. Dövlət investisiyaları, mənfəət norması və optimal vergi siyasəti (*Public investment, the rate of return, and optimal fiscal policy. - 1970*).

K.Errou 1957-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının Con Beyts Klark medalı ilə təltif edilmiş, Amerika Milli Akademiyasının (*National Academy of Sciences*), Amerika Fəlsəfə Cəmiyyətinin (*American Philosophical Society*), Finlandiya Elmlər Akademiyasının (*Finnish Academy of Science and Letters*), Britaniya Elmlər Akademiyasının, Amerika Statistika Assosiasiyasının (*American Statistical Association*), Amerika Sənət və Elmlər Akademiyasının üzvü, 1956-cı ildə Ekonometrik Cəmiyyətin, 1972-ci ildə isə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti olmuşdur. O, həmçinin bir sıra Amerika universitet və kolleclərinin də fəxri doktorudur.

K.Errou 21 fevral 2017-ci ildə 95 yaşında Palo-Alto şəhərində (*ABŞ, Kaliforniya ştatı*) vəfat etmişdir.

■ **1973-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatını ABŞ iqtisadçısı Vasili Leontyev** *(Васи́лий Васи́льевич Лео́нтьев)* **"Giriş-çıxış təhlili və cədvəllərinin inkişaf etdirilməsi, bunların iqtisadi problemlərə tətbiq edilməsindəki töhfəsinə görə" almışdır.**

## Vasili Leontyev



Vasili Vasilyeviç Leontyev (*1905-1999*) - ABŞ iqtisadçısı.

1905-ci ildə Münhendə yəhudi kökənli ailədə anadan olmuşdur (*Nobel mükafatının təqdim olunma mərasimində doğulduğu tarix və yer 1906-cı il Sankt-Peterburq olaraq bildirilmişdir)*. Onun uşaqlıq illəri Petroqradda keçmişdir. 1925-ci ildə V.Leontyev Leninqrad Universitetində fəlsəfə və sosiologiyanı öyrənmişdır. Sonradan Berlində iqtisad elmlərini öyrənməklə məşğul olmuş və burada da dissertasiya müdafiə edərək iqtisad elmləri doktoru alimlik dərəcəsi almışdır. 1928-ci ildə o, dəmir yolu nazirinin məsləhətçisi işləmək üçün Çinə dəvət olunmuşdur. Gənc alimin qarşısında Çin dəmir yolunun və burada yükdaşımalar sisteminin optimal variantını hesablamaq vəzifəsi qoyulmuşdur. 1931-ci ildə V.Leontyev ABŞ-a gəlmiş və görkəmli iqtisadçı və statist, Harvard məktəbinin nümayəndəsi Uesli Mitçellin (*1874-1948*) rəhbərlik etdiyi iqtisadi tədqiqatlar üzrə milli büroda çalışmışdır. Burada bir qədər işlədikdən sonra testdən keçərək Harvard Universitində fəaliyyətini davam etdirmişdir. 1932-ci ildə Amerika vətəndaşı ilə ailə qurmaqla bu ölkədə vətəndaşlıq hüququ əldə etmişdir.

V.Leontyev II Dünya müharibəsi dövründə ABŞ prezidenti Franklin Ruzveltin (*1882-1945*) hökumətində məsləhətçi olmuşdur. Onun rəhbərliyi ilə Almaniya iqtisadiyyatı üçün “xərclər-buraxılış” matrisası hazırlanmışdır. Bu matrisa hərbi hava qüvvələrinin hədəf seçimi üçün əsas olmuşdur.

V.Leontyev 1930-cu illərdə sahələrarası əlaqələrin öyrənilməsi, iqtisadiyyatın strukturu və sahələrarası balansın qurulması üzrə iqtisadi-riyazi təhlilin “xərclər-buraxılış” metodunu işləmişdir. Bu metoddan təcrübədə iqtisadiyyatın proqnozlaşdırılması və proqramlaşdırılması istiqamətində geniş istifadə olunur. Bu metod iqtisadi sistemi xətti funksiyalar formasına keçirməklə onun sektorları arasında qarşılıqlı əlaqəni təsvir etməyə imkan verir. Bu əsasda iqtisadiyyatı 41 sektora bölməklə ABŞ-ın ilk sahələrarası balansı tərtib olunmuşdur. Sonrakı işlər statik və dinamik modellərin daha çoxsaylı detallaşması, regionlararası əlaqələrin təsviri istiqamətində aparılmışdır.

Onun ən çox tanınan tədqiqatları giriş-çıxış təhlili və cədvəlləridir.

Əsas elmi əsərləri:

1. Amerika iqtisadiyyatının strukturu (*The Structure of American Economy. -1941*);
2. “Xərclər-buraxılış” iqtisadiyyatı (*Input-output economics. -1966*);
3. İqtisadi esselər: nəzəriyyələr və nəzəriyyələşdirmələr (*Essays in Economics: Theories and Theorizing. - 1966*)
4. Dünya iqtisadiyyatının gələcəyi (*The Future of the World Economy. - 1977; E.Karter və P.Petri ilə müştərək*).

V.Leontyev asudə vaxtlarında yelkənli qayıqsürmə idmanı ilə məşğul olmuşdur. Onun Sovetlər İttifaqına gəlişində planlı iqtisadiyyatla bağlı məşhur kəlamı da bu hobbi sferasından çıxan ter-

minologiya ilə yadda qalmışdır: "Sizin planlı iqtisadiyyatın yelkənində daha çox rəqabət küləyi olsun".

V.Leontyev 1954-cü ildə Ekonometrik Cəmiyyətin, 1970-ci ildə isə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti seçilmiş, Brüssel, Leninqrad, Paris universitetlərinin doktoru, Rusiya Elmlər Akademiyasının (*Russian Academy of Sciences*) akademiki, B.Harms mükafatı laureatı olmuş, Yaponiya və Fransanın ali ordenləri ilə təltif edilmişdir.

V.Leontyev 5 fevral 1999-cu ildə 93 yaşında Nyu-York şəhərində (*ABŞ, Nyu-York ştatı*) vəfat etmişdir.

■ **1974-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatı “pul, iqtisadi titrəyişlər və bunların iqtisadi, sosial və təşkilati bağlılıqlarını öyrənən tədqiqatlarına görə” İsveç iqtisadçısı Qunnar Mürdala** *(Karl Gunnar Myrdal)*, **eyni zamanda, Avstriya və Böyük Britaniya iqtisadçısı Fridrix fon Hayekə** *(Friedrich August von Hayek)* **verilmişdir.**

## Qunnar Mürdal



Karl Qunnar Mürdal (*1898-1987*) - İsveç iqtisadçısı.

6 dekabr 1898-ci ildə İsveçin Solvarbo kəndində anadan olmuşdur. 1923-cü ildə hüquqşünas diplomu ilə Stokholm Universitetini (*Stockholm University*) bitirmiş və bununla kifayətlənməyərək təhsi- lini iqtisadiyyat sahəsi üzrə davam etdirmişdir. 1927-ci ildə iqtisadiyyat üzrə doktor elmi dərəcəsi alaraq, 1928-ci ildə Stokholm Universitetinin professoru olmuşdur. Rokfeller Fondunun təqaüdçüsü kimi o, “Böyük depressiya”dan bir gün öncə ABŞ-a gəlmiş və bu hadisənin şahidinə çevrilərək iqtisadi siyasətə təsir göstərmək niyyətləri nümayiş etdirmişdir. 1938-ci ildə ABŞ-da zəncilərin vəziyyətini öyrənən alimlər qrupuna başçılıq etmişdir. Alman nasistlərinin Norveçə hərbi müdaxiləsindən sonra, 1943-cü ildə Q.Mürdal İsveçin ABŞ-dakı səfirliyində iqtisadiyyat üzrə məsləhətçi vəzifəsinə təyinat almış, müharibə bitdikdən sonra, 1947-1957-ci illərdə isə BMT-nin Avropa üzrə iqtisadi komissiyasının icraçı katibi işləmişdir. Bundan sonra isə o, İsveçin Hindistanda səfiri olan həyat yoldaşının yanına köçmüş və 10 il ərzində Asiya-nın az inkişaf etmiş ölkələrinin problemlərini araşdırmışdır. Vətənə qayıtdıqdan sonra Q.Mürdal elmi tədqiqatlarını davam etdir-

mişdir. 1973-1974-cü illərdə o, Kaliforniya Universitetində, sonra isə Nyu-York Universitetində fəxri tədqiqatçı kimi çalışmışdır.

Q.Mürdal Stokholm makroiqtisadi məktəbinin yaradıcısı, "Kumulyativ səbəbkarlıq" konsepsiyasının müəllifi kimi məşhurdur. O, pul tarazlığı, demoqrafiya, ABŞ-da irqçi münasibətlər, yoxsulluq, səfalət, dünya iqtisadi sistemlərinin inteqrasiyası kimi məsələlərlə də hərtərəfli məşğul olmuşdur.

Əsas elmi əsərləri:

1. İqtisadi nəzəriyyənin inkişafında siyasi amil. (*The political element in the development of economic theory. - 1930*);

2. Pul tarazlığı (*Monetary equilibrium. - 1939*);

3. Bir Amerika dilemması: zəncilik problemi və müasir demokratiya (*An American dilemma: the negro problem and modern democracy. - 1944*);

4. Müharibədən sonrakı optimizmə əks xəbərdarlıq (*Varning för fredsoptimism. - 1944*);

5. Beynəlxalaq iqtisadiyyat: problemlər və perspektivlər (*An international economy, problems and prospects. - 1956*);

6. Dövlət firavanlığının arxasında: iqtisadi planlaşdırma və onun beynəlxalq nəticələri (*Beyond the welfare state: economic planning and its international implications. - 1960*);

7. Asiya dramı: xalqların yoxsulluğunun tədqiqi (*Asian drama: an inquiry into the poverty of nations. - 1968*);

8. Axına qarşı (*Against the stream: critical essays on economics. - 1973*);

9. Siyasi və institusional iqtisadiyyat (*Political and institutional economics. - 1979*).

Q.Mürdal universitetdə oxuyarkan Alve Reymer adlı tələbə qızla ailə həyatı qurmuş, sonradan bu xanım Alve Mürdal (*1902-1986*) adı ilə İsveç diplomatı və siyasətçisi, dünya şöhrətli sosioloq olaraq 1982-ci ildə Nobel sülh mükafatına layiq görül-

müşdür. A.Mürdal Britaniya Elmlər Akademiyasının, Amerika Elmlər Akademiyasının, İsveç Kral Elmlər Akade-miyasının üzvü olmuş, Amerika və Avropanın 30-dan çox universitetinin fəxri üzvlüyünə layiq görülmüşdür. Q.Mürdal 1970-ci ildə xanımı A.Mürdalla birlikdə AFR hökumətinin Beynəlxalq sülh mükafatına layiq görülmüşdür. Bununla yanaşı, Q.Müurdal 1974-cü ildə Amerika iqtisadçı alimlərindən ibarət xüsusi komitə tərəfindən bəşəriyyətin rifahının yaxşılaşmasına səbəb olan siyasi iqtisadiyyata töhfə verən Frenk Seydman (*Frank E. Seidman Distinguished Award in Political Economy*), 1975-ci ildə "Amerika Peşəkar Assosiasiyası" (*Society for Applied Anthropology - SfAA*) tərəfindən verilən "Bronislav Malinovskiy" və "Təkamül Assosiasiyası" (*Association for Evolutionary Economics, AFEE*) tərəfindən verilən "Veblen-Kommons" (*Veblen Commons Award*) mükafatları da almışdır.

Q.Mürdal 17 may 1987-ci ildə 88 yaşında Stokholmda vəfat etmişdir.

## Fridrix Hayek



Fridrix Avqust fon Hayek (*1899-1992*) - Avstriya və Böyük Britaniya iqtisadçısı.

8 may 1899-cu ildə Vyanada anadan olmuşdur. 1918-ci ildə Vyana Universitetinə daxil olmuş və burada 1923-cü ildə iqtisadiyyat üzrə doktor elmi dərəci almışdır. 1927-ci ildə Avstriya Dövlət İqtisadi Tədqiqatlar İnstitutunun (Austrian Institute of Economic Research) rəhbəri təyin edilmiş, 1929-1949-cu illərdə isə London İqtisad Məktəbinin professoru olmuşdur. Bu müddətdə - 1938-ci ildə o, Britaniya vətəndaşlığını qəbul etmişdir.

F.Hayek 1950-1962-ci illərdə Çikaqo Universitetində, 1963-1968-ci illərdə Frayburq Universitetində (*University of Freiburg*) professor kimi çalışmış və 1968-ci ildə istefaya getmişdir.

F.Hayek çoxsaylı dəyərli əsərlər müəllifi olaraq elm tarixinə neoliberal baxışları təmsil edən məşhur iqtisadçı və filosof kimi daxil olmuşdur. O, neoavstriya iqtisadi məktəbinin (*monetarizm variantı*) nəhəng simalarındandır. F.Hayekin başlıca tədqiqatları ticarət tsikli, pul dövriyyəsi, qiymətqoyma və iqtisad elminin digər istiqamətlərini əhatə edir. O, "Öz-özünə əmələ gələn düzüm" və "Doğru davranış qaydası" nəzəriyyələrinin də yaradıcısıdır.

Əsas elmi əsərləri:

1. Pul nəzəriyyəsi və konyukturun nəzəriyyəsi (*Geldtheorie und Konjunkturtheorie. - 1929*);
2. Pul və istehsal (*Prices and production. - 1931*);
3. Xalis kapital nəzəriyyəsi (*The Pure theory of capita. - 1941*);
4. Qul olmaya gedən yol (*The Road to serfdom. - 1944*);
5. Azadlıq konstitusiyası (*Constitution of libert. - 1960*);
6. Hüquq, qanunvericilik və azadlıq (*Law, legislation and liberty. - 1973-1979*);
7. İşsizlik və monetar siyasət: dövlət işgüzar tsiklin mənbəyi kimi (*Unemployment and monetary policy: Government as generator of the business cycle. - 1979*);
8. İqtisadi fikrin istiqaməti: siyasi iqtisad və iqtisadi tarixə dair oçerkləri (*The trend of economic thinking: essays on political economists and economic history. - 1991*).

F.Hayek bir çox digər dövlət və hökumət təltifləri də almış, Britaniya, Avstriya və Argentina elmlər akademiyalarının üzvü olmuşdur.

F.Hayek 23 mart 1992-ci ildə Almaniyanın Frayburq şəhərində 92 yaşında vəfat etmişdir.

■ **1975-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "Optimallaşdırma və resurslardan səmərəli istifadənin nəzəriyyəsindəki töhfəsinə görə" müştərək olaraq SSRİ iqtisadçısı Leonid Kantoroviç** *(Леони́д Вита́льевич Канторо́вич)* **və ABŞ iqtisadçısı Tyallinq Kupmans** *(Tjalling Charles Koopmans)* **layiq görülmüşlər.**

## Leonid Kantoroviç



Leonid Vitalyeviç Kantoroviç (1912-1986) - SSRİ iqtisadçısı.

1912-ci ildə Rusiyanın Sankt-Peterburq şəhərində yəhudi ailəsində anadan olmuşdur. Leninqrad Universitetini (*Saint Petersburg State University*) bitirmiş, 1934-cü ildə həmin universitetin professoru, bir il sonra isə elmlər doktoru olmuşdur. II Dünya müharibəsi illərində Hərbi Dəniz Mühəndisliyi Akademiyasında dərs demiş, müharibədən sonra isə Leninqrad Dövlət Universitetinin Riyaziyyat və Mexanika İnstitutunda şöbə müdiri vəzifəsində çalışmışdır.

L.Kantoroviç SSRİ dövlətinin intensiv sənaye və iqtisadi yüksəliş dövründə - 1930-cu illərdə özünün riyazi tədqiqatlarının nəticələrini təcrübədə tətbiq edilməsinə böyük səylər göstərmişdir. 1938-ci ildə faner fabrikində laboratoriyada məsləhətçi işləyərkən gənc alim riyazi metodlar əsasında avadanlıqların məhsuldarlığının maksimallaşdırılması sistemini işləmiş və onun tətbiqi ilə iqtisadi səmərəliliyin əldə olunmasını təmin etmişdir.

1948-ci ildə SSRİ dövlətinin başçısı İ.Stalinin sərəncamı ilə L.Kantoroviçin hesablayıcılar qrupu nüvə silahının hazırlanması prosesinə cəlb olunmuşdur. 1958-ci ildə isə universitetin riyazi hesablama kafedrasının müdiri olmuş və eyni zamanda, SSRİ

Elmlər Akademiyasının Steklov adına Riyazi Hesablama İnstitutunda da müvafiq şöbəyə rəhbərlik etmişdir. SSRİ Elmlər Akademiyasının Sibir bölməsinin yaradıcılarından biri kimi L.Kantoroviç 1960-cı ildə Novosibirsk şəhərində həmkarı, görkəmli SSRİ iqtisadçısı Vasili Sergeyeviç Nemçinovla (*1894-1964*) birlikdə "İqtisadi tədqiqatlar və planlaşdırmada riyazi və statistik metodların tətbiqi laboratoriyası"na rəhbərlik etmişdir. L.Kantoroviç həmçinin bu dövrdə Novosibirsk Universitetində də dərs demişdir. 1971-ci ildə o, Moskvaya qayıdaraq Dövlət Elm və Texnika Komitəsinin Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda çalışmış, 1976-cı ildə isə SSRİ Elmlər Akademiyasının Sistem Tədqiqatlar İnstitutunun direktoru olmuşdur.

L.Kantoroviçin tədqiqatları resursların optimal bölgüsü nəzəriyyəsi, istehsalın optimallaşdırılması və planlaşdırılmasına, xətti proqramlaşdırmaya, iqtisadi kibernetikaya, iqtisadi göstəricilər və qiymətqoymaya həsr edilmişdir. O, ilk elmi nəticələrini "Layihə çoxluqları" nəzəriyyəsində əldə etmişdir.

Əsas elmi əsərləri:

1. İstehsalın təşkili və planlaşdırılmasının riyazi metodları (*Математические методы организации и планирования производства. - 1939*);
2. Resursların daha yaxşı istifadəsinin iqtisadi hesablanması (*Экономический расчет наилучшего использования ресурсов. - 1959-1960*);
3. Optimal planlaşdırmanın dinamik modeli (*Динамическая модель оптимального планирования. - 1964*).

L.Kantoroviçin elmi fəaliyyəti çox yüksək qiymətləndirilmişdir. O, 1958-ci ildə SSRİ Elmlər Akademiyasının müxbir üzvü, 1964-cü ildə isə həqiqi üzvü - akademiki seçilmişdir. L.Kantoroviç Paris, Qlazko, Helsinki, Qrenobl, Nissı universitetlərinin fəxri elmi dərəcələrini almış, Amerika Sənət və Elmlər Akademi-

yasının üzvü, Budapeşt və Boston akademiyalarının fəxri doktoru olmuşdur. 1965-ci ildə akademik B.S.Nemçinovla və görkəmli SSRİ riyaziyatçısı, akademik Valentin Valentinoviç Novojilovla (*1910-1987*) birlikdə "Xətti proqramlaşdırma və iqtisadi modellər metodunun işlənməsinə" görə o zamankı SSRİ dövlətinin ən ali mükafatına - Lenin mükafatına, ondan əvvəl isə "Funksional təhlil işlərinə görə" Stalin mükafatına layiq görülmüşdür.

L.Kantoroviç 7 aprel 1986-cı ildə 74 yaşında Moskva şəhərində vəfat etmişdir.

## Tyallinq Kupmans



Tyallinq Çarliz Kupmans (*1910-1985*) - ABŞ iqtisadçısı və fiziki.

28 avqust 1910-cu ildə Niderlandda Qrevelend şəhərində anadan olmuşdur. 1934-cü ildə Niderlandın Utrexti Universitetini (*Utrecht University*) bitirmiş, 1936-cı ildə bu ölkənin Leyden Universitetində (*Leiden University*) "Müvəqqəti iqtisadi sıraların xətti reqressiv təhlili" (*Linear Regression Analysis of Economic Time-Series*) mövzusunda dissertasiya işinə görə doktor elmi dərəcəsi almışdır. T.Kupmans əvvəlcə özünü riyaziyyata həsr etmiş, sonra isə riyazi biliklərini iqtisadiyyatda tətbiq edərək iqtisad elminə yaradıcı töhfələr vermişdir. Rotterdam şəhərində Niderland İqtisadiyyat Məktəbində, Cenevrədə Millətlər Liqasında işləmiş, 1940-cı ildən sonra ABŞ-da Prinston Universitetində, Çikaqoda Koulz fondunda çalışmışdır. 1946-cı ildən ABŞ vətəndaşlığını qəbul etmiş, 1955-ci ildə burada Yel Universitetinin (*Yale University*) professoru olmuşdur. 1961-1967-ci illərdə T.Kupmans Koulz fondunun direktoru, 1978-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının

prezidenti postlarında işləmişdir. 1981-ci ildə isə Yel Universitetinin fəxri professoru seçilmişdir.

T.Kupmans mühüm elmi araşdırmaları rəqib bazarlar şəraitində resursların bölgüsünə, mikroiqtisadi nəzəriyyədə xətti proqramlaşdırma metodunun tətbiqinə, optimal artım meyarına, inkişafın proqramlaşdırılmasına həsr olunmuşdur. O, "resursların optimal bölgüsü nəzəriyyəsi" sahəsindəki tədqiqatları ilə və "fəaliyyət növlərinin təhlili" konsepsiyasının müəllifi olaraq da məşhurdur.

Əsas elmi əsərləri:

1. Tankerin fraxt tarifi və neftdaşıma gəmilərinin quruluşu (*Tanker freight rates and tankship building. - 1939*);
2. Müxtəlif marşrutlarda yüklərarası nisbət (*Exchange ratios between cargoes on various routes. - 1942*);
3. İqtisadiyyatın dinamik modellərinin statistik yekunları (*Statistical inference in dynamic economic models. - 1950*);
4. Məhsulun hazırlanması və bölgüsü zamanı fəaliyyət növlərinin təhlili (*Activity analysis of production and allocation. - 1951*);
5. İqtisad elminin vəziyyəti haqqında üç oçerk (*Three essays on the state of economic science. - 1957*).

T.Kupmans Niderland Kral Elmlər Akademiyasının (*Netherlands Royal Academy of Sciences*), Amerika Riyaziyyat Cəmiyyətinin (*American Mathematical Society*), Amerika İqtisadçılar Assosiasiyasının, Amerika Elmin İnkişafına Yardım Assosiasiyasının (*The American Association for the Advancement of Scienc*) və Energetika sahəsi İqtisadçılarının Beynəlxalq Assosiasiyasının (*International Association for Energy Economics*) üzvü olmuşdur. Ona Niderland İqtisadiyyat Məktəbinin, Luven katolik, Şimal-Cənub və Pensilvaniya universitetlərinin fəxri elmi adları verilmişdir.

T.Kupmans 26 fevral 1986-cı ildə 74 yaşında (*ABŞ, Konnektikud ştatı, Nyu-Heyven şəhəri*) vəfat etmişdir.

■ **1976-cı ildə iqtisadiyyat sahəsində Nobel mükafatı "İstehlakın təhlili, pul tədavülünün tarixi və monetar nəzəriyyənin işlənməsi sahəsindəki nailiyyətlərinə və sabitləşmə siyasətinin mürəkkəbliyini nümayiş etdirdiyinə görə" ABŞ iqtisadçısı Milton Fridmana** *(Milton Friedman)* **verilmişdir.**

## Milton Fridman



Milton Fridman (*1912-2006*) - ABŞ iqtisadçısı.

31 iyul 1912-ci ildə ABŞ-da Bruklində (*Nyu-York*) Macarıstanın Bereqsas şəhərindən (indiki Ukraynanın Bereqova şəhəri) köç etmiş yəhudi ailəsində anadan olmuşdur. M.Fridmanın 16 yaşı olanda müsabiqə əsasında seçilərək Nyu-Cersi ştatındakı Rutqer Universitetinə (*Rutgers University*) qəbul olunmuşdur. 1932-ci ildə universiteti bitirərək birbaşa iki ixtisas - iqtisadiyyat və riyaziyyat üzrə bakalavr dərəcəsi almışdır. Burada oxuduğu zaman iki assistentin: gələcəkdə ABŞ Federeal Ehtiyatlar Sisteminin direktoru postuna qədər yüksələn amerikalı iqtisadçı və diplomat Artur Bernsin (*1904-1987*) və faiz dərəcələri nəzəriyyəsində məşhur avtoritet olacaq amerikalı iqtisadçı Homer Consun (*1906-1986*) təsir dairəsinə daxil olmuşdur. Çikaqo Universitetində 1933-cü ildə magistr dərəcəsi almışdır. Nyu-Yorkun Kolumbiya Universitetində doktorluq təcrübəsi keçərək bir ildən sonra yenidən Çikaqo Universitetinə qayıdaraq tədqiqatçı assistent olmuşdur. 1937-ci ildə o, ABŞ-ın Milli İqtisadi Tədqiqatlar Bürosunda məşhur iqtisadçı, Nobel mükafatı laureatı S.Kuznesin köməkçisi olmuşdur.

M.Fridman II Dünya müharibəsi dövründə - 1941-1943-cü illərdə ABŞ-ın Maliyyə Nazirliyində vergi sahəsində tədqiqatlar aparan qrupda çalışmışdır. Müharibənin sonuna qədər isə Kolumbiya Universitetində müharibə sferasında statistik tədqiqatlar aparan qrupun direktor müavini işləmiş və 1946-cı ildə burada iqtisadiyyat üzrə doktorluq dərəcəsi almışdır.

M.Fridman uzun illər Amerika İqtisadçılar Assosiasiyasının fəal üzvlərindən olmuş, 1967-ci ildə isə bu ittifaqın prezidenti seçilmişdir. O, 1971-ci ildə ABŞ prezidenti olmuş Riçard Niksona (*1913-1994*) məsləhətçi xidmətləri göstərmiş, 1977-ci ildə Stenford Universiteti nəzdində Quverov İnstitutunda böyük tədqiqatçı vəzifəsində çalışmışdır.

M.Fridman baxışları ilə iqtisadi təlimin ənənəvi konservativ qanadına deyil, daha çox klassik liberalizmin nümayəndələri - XVIII əsr şotland iqtisadçısı Adam Smit (*1723-1790*) və Con Stüart Milə yaxın olmuşdur. Buna görə də çox vaxt siyasi rəqibləri onu konservator kimi damğalamışlar. Onun baxışları marksistlər və antiqlobalistlər tərəfindən də kəskin tənqidə məruz qalmışdır. M.Fridmanı Avqusto Joze Raymon Pinoçet Uqarte (*1915-2006*) diktaturası (*1974-1990*) illərində Çilinin və Boris Nikolayeviç Yeltsinin (*1931-2007*) prezidentliyi dövründə (*1991-1999*) Rusiyanın iqtisadiyyatında baş vermiş neqativ təzahürlərə görə də suçlamışlar. Onun Nobel mükafatı alması da bir sıra peşəkar iqtisadçılar tərəfindən narazılıqla qarşılanmışdır. Bununla belə o, 8 iqtisad məktəbindən biri - monetarizmin, hələ ki, sonuncusunun banisi olmaqla yeganə Nobelçidir.

M.Fridman inanırdı ki, təqib etdiyi məqsədlər həqiqətən müasir liberal axının məqsədləri ilə ayrılmır. Pol Samuelson onu "iqtisadlı iqtisadçı" adlandırmışdır.

Əsas elmi əsərləri:

1. İstehlak funksiyası nəzəriyyəsi (*A theory of the consumption function. - 1957*);

2. ABŞ-da pul sisteminin qurulması (*A monetary history of the United States. - 1963; Anna Şvarsla müştərək*);

3. Birləşmiş Ştatların monetar statistikası (*Monetary statistics of the United States. - 1970*);

4. Birləşmiş Ştatların və Birləşmiş Krallığın monetar trendləri (*Monetary trends in the United States and the United Kingdom. - 1982*).

M.Fridman Nobel mükafatı ilə yanaşı, 1951-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının Con Beyts Klark adına medalı ilə təltif olunmuş, bir çox Amerika və xarici ölkə universitetləri və kolleclərinin fəxri elmi adlarını almışdır. Alimin şərəfinə 2002-ci ildən Amerikanın Kato İnstitutu (*Cato Institute*) tərəfindən "Azadlığı inkişaf etdirdiyinə görə Milton Fridman adına mükafat" verilir.

M.Fridman 16 noyabr 2006-cı ildə 94 yaşında San-Fransisko şəhərində (*ABŞ, Kaliforniya ştatı*) vəfat etmişdir.

■ **1977-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "Beynəlxalq ticarət və kapitalın beynəlmiləl hərəkəti nəzəriyyəsinə yenilikçi töhfələrinə görə", müştərək olaraq, İsveç iqtisadçısı Bertil Ulin** ***(Bertil Gotthard Ohlin)*** **və Böyük Britaniya iqtisadçısı Ceyms Mid** ***(James Edward Meade)*** **layiq görülmüşlər.**

## Bertil Ulin



Bertil Qottxard Ulin (*1899-1979*) - İsveç iqtisadçısı.

23 aprel 1899-cu ildə İsveçin Klippane kəndində anadan olmuşdur. B.Ulin 15 yaşında orta məktəbi bitirərək, İsveçin Lund Unversitetinə (*Lund University*) daxil olmuşdur. O, 1917-ci ildə burada bakalavr dərəcəsi alaraq Stokholm İqtisad Məktəbinə daxil olmuş və həmin məktəbi də bitirərək magistr diplomu almışdır. Təhsilini Stokholm Universitetində doktoranturada davam etdirmişdir. 1921-22-ci illərdə İsveçin hərbi-dəniz donanmasında hərbi xidmət keçərək yenidən Stokholm Universitetinə qayıtmışdır. 1924-cü ildə iqtisad doktoru elmi dərəcəsinə yiyələndikdən sonra Kopenhagen Universitetində (*University of Copenhagen*) professor vəzifəsinə təyinat almışdır. Onun "Regionlararası və beynəlxalq ticarət" mövzusunda yazdığı dissertasiya işi 1933-cü ildə ingilis dilinə tərcümə edildikdən sonra elm aləmində populyarlıq qazanmışdır.

B.Ulin elmi yaradıcılıqla yanaşı, ictimai-siyasi fəaliyyətlə də məşğul olmuşdur. O, 1938-ci ildə İsveç parlamentinə seçilmiş, 1944-1967-ci illərdə isə İsveç Liberal Partiyasının lideri olmuşdur. Bundan başqa, B.Ulin 1944-1945-ci illərdə İsveç koalisiya

hökumətində ticarət naziri postunu da tutmuşdur. 1969-1970-ci illərdə ölkəsini Avropa İqtisadi İttifaqında təmsil etmişdir.

B.Ulin tədqiqatları və siyasi fəaliyyəti ilə klassik liberalizmi sosial-demokrat siyasəti elementləri ilə uzlaşdırmaqla İsveç dövlətində rifahın yüksəlişinə təsir göstərmişdir. II Dünya müharibəsi bitdikdən sonra İsveç sosial-demokratları digər Nobel mükafatı laureatı (*1974*), görkəmli iqtisadçı Q.Mürdalın rəhbərliyi ilə plan iqtisadiyyatı tərəfdarı kimi çıxış edəndə onun əsas opponenti B.Ulin olmuşdur. 1948-ci ildə Liberal Partiyanın möhtəşəm qələbəsi ilə sosial-demokratlar özlərinin ənənəvi praqmatizminə qayıdaraq, yenidən özəl bizneslə əməkdaşlığa hazır olduqlarını bildirmişlər. Dövlət siyasətində ciddi baxış ayrılıqlarına baxmayaraq, B.Ulin və Q.Mürdal uzun illər dostluq əlaqələrini saxlamışlar. P.Samuelson bu dostluğu yüksək qiymətləndirərək, onlardan bütün dünya iqtisadçılarının nümunə götürməsini söyləmişdir.

Əsas elmi əsərləri:

1. Ticarət nəzəriyyəsi (*Hondelns teori. - 1924*);

2. Regionlararası və beynəlxalq ticarət (*Interregional and international trade. - 1933*);

3. Faiz dərəcələrinin alternativ nəzəriyyəsi (*Alternative theories of the rate of interest. - 1937*).

B.Ulin 1961-ci ildə İsveç Krallığının "Şimal ulduzu" ordeni ilə təltif olunmuş və Danimarka hökumətinin "Danneborq ordeni" mükafatçılarının sıralarına daxil edilmişdir. O, həmçinin digər beynəlxalq elmi dərcələrə də layiq görülmüşdür.

B.Ulin 3 avqust 1979-cu ildə İsveçin Volodalen şəhərində 80 yaşında vəfat etmişdir.

## Ceyms Mid



Ceyms Eduard Mid (*1907-1995*) - Böyük Britaniya iqtisadçısı.

23 iyun 1907-ci ildə Böyük Britaniyanın Dorset qraflığının Sounidse şəhərində anadan olmuşdur. Əvvəlcə Melvern kollecində təhsil alan C.Mid 1925-ci ildə Kembric Universitetinə daxil olmuş və 1928-ci ildə oranı bitirmişdir. Sonradan Oksford Universitetinə daxil olmuş və 1930-cu ildə burada təhsilini başa vuraraq ikinci dəfə bakalavr dərəcəsi almışdır. Həmin ildən başlayaraq C.Mid universitetdə dərs demiş və məşhur iqtisadçı alim Con Meynard Keynsin (*1883-1946*) ətrafında sıxlaşan "Kembric dərnəyi"nin aktiv üzvlərindən olmuşdur. Bu ərəfədə o, C.Keynsin ideyaları əsasında "İqtisadi təhlil və siyasətə giriş" (*An introduction to economic analysis and policy, Oxford University Press. - 1936*) adlı özünün ilk dərsliyini nəşr etdirmişdir.

C.Midin akademik karyerası 1938-ci ildə Cenevrəyə gələrək Millətlər Liqasında işləməklə qırılmışdır. 1940-cı ildə İngiltərəyə qayıdan C.Mid Britaniya hökumətində iqtisadçı-məsləhətçilər qrupuna rəhbərlik etmişdir. 1945-ci ildə Leyboristlər Partiyasının hakimiyyətə gəlişi ilə o, Britaniya Nazirlər Kabinetində iqtisadiyyat şöbəsinə rəhbər təyin olunmuş və 1947-ci ilədək bu vəzifədə çalışmışdır.

C.Mid 1947-1958-ci illərdə London İqtisad Məktəbində, 1957-1969-cu illərdə Kembric Universitetində dərs demiş və 1957-ci ildə Kembric Universitetinin siyasi iqtisad üzrə professoru olmuş və bu vəzifədə on il çalışmışdır. İstefaya getdikdən sonra o, Kembric Universitetinin Xrist kollecində böyük tədqiqatçı vəzifəsini özündə saxlayaraq aktiv elmi fəaliyyətini davam etdirmişdir.

1980-1981-ci illərdə isə Beynəlxalq Atlantik İqtisad Cəmiyyətinin (*The Internantional Atlantic Economic Society*) prezidenti kimi fəaliyyət gəstərmişdir.

Əsas elmi əsərləri:

1. Qiymətqoymanın planlaşdırılması və mexanizmi (*Planning and the price mechanism: the Liberal socialism solutio. - 1948*);
2. Beynəlxalq iqtisadi siyasətin nəzəriyyəsi (*The Theory of international economic policy. - 1951-1955*);
3. Gömrük ittifaqları nəzəriyyəsi (*The theory of customs unions. - 1955*);
4. İqtisadi artımın neoklassik nəzəriyyəsi (*A Neo-classical theory of economic growth. - 1961*);
5. Siyasi iqtisadın prinsipləri - 4 clddə (*Principles of political economy. - 1965-76*);
6. Staqflyasiya - 2 cilddə (*Stagflation. - 1982-83*).

C.Mid London İqtisad Məktəbinin, Oriel, Hartford (*Oksford Universiteti*) və Xrist (*Kembric Universiteti*) kolleclərinin, habelə Belçika Krallığının Siyasi İqtisad Cəmiyyətinin, Amerika Elmin İnkişafına Yardım Assosiasiyasının fəxri üzvü olmuşdur.

C.Mid 22 dekabr 1995-ci ildə 88 yaşında Böyük Britaniyanın Kembric şəhərində vəfat etmişdir.

■ **1978-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "İqtisadi təşkilatlar çərçivəsində qərarların qəbul edilməsi prosesinin yenilikçi tədqiqinə görə" ABŞ iqtisadçısı Herbert Saymon** *(Herbert Alexander Simon)* **layiq görülmüşdür.**

## Herbert Saymon



Herbert Aleksander Saymon (*1916-2001*) - ABŞ iqtisadçısı və sosioloqu.

15 iyun 1916-cı ildə ABŞ-ın Viskonsin ştatının Miluoki şəhərində yəhudi ailəsində anadan olmuşdur. Sosial elmlər sahəsində riyaziyyatçı alim olmaq məqsədi ilə o, 1933-cü ildə Çikaqo Universitetinə daxil olmuş, 1936-cı ildə oranı bitirərək politologiya üzrə bakalavr dərəcəsi almış, həmin ildən də Çikaqo şəhər bələdiyyəsi administrasiyasında assistent-tədqiqatçı işləməyə başlamışdır. 1938-1939-cu illərdə qısa bir müddət əzində Çikaqo Menecerlər Assosiasiyasında (*Employers' Association of Greater Chicago*) çalışan H.Saymon Kaliforniya Universitetində şəhər təsərrüfatı problemlərini öyrənən tədqiqatçılar qrupunun rəhbəri vəzifəsinə dəvət almış və üç il bu vəzifədə işlədikdən sonra doktoranturada təhsilini davam etdirmək üçün Çikaqo Universitetinə qayıtmışdır. 1942-1949-cu illərdə İllinoy Texniki İnstitutunda (Illinois Institute of Technology) öncə professor assistenti, sonra isə siyasi elmlər üzrə professor vəzifəsində çalışmışdır.

H.Saymon 1943-cü ildə Çikaqo Universitetində doktorluq dərəcəsi almışdır. O, 1948-ci ildə qısa müddətdə ABŞ hökumətində dövlət administrasiyası aparatında köməkçilərdən biri vəzifəsində çalışmışdır. 1949-cu ildə H.Saymon Pitsburq şəhərinə Karnegi-Mellon Universitetinə gələrək, burada əvvəlcə

idarəetmə, sonra isə hesablama və psixologiya elmləri üzrə professor vəzifəsində işləmişdir.

H.Saymon iqtisad elminə verdiyi ilk töhfələr sırasında iqtisadi sistemlərdə qərar qəbuletmə nəzəriyyəsi ilə bağlı tədqiqatları yer alır. Onun tədqiqatları hesablama texnikası və süni intellekt sahəsində kibernetikanın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. H.Saymon koqnitiv psixologiya və süni intellekt üzrə görkəmli amerikalı alim Allen Nyuello (*1927-1992*) ilə birlikdə süni intellektlə bağlı məşhur "Nyuella-Saymon" hipotezinin müəllifidir.

Əsas elmi əsərləri:

1. İnzibati davranış (*Administrative behavior. - 1947*);
2. İnsan modelləri (*Models of man. - 1957*);
3. Təşkilat (*Organization. - 1958*);
4. İnsan problemlərinin həlli (*Human problem solving.- 1972*).

H.Saymonun dünya elmi qarşısında xidmətləri çoxsaylı mükafatlarla qeyd olunmuşdur. Bunlar arasında 1975-ci ildə Hesablama Texnikası Assosiasiyasının (*Association for Computing Machinery, ACM*) "süni intellekt, insan qavrayışının psixoloji mexanizmi və siyahı emalında fundamental töhfələrinə görə" Türinq (*Turing Award*) mükafatı, 1986-cı ildə ABŞ-ın milli elm medalı (*National Medal of Science*), "psixologiyaya yüksək töhfələr verdiyinə görə" 1993-cü ildə Amerika Psixoloji Assosiasiyasının (*American Psychological Association, APA*) mükafatı vardır. H.Saymon Amerika İqtisadçılar Assosiasiyasının, Amerika Psixoloji Assosiasiyasının, Ekonometrik Cəmiyyətin, Amerika Milli Elmlər Akademiyasının üzvü olmuşdur. O, ABŞ-ın Çikaqo, Yel, Makgilla və Niderlandın Lunda universitetlərinin fəxri elmi dərəcələrinə layiq görülmüşdür.

H.Saymon 9 fevral 2001-ci ildə 84 yaşında Pitsburq şəhərində (*ABŞ, Pensilvaniya ştatı*) vəfat etmişdir.

■ **1979-cu ildə iqtisadiyyat sahəsində Nobel mükafatına ABŞ iqtisadçısı Teodor Şults** *(Theodore William Schultz)* **və Böyük Britaniya iqtisadçısı Vilyam Lüis** *(William Arthur Lewis)* **"İqtisadi inkişafa dair, xüsusən də, inkişaf etməkdə olan ölkələrin problemlərinə tətbiq edilə bilən yenilikçi tədqiqatlara görə" layiq görülmüşlər.**

## Teodor Şults



Teodor Uilyam Şults (*1902-1998*) - ABŞ iqtisadçısı.

30 aprel 1902-ci ildə Arlinqtonda (*ABŞ, Cənubi Dakota ştatı*) anadan olmuşdur. 1926-cı ildə Cənubi Dakota ştatındakı kolleci bitirərək bakalavr, 1926-cı ildə isə Viskonsin Universitetini (*Viskonsin ştatı*) bitirərək magistr dərəcəsinə yiyələnmişdir. Viskonsin Universitetinin doktoranturasında təhsilini davam etdirən T.Şults 1930-cu ildə iqtisadiyyat sahəsində kənd təsərrüfatı üzrə doktor dərəcəsi almışdır. Həmin ildən Ayova ştatının Eyms şəhərində kollecdə (*hazırda Ayova ştatının universiteti*) kənd təsərrüfatının iqtisadiyyatından dərs demişdir. Burada dörd il işlədikdən sonra sosiologiya kafedrasına rəhbər təyin edilmişdir. T.Şults 1943-cü ildə Çikaqo Universitetinin professoru olmuş və istefasına - 1972-ci ilə qədər burada işləmişdir. Universitetdə işlədiyi illər ərzində 1946-cı ildə əməkdar professor, 1952-ci ildə kafedra müdiri, 1960-cı ildə müqayisəli təhsil mərkəzin rəhbəri vəzifələrində çalışmış, 1972-ci ildə isə burada fəxri professor adını almışdır. O, həmçinin II Dünya müharibəsindən sonra Latın Amerikası, Asiya və Afrikanın bir sıra inkişaf etməkdə olan ölkələrinin

hökumətlərində məsləhətçi kimi müvafiq xidmətlər göstərmişdir. 1960-cı ildə həm də Amerika İqtisadçılar Assosiasiyasının prezidenti olmuşdur.

T.Şults Çikaqo Universitetində işlədiyi vaxtlarda kənd təsərrüfatının ümumi problemləri ilə daha yaxından məşğul olmağa başlamışdır. 1945-ci ildə özünün təşkil etdiyi "Dünya üçün ərzaq" konfransının materiallarında kənd təsərrüfatı və ərzaq məsələləri ilə bağlı tədqiqatlar genişliklə əksini tapmışdır. Daha çox iqtisadiyyatın inkişafı nəzəriyyəsi ilə tanınır.

Əsas elmi əsərləri:

1. Qeyri-sabit iqtisadiyyatda kənd təsərrüfatı (*Agriculture in an unstable economy. - 1945*);
2. Kənd təsərrüfatında iqtisadi düzülüş (*The economic organization of agriculture. - 1953*);
3. Təhsilin iqtisadi dəyəri (*The economic value of education. - 1963*);
4. Ənənəvi kənd təsərrüfatının yenidən təşkili (*Transforming traditional agriculture. - 1964*);
5. İqtisadi inkişaf və kənd təsərrüfatı (*Economic growth and agriculture. - 1968*);
6. İnsan kapitalına qoyuluşlar: təhsilin və elmi tədiqiqatların rolu (*Investment in human capital: the Role of education and of research. - 1971*);
7. İnsanlara investisiya qoyuluşları: əhalinin keyfiyyət iqtisadiyyatı (*Investing in people: the Economics of population quality. - 1981*).

T.Şults bir sıra digər mükafat və adlara da layiq görülmüşdür. O, 1972-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının Frensis Uolker medalı və 1976-cı ildə Beynəlxalq Kənd Təsərrüfatı Assosiasiyasının məşhur ingilis iqtisadçısı, aqronom Leonard

Elmhersun (*1893-1974*) şərəfinə təsis edilmiş medal ilə təltif olunmuşdur. T.Şults Amerika Milli Təhsil Akademiyasının yaradıcılarından biri, Amerika İqtisadçılar Assosiasiyasının, Amerika Milli Akademiyasının, Amerika Sənət və Elmlər Akademiyasının, Amerika Fəlsəfə Cəmiyyətinin üzvü olmuşdur. O, həmçinin İqtisadi tədqiqatlar üzrə Milli Büronun vitse-prezidenti, Kanadada inkişaf problemlərinin tədqiqi üzrə Beynəlxalq mərkəzin direktoru kimi də fəaliyyət göstərmiş və digər beynəlxalq elmi təsisatlarda müxtəlif rəhbər vəzifələrdə təmsil olunmuş və onların elmi adlarına layiq görülmüşdür.

T.Şults 26 fevral 1998-ci ildə 95 yaşında Evanston şəhərində (A*BŞ, İllinoys ştatı*) vəfat etmişdir.

## Vilyam Lüis



Vilyam Artur Lüis (*1915-1991*) - Böyük Britaniya iqtisadçısı.

23 yanvar 1915-ci ildə Karib dənizi hövzəsindəki Britaniyaya mənsub Vest-İndiyada, Sent-Lüis adasında anadan olmuşdur. 1929-cu ildə 14 yaşında orta məktəbi bitirmişdir. Yaşının az olması ilə əlaqədar və hökumət təqaüdü almaq üçün məmur kimi çalışmış və yaşı çatdıqdan sonra 1933-cü ildə London İqtisad Məktəbinə daxil olmuşdur. 1937-ci ildə buranı bitirərək kommersiya sahəsində bakalavr, 1940-cı ildə sənət magistri dərəcələri almışdır. London Unversitetində 8 il işləyərək doktor elmi dərəcəsinə yiyələnmiş, sonradan Mançester Unversitetinin siyasi iqtisad professoru olmuşdur. Universitetdə çalışmaqla yanaşı, V.Lüis həm də inkişaf etməkdə olan ölkələrdə BMT eksperti kimi, 1953-cü ildə Qızıl

Sahil (*hazırda Qana Respublikası*) və 1955-ci ildə Qərbi Nigeriya hökumətlərində iqtisadi məsələlər üzrə məsləhətçi vəzifələrində işləmişdir. 1957-1958-ci illərdə isə Qana Respublikası Baş nazirinin iqtisadi məsələlər üzrə məsləhətçisi olmuşdur. 1958-ci ildə Mançester Universitetini tərk edərək Vest-İndiyada universitet kollecinin direktoru vəzifəsinə keçmiş və 1962-ci ildə yenidən təşkil edilən bu universitetin ilk fəxri vitse-prezidenti olmuşdur. 1963-cü ildə Böyük Britaniya hökuməti ona zadəgan rütbəsi vermiş və V.Lüis Amerikaya gedərək Prinston Unversitetinin professoru vəzifəsində çalışmışdır. 1970-ci ildə V.Lüis ABŞ-dan gedərək Barbadosda Karib İnkişaf Bankının yaradıcısı və ilk prezidenti olmuşdur. 1973-cü ildə Prinstona qayıdaraq ömrünün son illərinə qədər burada işləmişdir.

Neoklassik təmayülün nümayəndəsi olaraq, V.Lüisin akademik fəaliyyəti 12 monoqrafiyanı, 10 rəsmi hesabatı, 70-dən çox elmi məqaləni əhatə edir. İlk elmi yaradıcılıq işləri Britaniya iqtisadiyyatının sənaye təşkilinə və dünya iqtisadiyyatı tarixinə həsr olunsa da, ona daha çox şöhrət gətirən tədqiqatları inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatı və iqtisadiyyatın inkişafı nəzəriyyəsinə verdiyi töhfələrlə bağlıdır.

Əsas elmi əsərləri:

1. İnkişafın planlaşdırılması: iqtisadiyyatın planlaşdırılmasının ilkin əsasları (*Development planning: the essentials of economic planning. - 1966*);
2. Nigeriyada iqtisadi artım haqqında düşüncələr (*Reflections on the economic growth of Nigeria. - 1967*);
3. İqtisadi inkişafın bəzi aspektləri (*Some aspects of economic development. - 1969*);
4. Tropik inkişaf, 1880-1913 (*Tropical development, 1880-1913. - 1971*);

5. Beynəlxalq iqtisadi düzümün təkamülü (*The evolution of the international economic order. - 1977*);

6. Artım və tərəddüdlər, 1870-1913 (*Growth and fluctuations, 1870-1913. -1978*).

V.Lüis Amerika, Avropa və Afrikanın 20-dən çox universitetinin fəxri professoru, o cümlədən 1966-1973-cü illərdə Qana Universitetinin (*University of Ghana*) fəxri prezidenti, 1969-cu ildə İsrailin Veysman İnstitutunun (*Weizmann Institute of Science*) və London İqtisad Məktəbinin fəxri üzvü, 1982-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti olmuşdur. O, Britaniya Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

V.Lüis 15 iyun 1991-ci ildə 76 yaşında Barbadosun paytaxtı Brictaun şəhərində vəfat etmişdir.

■ **1980-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına ABŞ iqtisadçısı Lourens Kleyn** *(Lawrence Robert Klein)* **"Ekonometrik modellərin qurulması, bunların iqtisadi tsikllər və iqtisadi siyasətlərə uyğunlaşdırılması sahəsində olan tədqiqatlarına görə" layiq görülmüşdür.**

## Lourens Kleyn



Lourens Robert Kleyn (*1920-2013*) - ABŞ iqtisadçısı.

14 sentyabr 1920-ci ildə Nebraska ştatının Omaxa şəhərində yəhudi ailəsində anadan olmuşdur. Los Anceles şəhər kollecində riyaziyyat üzrə təhsil almış, sonra Berkilidə Kaliforniya Universitetində iqtisadiyyat üzrə təhsilini davam etdirmiş, 1942-ci ildə buranı bakalavr dərəcəsində bitirmiş, 1944-cü ildə Massaçusets Texnologiya İnstitutunda ilk doktorluq dərəcəsini almışdır. Pensilvaniya və Oksford universitetlərinin professoru olmuş, II Dünya müharibəsindən sonra Çikaqo Universitetində işləmiş, Kanada və Norveçdə bir sıra layihələr həyata keçirmişdir. 1948-ci ildə ABŞ İqtisadi Tədqiqatlar üzrə Milli Bürosunda işə başlamış və bu dövrdə həm də Miçiqan Universiteti (*University of Michigan*) ilə sıx əməkdaşlıq etmişdir.

Alimə beynəlxalq aləmdə şöhrəti 1949-cu ildə nəşr etdirdiyi doktorluq dissertasiyası gətirmişdir. Bundan sonra o, 1954-cü ildə İngiltərədə Oksford Universitetində işə başlamış, 1958-ci ildə isə ABŞ-a qayıdaraq Pensilvaniya Unversitetində (*University of Pennsylvania)* çalışmış və 1968-ci ildə həmin universitetin professoru olmuşdur.

L.Kleyn 1960-cı illərdə bir sıra ölkələrdə, o cümlədən İsrail, Meksika və Yaponiyada iqtisadi modellərin işlənməsi ilə məşğul

olmuş, BMT-nin bir sıra layihələrində iştirak etmiş, ABŞ prezidenti C.Karterin iqtisadi məsələlər üzrə məsləhətçisi olmuşdur.

L.Kleynin tədqiqatları tələb, iqtisadi fəallığın titrəyişləri, statistika metodologiyası, əmanətlər, müxtəlif ölkələrin statistik modellərinin vahid sistemə inteqrasiyası məsələlərinə həsr edilmişdir. O, nəzəri işlərdən daha çox praktiki məsələlərin həllində ekonometrikanın tətbiqi ilə məşğul olmuşdur.

Əsas elmi əsərləri:

1. Keynsçi inqilab (*The Keynesian revolution. - 1949*);

2. 1921-1941-ci illərdə ABŞ iqtisadiyyatında tərəddüdlər (*Economic fluctuations in the United States: 1921-1941. - 1950*);

3. Ekonometrika dərsliyi (*A Textbook of econometrics. - 1953*);

4. 1929-1952-ci illərdə ABŞ iqtisadi modeli (*An econometric model of the United Stated, 1929-1952. - 1955; A.Holdberqlə müştərək*);

5. Ekonometrikaya giriş (*An introduction to econometrics. - 1962*);

6. Tələb və təklifin iqtisadiyyatı (*The economics of supply and demand. - 1983*);

8. İqtisadi nəzəriyyə və ekonometrika (*Economic theory and econometrics. - 1985*).

L.Kleyn 1959-cu ildə Amerika İqtisadçılar Assosiasiyasının Con Beyts Klark, 2006-cı ildə isə V.Leontyev medalları ilə təltif olunmuşdur. 1975-ci ildə Nyu-York Biznesmenlər Assosiasiyasının Ulyam Batler mükafatını almışdır. O, həmçinin 1960-cı ildə Ekonometrik Cəmiyyətin, 1977-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının, 1989-1990-cı illərdə Beynəlxalq Atlantik İqtisadi Cəmiyyətinin (*International Atlantic Economic Society*) prezidentləri postunu tutmuşdur.

L.Kleyn 20 oktyabr 2013-cü ildə Qledvaynda (*ABŞ, Pensilvaniya ştatı*) 93 yaşında vəfat etmişdir.

■ **1981-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına ABŞ iqtisadçısı Ceyms Tobin** *(James Tobin)* **"Maliyyə bazarlarını və onların xərc qərarları, məşğulluq, istehsal və qiymətlərlə olan münasibətlərini təhlil etdiyi üçün" layiq görülmüşdür.**

## Ceyms Tobin



Ceyms Tobin (*1918-2002*) - ABŞ iqtisadçısı.

5 mart 1918-ci ildə ABŞ-ın İllinoys ştatının Şampeyn şəhərində anadan olmuşdur. 1939-cu ildə Harvard kollecini bitirmişdir. II Dünya müharibəsində hərbi dəniz donanmasında xidmət etmişdir. Müharibədən sonra Harvard Universetini bitirərək məşhur avstriya və amerika iqtisadçısı Yozef Aloiz Şumpeterin (*1883-1950*) rərbərliyi altında doktoranturada oxumuş və 1947-ci ildə Harvardda "İstehlak funksiyasının nəzəri və statistik tədqiqatları" (*Theoretical and statistical study of consumption function*) mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri doktoru elmi dərəcəsi almışdır. 1950-ci ildə Yel Universitetində dərs demiş, 1957-ci ildə professor adı almış və ömrünün sonunadək burada işləmişdir. C.Tobin, həmçinin, 1955-1961-ci və 1964-1965-ci illərdə Koulz Fondunun direktoru vəzifəsində də çalışmış, 1958-ci ildə Ekonometrik Cəmiyyətin prezidenti olmuşdur. 1961-1962-ci illərdə ABŞ prezidenti C.Kennedi administrasiyasının İqtisadiyyat komitəsinin sədri olmuş C.Tobin, 1970-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti seçilmişdir.

C.Tobin özünü ciddi bir iqtisadçı kimi elmi yaradıcılığının ilkin çağlarında, 1953-cü ildə Sosial Elmi Tədqiqatlar Şurası üçün hazırladığı "Tam məşğulluğun və inflyasiyanın öyrənilməsi" işi

ilə tanıtdırmışdır. Onun əsas tədqiqatları investisiya fəaliyyəti nəzəriyyəsi, iqtisadi siyasət, maliyyə bazarı mexanizmi, məşğulluq, qiymət və əməkhaqqı sferaları ilə bağlıdır. Keynsçi iqtisadi nəzəriyyənin ardıcıl tərəfdarı kimi C.Tobin onun inkişafına və təkmilləşməsinə dəyərli töhfələr vermişdir.

Əsas elmi əsərləri:

1. Amerika iqtisadi məsləki (*American business creed. - 1956*);
2. Milli iqtisadi siyasət (*National economic policy. - 1966*);
3. İqtisadi esse. 3 cilddə (*Essays in economics. - 1972-1982*).

C.Tobinlə bağlı maraqlı cəhətlərdən biri də odur ki, o, ABŞ perzidenti (*1981-1989*) Ronald Reyqanın (*1911-2004*) iqtisadi siyasətinin və Federal Ehtiyat Sisteminin apardığı kəskin maliyyə siyasətinin aktiv tənqidçilərindən olmuşdur.

C.Tobin Nobel mükafatı laureatı olmaqla yanaşı, bir sıra digər mükafat və adlara da layiq görülmüşdür. Amerika Milli Akademiyasının, Amerika Fəlsəfə Cəmiyyətinin, Amerika Sənət və Elmlər Akademiyasının, Amerika Statistika Assosiasiyasının üzvü olmuş, Sirakuz, İllinoy, Yeni Lissabon universitetlərinin və Svortmor kollecinin fəxri elmi dərəcələrini almışdır. O, həmçinin, 1955-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının Con Beyts Klark adına medalı ilə təltif edilmiş, 1990-cı ildə Adam Smit mükafatına layiq görülmüşdür.

C.Tobin 11 mart 2002-ci ildə 84 yaşında Nyu-Heyvendə (*ABŞ, Konnektikut ştatı*) vəfat etmişdir.

■ **1982-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "Sənaye strukturlarının, bazarların funksionallığı, dövlət tənzimlənməsinin səbəb və nəticələri istiqamətindəki yenilikçi tədqiqatlara görə" ABŞ iqtisadçısı Corc Stiqler** *(George Joseph Stigler)* **layiq görülmüşdür.**

## Corc Stiqler



Corc Cozef Stiqler (*1911-1991*) - ABŞ iqtisadçısı.

17 yanvar 1911-ci ildə ABŞ-ın Vaşinqton ştatının Sietl şəhərində anadan olmuşdur. Burada orta məktəbi bitirib, Vaşinqton Universitetinə (*University of Washington*) daxil olmuşdur. 1931-ci ildə universiteti bitirərək iqtisadiyyat üzrə bakalavr dərəcəsi almış və növbəti ildə Şimal-Qərb Universiteti (*Northwestern University*) ona magistr dərəcəsi vermişdir. Bundan sonra Çikaqo Unversitetində doktoranturaya daxil olmuşdur. 1936-cı ildən pedaqoji fəaliyyətə başlayan C.Stiqler müxtəlif universitet və kolleclərdə dərs demişdir. 1938-ci ildə "İstehsal və bölgü nəzəriyyəsi" (*Production and Distribution Theories*) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

II Dünya müharibəsi illərində C.Stiqler Kolumbiya Universitetində statistik tədqiqatçılar qrupunda məsləhətçi işləmiş, eyni zamanda, Minnesota Universitetində (*University of Minnesota*) dərs demişdir. 1947-ci ildə Braun Universitetində (*Brown University*) işləməyə başlamış, 1948-ci ildə yenidən Kolumbiya Universitetinə qayıtmışdır. 1958-ci ildə Çikaqo Universitetində professor vəzifəsinə təyin olunan və uzun müddət bu universitetdə çalışan C.Stiqler sənaye təşkilatları üzrə yüksək nüfuzlu təlim kursları yaratmış, universitetin elmi nəşrinə - "Siyasi iqtisad jurnalı"na (*Journal of Political Economy*) redaktorluq etmişdir.

C.Stiqler iqtisadi fikir tarixinə əhəmiyyətli töhfələr vermişdir. Onun 1941-ci ildə nəşr olunan ilk kitabı - "İstehsal və bölgü nəzəriyyəsi" bütün neoklassik nəzəriyyənin təşəkkül dövrünü əhatə etmişdir. 1940-1950-ci illərdə o, tətbiqi mikroiqtisadiyyat və sənaye təşkilatlarının tədqiqi üzrə çoxsaylı problem məqalələr və kitablar nəşr etdirmişdir. Məşhur iqtisadçı, Nobel mükafatı laureatı M.Fridmanla 1946-cı ildə birgə yazdığı "Tavan və ya döşəmələr" (*Roofs or Ceilings*) adlı məqaləsində alim sübut etməyə çalışmışdır ki, müharibə illərində və sonrakı dövrdə də bir sıra şəhərlərdə qalmaqda davam edən mənzil haqqı üzrə nəzarət yaşayış evlərinin tikintisində keyfiyyətin aşağı düşməsinə və mənzil fonduna qeyri-qənaətbəxş xidmətin yaranmasına səbəb olur. Zamanında kəskin tənqidlərə məruz qalan bu analitik nəticələr sonradan həm liberallar, həm də konservatorlar tərəfindən qəbul olunmuşdur.

Əsas elmi əsərləri:

1. Əmək bölgüsü bazar ölçüləri ilə məhdudlaşır (*The division of labor is limited by the extent of the market. - 1951*);
2. İqtisadiyyat istehsal miqyaslarında (*The economics of scale. - 1958*);
3. Oliqopoliya nəzəriyyəsi (*A theory of oligopoly. - 1964*);
4. İqtisadi nəzəriyyənin tarixi üzrə oçerklər (*Essays in the history of economics. - 1965*).

C.Stiqler 1964-cü ildə Amerika İqtisadçılar Assosiasiyasının, 1977-ci ildə İqtisadiyyatın Tarixi Cəmiyyətinin prezidenti olmuşdur. O, Nobel mükafatı laureatı olmaqla yanaşı, bir sıra digər mükafat və adlara da layiq görülmüşdür. C.Stiqler Amerika Milli Akademiyası və Amerika Fəlsəfə Cəmiyyətinin üzvü olmuşdur. Ona Karnegi-Mellon, Roçester, Braun universitetlərinin və Helsinki İqtisad Məktəbinin fəxri elmi dərəcələri verilmişdir.

C.Stiqler 1 dekabr 1991-ci ildə 80 yaşında Çikaqo şəhərində (*ABŞ, İllinoys ştatı*) vəfat etmişdir.

■ **1983-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatını "Ümumi tarazlıq nəzəriyyəsinin və ümumi tarazlığın mövcudluğu şərtliliyinin anlaşılmasına verdiyi töhfələrə görə" ABŞ iqtisadçısı Cerard Debre** *(Gerard Debreu)* **almışdır.**

## Cerard Debre



Cerard Debre (*1921-2004*) - fransız əsilli ABŞ iqtisadçısı.

4 iyul 1921-ci ildə Fransanın Kale şəhərində anadan olmuşdur. 1939-cu ildə burada kolleci, 1944-cü ildə isə Parisdə pedoqoji məktəbi bitirmişdir. Bundan sonra o, Fransa ordusunda xidmətə çağırılmış, Əlcazairdə zabit məktəbində təlim alaraq, 1945-ci ilin yayına kimi Almaniyada fransız ordusunda xidmət etmişdir. Vətənə döndükdən sonra isə müsabiqədən keçərək riyaziyyat müəllimi ixtisası almışdır.

C.Debre 1949-cu ildə bir sıra ABŞ universitetlərində çalışmış, Çikaqoda Koulz Fondunda, sonra isə Nyu-Heyvendə işləmişdir. O, Paris Universitetində (*Université de Paris*) doktor elmi dərəcəsini alaraq, 1955-ci ildə Yel, 1962-ci ildə Kaliforniya (*Berkli*) universitetlərinin professoru olmuşdur. C.Debre 1975-ci ildə ABŞ vətəndaşlığını qəbul etmişdir.

C.Debrenin mühüm tədqiqatları Adam Smitin əsərlərindən başlanğıc alaraq, fransız riyaziyyatçısı və iqtisadçısı Leon Varlasın əsərlərində konseptual hala gətirilən və iqtisad elmində əsas fikir ayrılığı predmetinə çevrilmiş ümumi tarazlıq nəzəriyyəsinə həsr edilmişdir. Bundan başqa, o, həmçinin tələb və qiymətlər, makroiqtisadi təhlil metodologiyasına, rifah iqtisadi nəzəriyyə-

sinə, aksiomatik metodun işlənməsi sahəsində də geniş tədqiqatlar aparmışdır.

Əsas elmi əsərləri:

1. "Riyazi iqtisadi nəzəriyyə: Cerard Debrenin iyirmi məqaləsi" (*Mathematical economics: twenty papers of Gerard Debreu. - 1983*);

2. "Bazar tarazlığı" (*Market equilibrium. - 1956*);

3. "Dəyər nəzəriyyəsi: iqtisadi tarazlığın aksiomatik təhlili" (*Theory of value: an axiomatic analysis of economic equilibrium. - 1959*).

C.Debre 1976-cı ildə Fransanın "Fəxri legion" ordeninə layiq görülmüşdür. O, Amerika İqtisadçılar Assosiasiyasının, Amerika Milli Akademiyası və Amerika Sənət və Elmlər Akademiyasının üzvü, 1969-1971-ci illərdə Ekonometrik Cəmiyyətin vitse-prezidenti və prezidenti olmuşdur. C.Debre Bonn, Lozanna, Tuluza, Şimal-Qərb (*ABŞ*) universitetlərinin fəxri elmi dərəcələrini almışdır.

C.Debre 31 dekabr 2004-cü ildə Parisdə 83 yaşında vəfat etmişdir.

■ **1984-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatına Riçard Stoun** *(Sir John Richard Nicholas Stone)* **"Milli hesablar sisteminin yaradılması sahəsindəki yenilikçi işlərinə görə" layiq görülmüşdür.**

## Riçard Stoun



Ser Con Riçard Nikolas Stoun (*1913-1991*) - Böyük Britaniya iqtisadçısı.

30 avqust 1913-cü ildə Londonda anadan olmuşdur. 1935-ci ildə Kembric Universitetini bitirdikdən sonra özünü elmi tədqiqat işinə hazır saymadığı üçün karyerasını biznes sahəsində qurmağa səy göstərmişdir. Londonda "Lloyd" sığorta cəmiyyətinin iqtisadi məlumat bülletenini nəşr etməklə əmək fəaliyyətinə başlayan R.Stoun 1937-ci ildə həyat yoldaşı Unifred Meri Cenikslə birlikdə "Trends" aylıq iqtisadi jurnalında çalışmışdır. II Dünya müharibəsinin alovlandığı 1939-cu ildə R.Stounu hərbi nazirliyə işə dəvət etmiş və ona dəniz daşınmaları və neft təchizatı statistikası ilə məşğul olmağı tapşırmışlar. Lakin bir gün sonra o, hərbi kabinet katibliyinin mərkəzi iqtisadi informasiya xidmətinə köçürülmüşdür.

R.Stoun burada C.Keyns və C.Midlə birlikdə Böyük Britaniyanın iqtisadi və maliyyə vəziyyətini əks etdirən ümumi icmalın hazırlanması işinə cəlb olunmuşdur. Bu iş ona iqtisad elmi sahəsində tədqiqatlar aparmaqda geniş imkan yaratmışdır.

Dövlət xidmətindən getdikdən sonra R.Stoun 1945-ci ildə Kembric Universitetində yeni yaradılmış tətbiqi iqtisadiyyat departamentinin ilk direktoru təyin edilmişdir. 1955-ci ildə isə o, burada maliyyə və mühasibat professoru vəzifəsində çalışmış, 1980-ci ilə - istefaya gedənə qədər maliyyə və statistika kafedrasına rəhbərlik etmişdir.

Milli hesablar problemini tədqiq edərək hesabların tam uzlaşması sistemini irəli sürməsi R.Stounun iqtisad elmi qarşısında mühüm xidməti sayılır.

Əsas elmi əsərləri:

1. Milli gəlir və milli xərclər *(National income and expenditure. - 1944; C.Midlə müştərək*);

2. Milli gəlirin ölçülməsi və milli hesablar düzümü (*Measurement of national income and the construction of social accounts. - 1947*);

3. İqtisadi artımın hesablanma modeli (*A computable model of economic growth. - 1964; A.Braunla müştərək*);

4. Riyaziyyat sosial elmlərdə və digər oçerklər. (*Mathematics in social sciences and other essays. - 1966*);

5. İqtisadiyyatda riyazi modellər və digər oçerklər (*Mathematical models in economy and other essays. - 1970*);

6. Sosial və demoqrafik statistika sistemi üçün (*Towards a system of social and demographic statistics. - 1975*);

7. İqtisadi və sosial modelləşmənin bəzi aspektləri (*Aspects of economic and social modelling. - 1981*).

R.Stoun çoxsaylı fəxri adlara və mükafatlara layiq görülmüşdür. O, 1945-ci ildə Kral kollecinin fəxri üzvü, 1955-ci ildə Ekonometrik Cəmiyyətin prezidenti olmuş, 1978-1980-ci illərdə Kral İqtisadi Cəmiyyətinə rəhbərlik etmiş, 1978-ci ildə zadəgan titulu qazanmışdır. R.Stoun həmçinin Amerika Elm və İncəsənt Akademiyasının və Amerika İqtisadçılar Assosiasi-yasının əcnəbi üzvü olmuşdur. O, Oslo, Brüssel, Cenevrə, Uor-vika, Paris və Bristol universitetlərinin fəxri adlarını almışdır

R.Stoun 6 dekabr 1991-ci ildə 78 yaşında Böyük Britaniyanın Kembric şəhərində vəfat etmişdir.

■ **1985-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına ABŞ iqtisadçısı Franko Modilyani** *(Franco Modigliani)* **"Əmanətlərə münasibətlərdə insanların davranışlarının təhlilinə görə" layiq görülmüşdür.**

## Franko Modilyani



Franko Modilyani (*1918-2003*) - ABŞ iqtisadçısı.

18 iyun 1918-ci ildə Romada yəhudi-italyan ailəsində anadan olmuşdur. 1939-cu ildə Roma Universitetini (*Sapienza University of Rome*) bitirərək öncə Fransaya, sonra isə ABŞ-a mühacirət etmişdir. O, burada Nyu-York Sosial Tədqiqatlar Məktəbini bitirmiş və bu tədris müəssisəsində dərs demişdir. 1949-cu ildə Çikaqo Universitetində, 1950-1962-ci illərdə İllinoys ştatının universitetində (*University of Illinois at Urbana-Champaign*), Karnegi-Mellon Universitetinə və Şimal-Qərb Universitetində müəllimlik etmişdir. 1962-1968-ci illərdə isə Massaçusets Texnologiya İnstitutunun iqtisadiyyat və maliyyə üzrə professoru olmuşdur. Bu illər ərzində o həm də dövlət müşaviri, Federal Ehtiyatlar Sisteminin idarəetmə şurasının üzvü vəzifələrini də yerinə yetirmişdir. 1976-1983-cü illərdə F.Modilyani Beynəlxalaq İqtsisadi Assosiasiyanın vitse-prezidenti, 1983-cü ildən isə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti seçilmişdir.

F.Modilyani mikro və makroiqtisadi nəzəriyyənin müxtəlif aspektlərinin inkişafına böyük töhfələr vermişdir.

Əsas elmi əsərləri:

1. Milli gəlir və beynəlxalq ticarət. (*National incomes and international trade. - 1953; H.Neysserlə müştərək*);

2. Beynəlxalq ödəniş sisteminin islahatı. (*The reform of the international payments system. - 1971; Q.Askari ilə müştərək*);

3. Seçilmiş əsərləri. 3 cilddə (*The collected papers. - 1980*).

F.Modilyani Nobel mükafatı laureatı olmaqla yanaşı, bir sıra digər mükafat və adlara da layiq görülmüş, bir sıra ölkələrin universitetlərinin fəxri professoru olmuşdur. Amerika Maliyyə Assosiasiyasının (*American Financial Association*), Amerika və İtaliya Ekonometrik Cəmiyyətlərinin üzvü seçilmişdir.

F.Modilyani 25 sentyabrda 2003-cü ildə, 85 yaşında Kembric şəhərində (*ABŞ, Massaçusets ştatı*) vəfat etmişdir.

■ **1986-cı ildə iqtisadiyyat sahəsində Nobel mükafatına ABŞ iqtisadçısı Ceyms Bükenen - kiçik** *(James McGill Buchanan Jr.)* **"İqtisadi və siyasi qərar qəbuletmədə sazişçilik və konstitusion təməlli nəzəriyyənin əsaslarının işlənməsi sahəsində tədqiqatlarına görə" layiq görülmüşdür.**

## Ceyms Bükenen



Ceyms Makqil Bükenen (*1919-2013*) - ABŞ iqtisadçısı.

3 oktyabr 1919-cu ildə ABŞ-ın Tennessi ştatının Marfrisboro şəhərində anadan olmuşdur. Burada pedoqoji kolleci bitirdikdən sonra Tennessi Universitetinə (*University of Tennessee*) daxil olmuş və 1941-ci ildə magistr dərəcəsi ilə təhsilini başa çatdırmışdır. II Dünya müharibəsi illərində hərbi dəniz donanmasında xidmət etmişdir. Müharibə bitdikdən sonra C.Bükenen təhsilini Çikaqo Universitetində davam etdirmiş və 1948-ci ildə burada iqtisadiyyat üzrə doktor elmi dərəcəsi almışdır. 1950-ci ildə Tennessi Universitetinin professoru, Florida Universitetinin (*University of Florida*) iqtisadiyyat fakültəsinin dekanı və Virciniya Universitetinin (*University of Virginia*) professoru olmuşdur.

C.Bükenen ABŞ iqtisadçısı Hilbert Uorren Hatterlə (*1923*) birlikdə 1957-ci ildə Tomas Cefferson adına Siyasi İqtisad üzrə Tədqiqatlar Mərkəzini yaratmış, 1969-cu ilə qədər həmin mərkəzin direktoru vəzifəsini icra etmişdir. C.Bükenen 1969-cu ildə Kaliforniya Universitetinə dəvət almış, Virciniya Politexnik Universitetində (*Virginia Polytechnic Institute and State University)* professor vəzifəsində çalışmışdır. 1983-cü ildə Corc Meyson

Universitetinə professor təyinatı aldıqdan sonra Mərkəz Virciniya ştatının Ferfaks şəhərindəki universitet kampusuna köçmüşdür.

C.Bükenen yeni siyasi iqtisad məktəbinin yaradıcılarından biri olmuşdur. Onun əsas tədqiqatları "ictimai seçim" nəzəriyyəsinin, büdcə defisiti şəraitində demokratiya problemlərinin, qərar qəbuletmənin siyasi-hüquqi əsaslarının işlənməsinə həsr edilmişdir.

Əsas elmi əsərləri:

1. Fiskal və siyasi iqtisad nəzəriyyəsi (*Fiscal theory and political economy. - 1960*);

2. Razılığın hesablanması: konstitusiya demokratiyasının əsasları (*The calculus of consent: logical foundations of constitutional democracy. - 1962; Q.Tallokla müştərək*);

3. Dəyər və seçim: iqisadiyyatın siyasi əlavəsi (*Cost and choice: political applications of economics. - 1972-1984; R.Tollisonla müştərək*);

4. Azadlığın hədləri: anarxiya ilə leviafan arasında (*The limits to liberty: between anarchy and leviathan. - 1975*);

5. Defisitdə demokratiya (*Democracy in deficit: the political legacy of Lord Keynes. - 1977; R.Vaqnerlə müştərək*);

6. Vergiqoymanın hakimiyyəti (*The power to tax. – 1980; C.Brennenlə müştərək*);

7. Azadlıq, bazar və dövlət: 1980-ci illərdə siyasi iqtisad (*Liberty, market and state: Political economy in the 1980s. - 1985*);

8. Qaydaların əsası (*The reason of rules. - 1985; C.Brennenlə müştərək*).

C.Bükenenin elmi fəaliyyəti Nobel laureatlığı ilə yanaşı, çoxsaylı mükafatlarla qeyd olunmuşdur. O, 1984-cü ildə Tennessi Universitetinin siyasi iqtisad sahəsində Frenk Seydman adına *mükafatına layiq görülmüş, Sürix (İsveçrə), Gessens (*Almaniya)

universitetlərinin fəxri elmi adlarını almış, Amerika İqtisadçılar Assosiasiyasının və Amerika Elmlər və İncəsənt Akademiyasının fəxri üzvü olmuşdur. C.Bükenen Cənub İqtisadi Assosiasiyasının (*Southern Economic Association*), Qərb İqtisadi Assosiasiyasının (*Western Economic Association*) prezidenti, Amerika İqtisadçılar Assosiasiyasının vitse-prezidenti seçilmişdir.

C.Bükenen 9 yanvar 2013-cü ildə, 93 yaşında Bleksburq şəhərində (*ABŞ, Virciniya ştatı*) vəfat etmişdir.

■ **1987-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına ABŞ iqtisadçısı Robert Solou** *(Robert Merton Solow)* **"İqtisadi artım nəzəriyyəsində fundamental tədqiqatlarına görə" layiq görülmüşdür.**

## Robert Solou



Robert Merton Solou (*1924*) - ABŞ iqtisadçısı.

23 avqust 1924-cü ildə Nyu-Yorkda yəhudi ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1940-cı ildə Harvard Universitetinə daxil olmuş, 1942-ci ildə təhsilini buraxaraq Amerika ordusu sıralarında II Dünya müharibəsi illərində İtaliyada döyüşmüşdür. Müharibə bitdikdən sonra o, Harvarda qayıtmış, 1947-ci ildə universiteti bitirərək bakalavr dərəsəsi, bir ildən sonra isə magistr dərəsəsi almışdır. O, burada məşhur iqtisadçı alim, Nobel laureatçısı V.Leontyevin rəhbərliyi altında assistent kimi çalışmışdır. Sonradan Kolumbiya Universitetində doktoranturada təhsilini davam etdirmiş və 1951-ci ildə doktor elmi dərəcəsi almışdır. Həmin ildən Massaçusets Texnoloji İnstitutunda elmi-pedaqoji fəaliyyətə başlamış və hazırda bu institutun professorudur.

Elmi fəaliyyəti ilə yanaşı, R.Solou müxtəlif hökümət vəzifələri də daşımışdır. O, gəlirlərin idarə edilməsi üzrə Prezident komissiyasının üzvü və İqtisadi Məsləhətçilər Şurasında böyük iqtisadçı vəzifələri daşımışdır.

R.Solounun tədqiqatları iqtisadi artıma həsr edilmişdir. O, iqtisadi artımın tanınmış "neoklassik" modellərindən birinin müəllifi kimi də məşhurdur.

Əsas elmi əsərləri:

1. Xətti proqramlaşdırma və iqtisadi təhlil (*Linear programming and economic analysis. - 1958*);

2. Kapital nəzəriyyəsi və dövriyyənin sürəti (*Capital theory and the rate of return. - 1963*);

3. Tam məşğulluğun siyasəti (*Policy of full employment. - 1962*);

4. ABŞ-da işsizliyin təbiəti və mənbələri (*The nature and sources of unemployment in the United States. - 1964*);

5. Qiymət gözləmələri və qiymət səviyyələri (*Price expectations and the behavior of the price level. - 1968*);

6. Resurslar iqtisadiyyatı və iqtisadiyyatın resursları (*The economic of resources and the resources of economics. - 1974*);

7. İqtisadi artım və uzunmüddətli inkişafın strukturu (*Economic growth and the structure of long-term development. - 1994*).

R.Solounun iqtisad elmindəki xidmətlərinin qiymətləndirilməsi Nobel mükafatı ilə məhdudlaşmır. İqtisadçı alim 1951-ci ildə Çikaqo Universitetinin Devid A. Uells mükafatını almış, 1961-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının Con Beyts Klark medalı ilə təltif olunmuşdur. O, 1964-cü ildə İqtisadiyyat Cəmiyyətinin prezidenti vəzifəsində çalışmış, 1972-ci ildə Amerika Elmlər Akademiyasının və Amerika Elmlər və İncəsənət Akademiyasının üzvü, Amerika Fəlsəfə Cəmiyyətinin, Amerika Elmlər və İncəsənət Akademiyasının isə fəxri üzvü seçilmişdir. O, həmçinin ABŞ-ın Çikaqo, Yel, Braun, Tuleyn, İngiltərənin Uorik, Fransanın Sorbonna universitetlərinin və digər tanınmış təhsil müəssisələrinin də fəxri elmi adlarına layiq görülmüşdür.

■ **1988-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına Fransa iqtisadçısı Moris Alle** *(Maurice Félix Charles Allais)* **"Bazarlar nəzəriyyəsi və resursların səmərəli istifadəsi istiqamətində yenilikçi töhfələrə görə" layiq görülmüşdür.**

## Moris Alle



Moris Feliks Çarlis Şarl Alle (*1911-2010*) - Fransa iqtisadçısı.

31 may 1911-ci ildə Paris şəhərində anadan olmuşdur. 1933-cü ildə Paris Politexnik Məktəbini (*École Polytechnique*), 1936-cı ildə Paris Dağ-Mədən İnstitutunu (*Mines ParisTech*) bitirmiş və Fransa Milli Filiz Mədənləri Xidmətində çalışmışdır. İlk vaxtlar onu daha çox tarix və fizika düşündürmüş, 1940-cı illərdən isə M.Alle iqtisad elmi ilə maraqlanmağa, iqtisadi problemləri tədqiq etməyə başlamışdır. II Dünya müharibəsi illərində leytenant rütbəsində İtaliya cəbhəsində əməliyyatlarda iştirak etmiş, Fransanın təslim olmasından sonra Parisdə dağ-mədən işi üzrə statistik büroda çalışmışdır. O, 1946-cı ildə Milli Elmi Tədqiqatlar Mərkəzində qrup rəhbəri olmuş, 1944-1968-ci illərdə professor vəzifəsində çalışdığı Paris Universitetində 1949-cu ildə elmlər doktoru dərəcəsi almışdır. M.Alle həmçinin 1967-1970-ci illərdə İsveçrədə, Cenevrə şəhərində Beynəlxalq Tədqiqatlar İnstitutunda (*International University in Geneva*) çalışmış, ABŞ-da və digər bir sıra ölkələrdə hökumət və beynəlxalq ekspert komissiyalarında iştirak etmiş, 1985-ci ildə Paris Universitetindən təqaüdə çıxmışdır.

M.Allenin tədqiqatları tarazlıq və ictimai optimumun ümumi nəzəriyyəsinə, iqtisadi artım və maksimum effektivlik nəzəriyyəsinə, bölgü nəzəriyyəsinə, pul nəzəriyyəsinə və seçim nəzəriyyəsinə həsr olunmuşdur.

Əsas elmi əsərləri:

1. İqtisadi nəzəriyyənin tədqiqi. Xalis iqtisadi nəzəriyyə (*A la Recherche d'une discipline économique. L'Économie pure. - 1943*);

2. Xalis iqtisadi nəzəriyyə və ictimai optimum (*Économie pure et rendement social. - 1945*);

3. İqtisadiyyat və faiz (*Économie et intérêt. - 1947*);

4. Xalis iqtisadi nəzəriyyə üzrə traktat (*Traité d'économie pure. - 1952*);

5. İqtisadiyyatın hesablanması əsasları (*Les Fondements du calcul economique. - 1967*);

6. İqtisadi artım və inflyasiya (*Growth and Inflation. - 1969*);

7. Kapitalın idxalı və pul islahatları (*L'import sur le capital et la réforme monétaire. - 1976)*;

8. Mənfəətin ümumi nəzəriyyəsi (*La Théorie générale des surplus. - 1978*);

9. Son faydalılıq və təsadüfi seçimin ümumi nəzəriyyəsi (*Cardinal utility and general random choice theory. - 1989*).

M.Allenin iqtisadiyyat sahəsindəki tədqiqatları ilə yanaşı, həmçinin tarix, sosiologiya, politologiya, fizika və coğrafiyanın problemləri üzrə də dərc olunmuş əsərləri vardır.

M.Alle digər çoxsaylı mükafat və adlara da layiq görülmüşdür. Onun aldığı mükafatlar sırasında Fransanın Ali Fəxri Legion ordeni və milli elmi-tədqiqatlar mərkəzinin qızıl medalı xüsusi yer tutur. M.Alle Beynəlxalq Ekonometrik Cəmiyyətin, Beynəlxalq Statistika İnstitutunun üzvü, Amerika İqtisadçılar Assosiasiyasının fəxri üzvü olmuş, Fransa İqtisadiyyat Elmləri Assosiasiyasının (*Association Française de Science Économique*) sədri seçilmişdir.

M.Alle 9 oktyabr 2010-cu ildə 99 yaşında Fransada Sen-Klu şəhərində vəfat etmişdir.

■ **1989-cu ildə iqtisadiyyat sahəsində Nobel mükafatına Norveç iqtisadçısı Trüqve Hovelmu** *(Trygve Magnus Haavelmo)* **"Ekonometrikanın əsaslarında ehtimal nəzəriyyəsinin rolunun izahına və eyni vaxtda baş verən iqtisadi strukturların tədqiqinə görə" layiq görülmüşdür.**

## Trüqve Hovelmu



Trüqve Maqnus Hovelmu (*1911-1999*) - Norveç iqtisadçısı.

13 dekabr 1911-ci ildə Norveçin Şedsmu şəhərində anadan olmuşdur. 1930-cu ildə orta məktəbi bitirərək Oslo Universitetində təhsilini davam etdirmişdir. 1933-cü ildə siyasi iqtisad üzrə bakalavr diplomu alan T.Hovelmu İqtisadiyyat üzrə ilk Nobel mükafatı laureatı Raqnar Friş tərəfindən Oslo Universiteti nəzdində yeni yaradılmış İqtisadiyyat İnstitutunda işləmək üçün dəvət almışdır. Burada beş il tədqiqatçı assistenti kimi çalışdıqdan sonra o, Rokfeller fondunun təqaüdçüsü kimi ABŞ-a getmişdir. II Dünya müharibəsinin başlanması ilə əlaqədar T.Hovelmunun ABŞ-da qalması 7 il çəkmişdir. Bu illər ərzində o, burada "Ekonometrikada ehtimallı yanaşma" mövzusunda dissertasiya müdafiə etmiş, Norveçin Vaşinqtondakı səfirliyində ticarət attaşesi vəzifəsində çalışmışdır. 1947-ci ildə vətənə qayıdan T.Hovelmu ticarət, sənaye və maliyyə nazirliyində şöbəyə rəhbərlik etmiş, 1948-ci ildə isə Oslo Universitetində müəllim işləməyə başlamışdır. O, burada 1979-cu ildə təqaüdə çıxana qədər professor vəzifəsində çalışmışdır.

T.Hovelmu "Keynsdən də irəli" getməyin tərəfdarı kimi fəal çıxış etmiş, özünün tədqiqatlarında ehtimal əsaslar haqqında yeni

ideyaları ekonometrikada və statistikada həyata keçirməyin necə mümkün olduğunu göstərmişdir.

Əsas elmi əsərləri:

1. İqtisadi təkamül sahəsində tədqiqatlar (*A study in the theory of economic evolution. - 1954*);

2. İnvestisiyalar sahəsində tədqiqatlar (*A study in the theory of investment. - 1960*);

3. Qlobal qeyri-taraz iqtisadi dinamika haqqında (*On the dynamics of global economic inequality. - 1980*).

Nobel mükafatı laureatı olmaqla yanaşı, T.Hovelmu Ftitof Nansen mükafatına layiq görülmüş, Novreç Elmlər Akademiyasının üzvü seçilmiş, üzün illər Ekonometrik Cəmiyyətin üzvü və 1957-ci ildə isə prezidenti, Amerika İqtisadçılar Assosiasiyasının fəxri üzvü olmuşdur.

T.Hovelmu 28 iyul 1999-cu ildə 87 yaşında Norveçin paytaxtı Osloda vəfat etmişdir.

■ **1990-cı ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "Maliyyə nəzəriyyəsində yenilikçi tədqiqatlara görə" ABŞ iqtisadçıları Harri Markovits** *(Harry Max Markowitz)*, **Merton Miller** *(Merton Howard Miller)* **və Uilyam Şarp** *(William Forsyth Sharpe)* **layiq görülmüşlər.**

## Harri Markovits



Harri Maks Markovits (*1927*) - ABŞ iqtisadçısı.

24 avqust 1927-ci ildə ABŞ-da Çikaqo şəhərində yəhudi ailəsində anadan olmuşdur. 1952-ci ildə Çikaqo Universitetini bitirərək bakalavr dərəcəsi almış və Amerikanın məşhur strateji tədqiqatlar mərkəzi olan RAND korporasiyasında fəaliyyətə başlamışdır. O, burada 1963-cü ilə qədər çalışmış və həmin ildən işini Birləşmiş Ümumi Təhlil Mərkəzinin rəhbəri kimi davam etdirmişdir. 1954-cü ildə Çikaqo Universitetində doktor dərəcəsi almışdır. 1968-1969-cu illərdə Los-Ancelesdə Kaliforniya Universitetində maliyyə professoru vəzifəsində çalışmışdır. Sonra 1969-1972-ci illərdə Nyu-Yorkda arbitraj şirkətinin prezidenti olmuş, 1972-1974-cü illərdə isə burada məsləhətçi vəzifəsində işləmiş və eyni zamanda, Pensilvaniya Universitetində əvəzçiliklə maliyyə professoru vəzifəsini aparmışdır. H.Markovits 1974-1983-cü illərdə "IBM" korporasiyasında tədqiqatçı vəzifəsində çalışmışdır. O, 1982-ci ildə Nyu-York Universitetinin B.Barux adına kollecində maliyyə professoru olmuş, 1990-cı ildə isə özəl maliyyə şirkətində tədqiqat rəhbəri vəzifəsində çalışmışdır.

H.Markovitsin iqtisadi baxışları Çikaqo məktəbi alimlərinin təsiri altında formalaşmışdır. Onun tədqiqatları kompüter və ya

riyazi texnikanın praktiki problemləri üzərində, xüsusilə də qətiyyətsizlik və inamsızlıq şəraitində iqtisadi qərarlarlarla bağlı problemlərin tətbiqi sahəsində təmərküzləşmişdir.

Əsas elmi əsərləri:

1. Portfel seçimi (*Portfolio selection. - 1952*);
2. Portfel seçimi: investisiyaların səmərəli diversifikasiyası (*Portfolio selection: efficient diversification of investments. - 1959*);
3. Uzunmüddətli investisiyalar (*Investment for the long run. - 1972*);
4. Portfel seçimində orta dispersion təhlil və kapital bazarları (*Mean-variance analysis in portfolio choice and capital markets. - 1987*).

H.Markovits hesablama texnikası və riyazi proqramlaşdırmanın iqtisadi proseslərə tətbiqi sahəsindəki elmi işlərinə görə Amerikanın Əməliyyat Tədqiqatları Cəmiyyətinin və Problemlərin İdarəetmə İnstitutunun fon Neyman mükafatına da layiq görülmüşdür. O, Koulz Komissiyasının, Ekonometrik Cəmiyyətin üzvü seçilmiş, Amerika Maliyyə Assosiasiyasının prezidenti olmuş, İdarəetmə Problemləri İnstitutuna rəhbərlik etmişdir. Onun çox yayılmış postulatlardan birində deyilir: "Bütün yumurtaları bir səbətə yığmaq lazım deyil". Başqa sözlə, investor bütün kapitalını bir işə qoymaqla risk etməməlidir.

## Merton Miller

Merton Hovard Miller (*1923-2000*) - ABŞ iqtisadçısı.

16 may 1923-cü ildə ABŞ-ın Boston şəhərində anadan olmuşdur. 1943-cü ildə Harvard Universitetini bitirmişdir. ABŞ Maliyyə Nazirliyində Federal Ehtiyat Sistemində işləmişdir. 1952-ci ildə Con Hopkins Universitetinin doktoranturasını (*The Johns Hop-*



*kins University*) bitirərək iqtisadiyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi almış-dır. Elmi dərəcə aldıqdan sonra onun ilk təyinat aldığı vəzifə London İqtisad Məktəbində mühazirəçi assistenti olmuşdur. M.Miller sonra Pitsburqda Karnegi-Mellon Universitetində dərs demiş, 1961-ci ildən 1993-cü ilədək Çikaqo Universitetinin Biznes Məktəbində (*University of Chicago Graduate School of Business*) professor vəzifəsində çalışmış, bu vəzifədən getdikdən sonra da bir neçə il pedoqoji fəaliyyətlə məşğul olmuşdur. O, həmçinin 1983-1985-ci illərdə Çikaqo Ticarət Palatası (*Chicago Board of Trade*) və 1985-ci ildən ömrünün sonuna qədər Çikaqo Əmtəə Birjasında (*Chicago Mercantile Exchange*) rəhbər vəzifələr tutmuşdur.

Bütün elmi fəaliyyəti ərzində M.Millerin əsas diqqəti maliyyə korporasiyaları probleminin üzərində cəmləşmişdir.

M.Miller tək və ya müştərək olaraq səkkiz kitab yazmışdır.

Əsas elmi əsərləri:

1. Kapitalın dəyəri, korporativ maliyyə və investisiyalar nəzəriyyəsi (*The cost of capital, corporation finance and the theory of Investment.- 1958; F.Modilyani ilə müştərək*);
2. Maliyyə nəzəriyyəsi (*Theory of finance. - 1972; Y.Famo ilə müştərək*);
3. Makroiqtisadiyyat: neoklassik təhlilə giriş (*Macroeconomics: a neoclassical introduction. - 1974; Y.Famo ilə müştərək*);
4. Qiymətlərin tətbiqi nəzəriyyəsi oçerkləri (*Essays in applied price theory. - 1980; R.Kouzla ilə müştərək*).

Görkəmli alim 1975-ci ildə Beynəlxalq Ekonometrik Cəmiyyətin üzvü seçilmiş, 1976-cı ildə isə Amerika Maliyyə Assosiasiyasının prezidenti olmuşdur.

M.Miller 3 iyun 2000-ci ildə 77 yaşında Çikaqo şəhərində (*ABŞ, İllinoys ştatı*) vəfat etmişdir.

## Uilyam Şarp



Uilyam Forsayt Şarp (*1934*) - ABŞ iqtisadçısı.

16 iyun 1934-cü ildə ABŞ-ın Boston şəhərində anadan olmuşdur. 1955-ci ildə Los-Ancelesdə Kaliforniya Universitetini bitirərək bakalavr dərəcəsi, bir ildən sonra isə magistr dərəcəsi almışdır. U.Şarp Amerikanın məşhur strateji tədqiqatlar mərkəzi olan RAND korporasiyasında iqtisadçı vəzifəsində işləmişdir. O vaxtlar bu korporasiya hesablama texnikası, oyunlar nəzəriyyəsi, tətbiqi iqtisadiyyat, xətti və dinamik planlaşdırma sahələri üzrə tədqiqatlar həyata keçirirdi. U.Şarp məhz burada həmkarı H.Markovitslə investisiya protfeli və qiymətli kağızların qarşılıqlı əlaqəsini əks etdirən problemlər üzrə birgə tədqiqatlara başlamışdır. U.Şarp bu korporasiyada işləməklə yanaşı, 1961-ci ildə Kaliforniya Universitetində "Transfert qiymətlərin iqtisadiyyatı üzrə" doktorluq dissertasiyası müdafiə etmişdir. Həmin ildən o, Sietl şəhərində Vaşinqton Universiteti nəzdindəki Biznes Məktəbində tədris işinə keçmişdir. Burada işlədiyi səkkiz il ərzində U.Şarp mikroiqtisadiyyat, hesablama texnikası, maliyyə nəzəriyyəsi, statistika, əməliyyatların tədqiqi və bu kimi çoxsaylı fənləri tədris etmişdir. 1968-ci ildə o, yenidən Kaliforniya Universitetinə qayıtmış, 1970-ci ildən isə Stenford Universitetində çalışmışdır. Bunlarla yanaşı, U.Şarp sonrakı illərdə bir sıra özəl şirkətlərdə investisiya məsələləri üzrə məsləhətçi vəzifələrində işləmişdir. 1976-cı ildə İqtisadi Tədqiqatların Milli Bürosu ilə əməkdaşlıq etmiş, 1980-

ci ildə Amerika Maliyyə Assosiasiyasının prezidenti seçilmişdir. U.Şarp 1986-cı ildə özünün "Uilyam Şarp assoşeyts" adlı konsaltinq şirkətini təsis etmişdir. O, 1989-cu ildə tamamilə pedoqoji fəaliyyətdən uzaqlaşmışdır. Bununla belə U.Şarp Stenford Universitetinin fəxri professoru olaraq, onun elmi işində iştirak etməkdədir.

U.Şarpın əsərləri investisiyalara, qiymətli kağızlara, maliyyə bazarlarında qiymətqoyma məsələlərinə həsr olunmuşdur.

Əsas elmi əsərləri:

1. Kompüterlərin iqtisadi nəzəriyyəsi (*Economics of computers. - 1969*);
2. Portfel nəzəriyyəsi və kapital bazarları (*Portfolio theory and capital markets. - 1970*);
3. Menecer iqtisadiyyatına giriş (*Introduction to managerial economics. - 1973*);
4. İnvestisiyalar (*Investments. - 1978*);
5. İnvestisiya qoyuluşlarının əsasları (*Fundamentals of investments, 1989. - A.Qordono ilə müştərək*).

U.Şarp öz tədqiqatlarının nəticələrini maliyyə aktivlərinin yerləşdirilməsi sahəsində mütəxəssislərin hazırlanması üzrə tədris kurslarında həyata keçirməyə çalışmışdır. O, Maliyyə Analitikləri İnstitutunun Tədqiqat Fondunun, Tədris və Tədqiqatlar Şurasının himayəçisi, Kəmiyyət Tədqiqatları İnstitutunun komitə üzvü, həmçinin İsveçrə Bankının investisiya portfellərinin idarə edilməsi şöbəsinin məsləhətçisi olmuşdur. Maliyyə sahəsinin tədqiqindəki xidmətlərinə və biznes sahəsində tədrisə verdiyi töhfələrə görə 1980-ci ildə Amerika Biznes Məktəbləri Assambleyasının və 1989-cu ildə Maliyyə Analitikləri Federasiyasının mükafatlarına layiq görülmüşdür.

■ **1991-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "İqtisadiyyatın institusional strukturunda və fəaliyyətində tranzaksiya xərclərinin və mülkiyyət hüquqlarının dəqiq mənasının açılışına və izahına görə" ABŞ iqtisadçısı Ronald Kouz** *(Ronald Harry Coase)* **layiq görülmüşdür.**

## Ronald Kouz



Ronald Harri Kouz (*1910-2013*) - ABŞ iqtisadçısı.

29 dekabr 1910-cu ildə London yaxınlığında kiçik Uillesden şəhərində qulluqçu ailəsində anadan olmuşdur. O, ayaqlarındakı xəstələliklə əlaqədar yalnız 12 yaşında məktəbə gedə bilmişdir. Bu xəstəlik onun sonrakı həyatında da dərin izlər qoymuşdur. 1927-ci ildə tarix və kimya imtahanlarından əla qiytmətlər aldığına görə London Universitetində təhsilini davam etdirmək hüququ qazanan və az sonra bu ixtisaslardan imtina etməli olan R.Kouz 1929-cu ildə London İqtisad Məktəbinə keçmişdir. Bu məktəbi bakalavr dərəcəsində bitirərək ABŞ-ın Virciniya və Çikaqo universitetlərində dərs demişdir. 1932-ci ildə yenidən Londona qayıdaraq Liverpul Universitetində (*University of Liverpool*) və Dandi şəhərində iqtisadiyyat və kommersiya məktəbində dərs demişdir. 1935-ci ildən başlayaraq, R.Kouz London İqtisad Məktəbində ictimai təşkilatların və müəssisələrin iqtisadiyyatı üzrə mühazirələr kursu oxumuşdur. II Dünya müharibəsi başlayanda R.Kouz meşəçilik komissiyasında, sonra isə hərbi işlər nazirliyinin statistika idarəsində işləmişdir. 1946-cı ildən başlayaraq yenidən London İqtisad Məktəbində müəssisə iqtisadiyyatı ilə bağlı fənləri tədris etmişdir. 1951-ci ildə ABŞ-a daimi yaşamağa köçən R.Kouz bu-

rada elmi-pedoqoji fəaliyyətini davam etdirmişdir. 1964-cü ildə o, Çikaqo Universitetində işləmiş və eyni zamanda, 1982-ci ilə qədər "Hüquq və iqtisadiyyat jurnalı"nın redaktoru olmuşdur.

R.Kouzun elmi yaradıcılığının mühüm hissəsini məşhur "Firmanın təbiəti" əsərində bazar iqtisadiyyatının yaranışını "tranzaksiya" adlandırdığı xüsusi növ spesifik xərclərlə əlaqədar konsepsiya təşkil edir. İqtisad elmində empirizm və iqtisadiyyatda geniş tətbiqini tapan "tranzaksiya xərcləri" termini ilk dəfə olaraq məhz bu əsərdə elmi dövriyyəyə çıxarılmışdır.

Əsas elmi əsərləri:

1. Şirkətin təbiəti (*The nature of firm. - 1937*);
2. Britaniya radioyayımı: inhisarların öyrənilməsi (*British broadcasting: a study in monopoly. - 1950*);
3. Sosial xərclər problemi (*The problem of social cost. - 1960*);
4. Davamlılıq və inhisarlar (*Durability and monopoly. - 1972*);
5. Şirkət, bazar və qanun (*The firm, the market, and the law. - 1988*);
6. İstehsalın institusional strukturu (*The institutional structure of production. - 1992*).

R.Kouz Nobel mükafatına layiq görülən tədqiqatı üzərində 22 il işləmişdir. Mükafatı alanda isə onun artıq 81 yaşı vardı. 9 il sonra 2000-ci ildə 90 yaşı haqlayanda R.Kouzun adına institut (*The Ronald Coase Institute*) təsis edildi. Bu fədakar insan ömrünün sonuna qədər həmin institutda tədqiqatlarını davam etdirmişdir.

R.Kouz 2 sentyabr 2013-cü ildə 102 yaşında Çikaqo şəhərində (*ABŞ, İllinoys ştatı*) vəfat etmişdir. O, iqtisadçı nobelçilər arasında, hələ ki, ən uzun ömür sürmüş şəxsdir.

■ **1992-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "Mikroekonomik təhlil sferasında bütöv aspektdə insan davranışları və qeyri-bazar davranışları da daxil olmaqla, qarşılıqlı münasibətlərin yayılması tədqiqatlarına görə" ABŞ iqtisadçısı Harri Bekker** *(Gary Stanley Becker) layiq* **görülmüşdür.**

## Harri Bekker



Harri Stenli Bekker (*1930-2014*) - ABŞ iqtisadçısı.

2 dekabr 1930-cu ildə ABŞ-ın Pensilvaniya ştatında Potsvill şəhərində yəhudi ailəsində anadan olmuşdur. 1951-ci ildə Prinston Universitetini bitirərək bakalavr dərəcəsi, 1955-ci ildə isə Çikaqo Universitetində doktor elmi adı almışdır.

H.Bekker 1951-ci ildə görkəmli iqtisadçı, Nobel mükafatı laureatı M.Fridmanın mikroiqtisadiyyat kursu ilə tanış olur. M.Fridman qeyd edirdi ki, iqtisadi nəzəriyyə bir oyun deyil, real dünyanın təhlilinə kömək edən güclü alətdir. Onun kursu iqtisadi nəzəriyyənin mahiyyətinə və strukturuna, praktiki və mühüm məsələlər üzrə bəyanatlarına daxil olmaq qabiliyyəti ilə zəngin idi. Həmin kurs və M.Fridmanla sonrakı əlaqələr H.Bekkerin tədqiqatlarına güclü təsir göstərmişdir.

H.Bekker 1954-1957-ci illərdə Çikaqo, 1957-1968-ci illərdə isə Kolumbiya universitetlərində dərs demişdir. Yenidən Çikaqo Universitetinə qayıdan H.Bekker 1970-ci ildə burada iqtisadiyyat və sosiologiya professoru kimi çalışmış, 1983-cü ildə isə iqtisad bölməsinə rəhbərlik etmişdir. 1987-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının, 1997-ci ildə isə Əməyin İqtisadiyyatı Cəmiyyətinin pezidenti olmuşdur.

H.Bekkerin ən böyük xidməti ənənəvi olaraq digər ictimai fənlər - sosiologiya, demoqrafiya, habelə kriminologiya tərəfindən nəzərdən keçirilən bir çox mühüm sosial və iqtisadi problemləri iqtisadi təhlilin tədqiqat predmetinə daxil etməklə onun çərçivələrini xeyli genişləndirməsi ilə bağlıdır.

Əsas elmi əsərləri:

1. Diskriminasiyanın iqtisadi nəzəriyyəsi (*The economics of discrimination. - 1957*);

2. İnsan kapitalı (*Human capital. - 1964*);

3. Vaxtın bölgüsü nəzəriyyəsi (*A theory of the allocation of time. - 1965*);

4. İqtisadi nəzəriyyə (*Economic theory. - 1971*);

5. Ailə haqqında traktat (*Treatise on the family. Cambridge. - 1981; Q.A.Bekkerlə müştərək*).

Ümumilikdə, H.Bekker onlarla monoqrafiyanın, 50-dən çox məqalənin müəllifidir ki, onlardan əksəriyyəti bir neçə dəfə nəşr edilmiş və başqa dillərə tərcümə olunmuşdur.

H.Bekker çoxsaylı fəxri adlara və mükafatlara layiq görülmüşdür. O, 1967-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının Con Beyts Klark adına medalı ilə təltif olunmuş, 1985-ci ildə F.Seydman, 1987-ci ildə "Veblen-Kommons", 1991-ci ildə Adam Smit adına mükafatlar almış, ABŞ-ın Prinston və Kolumbiya universitetlərinin və İsraildə Yerusəlim yəhudi universitetlərinin fəxri doktoru seçilmiş, Amerika Milli Elmlər Akademiyasının, Amerika Sənət və Elmlər Akademiyasının, Amerika Standartlar və Yaradıcılar Assosiasiyasının üzvü olmuşdur.

H.Bekker 3 may 2014-cü ildə 83 yaşında Çikaqo şəhərində (A*BŞ, İllinoys ştatı*) vəfat etmişdir.

■ **1993-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatı ABŞ iqtisadçıları Robert Fogel** *(Robert William Fogel)* **və Duqlas Norta** *(Douglass Cecil North)* **"İqtisadi və institusional dəyişikliklərin izahı üçün iqtisadi nəzəriyyə və kəmiyyət metodlarının köməyi ilə iqtisad mövzusundakı tədqiqatları yenilədiklərinə görə" verilmişdir.**

## Robert Fogel



Robert Uilyam Fogel (*1926-2013*) ABŞ iqtisadçısı, tarixçisi və siosiolqu.

1 iyul 1926-cı ildə ABŞ-ın Nyu-York şəhərində yəhudi ailəsində anadan olmuşdur. 1948-ci ildə ABŞ-ın İtake şəhərində Kornell Universitetini (Cornell University) bakalavr dərəcəsi, 1960-cı ildə isə Nyu-York şəhərindəki Kolumbiya Universitetini magistr dərəcəsi ilə bitirmişdir. 1963-cü ildə R.Fogel Merilend ştatındakı Con Hopkins Universitetində doktorluq dissertasiyası müdafiə etmişdir. 1965-ci ildə Çikaqo Universitetinin, 1975-ci ildə isə Harvard Universitetinin professoru olmuşdur. R.Fogel 1981-ci ildə Çikaqo Universitetində Əhali İqtisadiyyatı Mərkəzinin rəhbəri təyin olunmuş və universitetin nəzdindəki Ali Biznes Məktəbində professor vəzifəsində çalışmışdır. R.Fogel həmçinin Milli İqtisadi Tədqiqatlar Bürosunda da çalışmışdır.

R.Fogel doktorluq dissertasiyasını yazmağa başlayanda elmi dairələrdə iqtisadi tarix sahəsində mütərəqqi fikirli mütəxəssis kimi artıq məşhurlaşmışdı. Onun hələ magistr dissertasiyasının materialları əsasında yazıb, 1960-cı ildə çap etdirdiyi kitab akademik dairələrdə maraqla qarşılanmış və Amerika təcrübəsində unikal hadisə kimi dəyərləndirilmişdir.

Əsas elmi əsərləri:

1. Dəmir yolları və Amerika iqtisadi artımı: iqtisadi tarix üzrə oçerklər (*Railroads and American economic growth: essays in econometric history. - 1964*);

2. Zaman kəsişməsində: Amerika quldarlığının iqtisadiyyatı (*Time on the cross: the economics of American negro slavery. - 1974; S.Enqermanla müştərək*);

3. Elmi tarix və ənənəvi tarix (*Scientific history and traditional history. - 1982*);

4. Razılıq vermədən və müqavilə bağlamadan: Amerikada quldarlığın yüksəlişi və enişi (*Without consent or contract: the rise and fall of American slavery. - 1989*);

5. Avropalıların qida çatışmazlığından qurtulması mövzusuna qayıdış. Aclıq, xroniki yarımaclıq və ölüm səviyyəsi (*Second thoughts on the european escape from hunger: famines, chronic malnutrition, and mortality rates. - 1991*).

Həyatının son illərində R.Fogel topladığı materiallar əsasında yığım norması, əməkdə iştirak, məhsuldarlıq, ölüm, əhalinin miqrasiyası kimi göstəricilər əsasında müasir iqtisadi sistemdə tarixi ənənələrin ev təsərrüfatlarının vəziyyətinə və roluna təsirini müəyyən etmək istiqamətində elmi fəaliyyət göstərmişdir. O, bir sıra nüfuzlu elmi jurnalların redaksiya heyətinin üzvü olmuş, 1998-ci ildə isə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti vəzifəsinə seçilmişdir.

R.Fogel 11 iyun 2013-cü ildə 86 yaşında (*ABŞ, İllinoys ştatı*) vəfat etmişdir.

## Duqlas Nort



Duqlas Sesil Nort (*1920-2015*) - ABŞ iqtisadçısı və statistiki, iqtisadi tarix və iqtisadi təlimlər tarixi üzrə tanınmış mütəxəssis.

5 noyabr 1920-ci ildə ABŞ-ın Massaçusets ştatının Kembric şəhərində anadan olmuşdur. 1942-ci ildə Harvard Univesitetinə daxil olmuş, Berklidə Kaliforniya Universitetində təhsilini davam etdirərək bakalavr dərəcəsi almışdır. II Dünya müharibəsi illərində ticarət donanmasında naviqator vəzifəsində xidmət etmişdir. Müharibədən sonra Kaliforniya Universitetinə qayıtmış və burada 1952-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. D.Nort 1956-1957-ci illərdə Milli İqtisadi Tədqiqatlar Bürosunda təcrübə keçmiş, sonradan Sietldə Vaşinqton Unversitetində çalışmış və 1960-cı ildən 1983-cü ilə qədər həmin universitetin professoru olmuşdur. O, eyni zamanda, 1967-1987-ci illərdə Milli İqtisadi Tədqiqatlar Bürosunun direktoru vəzifəsində də işləmişdir. D.Nort 1983-cü ildə Sent-Luisdə Vaşinqton Unversitetində işə daxil olaraq müxtəlif inzibati vəzəfələrdə işləmiş və burada özünün rəhbəri olduğu Siyasi İqtisad Mərkəzini yaratmışdır. O, həmçinin bu illər ərzində müxtəlif ölkələrdə, o cümlədən Peru və Argentinada iqtisadi məsləhətçi vəzifələrində çalışmışdır.

D.Nortun tədqiqatları iqtisadi artıma, institusional amillərin təhlilinə, iqtisadi tarixə, ölkələrin yoxsulluğu və zənginliyi səbəblərinə həsr olunmuşdur. O, iqtisadi tarixə dair tədqiqatlarda iqtisadi nəzəriyyə və ekonometrik metod və modellərin tətbiqi ilə əlaqəli fənlərarası istiqamət olan "kliometriya"nın (*Cliometrics*) banilərindən biri kimi tanınır.

Əsas elmi əsərləri:

1. 1790-1860-cı illərdə ABŞ-da iqtisadi artım (*The economic growth of the United States 1790-1860. - 1961*);

2. İnstitusional dəyişikliklər və Amerika iqtisadiyyatının artımı (*Institutional change and American growth. - 1971*);

3. Qərb dünyasının yüksəlişi (*The rise of the Western world. - 1973; R.Tomasla müştərək*);

4. İqtisadi tarixin strukturu və dəyişkənliyi (*Structure and change in economic history. - 1981)*;

5. İnstitutlar, institusional dəyişikliklər və iqtisadiyyatın funksionallığı (*Institutions, institutional change and economic performance. - 1990*).

D.Nort Amerika Sənət və Elmlər Akademiyasının üzvüdür. 1991-ci ildə "Veblen-Kommons", 1994 və 1996-cı illərdə iki versiya üzrə Adam Smit mükafatı almışdır. O, həmçinin, Avropa Siyasi İqtisad Təkamülü Assosiasiyasının (*European Association* for Evolutionary Political Economy) fəxri prezidenti olmuşdur.

D.Nort 23 noyabr 2015-ci ildə 95 yaşında Benzoniya şəhərində (*ABŞ, Miçiqan ştatı*) vəfat etmişdir.

■ **1994-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatı ABŞ iqtisadçıları Con Harsani** *(John Charles Harsanyi)*, **Con Neş** *(John Forbes Nash, Jr)* **və alman iqtisadçısı Reynhard Zeltenə** *(Reinhard Selten)* **"Qeyri-kooperativ oyunlar nəzəriyyəsində tarazlığın fundamental təhlilinə görə" verilmişdir.**

## Con Harsani



Con (*Yanoş*) Çarlz Harsani (*1920-2000*) - ABŞ iqtisadçısı.

29 may 1920-ci ildə Macarıstanın paytaxtı Budapeşt şəhərində yəhudi ailəsində anadan olmuşdur. Mükəmməl riyazi biliyinin olmasına, həmçinin riyaziyyat müsabiqəsində qalib gəlməsinə baxmayaraq, C.Harsani 1937-ci ildə məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra valideyinlərinin təkidi ilə əzcaçılıq üzrə təhsil almışdır. Tələbə kimi II Dünya müharibəsində orduya çağırışdan azad edilməsi barədə sənədi itirdiyi və yəhudi mənşəli olduğu üçün Yuqoslaviyada yerləşən əmək taboruna göndərilmişdir. Lakin 7 ay sonra tabordan qaçmağa müvəffəq olmuşdur.

1946-cı ildə Budapeşt Universitetinə (*Eötvös Loránd Tudományegyetem*) daxil olmuş, 1947-ci ildə burada sosiologiya və psixologiya üzrə doktorluq dissertasiyası müdafiə edərək iki il Budapeşt Universiteti nəzdindəki Sosiologiya İnstitutunda çalışmışdır. Siyasi baxışlarına görə işdən xaric edilən C.Harsani özünün gələcək xanımı ilə birlikdə Avsrtiyaya mühacirət etmiş, oradan da yaşamaq üçün Avstraliyaya köçmüşdür.

Özünün üçillik mühacir həyatında o, işləməklə yanaşı, Sidney Universitetində (*University of Sydney*) iqtisadiyyatla məşğul olmuşdur. Burada 1953-cü ildə magistr dərəcəsi alan C.Harsani

Brisben şəhərində Kvinslend Universitetində (*University of Queensland*) iqtisadiyyatdan dərs demişdir. Rokfeller Fondunun təqaüdçüsü kimi 1956-1958-ci illərdə ABŞ-da Stenford Universitetində oxuyaraq riyaziyyat və statistikanı öyrənmişdir. Amerika iqtisadçısı, Nobel mükafatı laureatı K.Errounun rəhbərliyi ilə burada o, oyunlar nəzəriyyəsi üzrə doktorluq dissertasiyası müdafiə etmişdir. Avstraliyaya qayıdan C.Harsani 1959-1961-ci illərdə Avstriya Milli Universitetində (*Australian National University*) dərs demişdir. Oyunlar nəzəriyyəsinin tətbiqi ilə bağlı burada dəstək almadığından 1964-1990-cı illərdə Kaliforniya Universitetində professor vəzifəsində çalışmışdır. Bu illər ərzində o, həm də dəvət olunmuş professor kimi Şərqi Almaniyanın Bilfeld və Bon, Fransanın Paris, Avstraliyanın Sidney universitetlərində dərs demişdir.

C.Harsani oyunlar, mikroiqtisadiyyat, qərarlar qəbul etmək nəzəriyyələri, rifah iqtisadiyyatı, riyazi iqtisadiyyat, etika sahələrində tədqiqatların müəllifidir.

Əsas elmi əsərləri:

1. Etika, sosial davranış və elmi izah üzrə esse (*Essays on ethics, social behavior, and scientific explanationю - 1976*);
2. Oyunlar nəzəriyyəsi üzrə iş (*Papers in game theory. - 1982*);
3. Oyunlardakı tarazlığın seçilməsinin ümumi nəzəriyyəsi (*General theory of equilibrium selection in games. - 1988; R.Zeltenlə müştərək*).

C.Harsani Kaliforniya Universitetinin fəxri professoru, həmçinin 1968-ci ildən Ekonometrik Cəmiyyətin, 1984-cü ildən Amerika Elm və İncəsənt Akademiyasının, 1992-ci ildən ABŞ Milli Elmlər Akademiyasının və 1994-cü ildən Amerika İqtisadçılar Assosiasiyasının üzvü olmuşdur.

C.Harsani 9 avqust 2000-ci ildə 80 yaşında Berkli şəhərində (*ABŞ, Kaliforniya ştatı*) vəfat etmişdir.

## Con Neş



Con Forbs Neş - kiçik (*1928-2015*) - ABŞ riyaziyyatçısı və iqtisadçısı.

13 iyun 1928-ci ildə ABŞ-da Virciniya ştatının Blyufild şəhərində anadan olmuşdur. C.Neş orta məktəbdə o qədər də müvəffəq oxumamış və riyaziyyatı sevməmişdir. 14 yaşı olanda o, Amerika riyaziyyatçısı Bell Erik Templin (*1883-1960*) "Riyaziyyatı yaradanlar" kitabı ilə tanış olmuş və özünün yazdığı kimi, bu kitabı oxuduqdan sonra heç bir kənar kömək olmadan ədədlər nəzəriyyəsinin klassik teoremi olan "kiçik Ferm teoremi"ni isbat etmişdir. Bununla da ilk dəfə özünün riyazi dühasını göstərə bilmişdir.

Məktəbi bitirdikdən sonra C.Neş Karnegi-Mellon Universitetinə daxil olmuş və 1947-ci ildə həmin universiteti bakalavr və magistr diplomları ilə bitirmişdir. Sonra C.Neş Prinston Universitetinə daxil olmuşdur. Buradakı müəllimlərindən biri Riçard Daffin onun haqqında təqdimat məktubunda bu qısa lakonik sətirləri yazmışdır: "Bu insan - dahidir".

Prinston Universitetində "Oyunlar nəzəriyyəsi" ilə dərindən tanış olan C.Neş 1949-cu ildə 21 yaşında bu nəzəriyyə üzrə doktorluq dissertasiyası yazmış və 45 ildən sonra həmin tədqiqata görə Nobel mükafatı almışdır.

1951-ci ildə C.Neş Kembricdə Massaçusets Texnologiya İnstitutunda işləməyə başlamışdır. O, burada professor vəzifəsində 1959-cu ilə qədər işlədikdən sonra Kaliforniyaya getmiş, burada RAND korporasiyasında ABŞ hökuməti üçün təhlil və starteji işləmələr tapşırığı üzrə çalışmışdır.

C.Neşin oyunlar nəzəriyyəsi ilə bağlı RAND korporasiyasında yerinə yetirdiyi tədqiqatlar onu "soyuq müharibə" aparılması

sahəsində başlıca mütəxəssislərdən birinə çevirmişdir. O, dünya iqtisadiyyatının inkişafında böyük rol oynamış elmi metodun əsaslarını yarada bilmişdir.

Tale C.Neşin üzünə gülürdü. Lakin o, ruhi xəstəliyə tutuldu. Rəqəmlərdə gizli müraciətlər axtarırdı. Günlərlə yoxa çıxırdı. C.Neş 25 il ərzində ruhi xəstəlikdən əziyyət çəkmişdir. Yalnız 1980-ci illərin ortalarında, nəhayət, bu bəlanı idarə etməyi öyrəndi və yenidən riyaziyyatla məşğul olmağa başladı. Eyni zamanda, oyunlar nəzəriyyəsi biznes və iqtisadi nəzəriyyədə ən mühüm alətə çevrildi. Bu sahədə bütün tədqiqatlar C.Neşin məşhur əsərinə əsaslanırdı. Nəhayət, o, İqtisadiyyat üzrə Nobel mükafatı aldı. Adətən, Nobel laureatları haradasa bəzi siyasi dəstəyə malik olurlar. Lakin C.Neşin qazandıqlarının hamısı onun şəxsi xidməti olmuşdur.

Əsas elmi əsərləri:

1. Ticarəretmənin problemləri (*The bargaining problem. - 1950*);

2. Qeyri-kooperativ oyunlar (*Non-cooperative games. - 1951*).

1998-ci ildə Amerika jurnalisti və Kolumbiya Universitetinin iqtisadiyyat professoru, yazıçı və jurnalist, özbək əsilli Silviya (*Zülfiyyə*) Nazar (*1947*) C.Neşin tərcümeyi-halını qələmə almış, "Gözəl şüur: riyaziyyat dahisi və Nobel mükafatı laureatı Con Neşin həyatı" adlı kitab çap etdirmişdir. Kitab dərhal bestsellerə çevrilmişdir. 2001-ci ildə Hollivudda Ron Hovardın rəhbərliyi ilə kitabın motivləri əsasında "Şüur oyunları" adlı film çəkilmişdir. Bu film dörd "Oskar", "Qızıl qlobus" mükafatlarını almış və digər mükafatlara layiq görülmüşdür. 2015-ci ildə C.Neş xətti olmayan differensial tənliklər nəzəriyyəsinə verdiyi töhfəyə görə ən yüksək riyaziyyat ödülü - Abel mükafatını almışdır. O, hər iki mötəbər mükafata layiq görülən (*Nobel Abel mükafatları*) dünyada ilk şəxs olmuşdur.

C.Neş 23 may 2015-ci ildə həyat yoldaşı ilə birlikdə avtomobil qəzası nəticəsində Monro Taunşip şəhərində *(ABŞ, Nyu-Cersi ştatı*) 86 yaşında vəfat etmişdir.

## Reynhard Zelten



Reynhard Zelten (*1930-2016*) - alman riyaziyyatçısı və iqtisadçısı.

5 oktyabr 1930-cu ildə alman şəhəri Breslauda yəhudi ailəsində anadan olmuşdur. II Dünya müharibəsindən sonra onun doğma şəhəri Vroslav adı ilə Polşaya verilmişdir. R.Zeltenin müharibə illərinə düşən uşaqlıq həyatı ağır keçmişdir. Belə şəraitdə o, 1951-ci ilə qədər orta məktəbdə oxumuş və həmin ildə Frankfurt Universitetinə daxil olmuşdur. 1957-ci ildə R.Zelten bu unversiteti magistr dərəcəsi ilə bitirmiş və burada qalaraq elmi işlə məşğul olmuş və 1968-ci ildə elmlər doktoru dərəcəsi almışdır. 1969-cu ildə Berlin, 1984-cü ildə isə Bonn universitetlərində professor vəzifəsində çalışmışdır.

1959-cu ildə R.Zelten Elizabet Lenqreinerlə evlənir və bu qadın hər zaman onun yanında olaraq, ona özünü tam şəkildə göstərməyə kömək edir. Lakin onların övladları olmur. 1972-ci ildə R.Zelten həyat yoldaşı ilə birlikdə özünün riyazi iqtisadiyyat institutunu təşkil etmək arzusu ilə Bilefeldə köçür. Pul olmadığından bu nəhəng planlar boşa çıxır. Buna baxmayaraq, həmfikirlər çox da böyük olmayan cəmiyyət yaradırlar. Bilefeld Universitetində (*Bielefeld university*) keçirdiyi illər R.Zelten üçün çox məhsuldar olmuşdur. Burada o, çoxlu elmi əsərlər nəşr etdirmişdir.

1984-cü ildə R.Zelten eksperimental iqtisadiyyat üçün kompüterləşdirilmiş laboratoriya yaratmaq məqsədilə Bonn Univer-

sitetinə köçür. 1991-ci ildə məlum olur ki, Zeltenlərin hər ikisi şəkərli diabet xəstəliyinə tutulub, nəticədə alimin həyat yoldaşı görmə qabiliyyətini və ayaqlarını itirir, lakin onlar həyata olan inamlarını itirməyərək, nikbinliklə öz sevimli işlərini davam etdirirlər.

R.Zelteni eksperimental iqtisadiyyat sahəsində cığır açanlardan hesab etmək olar. Belə ki, sadəcə, bu elm əvvəllər mövcud olmamışdır. O, həmçinin məhdud səmərəlilik mövzusundakı tədqiqatları ilə də tanınır və təcrübi iqtisadiyyatın qurucularından biri hesab edilir.

Əsas elmi əsərləri:

1. Tələbin ətaləti ilə oliqopoliya modeli (*Ein oligopolmodell mit nachfrageträgheit. - 1965*);

2. Strateji rasionallıq modeli (*Models of strategic rationality. - 1988*);

3. İqtisadi davranışın yaxşı anlaşılmasının axtarışında (*In search of a better understanding of economic behavior. - 1993*).

R.Zelten dəfələrlə beynəlxalq esperanto dilinə dəstək üçün yüksək səviyyədə fikirlər söyləmişdir. Məsələn, 2007-ci ildə Avropa Parlamentində çıxış edərək, demişdir: "Öyrənilməsi asan olan esperanto dil probleminin neytral həllini verir". O, həmçinin 2009-cu ildə ADE partiyası (*Avropa - Demokratiya - Esperanto*) adından Avropa Parlamentinə seçilməyə razılıq vermişdir.

R.Zelten 23 avqust 2016-cı ildə Polşada Poznan şəhərində 85 yaşında vəfat etmişdir.

■ **1995-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı ABŞ iqtisadçısı Robert Lukasa** *(Robert Emerson Lucas, Jr)* **"Rasional gözləmə fərziyyəsinin işlənməsinə, makroiqtisadi təhlilin dəyişməsi və iqtisadi siyasət anlamının dərinləşdirilməsinə görə" verilmişdir.**

## Robert Lukas



Robert Emerson Lukas - kiçik (*1937*) - ABŞ iqtisadçısı.

15 sentyabr 1937-ci ildə ABŞ-ın Vaşinqton ştatının Yakima şəhərində anadan olmuşdur. II Dünya müharibəsindən sonara ailəsi Sietl şəhərinə köçmüş, 1955-ci ildə burada orta məktəbi bitirdikdən sonra Çikaqo Universitetinə daxil olmuş, 1959-cu ildən təhsilini Berklidə Kaliforniya Universitetində davam etdirmişdir. Həmin ildə yenidən Çikaqo Universitetinə qayıdan R.Lukas burada tarix ixtisası üzrə bakalavr diplomu almışdır. Bu universitetdə dərs deməklə o, 1964-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir. R.Lukas 1970-1974-cü illərdə Karnegi-Mellon, 1975-1980-ci illərdə isə Çikaqo universitetlərinin professoru olmuşdur. 1975-1983-cü illərdə Çikaqo Universitetində dekan müavini, 1986-1988-ci illərdə isə həmin universitetin iqtisad fakültəsinin dekanı vəzifəsində işləmişdir. R.Lukas bir sıra elmi jurnallarda rəhbər vəzifələr tutmuş, 1988-ci ildən "Siyasi iqtisad jurnalı"nın (*Journal of Political Economy*) baş redaktoru olmuşdur.

1970-ci illərdən başlayaraq R.Lukas dünyanın ən nüfuzlu iqtisadçıları sırasına daxil olmuşdur. O, makroiqtisadi nəzəriyyənin əsaslarını şübhə altına qoymuş və bundan irəli gələrək, makroiqtisadi modelin mikroiqtisadi modellərin ümumiləşdirilmiş inter-

pretasiyasına əsaslanmalı olduğunu israr etməklə məşhurlaşmışdır.

Əsas elmi əsərləri:

1. Pulların neytrallığı və gözlənilməsi (*Expectations and the neutrality of money. - 1972*);

2. İşgüzar dövriyyə nəzəriyyəsinin metod və problemləri (*Methods and problems in business cycle theory. - 1980*);

3. İşgüzar dövriyyə nəzəriyyəsi üzrə tədqiqatlar (*Studies in business-cycle theory. - 1981*);

4. Rasional gözləntilər və ekonometrik təcrübə (*Rational expectations and econometric practice, 1981; T.Sarcentlə müştərək*);

5. İşgüzar dövriyyə aktivliyi modelləri (*Models of business cycles. - 1985*);

6. İqtisadi dinamikanın tədqiqatlarında rekursiv metodlar (*Recursive methods in economic dynamics. - 1989*).

R.Lukas Nobel mükafatı laureatı olmaqla yanaşı, bir sıra digər mükafat və adlara da layiq görülmüşdür. O, Amerika Ekonometrik Cəmiyyətinin, Amerika Sənət və Elmlər Akademiyasının, Amerika Milli Elmlər Akademiyasının, Amerika İqtisadçılar Assosiasiyasının üzvüdür. R.Lukas həmçinin Paris Universitetinin, Afina iqtisad və biznes universitetlərinin də fəxri üzvüdür.

R.Lukasın keçmiş həyat yoldaşı - Rita Lukas 1988-ci ildə boşandıqdan sonra nigaha xitam verilməsi haqqında müqavilədə ərinin növbəti yeddi il ərzində Nobel mükafatı alacağı halda bu mükafatın yarısının ona çatması hüququnu əldə etmişdir. Bu səbəbdən də R.Lukas 1995-ci ildə Nobel mükafatı alarkən, mükafatın məbləğinin yarısı keçmiş həyat yoldaşına verilmişdir.

R.Lukasın hazırkı həyat yoldaşı Nensi Stokey (*1950*) tanınmış iqtisadçı, Çikaqo Universitetinin professorudur.

■ **1996-cı ildə iqtisadiyyat sahəsində Nobel mükafatı Böyük Britaniya iqtisadçısı Ceyms Mirrlisə** *(Sir James Alexander Mirrlees)* **və ABŞ iqtisadçısı Uilyam Vikriyə** *(William Spencer Vickrey)* **"Stimulların iqtisadi nəzəriyyəsi və assimetrik informasiya sahəsində fundamental nailiyyətlərə görə" verilmişdir.**

## Ceyms Mirrlis



Ser Ceyms Aleksandr Mirrlis (*1936-2018*) - Böyük Britaniya iqtisadçısı.

5 iyul 1936-cı ildə İngiltərənin Şotlandiya vilayətinin cənub-qərbində, Minniqrif məntəqəsində anadan olmuşdur. Orta məktəbdə C.Mirrlis yaxşı oxumuş, müxtəlif elmlər üzrə keçirilən olimpiadalarda qalib gəlmişdir. 1954-cü ildə o, Edinburq Universitetinə daxil olmuş, 1957-ci ildə Şotlandiyadan köçərək Kembric Universitetində təhsilini davam etdirmişdir. Burada o, 1959-cu ildə magistr dərəcəsi almış, 1963-cü ildə isə doktorluq dissertasiyası müdafiə etmiş və müəllim kimi fəaliyyət göstərmişdir.

C.Mirrlis 1968-ci ildə Oksford Universtetində işə qəbul olunaraq burada pedoqoji fəaliy-yətlə yanaşı, həm də ABŞ-ın vergi sistemi ilə bağlı tədqiqatlarına cəlb olunmuşdur. O, ABŞ-ın və Avropanın bir sıra aparıcı universitetlərində dərs demiş, ölkəsinin müxtəlif dövlət xidmətləri ilə elmi əməkdaşlıq etmiş, Böyük Britaniya, Pakistan və İsveçrənin dövlət müəssisələrinə və mütəxəssislərinə məsləhətlər vermişdir.

C.Mirrlisin əsərləri asimmetrik informasiya şəraitində vergiqoymaya, sosial sığortaya, pul nəzəriyyəsinə, iqtisadi institutlara həsr edilmişdir.

Əsas elmi əsərləri:

1. İnkişaf etməkdə olan ölkələrdə layihələrin qiymətləndirilməsi və planlaşdırılması (*Project appraisal and planning for developing countries. - 1974*);

2. Mənəvi risk nəzəriyyəsi və müşahidə edilməyən davranış (*The theory of moral hazard and unobservable behavior. - 1975*);

3. Rifah iqtisadiyyatı və iqtisadiyyat (*Welfare economics and economics. - 1995*).

C.Mirrlis 1998-ci ildə Böyük Britaniya kraliçası tərəfindən ser (*cəngavər*) tituluna layiq görülmüşdür. O, Amerika Sənət və Elmlər Akademiyasının, Amerika İqtisadçılar Assosiasiyasının üzvü seçilmiş, 1982-ci ildə Amerika Ekonometrik Cəmiyyətinin, 1988-1989-cu illərdə Beynəlxalq Atlantik İqtisad Cəmiyyətinin prezidenti olmuşdur. 2011-ci ildə Qazaxıstandakı L.N.Qumilyov adına Avrasiya Milli Universitetinin fəxri professoru seçilmişdir.

C.Mirrlis 29 avqust 2018-ci ildə Böyük Britaniyada Kembric şəhərində 82 yaşında vəfat etmişdir.

## Uilyam Vikri



Uilyam Spenser Vikri (*1914-1996*) - ABŞ iqtisadçısı.

21 iyun 1914-cü ildə Kanadanın İngilis Kolumbiyası vilayətində anadan olmuşdur. İbtidai və orta təhsilini Avropa və ABŞ-da almışdır. ABŞ-da Nyu-Heyven şəhərində Yel Universitetinin riyaziyyat fakültəsini bitirdikdən sonra 1935-1937-ci illərdə Vaşiqtonda Milli Resursların Planlaşdırılması Şurasında və Maliyyə Nazirliyinin vergilər bölməsində çalışmışdır.

U.Vikri II Dünya müharibəsində orduda xidmətdən imtina edərək Puerto-Rikoda yeni vergi layihələndirilməsi ilə məşğul ol-

muşdur. O, 1946-cı ildə Kolumbiya Universitetində dərs demiş və 1948-ci ildə burada iqtisadiyyat üzrə doktorluq dərəcəsi almışdır. U.Vikrinin dissertasiyası mütərəqqi vergiqoymaya həsr olunmuşdur. Bu dissertasiya dəfələrlə nəşr edilmiş və 1972-ci ildə iqtisadiyyat sahəsində klassik elmi əsər kimi qəbul olunmuşdur.

U.Vikri 1964-1967-ci illərdə Kolumbiya Universitetinin iqtisad fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1967-1968-ci illərdə o, Stenford Universitetində "Elm sahəsində ali elmi nailiyyətlər" Mərkəzinin əməkdaşı olmuş, 1971-ci ildə dəvətlə Avstraliya universitetlərinin birində dərs demişdir. U.Vikri dəfələrlə hökumət və digər təşkilatlarda vergiqoyma məsələləri üzrə məsləhətlər vermiş, 1973-1977-ci illərdə Milli İqtisadi Tədqiqatlar Bürosunun direktoru olmuşdur. 1979-cu ildən isə o, Kolumbiya Universitetinin fəxri professoru seçilmişdir.

U.Vikrinin elmi fəaliyyəti zənginliyi ilə fərqlənir. Onun elmi yaradıcılığı başlıca olaraq asimmetrik informasiya şəraitində vergiqoyma, qiymətqoyma, resurs bölgüsü və iqtisadi stimullara həsr edilmişdir. 1994-cü ildə Kembric Universiteti tərəfindən alimin tərcümeyi-halı ilə bağlı külliyyat nəşr olunmuşdur. Bu nəşr səkkiz kitabı əhatə etmiş və buraya 139 məqalə, 27 icmal, əvvələr nəşr edilməyən 61 əsər daxil edilmişdir.

Əsas elmi əsərləri:

1. Proqressiv vergiqoyma (*Agenda for progressive taxation. - 1947*);
2. Metastatika və makroiqtisadiyyat (*Metastatics and macroeconomics. - 1964*);
3. İctimai sferanın iqtisadiyyatı (*Public economics. - 1994*).

U.Vikri 1992-ci ildə Amerika Elmlər Akademiyasına, Amerika Ekonometrik Cəmiyyətinə üzv seçilmiş, Amerika İqtisadçılar Assosiasiyasının prezidenti olmuşdur. İqtsadiyyat üzrə Nobel mükafatı laureatı elan edilməsidən 3 gün öncə, 11 oktyabr 1996-cı ildə Harrison şəhərində (*ABŞ, Nyu-York ştatı*) vəfat etmişdir.

■ **1997-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına ABŞ iqtisadçıları Robert Merton** *(Robert Carhart Merton)* **və Mayron Şoulz** *(Myron Samuel Scholes)* **"Törəmə qiymətli kağızların** *(derivativlər)* **dəyərinin yeni hesablama metodikasının işlənməsinə görə" layiq görülmüşlər.**

## Robert Merton



Robert Karhart Merton (*1944*) - ABŞ iqtisadçısı.

31 iyul 1944-cü ildə Nyu-York şəhərində, yəhudi ailəsində, tanınmış sosioloq Robert Kinq Mertonun (*1910-2003*) ailəsində anadan olmuşdur. 1966-cı ildə Kolumbiya Universitetini riyaziyyat üzrə bakalavr diplomu ilə, 1967-ci ildə Kaliforniya Texnologiya İnstitutunu tətbiqi riyaziyyat magistr diplomu ilə bitirmişdir. 1970-ci ildə Massaçusets Texnologiya İnstitutunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1969-cu ildən 1980-ci ilə qədər həmin institutda iqtisad müəllimi, maliyyə və menecment üzrə professor assistenti, maliyyə üzrə professor-adyunkt və nəhayət, maliyyə professoru vəzifələrində işləmişdir.

R.Merton 1979-cu ildə ABŞ İqtisadi Tədqiqatlar Milli Bürosunun direktoru olmuşdur. Hazırda Boston şəhərində Harvard Universitetinin nəzdindəki Ali İşgüzar İnzibatçılıq Məktəbində idarəetmə üzrə professor vəzifəsində çalışır. O, ABŞ-ın bir sıra nüfuzlu iqtisadi jurnallarının redaksiya heyətinin üzvü olmuş, "Maliyyə iqtisadiyyatı" jurnalının baş redaktoru işləmişdir.

R.Merton qeyri-müəyyənlik və informasiya, riyazi iqtisadiyyat və modelləşdirmə, maliyyə və investisiyalar iqtisadiyyatı sahəsində mütəxəssisdir.

Əsas elmi əsərləri:

1. Maliyyələr (*Finance. - 1998; S.Bodi ilə müştərək*);

2. Qlobal maliyyə sistemi: funksional perspektiv (*The global financial system: a functional perspective. - 1995; 6 müəlliflə müştərək*).

R.Mertonun müasir maliyyə bazarları nəzəriyyəsinin inkişafında xidmətlərini elmi ictimaiyyət yüksək qiymətləndirmişdir. O, ABŞ-ın Çikaqo Universitetinin mükafatına layiq görülmüş, Amerika Maliyyə Assosiasiyasının vitse-prezidenti seçilmişdir.

## Mayron Şoulz



Mayron Samuel Şoulz (*1941*) - ABŞ iqtisadçısı.

1 iyul 1941-ci ildə Kanadanın Ontario əyalətinin Timmins şəhərində yəhudi ailəsində anadan olmuşdur. O, orta məktəbdə çox yaxşı oxumuşdur. 16 yaşında praktiki olaraq görmə qabiliyyətini itirən M.Şoulz diqqətlə dinləmək və abstrak düşünmək qabiliyyəti mənimsəmişdir. Bir neçə əməliyyat keçirdikdən sonra 26 yaşında onun görmə qabiliyyəti bir qədər yaxşılaşmışdır. Hələ erkən gəncliyində M.Şoulz iqtisadiyyata, əsasən də, onun tərkib hissəsi olan maliyyəyə böyük maraq göstərmişdir. O, qazandığı ilk pulları qiymətli kağızlar bazarında dövriyyəyə qoymuş və şövq ilə kotirovkaların artımını izləmişdir. 1960-cı illərin sonunda bütün pullarını səhmlər alınmasına yönəldən M.Şoulz buradakı kəskin qiymət enişlərindən sonra uzun müddət borc içində yaşamağa məcbur olmuşdur.

M.Şoulz 1962-ci ildə kolleci bitirdikdən sonra Kanadada

Hamilton şəhərində Makmaster Elmi-Tədqiqat Universitetində (*McMaster University*) oxumuşdur. 1964-cü ildə magistr dərəcəsi alan M.Şoulz sonradan təhsilini doktorant olaraq ABŞ-da Çikaqo Universitetində davam etdirərək, burada 1968-ci ildə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Onun dissertasiya işi satılan qiymətli kağızların tələb əyrisi düsturunun təyin edilməsinə həsr olunmuşdur. Müdafiədən sonra M.Şoulz Massaçusets Texnologiya İnstitutunun menecment məktəbində professor assistenti kimi işləməyə başlamışdır. 1981-ci ildə o, ABŞ-da Kaliforniyadakı Stenford Universisetində hüquq fakültəsinin biznes məktəbinində çalışmalarını davam etdirmişdir. 1990-cı illərdə isə M.Şoulz üç unversitetin fəxri doktoru seçilmişdir.

M.Şoulz həmçinin bir sıra iqtisadi və maliyyə institutları ilə də işləmişdir. Bu sırada Çikaqo Əmtəə Birjası (*Chicago Mercantile Exchange*), Nobel mükafatı üzrə həmkarı P.Mertonla birgə təsis etdiyi LTCM (*Long-Term Capital Management*) hedc-fondu və özünün əsasını qoyduğu Aktivləri İdarəetmə Şirkəti (*Grove Asset Management - LP*) mühüm yer tutur.

M.Şoulz opsionların qiymətləndirilməsi üçün Blek-Şoulz düsturu kimi məlum olan kəşfi ilə şöhrət tapmış iqtisadçıdır.

Əsas elmi əsərləri:

1. Vergilər və biznes strategiyası (*Taxes and business strategie. - 1991; M.Volfsonla müştərək*);

2. Maliyyə infrastrukturu və iqtisadi artım (*Financial infrastructure and economic growth. - 1996*).

M.Şoulz Amerika Ekonometrik Cəmiyyətinin və Amerika Sənət və Elmlər Akademiyasının üzvüdür. Hazırda o, ailəsi ilə birlikdə xoşbəxt həyat sürür. Asudə vaxtlarında xizəkçiliklə məşğul olur və qolf oynayır.

■ **1998-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına Hindistan iqtisadçısı Amartya Kumar Sen** *(Amartya Kumar Sen)* **"rifah iqtisadi nəzəriyyəsinə töhfələrinə görə" layiq görülmüşdür.**

## Amartya Sen



Amartya Kumar Sen (*1933*) - Hindistan iqtisadçısı.

3 noyabr 1933-cü ildə Hindistanın Qərbi Benqal ştatının Santiniketan universitet şəhərciyində anadan olmuşdur. A.Senin uşaqlıq və gənclik illəri atasının professor qismində dəvət aldığı Birmadakı Mandalay inzibati mərkəzində keçmişdir. O, orta məktəbi əvvəlcə Dəkkədə, sonra isə Santiniketanda oxumuşdur.

A.Sen Hindistanda 1953-cü ildə Kəlküttə Universitetinin (*University of Calcutta*) kollecini bitirərək bakalavr dərəcəsi almış və 1956-1958-ci illərdə həmin universitetdə dərs demişdir. Sonra isə Böyük Britaniyaya gedərək Kembric Universitetini bitirmiş və 1959-cu ildə doktor elmi dərəcəsi almışdır. Onun ilk elm-tədris fəaliyyəti 1963-1971-ci illərdə Dehli Universitetində (*University of Delhi*) keçmişdir. A.Sen 1963-cü ildə burada professor vəzifəsi alaraq, sonradan 1971-1977-ci illərdə London Universitetində, sonra isə Oksford Universitetində işləmişdir. 1988-ci ildə Harvard Universitetində çalışmış, 1998-ci ildə Kembric Universitetinə qayıdaraq, 2004-cü ilə kimi Triniti kollecinin rəhbəri vəzifəsində çalışmışdır.

A.Sen hələ 10 yaşında ikən millətlərarası qanlı münaqişələrin, 1943-cü ildə isə Hidistanın Benqaliya əyalətində 3 milyona qədər insanın həyatına son qoymuş dəhşətli aclığın şahidi olmuşdur. Bu

hadisələr onun bütün həyatında dərin iz qoymuşdur. Görünür, elə bu səbəbdəndir ki, A.Sen elmi yaradıcılığını, əsasən, ictimai seçim nəzəriyyəsinə, rifah və yoxsulluq indekslərinə, milli gəlirə, aclıq probleminə həsr etmişdir.

A.Sen rifah iqtisadiyyatının problemləri və ictimai seçim nəzəriyyəsi üzrə 10-dan çox monoqrafiyanın müəllifidir.

Əsas elmi əsərləri:

1. Kollektiv seçim və ictimai rifah (*Collective choice and social welfare. - 1970*);

2. İqtisadi bərabərsizlik haqqında (*On economic inequality. - 1973*);

3. Yoxsulluq və aclıq (*Poverty and famines. - 1981*);

4. Seçim, rifah və ölçmə (*Choice, welfare and measurement. - 1982*);

5. Bərabərsizlik probleminə qayıdış (*Inequality reexamined. - 1992*);

6. İnkişaf azadlıq kimi (*Development as freedom. - 1999*).

A.Sen Nobel mükafatı laureatı olmaqla yanaşı, bir sıra digər mükafat və adlara da layiq görülmüşdür. 1984-cü ildə Amerika Ekonometrika Cəmiyyətinin, 1986-1989-cu illərdə Beynəlxalq İqtisadçılar Assosiasiyasının, 1994-cü ildə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti olmuşdur. A.Sen 1986-cı ildə Amerika İqtisadçı Alimlər Komitəsinin F.Seydman adına və 2000-ci ildə Nobel mükafatı laureatı Vasiliy Leontyev adına mükafatlara laqiq görülmüşdür.

■ **1999-cu ildə iqtisadiyyat sahəsində Nobel mükafatına Kanada iqtisadçısı Robert Mandel** *(Robert Alexander Mundell)* **"Müxtəlif valyuta kursları rejimlərində pul və fiskal siyasətin və həmçinin optimal valyuta zonalarının təhlilinə görə" layiq görülmüşdür.**

## Robert Mandel



Robert Aleksandr Mandel (*1932*) - Kanada iqtisadçısı.

24 oktyabr 1932-ci ildə Kanadanın Kinqston şəhərində anadan olmuşdur. Təhsilini ABŞ və Kanadada almışdır. 1953-cü ildə Britaniya Kolumbiyası Universitetini iqtisadiyyat üzrə bakalavr dərəcəsi ilə bitirmiş, Vaşiqton Universitetində oxumuş və 1956-cı ildə Massaçusets Texnologiya İnstitutunda doktorluq dərəcəsi almışdır. 1956-1957-ci illərdə R.Mandel ABŞ-ın Çikaqo Universitetində siyasi iqtisad üzrə staj keçmiş və sonra ABŞ-ın Stenford Universitetində, habelə bir sıra Avropa ali təhsil müəssisələrində dərs demişdir. R.Mandel 1961-ci ildə BVF-də işə dəvət almış və 1963-cü ilədək orada çalışmışdır. 1966-1971-ci illərdə Çikaqo Universitetində işləyərək həmin universitetdə professor elmi dərəcəsinə yiyələnmişdir.

R.Mandel dünya pul və valyuta münasibətləri sistemi sahəsində görkəmli mütəxəssislərdəndir. Onun çoxsaylı kitab və məqalələri başlıca olaraq bu sahənin problemlərinə həsr edilmişdir.

R.Mandel yüzdən çox elmi əsərin, o cümlədən 8 monoqrafiyanın müəlifidir.

Əsas elmi əsərləri:

1. Beynəlxalq pul sistemi: konflikt və islahat (*The International*

*monetary system: conflict and reform. - 1965*);

2. Pul nəzəriyyəsi: dünya iqtisadiyyatında faiz, inflyasiya və artım (*Monetary theory: interest, inflation and growth in the world economy. - 1971*);

3. Qlobal tarazlıq (*Global disequilibrium. - 1990*);

4. Çində inflyasiya və artım (*Inflation and growth in China. - 1996*).

R.Mandel Nobel mükafatı laureatı olduqdan sonra BMT-də, Dünya Bankında (*World Bank*), Avropa Komissiyasında, ABŞ-ın Maliyyə Nazirliyində və habelə digər dünya ölkələrində iqtisadiyyat üzrə məsləhətçi kimi çalışmış, 1974-1978-ci illərdə Amerika İqtisadçılar Assosiasiyasının və Amerika Maliyyə Assosiasiyasının prezidenti olmuşdur.

■ **2000-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına ABŞ iqtisadçıları Ceyms Hekman** *(James Joseph Heckman)* **və Daniel Makfadden** *(Daniel Little McFadden)* **"Selektiv seçimlərin nəzəriyyə və metodlarının işlənməsinə görə" layiq görülmüşlər.**

## Ceyms Hekman



Ceyms Cozef Hekman (*1944*) - ABŞ iqtisadçısı.

14 aprel 1944-cü ildə ABŞ-ın Çikaqo şəhərində anadan olmuşdur. 1965-cı ildə kolleci riyaziyyat ixtisası üzrə bakalavr dərəcəsində bitirərək, əvvəlcə aviasiya şirkətində mühəndis, sonradan isə iqtisadçı məsləhətçilər komitəsində iqtsadçı vəzifəsində çalışmışdır. Bu vəzifələrdə çalışmaqla o, həm də paralel olaraq Prinston Universitetində təhsilini davam etdirmiş və 1968-ci ildə oranı bitirərək magistr dərəcəsinə yiyələnmişdir.

C.Hekman 1972-ci ildə Nyu-York Universitetində kiçik assistent, eyni zamanda, 1970-1974-cü illərdə Kolumbiya universitetində assissent və adyunkt-professor vəzifələrində çalışmışdır. 1975-1976-cı illərdə C.Hekman RAND korporasiyasında konsultant işləmiş, 1976-cı ildə Los-Ancelesdəki Kaliforniya Universitetində, 1977-ci ildə Viskonsin ştatı Universitetində və London iqtisad məktəbində, 1988-1990-cı illərdə Yel Universitetində dərs demişdir.

C.Hekman elmi-təhsil sferasındakı karyerasında bütün akademik səviyyələri keçmiş və hazırda əməkdar iqtisad professoru rütbəsində fəaliyyətini davam etdirir.

C.Hekmanın elmi maraqlarının başlıca sahəsi ekonometrika, insan resurslarının (*manpower*), əməyin (*labour*), əhalinin (*population*) iqtisadiyyatıdır. Onun tədqiqatları iqtisadiyyata və bütövlükdə cəmiyyətə həm metodoloji, həm də çoxsaylı sosial proqramların təsirinin qiymətləndirilməsi mövqeyindən empirik maraq doğurur.

C.Hekman qələmindən 200-dən çox əsər çıxmışdır.

Əsas elmi əsərləri:

1. Əmək bazarının uzunlamasına təhlili (*Longitudinal analysis of labor market. - 1985; B.Singerlə müştərək*);

2. Sosial proqramların qiymətləndirilməsi: fototipiyanın öyrənilməsi proqramından metodoloji və empirik dərslər (*Evaluating social programms: methodological and empirical lessons from a phototypical job training program. - 2000*);

3. Dövlət bürokratiyası fəaliyyətinin stimulları: bürokratik stimullar bazar effektivliyinə təsir edə bilərlərmi? (*Incentives in government bureaucracies: can incentives in bureaucracies emulate market efficiency. - 2001*).

C.Hekman Nobel mükafatı laureatı olmaqla yanaşı, bir sıra digər mükafat və adlara da layiq görülmüşdür. O, 1980-ci ildə Amerika Ekonometrik Cəmiyyətinin, 1985-ci ildə Amerika Sənət və Elmlər Akademiyasının, 1992-ci ildə Amerika Milli Elmlər Akademiyasının üzvü seçilmiş, 1996-1997-ci illərdə Orta Qərb İqtisadçılar Assosiasiyasının prezidenti olmuşdur. Amerikanın digər elmi təşkilatlarının və universitetlərinin fəxri üzvü olan C.Hekman 1983-cü ildə Amerika İqtisadçılar Assosiasiyasının Con Beyts Klark medalı ilə təltif olunmuş və Çikaqo Universitetinin Henri Şults mükafatına layiq görülmüşdür.

## Daniel Makfadden



Daniel Litl Makfadden (*1937*) - ABŞ iqtisadçısı.

29 iyul 1937-ci ildə ABŞ-ın Cənubi Karolina ştatındakı Roli şəhərində anadan olmuşdur. D.Makfadden 16 yaşında Minnesota Universitetinə daxil olmuş və 19 yaşında fizika üzrə bakalavr dərəcəsi almışdır. Bir il sonra, 1962-ci ildə isə o, davranış elmləri sahəsində iqtisadçı ixtisası üzrə doktorluq dərəcəsi almışdır.

D.Makfaddenin elmi karyerasının başlanğıcının iqtisadiyyatla heç bir əlaqəsi olmamışdır. Tələbə ikən o, kosmik laboratoriyada işləmiş, rentgen teleskopunun və telemetriya üçün ilk olmayan tranzistor kompüterinin layihələşdirilməsi ilə məşğul olmuşdur. D.Makfadden magistraturada təhsil alarkən humanitar elmlərlə maraqlanmağa başlamışdır.

D.Makfadden 1968-ci ildə Berklidə, Kaliforniya Universitetində təhsil işinə keçmiş və ekonometrika sahəsində bir neçə istiqamətdə tədqiqatlarla məşğul olmuşdur. O, 1977-ci ildə Massaçusets Texnologiya İnstitutuna keçmiş, lakin 1994-cü ildə Berkliyə qayıtmışdır. Bundan sonra D.Makfadden iqtisadi əlavələr üçün statistik hesablamalar hazırlayan Ekonometrika laboratoriyası yaratmışdır və bu günə qədər onun direktoru olaraq qalır. 2011-ci ildə məlum olmuşdur ki, D.Makfadden Cənubi Kaliforniya Universitetində (*University of Southern California, USC*) səhiyyə iqtisadiyyatı professoru təyin edilmişdir.

D.Makfadden diskret seçim təhlilinin metodologiyasının işlənməsi sahəsində tədqiqatları ilə tanınır.

Əsas elmi əsərləri:

1. Diskret modellərin struktur təhlili və ekonometrik əlavələr

(*Structural analysis of discrete data with econometric applications. - 1981; Ç.Manki ilə müştərək*);

2. Üstünlük vermə, qeyri-müəyyənlik və optimallıq (*Preferences, uncertainty and optimality. - 1990*);

3. Ekonometrikada optimallıq (*Handbook of econometrics. - 1994; N.Enqlomla müştərək*).

D.Makfadden Nobel mükafatı laureatı olmaqla yanaşı, bir sıra digər mükafat və adlara da layiq görülmüşdür. O, 1975-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının Con Beyts Klark medalı və 1986-cı ildə Amerika Ekonometrik Cəmiyyətinin Friş medalı ilə təltif olunmuş və 2000-ci ildə iqtisadiyyat üzrə Ervin Pleyn Nemmers (*Erwin Plein Nemmers Prize*) mükafatına layiq görülmüşdür. 1981-ci ildə o, Amerika Milli Akademiyasının üzvü seçilmişdir. D.Makfadden həmçinin digər beynəlxalq elmi təsisatlarda müxtəlif rəhbər vəzifələrdə təmsil olunmuş və onların elmi adlarına layiq görülmüşdür.

D.Makfadden aldığı Nobel mükafatını təhsil və sənəti dəstəkləmək məqsədilə Şərq körfəzi Cəmiyyətinin Fondununa bəxşiş etmişdir. O, bu mükafatı aldıqdan sonra da məhsuldar işləmişdir. D.Makfaddenin internet səhifəsində onlarla məqalələr vardır. Bu məqalələr sosial təhlükəsizlik və tibbi sığorta sahələrində Amerika islahatlarına, həmçinin sağlamlığın mühafizəsi müştəri-sinə istiqamətlənmiş mənəvi riskə və internet-texnologiyaların inkişafına həsr edilmişdir. Bu tədqiqatlar D.Makfaddenin mühüm sosial problemlərin öyrənilməsi zamanı iqtisadi nəzəriyyəni ekonometrik metodlarla birləşdirmək bacarığını təsdiq edir.

■ **2001-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına ABŞ iqtisadçıları Corc Akerlof** *(George Arthur Akerlof)*, **Maykl Spens** *(Andrew Michael Spence)* **və Cozef Stiqlis** *(Joseph Eugene Stiglitz)* **"Bazarları asimmetrik informasiya prinsiplərinə əsasən təhlil etdiklərinə görə" layiq görülmüşlər.**

**Corc Akerlof**



Corc Artur Akerlof (*1940*) - ABŞ iqtisadçısı.

17 iyun 1940-cı ildə ABŞ-ın Konnektikut ştatının Nyu-Heyven şəhərində yəhudi ailəsində anadan olmuşdur. 1962-ci ildə Yel Universitetini bitirərək, iqtisadiyyat üzrə bakalavr dərəcəsi, 1966-cı ildə isə Massaçusets Texnologiya İnstitutunu bitirərək iqtisadiyyat üzrə fəlsəfə doktoru dərəcəsi almışdır. Təhsilini başa çatdırdıqdan sonra C.Akerlof Berklidə Kaliforniya Universitetində dərs demişdir. 1967-1968-ci illərdə Hindistanın Kəlkətə şəhərində Hind Statistik İnstitutunun və London İqtisad və Siyasət Elmləri Məktəbinin professoru olmuşdur.

C.Akerlof 1973-cü ildə ABŞ prezidenti R.Niksonun yanında İqtisadi Məsləhətçilər Komitəsində əməkdaşlardan biri kimi çalışmışdır.

O, 1978-ci ildə yenidən İqtisad və Siyasət Elmləri Məktəbinə, 1980-ci ildə isə oradan Berklidəki Kaliforniya Universitetinə qayıtmışdır.

C.Akerlof informasiya iqtisadiyyatının banisidir. Onun iqtisad nəzəriyyəsinə yanaşması ortodoksal iqtisadi nəzəriyyənin çərçivələrindən daim azad olma, digər elmlərlə qarışılıqlı əlaqəlilik, biçimlilik və riyaziyyatdan yaradıcı istifadə ilə fərqlənir.

Əsas elmi əsərləri:

1. "Limonlar" bazarı: keyfiyyətin qeyri-müəyyənliyi və bazar mexanizmi (*The market for "Lemons": quality uncertainty and the market mechanism, 1970*);

2. İdentikliyin iqtisadiyyatı: ideal və sosial normalarımız bizim işlərimizi, qazancımızı və rifahımızı necə müəyyənləşdirir (*Identity economics. How our idetites shape our work, wages, and well-being, 1995*);

3. Həyatsevərlik. İnsan psixologiyası iqtisadiyyatı necə idarə edir və bu, dünya kapitalizmi üçün nə qədər mühümdür (*Animal Spirits. How human psychology drives the economy, and why it matters for global capitalism, 2009, P.Şillerlə müştərək).*

C.Akerlof Amerika İqtisadçılar Assosiasiyasının fəxri prezidenti olaraq, bir çox elmi adlara da layiq görülmüşdür. Onun xanımı Canet Yellen məşhur iqtisadçılardan olaraq uzun müddət San-Fransiskoda Federal Ehtiyat Bankının prezidenti vəzifəsində işləmiş, ABŞ prezidenti B.Klintonun iqtisadçı məsləhətçilər komitəsinə rəhbərlik etmişdir.

## Maykl Spens



Endrü Maykl Spens (*194*3) - ABŞ iqtisadçısı.

7 noyabr 1943-cü ildə ABŞ-ın Nyu-Cersi ştatının Montkler şəhərində anadan olmuşdur. 1966-cı ildə Prinston Universitetində fəlsəfə bakalavrı, 1968-ci ildə isə Oksford Universitetində riyaziyat üzrə magistr dərəcəsi almışdır. 1972-ci ildə Harvard Universitetində iqtisad üzrə doktorluq dissertasiyası müdafiə etmişdir.

M.Spens təhsilini başa vurduqdan sonra çox uğurlu akademik

karyeraya nail olmuşdur. Belə ki, o, yalnız elm və təhsillə deyil, həm də bu istiqamətdə inzibati işlərlə də məşğul olmuşdur. Öncə Harvard və Stenford universitetlərində iqtisad professoru kimi çalışmış, 1984-1990-cı illərdə Harvard Universitetinin yanında Elm və Sənət Məktəbində dekan işləmiş, sonra yenidən Stenford Universitetinə qayıdaraq burada 1999-cu ilə qədər Biznes Məktəbinin dekanı kimi fəaliyyət göstərmişdir. M.Spens, eyni zamanda, yüksək texnologiyalar sferasında investisiyaların idarə edilməsi üzrə bir sıra şirkətlərlə partnyorluq etmişdir.

Alim daha çox özünün "İş yerləri bazarının siqnal modeli" ilə məşhurdur. Məhz bu model sonralar kontraktlar nəzəriyyəsinin həmin sahəsinə həsr edilmiş yüzlərlə tədqiqat üçün başlanğıc nöqtəsi olmuşdur.

Əsas elmi əsərləri:

1. Əmək bazarında siqnallaşma (*Job market signalling. - 1973*);

2. Çirklənməyə nəzarətdə tənzimləmə strategiyası (*Regulatory Strategies for pollution control. - 1978; M.Vetzmanla müştərək*);

3. Açıq iqtisadiyyatda sənaye təşkilatları (*Industrial organization in an open economy. - 1980; R.Reşer və M.Porterlə müştərək*);

4. İnvestisiya bankçılığında rəqabət strukturu (*Competitive structure in investment banking. - 1983; S.Hays və D.Marksla müştərək*);

5. Növbəti konvergensiya. Fərqli sürətlə yaşayan dünyada iqtisadi böyümənin gələcəyi (*The next convergence: the future of economic growth in a multispeed world. - 2011*).

M.Spens 1977-1979-cu illərdə Milli Elm Fondu yanında iqtisadçı məsləhətçilər qrupunun üzvü olmuşdur. 1978-ci ildə yüksək pedoqoji uğurlarına görə Con Kennet Gelbrayt (*John Kenneth Galbraith*) mükafatına, 1981-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının Con Beyts Klark medalı ilə təltif olunmuşdur. O, bir sıra

məhşur elmi jurnalların redaksiya heyətinin, aparıcı elmi dairələrin üzvü seçilmiş, çoxsaylı elmi adlara layiq görülmüşdür.

## Cozef Stiqlis



Cozef Yucin Stiqlis (*1943*) - neokeynsçi ABŞ iqtisadçısı.

9 fevral 1943-cü ildə ABŞ-ın İndiana ştatının Geri şəhərində yəhudi ailəsində anadan olmuşdur. ABŞ-ın Amherst şəhərində 1960-1963-cü illərdə kollecdə (*Amherst College*) oxumuş və buranı bitirmədən C.Stiqlis Massaçusets Texnologiya İnstitutunda təhsil almaq üçün qrant udmuşdur. Burada onun müəllimləri məşhur Nobel mükafatı laureatları P.Samuelson, R.Solou, F.Modilyani və K.Errou olmuşlar.

C.Stiqlis 1965-1966-cı illərdə İngiltərəyə köçmüş və burada digər gələcək Nobel mükafatları laureatları C.Mirrlis, C.Mid və digərlərindən təhsil almışdır. Bu illər ərzində o, həm də Çikaqo Universitetində də tədqiqatlarla məşğul olmuşdur. Yel Universitetində təhsilini davam etdirərək yenidən Massaçusets Texnologiya İnstitutuna qayıtmış və burada 1967-ci ildə doktor elmi dərəcəsi almışdır. Sonra o, Kembric, Yel, Dyuk (*Duke University*), Stenford, Oksford və Prinston universitetlərində çalışmışdır. Hazırda Kolumbiya Universitetinin professorudur və həmçinin İqtisadçıların səsi (*The Economists' Voice*) jurnalının həmredaktorudur.

C.Stiqlis həmçinin 2005-ci ildən Mançester Universitetində yoxsulluq və bərabərsizlik problemlərinin tədqiqi ilə məşğul olan tədqiqat mərkəzinə (*Brooks World Poverty Institute*) rəhbərlik edir.

C.Stiqlisin elmi maraqları geniş və çoxcəhətlidir, lakin rəqabət prosesində natamam və bahalı informasiyanın rolu həmişə onun diqqət mərkəzində qalmışdır.

Əsas elmi əsərləri:

1. Kapital, əməkhaqqı və struktur işsizlik (*Capital, Wages and structural unemployment. - 1969*);

2. Bərabərsizliyin ölçülməsinin bəzi sonrakı nəticələri (*Some further results on the measurement of inequality. - 1973; M.Rotşildlə müştərək*);

3. Qeyri-təkmil informasiya ilə məhsullar bazarında tarazlıq (*Equilibrium in product markets with imperfect information. - 1979)*.

C.Stiqlis Nobel mükafatı laureatı olmaqla yanaşı, bir sıra digər mükafat və adlara da layiq görülmüşdür. Amerika Milli Elmlər Akademiyasının, Amerika Sənət və Elmlər Akademiyasının və Amerika Ekonometrik Cəmiyyətinin həqiqi üzvü seçilmiş, 1979-cu ildə Amerika İqtisadçılar Assosiasiyasının Con Beyts Klark medalı ilə təltif olunmuşdur. C.Stiqlis 1995-1997-ci illərdə ABŞ prezidenti B.Klintonun iqtisadçı məsləhətçilər komitəsinə rəhbərlik etmiş, 1997-2000-ci illərdə Dünya bankının şef-iqtisadçısı olmuşdur O, həmçinin Papa İctimai Elmlər Akademiyasının (*Pontifical Academy of Social Sciences*) üzvü və 2003-cü ildə Rusiya Elmlər Akademiyasının xaricdən fəxri üzvüdür.

C.Stiqlis Durham Biznes Məktəbinin (*Durham Business School*) doktoru, Sinxua Universiteti nəzdində Dövlət İdarəetmə və Menecment Məktəbinin (*Tsinghua University School of Public Policy and Management*) fəxri professorudur. O, dünyada ən çox sitatgötürmə indeksli iqtisadçılardandır.

C.Stiqlis 2004-cü ildə özündən 20 yaş kiçik olan Anne Şifren adlı jurnalist xanımla ailə həyatı qurmuşdur.

■ **2002-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına, müştərək olaraq, İsrail-Amerika psixoloqu və iqtisadçısı Daniel Kaneman** *(Daniel Kahneman)* **"İqtisadi qeyri-müəyyənlik şəraitində qərar qəbul etmədə psixoloji aspektlərin öyrənilməsinə görə" və ABŞ iqtisadçısı Vernon Smit** *(Vernon Lomax Smith)* **"İqtisadi tədqiqatlarda eksperimental metodların tədqiqinə görə" layiq görülmüşlər.**

## Daniel Kaneman



Daniel Kaneman (*1934*) - İsrail-ABŞ psixoloqu və iqtisadçısı.

5 mart 1934-cü ildə İsrailin paytaxtı Təl-Əviv şəhərində yəhudi ailəsində anadan olmuşdur. Uşaqlıq illərini Parisdə keçirmiş, 1946-cı ildə Fələstinə gəlmiş və 1954-cü ildə Yerusəlimdə (*Qüds*) Yəhudi Universitetində (*Hebrew University of Jerusalem*) riyaziyyat və psixologiya üzrə bakalavr dərəcəsi almışdır. Bundan sonra İsrail ordusunda psixoloji şöbədə işləmişdir. Onun çalışdığı bölmə çağrışçıların seçilməsi və test edilməsi ilə məşğul olmuşdur. Burada D.Kaneman şəxsiyyətin qiymətləndirilməsi üçün intervyer işləmişdir. Ordudan tərxis olunduqdan sonra o, Yəhudi Universitetinə qayıtmış, burada məntiq və fəlsəfə elmləri üzrə kursları dinləmişdir. D.Kaneman 1958-ci ildə ABŞ-a gəlmiş və 1961-ci ildə Berklidəki Kaliforniya Universitetində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 1969-cu ildə D.Kaneman koqnitiv elmin banilərindən olan məşhur yəhudi alimi Amos Tverski (*1937-1996*) ilə əməkdaşlıq edərək onun dəvəti ilə Yəhudi Universitetində ehtimal edilən hadisələrin qiymətləndirilməsi sahəsində mühazirələr oxumuşdur. 1970-ci illərin sonunda o, İsraildəki işindən

müvəqqəti ayrılaraq Amerika və Kanada alimlərinin birgə elmi layihələri üzrə həmin ölkələrdə müvafiq elm-tədqiqat institutlarında işləmişdir. D.Kaneman 1993-cü ildən ABŞ-da Prinston Universitetində və paralel olaraq 2000-ci ildən, İsraildə Yəhudi Universitetində çalışır. "Economics and philosophy" (*"İqtisadiyyat və fəlsəfə"*) jurnalının redaksiya şurasının üzvüdür.

D.Kaneman qərar qəbuletmə və öz davranışını idarəetmə riskinə insanın irrasional münasibətinin izah olunması üçün iqtisadiyyat və koqnivistikanı birləşdirən psixoloji iqtisadi nəzəriyyənin və davranış maliyyəsinin banilərindən biridir. Onun iqtisadi psixologiyaya əsaslanan tədqiqatlarının başlıca obyekti - qeyri-müəyyən vəziyyətdə insanın qərar qəbuletmə mexanizmləridir.

Əsas elmi əsərləri:

1. Perspektiv nəzəriyyəsi: risk şəraitində qərar qəbuletmənin təhlili (*Prospect theory: an analysis of decision under risk. – 1979; A.Tverski ilə müştərək*);

2. Perspektiv nəzəriyyəsi sahəsində nailiyyətlər: qeyri-müəyyənliyin təqdimatının məcmusu (*Advances in prospect theory: cumulative representation of uncertainty. - 1992; A.Tverski ilə müştərək*);

3. Düşüncə, sürətli və yavaş (*Thinking, fast and slow. - 2011*).

D.Kaneman mükafatlandırma mərasimində açıq etiraf etmişdir ki, Nobel mükafatına layiq olmaq şərəfi nadir hallarda tək bir nəfərin elmə töhfəsini ifadə edir. "Mənimlə bağlı vəziyyət də bu baxımdan səciyyəvidir, belə ki, mən də mükafatı 1996-cı ildə həyatdan köçmüş yaxın dostum və həmkarım Amos Tverski ilə birlikdə gördüyüm işə görə alıram".

D.Kaneman Amerika Milli Akademiyasının, Amerika Sənət və Elmlər Akademiyasının, Macarıstan Elmlər Akademiyasının (*Magyar Tudományos Akadémia*) üzvüdür. 2006-cı ildə Kampe de Frede mükafatına (*Kampé de Fériet Award*) layiq görülmüşdür.

## Vernon Smit



Vernon Lomaks Smit (*1927*) - ABŞ iqtisadçısı.

1 yanvar 1927-ci ildə ABŞ-da Kanzas ştatının Uiçito şəhərində anadan olmuşdur. 1949-cu ildə Kaliforniya Texnoloji Universitetini bitərərək mühəndis ixtisası üzrə bakalavr dərəcəsi almışdır. Bundan sonra V.Smit iqtisadiyyatla daha dərindən maraqlanmağa başlamışdır. 1952-ci ildə Kanzas ştatında universiteti bitirərək iqtisadiyyat üzrə magistr dərəcəsi almış və 1955-ci ildə isə Harvard Universitetində iqtisadiyyat üzrə doktor elmi dərəcəsinə yiyələnmişdir. V.Smit 1955-1967-ci illərdə Perdyu Universitetində (*Purdue University*), 1968-1975-ci illərdə Massaçusets Texnologiya İnstitutunda, 1975-2001-ci illərdə isə Arizona Universitetində (*Arizona State University*) dərs demişdir. 2001-ci ildən ABŞ-ın aparıcı ali təhsil müəssisələrindən olan Corc Meyson Universitetinin iqtisadiyyat və hüquq üzrə professoru kimi fəaliyyət göstərir.

V.Smit təsərrüfat həyatının real situasiyalarını, əvvəllər olduğu kimi, riyazi modellərlə deyil, insanlarla aparılan təcrübələrdə canlandıran nəzəri istiqamətin - eksperimental iqtisadi nəzəriyyənin (*experimental economics*) əsasını qoyanlardan və onun aparıcı nümayəndələrindən biri olmuşdur. Onun təklif etdiyi eksperimental imitasiya metodları təsərrüfat praktikasının konkret problemlərinin həllində, o cemlədən 1980-ci illərdə antitrest məhkəmə araşdırmalarında istifadə olunmuşdur. 1990-cı illərdə isə bu metodlar Avstraliyada, Yeni Zelandiyada və ABŞ-da elektrik energetikasının yenidən tənzimlənməsi proqramlarının işlənib hazırlanmasında və özəlləşdirilməsində böyük rol oynamışdır.

V.Smitin təcrübələrində insanlar əvvəlcə, həqiqətən, çox vaxt qeyri-rasional hərəkətlər edir və səhvlərə yol verir, sonra isə

təcrübə toplayır və iqtisadi nəzəriyyənin göstərdiyi daha rasional həll yolunu tapırdılar. Digər tərəfdən, V.Smitin də təcrübələrinin bəzi nəticələri müasir iqtisadi nəzəriyyə nöqteyi-nəzərindən anormaldır. Buna görə də V.Smitin eksperimental iqtisadiyyatı və D.Kanemanın iqtisadi psixologiyası bir-birini nəinki təkzib etmir, hətta bir-birini tamamlayırlar.

Tarazlı qiymətlərin formalaşdırılmasının, hərrac və fond birjalarının işlərinin modelləşdirilməsi üzrə V.Smitin apardığı təcrübələr daha məşhurdur. Bu təcrübələr, əsasən, ənənəvi iqtisadi nəzəriyyələri təsdiq etmişdir. V.Smitin yazdığı kimi, " özü də gözləniləndən də yaxşı təsdiqini tapır, ələlxüsus, bu konsepsiyaları yoxlamağın ümumiyyətlə mümkünlüyünün əvvəllər heç kimin ağlına gəlmədiyini nəzərə aldıqda..."

Əsas elmi əsərləri:

1. İnvestisiyalar və məhsullar (*Investment and production. - 1961*);

2. Sosial seçimdə həmrəylik və könüllü razılaşma prinsipi (*The principle of unanimity and voluntary consent in social choice. - 1977*);

3. Mikroiqtisadi nəziriyyədə ekspermental elmin keyfiyyəti haqqında (*Microeconomic theory as an experimental science. - 1982*);

4. Ticarət oyunlarında üstünlüklər, mülkiyyət hüququ və anonimlik (*Preferences, property rights and anonymity in bargaining games. - 1994*).

1997-ci ildə V.Smit iqtisad elmi sahəsində eksperimental tədqiqat metoduna kömək məqsədi güdən özəl xeyriyyəçi Beynəlxalq Eksperimental İqtisadi Tədqiqatlar Fondunun (*The International Foundation for Research in Experimental Economics, IFREE*) əsasını qoymuşdur . 1986-1987-ci illərdə İqtisad Elmləri Assosiasiyasının və 1988-1990-cı illərdə "İctimai seçim" cəmiyyətinin prezidenti olmuş, 1995-ci ildə A.Smit mükafatı almışdır.

■ **2003-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "Zaman dəyişmələri ilə bağlı iqtisadi müvəqqəti sıraların təhlili metodunun işlənməsinə görə" ABŞ iqtisadçısı Robert İnql** *(Robert Fry Engle III)* **və "İqtisadiyyatda müvəqqəti sıraların təhlilinin kointeqrasiya metodunun işlənməsinə görə" Böyük Britaniya iqtisadçısı Klayv Qrencer** *(Sir Clive William John Granger)* **layiq görülmüşlər.**

## Robert İnql



Robert Fray İnql III (*1942*) - ABŞ iqtisadçısı.

10 noyabr 1942-ci ildə ABŞ-da Nyu-York ştatının Sirakyus şəhərində anadan olmuşdur. Uilyam kollecini bitirərək fizika üzrə bakalavr dərəcəsi almışdır. R.İnql Nyu-York ştatının İtaka şəhərində Kornell Universitetində təhsilini davam etdirmiş və 1966-cı ildə həmin universiteti bitirərək fizika üzrə magistr dərəcəsi qazanmışdır. Üç il keçdikdən sonra isə burada fəlsəfə doktoru adı almışdır. 1969-1977-ci illərdə R.İnql Massaçusets Texnologiya İnstitutunda dərs demişdir. O, həmçinin 1975-ci ildə San-Dieqoda Kaliforniya Universitetində də dərs deməyə dəvət almış, uzun müddət burada işləyərək, 2003-cü ildə təqaüdə çıxmışdır.

R.İnql ayrı-ayrı dövrlərdə, həmçinin Nyu-York Universitetində də dərs demiş, orada maliyyə xidmətləri professoru vəzifəsi daşımışdır. Hazırda R.İnql Kaliforniya Universitetinin fəxri professoru və həmçinin tədqiqat professorudur.

R.İnqlın elmə verdiyi ən mühüm xidməti maliyyə bazarlarında qiymətlərin və faiz hədlərinin öncədən təxmin edilməyən hərəkətlərinin təhlili üçün yeni bir üsulun işləməsi olmuşdur.

Əsas elmi əsərləri:

1. Səhvlərin kointeqrasiyası və korreksiyası: təqdimat, qiymətləndirmə və sınaq (*Cointegration and error-correction: representation, estimation and testing. - 1987; K.Qrencerlə müştərək*);

2. Dinamik şərti müqayisə (*Dynamic conditional correlation. - 2002*).

R.İnql Maliyyə Ekonometrikası Cəmiyyətinin banilərindən (*E.Gizelslə birlikdə*) biridir. O, həmçinin, Volatillik İnstitutunun direktoru, Maliyyə Ekonometrikası Cəmiyyətinin prezidenti, Morgan Stanley İnvestisiya Bankının və BƏƏ baş nazirinin məsləhətçisi, ekonometrika və iqtisadi statistika üzrə eksperti kimi vəzifələr yerinə yetirmişdir. Amerika Milli Akademiyasının və Amerika Sənət və Elmlər Akademiyasının üzvüdür.

## Klayv Qrencer



Ser Klayv Uilyam Con Qrencer (*1934-2009*) - Böyük Britaniya iqtisadçısı.

4 sentyabr 1934-cü ildə Britaniyada - Cənubi Uelsdə Suonsi şəhərində anadan olmuşdur. II Dünya müharibəsi zamanı K.Qrencer anası ilə Kembric şəhərinə köçmüş və burada orta məktəbdə oxumuşdur. Müharibədən sonra onlar Hottinhem şəhərinə köçmüşlər. K.Qrencer orta məktəbi də burada bitirmiş və Hottinhem Universitetinə (*University of Nottingham)* daxil olmuşdur. 1955-ci ildə universiteti bitirərək riyaziyyat üzrə bakalavr dərəci almış və elə burada da statistika üzrə doktorluq dərəcəsi almaq üçün qalıb təhsilini davam etdirmişdir. O, 21 yaşında ikən Hottinhem Universitetində statistika üzrə kiçik müəllim vəzifəsinə təyin olunmuşdur. 1959-cu ildə K.Qrencer statistika üzrə doktorluq dissertasiyası müdafiə

etmişdir. 1959-1960-cı illərdə o, ABŞ-da Prinston Universitetində dərs deməyə dəvət almışdır. Yenidən fəaliyyətini Hottinhem Universitetində davam etdirən K.Qrencer burada 22 il çalışdıqdan sonra Nobel mükafatına layiq görülmüşdür. Bu illər ərzidə o, 1974-cü ildə ABŞ-da San-Dieqoda Kaliforniya Universitetində dərs demiş, 1975-ci ildə ABŞ-da əhalinin siyahıya alınması bürosunun işində iştirak etmiş və Nobel mükafatı üzrə partnyoru Robert İnqlla əməkdaşlığa başlamışdır. O, həmçinin Avstraliyada Melburn, Yeni Zelandiyada Kenterberi universitetlərində də dəvətli professor kimi çalışmışdır. K.Qrencer 2003-cü ildə Kaliforniya Universitetindən fəxri professor kimi ayrılmışdır.

K.Qrencerin tədqiqatlarının başlıca mövzusu mühüm iqtisadi göstəricilər arasında qarşılıqlı əlaqələrin öyrənilməsi olmuşdur.

Alimin 150-dən çox elmi məqaləsi və onlarla kitabı dərc olunmuşdur.

Əsas elmi əsərləri:

1. İqtisadi vaxt sıralarının spektral təhlili (*Spectral analysis of economic time series. - 1964*);

2. Səhvlərin kointeqrasiyası və korreksiyası: təqdimat, qiymətləndirmə və sınaq (*Cointegration and error-correction: representation, estimation and testing. - 1987; R.İnqlla müştərək*);

3. İqtisadi sıraların modelləşdirilməsi: ekonometrik metodologiya üzrə mütaliələr (*Modelling economic series: readings in econometric methodology. - 1989*).

K.Qrencer 1972-ci ildən Ekonometrik Cəmiyyətin üzvü və 2002-ci ildən Britaniya Akademiyasının müxbir üzvü olmuşdur. 2004-cü ildə keçirilən sorğunun nəticələrinə görə K.Qrencerin adı "100 Uels qəhrəmanı" siyahısına düşmüşdür.

K.Qrencer 27 may 2009-cu ildə 74 yaşında San-Dieqo şəhərinin La-Hoyya rayonunda (*ABŞ, Kaliforniya ştatı*) vəfat etmişdir.

■ **2004-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "Zaman amilinin iqtisadi siyasətə təsirinin öyrənilməsinə verdikləri töhfələrə və işgüzar tsikllərin hərəkətverici qüvvələrinin tədqiqinə görə" Norveç iqtisadçısı Finn Kidland** *(Finn Erling Kydland)* **və ABŞ iqtisadçısı Edvard Preskott** *(Edward Christian Prescott)* **layiq görülmüşlər.**

## Finn Kidland



Finn Erlinq Kidland (*1943*) - Norveç iqtisadçısı.

1 dekabr 1943-cü ildə Norveçin Alqard şəhərində çoxuşaqlı fermer ailəsində anadan olmuşdur. O, 1968-ci ildə Norveç İqtisadiyyat və İşgüzar İnzibatçılıq Məktəbini bitirərək bakalavr dərəcəsi almışdır. 1973-cü ildə isə ABŞ-da Pensilvaniya ştatında Karnegi-Mellon Universitetində iqtisadiyyat üzrə doktorluq dissertasiyası müdafiə etmişdir. Doktor elmi dərəcəsi aldıqdan sonra vətəni Norveçə qayıtmış və İqtisadiyyat və İşgüzar İnzibatçılıq Məktəbində dərs demişdir.

1970-ci illərin ikinci yarısında F.Kidland Karnegi-Mellon Universitetinə çalışmaq üçün dəvət almış və 1976-cı ildən 2004-cü ilədək həmin universitetin professoru olmuşdur. O, həmçinin dəvət olunmuş professor kimi ABŞ-ın Santa-Barbarada yerləşən Kaliforniya Universitetində (*University California, Santa Barbara*), Huver İnstitutunda (*Hoover İnstitution*), Argentinada Buenos-Ayresdə Torçuato di Tella Universitetində (*Torcuato di Tella*) dərs demişdir. Bundan başqa, F.Kidland ABŞ-da Dallas, Klivlend və Sent-Luisdə Federal Ehtiyat Banklarında məsləhətçi kimi də çalışmış, Ostində Texas Universitetinin (*Univertsitu of Texas at Austin*) böyük elmi işçisi olmuşdur.

F.Kidland real iqtisadi tsikl nəzəriyyəsi və iqtisadi siyasətdə zaman ardıcıllığı ilə bağlı tədqiqatlar müəllifidir. O, iqtisadiyyat sahəsində və siyasi iqtisad sahəsində ekspert kimi tanınır. F.Kidlandın müəllimlik fəaliyyətinin əsas istiqamətləri biznes-tsikllər, vergi-büdcə siyasəti və əməyin iqtisadiyyatı sahələrini əhatə edir.

Əsas elmi əsərləri:

1. Optimal vergiqoyma dinamikasi, rasional gözləmə və optimal nəzarət (*Dynamic optimal taxation, rational expectations and optimal control. - 1980; E.Preskottla müştərək*);

2. Yaratmaq zamanı və aqreqat titrəyişlər (*Time to build and aggregate fluctuations. - 1982; E.Pereskotla müştərək*).

F.Kidland Karnegi-Mellon Universitetində təsis etdiyi Maliyyə Laboratoriyasında (*Laboratory for aggregate economics and finance. - LAEF*) çalışır.

## Edvard Preskott



Edvard Kristian Preskott (*1940*) - ABŞ iqtisadçısı.

26 dekabr 1940-cı ildə ABŞ-da Nyu-York ştatının Qlens-Folls şəhərində anadan olmuşdur. O, 1962-ci ildə ABŞ-ın Svortmor kollecini (*Swarthmore College*) bitirərək bakalavr dərəcəsi almışdır. Sonra təhsilini davam etdirərək Keyz Qərb Ehtiyat Universitetində (*Case Western Reserve University*) magistr dərəcəsi qazanmış, 1967-ci ildə isə Karnegi-Mellon Universitetində iqtisadiyyat üzrə fəlsəfə doktoru olmuşdur.

E.Preskott 1966-1971-ci illərdə Pensilvaniya Universitetində dərs demiş, sonradan yenidən Karnegi-Mellon Universitetinə qayıtmışdır və 1980-ci ilə qədər burada qalmışdır. O, həmçinin

1978-ci ildə professor kimi Çikaqo Universitetinə, bir ildən sonra isə Şimal-Qərb Universitetinə dəvət almış və burada 1982-ci ilə kimi dərs demişdir. E.Preskott, həmçinin, 2003-cü ildə Minnesota Universitetində və Arizona Universitetində, 2006-cı ildə də dəvətlə Nyu-York Universitetində müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur.

E.Preskott makroiqtisadiyyatda, xüsusən də, işgüzar tsikllər və ümumi tarazlıq nəzəriyyələri üzrə baş fiqurlardan biridir. O, göstərmişdir ki, iqtisadi siyasət çox vaxt uyğunsuzluq problemlərindən əziyyət çəkir. Nümayiş etdirmişdir ki, iqtisadi siyasətlə bağlı cəmiyyət əvvəlki öhdəliyindən faydalana bilər.

E.Preskott iqtisadi siyasətin inkişafı və biznes dövrlərinin hərəkətverici qüvvələri haqqında yeni fikirlər təqdim etmişdir.

Əsas elmi əsərləri:

1. Optimal vergiqoyma dinamikası, rasional gözləmə və optimal nəzarət (*Dynamic optimal taxation, rational expectations and optimal control. – 1980; F.Kidlandla müştərək*);

2. Məxfi informasiyalı iqtisadiyyatda rəqabətli tarazlığın ümumi təhlili (*General competitive equilibria analysis in an economy with private information. - 1984; R.Taunsendlə müştərək*).

Minneapolis Federal Ehtiyat Bankında (*Federal Reserve Bank of Minneapolis*) iqtisadçı və Arizona Universitetinin Biznes məktəbində (*W.P. Carey School of Business*) professor kimi çalışan E.Preskottun son zamanlar elmi fəaliyyəti Avropa iqtisadiyyatına vergilərin mənfi təsiri ilə bağlı tədqiqatlar üzərində cəmləşmişdir. O, Amerika Milli Akademiyasının, Amerika Sənət və Elmlər Akademiyasının üzvüdür. 1992-1995-ci illərdə İqtisadi Dinamika Cəmiyyətinin prezidenti, “İqtisadi nəzəriyyə” (*Economic Theory*) jurnalının Redaksiya Şurasının üzvü olmuşdur.

■ **2005-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına İsrail iqtisadçısı və riyaziyyatçısı Robert Aumann** *(Yisrael Robert John Aumann)* **və ABŞ iqtisadçısı Tomas Şellinq** *(Thomas Crombie Schelling)* **"Oyunlar nəzəriyyəsinin təhlili ilə münaqişə və əməkdaşlıq haqqında anlayışımızı dərinləşdirdiyinə görə" layiq bilinmişlər.**

## Robert Aumann



İsrael Robert Con Aumann (*1930*) - yəhudi iqtisadçısı və riyaziyyatçısı.

8 iyun 1930-cu ildə Almaniyanın Frankfurt şəhərində doğulmuşdur. Faşizmdən qurtulmaq üçün köçmək məcburiyyətində qalan R.Aumannın ailəsi 1938-ci ildə ABŞ-a mühacirət etmişdir. O, əvvəlcə Nyu-Yorkda yəhudi məktəbində, sonra isə şəhər kollecində oxumuş, 1950-ci ildə kolleci bakalavr dərəcəsində bitirərək təhsilini Massaçusets Texnologiya İnstitutunda davam etdirmiş və 1952-ci ildə burada magistr, 1955-ci ildə isə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

R.Aumann 1956-cı ildə İsrailə köçərək, Yerusəlimdə (*Qüds*) məskunlaşaraq burada Yəhudi Universitetinin riyaziyyat fakültəsində işləmişdir. O, həmçinin Amerika təşkilatları ilə fəal əməkdaşlıq etmişdir. RAND korporasiyasında çalışarkən burada ilk dəfə Nobel mükafatı üzrə həmkarı T.Şellinqlə rastlaşmışdır. R.Aumann, həmçinin ABŞ-ın Nyu-Yorkda Stoni-Bruk Universitetinə (*State University of New York at Stony Brook*) dəvət olunmuş və burada professor olaraq fəaliyyət göstərmişdir.

R.Aumann təqaüdə çıxanadək Yəhudi Universiteti nəzdindəki Rasional Tədqiqatlar Mərkəzinin professoru olub. O, oyunlar nəzəriyyəsi üzrə aparıcı tədqiqatçılardandır.

Əsas elmi əsərləri:

1. Ciddi sayıla biləcək rəqabət oyunları (*Almost strictly competitive games. -1961*);

2. Sonsuz genişlənmiş oyunlarda qarışıqlıq və davranış strategiyaları (*Mixed and behavior strategies in infinite extensive games. - 1964*).

R.Aumann 1983-cü ildə İsrailin Harvi mükafatını, 1994-cü ildə müştərək olaraq iqtisadiyyat üzrə İsrail dövlət mükafatını almışdır. O, 1998-2003-cü illərdə Oyunlar Nəzəriyyəsi Cəmiyyətinə (*Game Theory Society*) rəhbərlik etmiş, 1990-cı illərin əvvəllərində İsrail Riyaziyyatçılar İttifaqının prezidenti olmuş, ABŞ Silahlara Nəzarət və Silahsızlaşdırma Agentliyinin məsləhətçisi kimi çalışmışdır. R.Aumann Amerika Milli Elmlər Akademiyası və Amerika Sənət və Elm Akademiyasının da üzvüdür.

R.Aumann inanclı yəhudidir. O, dini həyat tərzi keçirir, Qəzza və Samirədə məskunlaşan israillilərin oradan köçürülməsi siyasətinin qatı əleyhdarı kimi çıxış edir.

## Tomas Şellinq



Tomas Krombi Şellinq (*1921-2016*) - ABŞ iqtisadçısı.

14 aprel 1921-ci ildə ABŞ-ın Kaliforniya ştatında Oklend şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Berklidə Kaliforniya Universitetində oxumuş, 1944-cü ildə burada iqtisadiyyat üzrə bakalavr diplomuna yiyələnmişdir. 1951-ci ildə Harvard Universitetində dissertasiya müdafiə edərək iqtisadiyyat üzrə doktor elmi dərəcəsi almışdır.O, müxtəlif hökumət təşkilatlarında - 1945-1946-cı illərdə Federal Büdcə Bürosunda, 1948-1950-ci illərdə ABŞ-ın

ticarət naziri Vilyam Averel Harrimanın (*1891-1986*) rəhbərliyi ilə Paris və Kopenhagendə Marşall planının reallaşdırılması bürosunda çalışmış, onun himayəçiliyi ilə 1951-1953-cü illərdə Ağ evdə ABŞ dövlət aparatında beynəlxalq ticarət üzrə ekspert vəzifəsində fəaliyyət göstərmişdir.

T.Şellinq 1953-cü ildə Vaşinqton administrasiyasında dövlət postunu itirdikdən sonra peşəkar alim-iqtisadçı karyerasına başlamışdır. Əvvəlcə Yel Universitetində, sonra isə 1958-ci ildən 1990-cı ilə qədər Harvard Universitetində iqtisadiyyat üzrə professor vəzifəsində çalışmışdır. O, bu fəaliyyətləri ilə yanaşı, 1958-1959-cu illərdə həm də ABŞ hökumətinin "beyin mərkəzləri" RAND korporasiyasında və 1969-1990-cı illərdə Harvard Universiteti nəzdində Con F.Kennedi adına idarəetmə məktəbində işləmişdir.

T.Şellinq də oyunlar nəzəriyyəsinin təhlili sahəsində aparıcı elm mütəxəssislərindən olmuşdur.

Əsas elmi əsərləri:

1. Münaqişələrin strategiyası (*The strategy of conflict. - 1960*);
2. Mikromotivlər və makroseçim (*Micromotives and macrobehavior. - 1978*);
3. Seçim və nəticə (*Choice and consequence. - 1985*).

Nobel mükafatı laureatı ilə yanaşı, T.Şellinq 1977-ci ildə Frenk Seydman mükafatı almış, Amerika Milli Elmlər Akademiyası və Amerika Sənət və Elm Akademiyasının üzvü və Amerika İqtisadçılar Assosiasiyasının prezidenti, Merlen Universitetinin iqtisadiyyat və siyasi elmlər üzrə, Harvard Universitetinin isə siyasi iqtisad üzrə fəxri professoru olmuşdur. Ümumiyyətlə isə T.Şellinq xarici işlər, milli təhlükəsizlik, nüvə strategiyası və silahlara nəzarət sahəsində professor kimi məşhur olmuşdur.

T.Şellinq 13 dekabr 2016-cı ildə 95 yaşında Betesda şəhərində (*ABŞ, Merlilend ştatı*) vəfat etmişdir.

■ **2006-cı ildə iqtisadiyyat sahəsində Nobel mükafatı ABŞ iqtisadçısı Edmund Felpsə** *(Edmund Strother Phelps)* **"Makroiqtisadi siyasətdə aralıq mübadiləni təhlil etdiyinə görə" verilmişdir.**

## Edmund Felps



Edmund Strozer Felps (*1933*) - ABŞ iqtisadçısı.

26 iyul 1933-cü ildə ABŞ-ın İllinoys ştatında Evanston şəhərində (*bəzi mənbələrdə Çikaqo şəhərində*) anadan olmuşdur. 1955-ci ildə ABŞ-ın Amxrest şəhərindəki kollecdə bakalavr dərəcəsi, 1959-cu ildə Yel Universitetində fəlsəfə doktoru elmi dərəcəsi almışdır. E.Felps 1958-1966-cı illərdə Yel Universitetində, 1966-1971-ci illərdə Pensilvaniya Universitetində, 1978-1979-cu illərdə Nyu-York Universitetində dərs demiş, sonra isə Kolumbiya Universitetində fəaliyyətini davam etdirmişdir. O, 1971-ci ildə Kolumbiya Universitetinin iqtisadiyyat fakültəsinin professoru titulunu almış və həmçinin 1982-ci ildə məşhur iqtisadçı Con Makvikarın (*1787-1868*) şərəfinə adlandırılan siyasi iqtisad üzrə "Makvikar professoru" tituluna layiq görülmüşdür. E.Felps 1997-2000-ci illərdə Milli Tədqiqatlar Şurası (*Consiglio Nazionale delle Ricerche*) nəzdindəki "İtaliya Avropada" layihəsində böyük məsləhətçi işləmiş, 1990-cı illərdə Parisdə, Fransa İqtisadi Konyuktura Rəsədxanasında (*Observatoire francais des conjonctures economiques - OFCE*) iqtisadi siyasət üzrə beynəlxalq şuranın üzvü olmuş, 2001-ci ildə Kolumbiya Universitetinin Yer İnstitutu (*Columbia's Earth Institute*) nəzdində "Kapitalizmin və cəmiyyətin

öyrənilməsi mərkəzi"nin (*Center on Capitalism and Society*) direktoru təyin edilmişdir. O, həmçinin 1974-cü ildə ABŞ Senatında məsləhətçi kimi də çalışmışdır.

E.Felps makroiqtisadi nəzəriyyə sahəsində tədqiqatların, struktur böhranlar, məşğulluq və işsizlik, əməkhaqqı, qiymətlərin dəyişilməsi kimi mühüm elmi işləmələrin müəllifi olaraq tanınır.

Əsas elmi əsərləri:

1. İqtisadi artımın qızıl qaydaları (*Golden rules of economic growth. - 1966*);
2. Məşğulluğun mikroiqtisadi əsasları və infilyasiya nəzəriyyəsi (*Microeconomic foundations of employment and inflation theory. - 1970*);
3. Rasizmin və seksizmin statistik nəzəriyyəsi (*The statistical theory of racism and sexism. - 1972*);
4. İnflyasiya siyasəti və işsizlik nəzəriyyəsi (*Inflation policy and unemployment theory. - 1972*);
5. Makroiqtisadi nəzəriyyə sahəsində tədqiqatlar. İki cilddə (*Studies in microeconomic theory. - 1979-80*);
6. Makroiqtisadi fikrin yeddi məktəbi (*Seven schools of macroeconomic thought, 1990*);
7. Struktur böhranlar; məşğulluğun, faiz və aktivlərin müasir tarazlıq nəzəriyyəsi (*Structural slumps: the modern equilibrium theory of unemployment, interest and assets. - 1994*).

E.Felps Nobel mükafatı laureatı olmaqla yanaşı, bir sıra digər mükafat və fəxri adlara da layiq görülmüşdür. O, 1976-1978-ci illərdə Amerika Ekonometrik Assosiasiyasının, 1981-ci ildən Amerika Milli Akademiyasının, 2000-ci ildən Amerika İqtisadçılar Assosiasiyasının və həmçinin Amerika Sənət və Elm Akademiyasının üzvü olmuşdur. E.Felps 1985-ci ildə Amxrest kollecinin fəxri dərəcəsi, 2001-ci ildə Almaniya Manqeym Uni-

versiteti (*University of Mannheim*) və Tor Verqat Roma Universitetinin (*Università degli Studi di Roma Tor Vergata*), 2003-cü ildə Portuqaliyanın Lissabon Universiteti (*University of Lisbon*) və Fransanın Paris-Dofin Universitetinin (*Université Paris-Dauphine*), 2004-cü ildə isə İslandiya Universitetinin (*University of Iceland*) fəxri doktoru adlarına layiq görülmüşdür. 2004-cü ildə Çin (*Pekin*) Milli Universiteti (*Renmin University of China*) ona fəxri professor adı vermiş, 2011-ci ildə isə Rusiya Elmlər Akademiyasının xarici üzvü seçilmişdir. O da vurğulanmalıdır ki, E.Felps Nobel mükafatına təklikdə layiq görülmüş iqtisadçılardandır. Onun adı, M.Blauq versiyasına görə, "Keynsdən sonra 100 dahi iqtisadçı" siyahısında yer almışdır.

■ **2007-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı ABŞ iqtisadçıları Leonid Qurviçə** *(Leonid Solomon Hurwicz)*, **Erik Meskinə** *(Eric Stark Maskin)* **və Rocer Mayersona** *(Roger Bruce Myerson)* **"Optimal mexanizmlər nəzəriyyəsinin əsaslarını yaratdıqlarına görə" verilmişdir.**

## Leonid Qurviç



Leonid Solomonoviç Qurviç (*1917-2008*) - ABŞ iqtisadçısı və riyaziyyatçısı.

21 avqust 1917-ci ildə Rusiyanın Moskva şəhərində yəhudi ailəsində anadan olmuşdur. 1919-cu ildə ailəsi ilə birlikdə atasının vətəni Polşanın Varşava şəhərinə köçmüşdür. 1938-ci ildə Varşava Universitetini (*University of Warsaw*) bitirərək hüquq magistri dərəcəsi alan L.Qurviç təhsilini London İqtisad Məktəbində davam etdirmişdir. 1939-cu ildə İsveçrənin Cenevrə şəhərinə getmiş və II Dünya müharibəsinin başlanğıc illərində bir qədər burada yaşayaraq Beynəlxalq Tədqiqatlar İnstitutunda (*Graduate Institute of International Studies*) oxumuşdur. L.Qurviç İsveçrə və Portuqaliyada bir qədər yaşadıqdan sonra 1940-cı ildə ABŞ-a getmiş və 1941-ci ildə Massaçusets Texnologiya İnstitutunda məşhur iqtisadçı, Nobel laureatı Pol Samuelsonun assistenti olmuşdur. Müharibənin gedişində o, Çikaqo Universitetində dərs demişdir. 1946-cı ildə L.Qurviç ABŞ-ın Ayova ştatında kollecin dosenti, 1951-ci ildə Minnesota Universitetinin Biznes Məktəbində iqtisad və riyaziyyat professoru olmuşdur. O, həyatının sonuna qədər Minnesota Universitetində müxtəlif vəzifələrdə çalışmışdır.

L.Qurviç makroiqtisadiyyat sahəsindəki mühüm tədqiqatları ilə tanınır. Optimal mexanizmlər nəzəriyyəsinin yaradıcılarından biridir.

Əsas elmi əsərləri:

1. İqtisadi titrəyişlərin stoxastik modelləri (*Stochastic models of economic fluctuations. - 1944*);

2. Resursların bölgüsünün optimallığı və informasiya səmərəliliyi (*Optimality and informational efficiency in resource allocation. - 1960*);

3. İnformasiyalı deməkəzləşən sistemlər haqqında (*On informationally decentralized systems. - 1971*);

4. Neş tarazlığının əldə edilməsi vasitəsi ilə bölgü haqqında (*On Allocations attainable through nash equilibria. - 1979*);

5. İqtisadi mexanizmlərin layihələndirilməsi - (*Designing economic mechanisms. - 2006; S.Reyterlə müştərək*).

L.Qurviç 1965-ci ildə Amerika Sənət və Elm Akademiyasının və 1974-cü ildə Amerika Milli Akademiyasının akademiki seçilmiş, 1969-cu ildə Amerika Ekonometrik Cəmiyyətinin prezidenti olmuşdur. O, həmçinin Amerika İqtisadçılar Assosiasiyasının fəxri üzvü, ABŞ Şimal Qərb Universitetinin fəxri elmlər doktoru, Çin Elm və Texnologiya Universitetinin (*University of Science and Technology of China*) fəxri professoru, Kaliforniya Texnologiya Universitetinin fəxri alimi, İspaniyanın Barselona Universitetinin (*University of Barcelona*) doktoru, Yaponiyanın Keyo Universitetinin (*Keio University*) iqtisad üzrə fəxri doktoru, Çikaqo Universitetinin fəxri hüquq doktoru, İllinoys Universitetinin fəxri doktoru, Varşava İqtisad Məktəbinin fəxri doktoru, Almaniya Bilefeld Universitetinin (*Bielefeld University*) fəxri doktoru olmuş, ABŞ-ın milli elm medalına layiq görülmüşdür.

L.Qurviç 88 yaşında nüfuzlu Nobel mükafatına layiq görülmüş fizik Reymond Devis-oğulun rekordunu vuraraq, ən qocaman Nobel mükafatı laureatı kimi tanınmışdır. Mükafatın məhz ona verilməsi xəbəri alim üçün gözlənilməz olmuşdur.

L.Qurviç 24 iyul 2008-ci ildə Minneapolis kəndində (*ABŞ, Minnesota ştatı*) 90 yaşında vəfat etmişdir.

## Erik Meskin



Erik Stark Maskin (*1950*) - ABŞ iqtisadçısı.

12 dekabr 1950-ci ildə ABŞ-ın Nyu-York şəhərində yəhudi ailəsində anadan olmuşdur. O, ABŞ-ın Nyu-Cersi ştatında Teneflayda orta məktəbi bitirdikdən sonra 1968-ci ildə Harvard Universitetinə daxil olmuş və 1972-ci ildə buranı bitirərək riyaziyyat sahəsində bakalavr diplomu almışdır. O, 1974-cü ildə burada magistr və 1976-cı ildə fəlsəfə doktoru dərəcələri alaraq, həmin ildə Kembricdə Cizus Kollecində (*Jesus College*) işləməyə başlamışdır. E.Meskin 1977-ci ildən 1984-cü ilədək Massaçusets Texnologiya İnstitutunda dərs demiş və 1981-ci ildən burada universitetin professoru olmuşdur. O, 1985-2000-ci illərdə Harvard Universitetində professor vəzifəsində çalışmış, 2000-ci ildən Prinstondakı Perspektiv Tədqiqatlar İnstitutunda (*Institute for Advanced Study*) fəaliyyətini davam etdirmişdir. İqtisadiyyat məktubları jurnalının (*Economics Letters*) baş redaktorudur.

E.Meskin iqtisad elmi sferasında optimal mexanizmlər, satış və ardıcıl oyun nəzəriyyələri üzrə yerinə yetirdiyi tədqiqatları ilə tanınır.

Əsas elmi əsərləri:

1. Konseptual iqtisadi nəzəriyyə (*Conceptual economic theory. - 1994*);

2. Neş tarazlığı və rifah optimallığı (*Nash equilibrium and welfare optimality. - 1999*).

E.Meskin Nobel mükafatı laureatı olmaqla yanaşı, bir sıra digər mükafat və adlara da layiq görülmüşdür. O, Amerika Milli Akademiyasının, Amerika Sənət və Elmlər Akademiyasının və

Avropa İqtisadiyyat Assosiasiyasının üzvü, Britaniya Akademiyasının müxbir üzvü seçilmiş, 2003-cü ildə Amerika Ekonometrik Cəmiyyətinin prezidenti olmuşdur. E.Meskin, həmçinin bir sıra tanınmış universitet və institutların, o cümlədən İngiltərənin Kembric Universiteti, ABŞ-ın Bard Kolleci, Macarıstan Budapeşt Korvin Universiteti (*Corvinus University of Budapest*), Belçikada Brüssel Müstəqil Universiteti (*Université Libre de Bruxelles)*, Kamboca Unversitetinin (*University of Cambodia*) fəxri elmi adlarını almış və üzvü seçilmişdir.

## Rocer Mayerson



Rocer Brus Mayerson (*1951*) - ABŞ iqtisadçısı.

29 mart 1951-ci ildə ABŞ-ın Boston şəhərində yəhudi ailəsində anadan olmuşdur. Ali təhsilini 1973-cü ildə fərqlənmə diplomu ilə bakalavr dərəcəsində Harvard Universitetində almışdır. Bakalavr diplomundan sonra o, burada həmçinin tətbiqi riyaziyyat üzrə magistr və 1976-cı ildə fəlsəfə doktoru elmi dərəcəsi də almışdır. Tətbiqi riyaziyyat üzrə ixtisaslaşan R.Mayersonun doktorluq dissertasiyası kollektiv oyunlar nəzəriyyəsinə həsr edilmişdir. O, 1976-2001-ci illərdə ABŞ-ın İllinoys ştatının Evanston şəhərindəki Qərb Universitetində dərs demiş, 1976-1982-ci illərdə bu universitetin dosenti, 1982-ci ildən isə professoru olmuşdur. Məhz bu mərhələdə R.Mayerson Nobel mükafatı almağa həsr edilmiş tədqiqatlarının böyük hissəsini burada yerinə yetirmişdir. 2001-ci ildən sonra isə Çikaqo Universitetinin professoru kimi fəaliyyətini davam etdirmişdir. O, bu universitetdə əsas iş yeri ilə yanaşı, 1985-1986-cı və 2000-2001-ci illərdə çalışmışdır.

R.Mayersonun elmi tədqiqatlarını başlıca olaraq bölgü mexanizmləri və oyunlar nəzəriyyələri təşkil edir.

Əsas elmi əsərləri:

1. Oyunlar nəzəriyyəsi: konfliktlərin təhlili (*Game theory: analysis of conflict. - 1991*);

2. İqtisadi qərarların qəbul edilməsi üçün ehtimal modellər (*Probability Models for economic decisions. - 2005*).

R.Mayerson Nobel mükafatı laureatı olmaqla yanaşı, bir sıra digər mükafat və adlara da layiq görülmüşdür. O, Amerika Milli Akademiyasının və Amerika Sənət və Elmlər Akademiyasının üzvü, 1983-cü il üzrə Huqqenheym mükafatı, 1984-1986-cı illər üzrə Alfred Sloun Fondu mükafatı laureatıdır. R.Mayerson 2003-cü ildə Amerika Ekonometrik Cəmiyyətinin prezidenti olmuşdur.

■ **2008-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı ABŞ iqtisadçısı Pol Kruqmana** *(Paul Robin Krugman)* **"Ticarətin yeni nəzəriyyəsinə və yeni iqtisadi coğrafiyaya töhfələrinə görə" verilmişdir.**

## Pol Kruqman



Pol Robin Kruqman (*1953*) - ABŞ iqtisadçısı və publisist.

28 fevral 1953-cü ildə ABŞ-ın Nyu-York ştatının Olbani şəhərində yəhudi ailəsində anadan olmuşdur. Uşaqlığı Nassau şəhərində keçmiş, Belmor şəhərində Con Kennedi adına orta məktəbdə oxumuşdur. Amerikalı fantast-yazıçı Ayzek Əzimovun *(1920-1992*) elmi-populyar kitablarının təsiri altında iqtisadiyyat və tarixlə maraqlanmışdır. 1974-cü ildə Yel Universitetini bitirərək bakalavr diplomuna yiyələnmişdir. 1977-ci ildə Massaçusets Texnologiya İnstitutunda görkəmli alim Rudiger Dornbuşun rəhbərliyi ilə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

P.Kruqman ABŞ-ın Yel, Kaliforniya universitetlərində, Böyük Britaniyada London iqtisad məktəbində dərs demişdir. 2000-ci ildən isə ABŞ-ın Prinston Universitetinin professorudur. O, həmçinin 1982-1983-cü illərdə ABŞ prezidenti R.Reyqan administrasiyasının İqtisadçı Məsləhətçilər Şurasında da çalışmışdır.

P.Kruqmanın elmi əsərləri dolayısı ilə təkcə iqtisadiyyata deyil, həm də siyasi quruluşlara da aid olunur. Bu baxımdan da o, Amerika siyasi diskussiyasının başlıca liberal səslərindən biri hesab edilir. P.Kruqman həm də ABŞ-da ən nüfuzlu elmi mütəfəkkirlərdən sayılır. ABŞ-ın "Foreign Policy" (*Xarici*

*siyasət*) və Böyük Britaniyanın "Prospekt" jurnallarının internetdə keçirdikləri sorğuya əsasən tərtib olunmuş "Dünyanın ilk 100 intellektualı" siyahısında P.Kruqman 2005-ci ildə 6-cı, 2008-ci ildə isə 30-cu yerdə qərar tutmuşdur.

Əsas elmi əsərləri:

1. Strateji ticarət siyasəti və yeni beynəlxalq nəzəriyyə (*Strategic trade policy and the new international economics. - 1986*);
2. Beynəlxalq iqtisadiyyat: nəzəriyyə və siyasət (*International economics: theory and policy. 1988; M.Obstfeldlə müştərək*);
3. Ticarət siyasəti və bazarın strukturu (*Trade Policy and Market Structure. - 1989*);
4. Məkan iqtisadiyyatı: şəhərlər, regionlar və beynəlxalq ticarət (*The spatial economy: cities, regions and international trade. - 1999; M.Fudcit və E.Veneyblsomla müştərək*);
5. İqtisadiyyat (*Economics. - 2005; R.Vellslə müştərək*).

P.Kruqman 1991-ci ildə Con Beyts Klark medalı ilə təltif olunmuş, 1995-ci ildə Adam Smit, 2000-ci ildə Rektenvald və 2004-cü ildə Avstriya şahzadəsi mükafatları laureatı olmuşdur. Amerika Sənət və Elmlər Akademiyasının, Münhen İqtisadi Tədqiqatlar Mərkəzinin və "Otuzlar qrupu"nun (*Group of Thirty - G30*) üzvüdür.

■ **2009-cu ildə iqtisadiyyat sahəsində Nobel mükafatı ABŞ iqtisadçıları Elinor Ostroma** *(Elinor Claire Awan - Elinor Ostrom)* **və Oliver Uilyamsona** *(Oliver Eaton Williamson)* **"İqtisadi təşkilatlar sahəsində tədqiqatlara görə" verilmişdir.**

## Elinor Ostrom



Elinor Kler Ostrom (*1933-2012*) - ABŞ politoloqu və iqtisadçısı.

7 avqust 1933-cü ildə ABŞ-ın Los-Anceles şəhərində yəhudi ailəsində anadan olmuşdur. O, iqtisadiyyat sahəsində ilk qadın Nobel mükafatı laureatıdır.

E.Ostrom 1951-ci ildə orta məktəbi bitirmiş, Kaliforniya Universitetinə daxil olaraq 1954-cü ildə orada bakalavr, 1962-ci ildə isə magistr diplomu almışdır. 1965-ci ildə xanım E.Ostrom politologiya doktoru elmi dərəcəsinə yiyələnmişdir. Ailə qurduqdan sonra o, həyat yoldaşı ilə İndiana ştatına, Bluminqton şəhərinə köçmüşdür. Əri Vinsent Ostrom İndiana Universitetində (*Indiana University*) professor vəzifəsi daşımış, xanım E.Ostrom isə burada bir neçə il çalışdıqdan sonra müəllim vəzifəsinə qəbul edilmişdir. Bir neçə il sonra onlar kollokviumlar tsikli təşkil etmiş və burada qarşılıqlı maraq doğuran, xüsusən də resursların idarə edilməsinə aid mövzuların müzakirəsi üçün müxtəlif fənlər üzrə elmi işçilər toplaşmışdır. Onlar həmçinin 1973-cü ildə həmin universitet daxilində politologiya və siyasi təhlillə məşğul olan xüsusi qrup da yaratmışlar. Xanım E.Ostrom 1974-cü ildən ömrünün sonuna qədər Bluminqtonda İndiana Universitetinin professoru vəzifəsində çalışmışdır.

E.Ostrom siyasi iqtisadın dirçəlişində az rol oynamamışdır. Bu

baxımdan da o, müasir siyasi iqtisadın görkəmli nümayəndələrindən hesab edilir. O, politologiya, ictimai idarəetmə və təşkilat nəzəriyyəsi üzrə bir sıra əsərlər dərc etdirmişdir. Onun ən başlıca elmi əsərləri sırasında - "Fondun idarə edilməsi: kollektiv fəaliyyət institutlarının təkamülü" (*Governing the commons: the evolution of institutions for collective action. - 1990*) mühüm yer tutur.

E.Ostrom 1982-1984-cü illərdə "İctimai seçim" cəmiyyətinin prezidenti, 2012-ci ildə isə Amerika Milli Akademiyasının və Amerika Sənət və Elmlər Akademiyasının üzvü olmuş, 1997-ci ildə Frenk Şeydman, 1999-cu ildə Yuhan Şyutte, 2004-cü ildə Con Karti mükafatlarına layiq görülmüşdür.

Xanım E.Ostrom 12 iyun 2012-ci ildə, 78 yaşında Bluminqton şəhərində (*ABŞ, İndiana ştatı*) vəfat etmişdir.

## Oliver Uilyamson



Oliver İton Uilyamson (*1932*) - ABŞ iqtisadçısı.

27 sentyabr 1932-cü ildə ABŞ-ın Viskonsin ştatının Syupiror şəhərində anadan olmuşdur. 1955-ci ildə Massaçusets Texnologiya İnstitutunu bitirərək biznes-məktəbin idarəedilməsi sahəsində bakalavr dərəcəsi, 1960-cı ildə Stenford Universitetini bitirərək işgüzar inzibatçılıq sahəsində magistr dərəcəsi almışdır. 1963-cü ildə Karnegi-Mellon Universitetində dissertasiya işi müdafiə edərək fəlsəfə dokroru elmi dərəcəsi almışdır. 1955-1958-ci illərdə dövlət qulluğunda çalışmış, 1963-cü ildə isə Pensilvaniya və Yel universitetlərində dərs demişdir. 1965-1983-cü illərdə Pensilvaniya Universitetinin professoru olmuş, 1983-1988-ci illərdə Yel

Universitetində iqtisadiyyat və hüquqdan dərs demişdir. 1988-ci ildən isə Kaliforniya Universitetinin professorudur.

O.Uilyamson başlanğıcını Nobel mükafatı laureatı R.Kouzun məşhur "Firmanın təbiəti" məqaləsindən götürmüş neoinstitusionalizmdə mühüm istiqaməti - Firmanın neoinstitusional nəzəriyyəsi nümayəndələrindən biridir.

Əsas elmi əsərləri:

1. Korporativ nəzarət və işgüzar davranışlar: sahibkar seçiminin təşkilati formasının effektlərinin tədqiqi (*Corporate control and business behavior: an inquiry into the effects of organization form on enterprise behavior. - 1970*);

2. Bazarlar və iyerarxiya: təhlil və antiinhisar nəticələr (*Markets and hierarchies: analysis and antitrust implications. - 1975*);

3. Kapitalizmin iqtisadi institutları (*Economic institutions of capitalism. - 1985*).

O.Uilyamson Uolter A.Xaasın biznes məktəbinin (*Walter A. Haas School of Business*) fəxri professorudur. "Journal of Economic Methodology" dərgisinin redaksiya heyətinə daxildir. O, 2004-cü ildə Rektenvald mükafatı laureatı olmuşdur. Amerika Milli Akademiyasının və Amerika Sənət və Elmlər Akademiyasının üzvü, 2007-ci ildən Amerika İqtisadçılar Assosiasiyasının fəxri üzvüdür. O.Uilyamson bir çox xüsusi mükafatların, o cümlədən 1997-ci ildən Sankt-Peterburq Dövlət Universitetinin, 2000-ci ildən Çili Universiteti (*University of Chile*) və Kopenhagen Biznes Məktəbinin (*Copenhagen Business School*), 2004-cü ildən Valensiya Universitetinin (*University of Valencia*) və 2005-ci ildən Nitsa Universitetinin (*Université de Nice Sophia-Antipolis)* fəxri doktor dərəcələrinin sahibidir.

■ **2010-cu ildə iqtisadiyyat sahəsində Nobel mükafatı ABŞ iqtisadçıları Piter Daymond** *(Peter Arthur Diamond)* **və Deyl Mortensenə** *(Dale Thomas Mortensen)*, **həmçinin Böyük Britaniya və Kipr vətəndaşlığı olan iqtisadçı Kristofer Pissaridesə** *(Christopher Antoniou Pissarides)* **"Bazarların axtarış modeli ilə tədqiqinə görə" verilmişdir.**

## Piter Daymond



Piter Artur Daymond (*1940*) - ABŞ iqtisadçısı.

29 aprel 1940-cı ildə ABŞ-ın Nyu-York şəhərində yəhudi ailəsində anadan olmuşdur. 1960-cı ildə ABŞ-da Yel Universitetini bitirmiş və riyaziyyat üzrə bakalavr dərəcəsi almışdır. Sonra Massaçusets Texnologiya İnstitutuna daxil olmuş və 1963-cü ildə burada fəlsəfə doktoru elmi dərəcəsinə yüksəlmişdir 1964-1965-ci illərdə Kaliforniya Universitetində professor assistenti vəzifəsində çalışmışdır. Bundan sonra Massaçusets Texnologiya İnstitutuna qayıdaraq 1970-ci ildə professor vəzifəsi almışdır. 1985-1986-cı illərdə İqtisadiyyat Departamentinin rəisi işləmiş və 1997-ci ildə universitet professoru dərəcəsinə layiq görülmüşdür, hazırda da burda çalışır.

P.Daymond sosial sığorta və vergitutma problemləri üzrə nüfuzlu alimlərdən hesab olunur. O, dövlət borcu və kapital yığımı ilə bağlı tədqiqatlara böyük töhfələr vermişdir.

Əsas elmi əsərləri:

1. Sosial müdafiənin qorunması: 2004-cü ilin balanslı yanaşması (*Saving social security: a balanced approach. 2004; P.Orzaqla müştərək*);

2. Mütərəqqi vergi işi haqqında: Əsas araşdırmalardan siyasət

tövsiyəsinə qədər (*The case for a progressive tax: from basic research to policy recommendation. - 2011; E.Saezlə müştərək*).

P.Daymond 1968-ci ildə Amerika Ekonometrika Cəmiyyətinin, 2003-cü ildə isə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti olmuşdur. O, 1978-ci ildə Amerika Sənət və Elmlər Akademiyasının və 1984-cü ildə Amerika Milli Elmlər Akademiyasının üzvü, 1988-ci ildə Milli Sosial Sığorta Akademiyasının təsisçi üzvüdür. P.Daymond 2008-ci ildə sosial sığorta sahəsində yüksək nailiyyətlərinə görə Robert M.Boll adına mükafata layiq görülmüşdür.

## Deyl Mortensen



Deyl Tomas Mortensen (1939-2014) - ABŞ iqtisadçısı.

2 fevral 1939-u ildə ABŞ-ın Enterprayz şəhərində anadan olmuşdur. 1961-ci ildə ABŞ-ın Seylem şəhərində Uillamett Universitetini (*Willamette University*) bitirərək bakalavr, 1967-ci ildə Karnegi-Mellon Universitetində fəlsəfə doktoru dərəcələri almışdır. Sonra Şimal-Qərb Universitetində çalışan D.Mortensen 1980-ci ildə bu universitetdə iqtisadiyyat professoru vəzifəsinə keçmişdir. 2006-2010-cu illərdə Orhus Universitetinin (*Aarhus University*) iqtisadiyyat və idarəetmə məktəbində professor vəzifəsində çalışmışdır.

D.Mortensen iqtisadi nəzəriyyəni əhatə etməklə makroiqtisadiyyat, işsizlik, əmək bazarları, əməkhaqqının bölüşdürülməsi kimi tədqiqatları ilə tanınır.

Əsas elmi əsərləri:

1. İş axtarışı, işsizlik müddəti və Fillips əyrisi (*Job search, the duration of unemployment and the Phillips curve. - 1970*);

2. Əməkhaqqının bölüşdürülməsi: nə üçün oxşar insanlara fərqli ödənilir (*Wage dispersion: why are similar people paid differently. - 2003*).

D.Mortensen Amerika Milli Akademiyasının, 1979-cu ildə Amerika Ekonometrika Cəmiyyətinin üzvü, 1996-2000-ci illərdə İqtisadi Dinamika Cəmiyyətinin prezidenti olmuşdur. 2000-ci ildə onu Amerika Sənət və Elmlər Akademiyasına qəbul etmişlər. 1965-ci ildə Aleksandr Henderson, 2005-ci ildə Almaniyanın Bonn şəhərində müstəqil Əməyin İqtisadiyyatı İnstitutunun təsis etdiyi İZA mükafatına layiq görülmüşdür. 2011-ci ildə D.Mortensen Uillamett Universitetinin fəxri doktoru seçilmişdir.

D.Mortensen 9 yanvar 2014-cü ildə Uilmett kəndində (*ABŞ, İllinoys ştatı*) 74 yaşında vəfat etmişdir.

## Kristofer Pissarides



Kristofer Antonio Pissarides (*1948*) - Böyük Britaniya və Kipr iqtisadçısı.

20 fevral 1948-ci ildə Kiprin paytaxtı Nikosiya şəhərində anadan olmuşdur. Böyük Britaniyada Esseks Universitetində (*University of Essex*) oxumuş, 1970-ci ildə burada bakalavr və 1971-ci ildə magistr dərəcələri almışdır. Sonra London İqtisad Məktəbinə daxil olaraq, 1973-cü ildə burada fəlsəfə doktoru dərəcəsinə yiyələnmişdir. K.Pissarides 2013-cü ildə London İqtisad Məktəbində “kral professoru” statusu almışdır. Hazırda o, burada iqtisadiyyat fakültəsinin iqtisad kafedrasına başçılıq edir. K.Pissarides İqtisadi Göstəricilərin Öyrənilməsi Mərkəzində makroiqtisadiyyat üzrə tədqiqat proqramı direktorudur.

K.Pissarides əsasən əmək bazarı ilə makroiqtisadiyyat arasında

qarşılıqlı əlaqənin öyrənilməsi üçün nəzəriyyələrin axtarışı və razılaşdırılmasına verdiyi töhfə ilə məşhurdur. O, müvafiq funksiyaların konsepsiyalarının işlənib hazırlanmasında iştirak etmiş (*mövcud zaman anında işsizlikdən məşğulluğa axınları izah etməklə*) və prosesin empirik asılılıqlarını ilk olaraq müəyyənləşdirmişdir. Son vaxtlar K.Pissarides struktur dəyişiklikləri və artımlarını tədqiq etmişdir.

Əsas elmi əsərləri:

1. İngiltərədəki işsizlik və vakansiyalar (*Unemployment and vacancies in Britain. - 1986*);

2. İşsizlik nəzəriyyəsində iş yerlərinin yaradılması və iş yerlərinin dağıdılması (*Job creation and job destruction in the theory of unemployment. 1994; D.Martinsenlə müştərək*).

K.Pissarides Britaniya Akademiyasının və Ekonometrik Cəmiyyətin üzvüdür. O, Almaniyanın Bonn şəhərində müstəqil Əməyin İqtisadiyyatı İnstitutunun təsis etdiyi İZA mükafatı laureatıdır.

■ **2011-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı ABŞ iqtisadçıları Tomas Sarcentə** *(Thomas John Sargent)* **və Kristofer Simsə** *(Christopher Albert Sims)* **"Makroiqtisadiyyatda səbəb və nəticə əlaqəliyi ilə bağlı empirik tədqiqatlara görə" verilmişdir.**

## Tomas Sarcent



Tomas Con Sarcent (*1943*) - ABŞ iqtisadçısı

19 iyul 1943-cü ildə ABŞ-ın Kaliforniya ştatının Pasadena şəhərində anadan olmuşdur. 1964-cü ildə Berkli Universitetində bakalavr, 1968-ci ildə isə Harvard Universitetində fəlsəfə doktoru dərəcəsini almışdır. 1967-1968-ci illərdə Karnegi Texnoloji İnstitutunda elmi işçi kimi çalışmış, 1968-1969-cu illərdə ABŞ ordusunda xidmət keçmişdir. 1970-1971-ci illərdə Pensilvaniya Universitetində adyunkt-professor vəzifəsində işləmiş, 1971-1987-ci illərdə isə Minnesota Universitetində əvvəlcə adyunkt-professor kimi, 1975-ci ildən isə professor olaraq dərs demişdir. T.Sarcent, həmçinin dəvət üzrə 1981-1982-ci illərdə Harvard Universitetində, 1985-1987-ci illərdə Stenford Universitetində iqtisadiyyat üzrə mühaziərəçi olmuş, 1987-ci ildə burada böyük elmi işçi vəzifəsini də tutmuşdur. T.Sarcent iqtisadiyyat üzrə professor kimi 1991-1998-ci illərdə Çikaqo Universitetində, 1998-2002-ci illərdə Stenford Universitetində işləmişdir. 2002-ci ildən Nyu-York Universitetinin professorudur.

Makroiqtisadiyyat, monetar iqtisadiyyat və zaman ardıcıllıqları ekonometrikası sahələrində ixtisaslaşan T.Sarcent, "rasional gözləntilər inqilabının liderlərindən biri" və saysız-hesabsız "cığıraçıcı" məqalələrin müəllifi kimi tanınır.

Əsas elmi əsərləri:

1. Keynsçi makroiqtisadiyyatdan sonra (*After keynesian macroeconomics. - 1978; R.Lukasla müştərək*);

2. Rasional gözləmə və ekonometrik təcrübə (*Rational expectations and econometric practice. - 1981*);

3. Makroiqtisadi nəzəriyyə (*Macroeconomic theory. - 1979*);

4. Rasional gözləmə və inflyasiya (*Rational expectations and inflation. - 1986*);

5. Dinamik makroiqtisadi nəzəriyyə (*Dynamic macroeconomic theory. - 1987*).

T.Sarcent 2011-ci ildən dünyanın 17 ən çox sitat gətirilən iqtisadçılarından biridir. O, 1996-cı ildə Nemmers, 2011-ci ildə isə Amerika Milli Elmlər Akademiyasının mükafatını almışdır. Amerika Milli Elmlər Akademiyasının və Amerika Sənət və Elmlər Akademiyasının üzvü, 1989-1992-ci illərdə İqtisadi Dinamika Cəmiyyətinin, Ekonometrik Cəmiyyətin Amerika İqtisadçılar Assosiasiyasının prezidenti olmuşdur.

## Kristofer Sims



Kristofer Albert Sims (*1942*) - ABŞ iqtisadçısı.

21 oktyabr 1942-ci ildə ABŞ-ın paytaxtı Vaşinqton şəhərində yəhudi ailəsində anadan olmuşdur. 1963-cü ildə Harvard Universitetində bakalavr, 1964-cü ildə Berkli Universitetində magistr, 1968-ci ildə isə Harvard Universitetində fəlsəfə doktoru dərəcələri almışdır. 1967-1970-ci illərdə Harvard Universitetində çalışmış, sonradan Minnesota Universitetinə keçərək, 1970-1974-cü illərdə burada iqtisadiyyat

kafedrasında dosent, 1974-1990-cı illərdə isə iqtisadiyyat professoru olaraq dərs demiş, 1990-1999-cu illərdə Yel Universitetində iqtisadiyyat professoru kimi çalışmışdır. O, həmçinin 1987-1991-ci illərdə Minneapolisdə Empirik Makroiqtisadiyyat İnstitutunun direktoru vəzifəsində də işləmişdir. 1999-cu ildə Prinston Universitetində iqtisadiyyat professoru, 2004-cü ildə isə iqtisadiyyat və bank işi professoru vəzifələrində çalışmışdır. K.Sims dəvət üzrə həmçinin, 1974-cü ildə Yel Universitetində, 1979-1980-ci illərdə Massaçusets Texnologiya İnstitutunda professor kimi, 1995-ci ildən mütəmadi olaraq Atlantada Federal Ehtiyat Bankında, 2000-2003-cü illərdə Filadelfiya Federal Ehtiyat Bankında, 1994-1997-ci illərdə və 2004-cü ildən hal-hazıra kimi Nyu-York Federal Ehtiyat Bankında elmi işçi vəzifəsi tutmuşdur. 2003-cü ildən BVF-yə dəvət olunmuş tədqiqatçıdır.

K.Sims uzunillik elmi fəaliyyəti dövründə elmi biliyin və iqtisadiyyatın ona maraqlı olan sahələrində çoxlu sayda məqalələr dərc etdirmişdir. Belə ki, o, daha çox makroiqtisadi nəzəriyyə və siyasətlə məşğul olmuşdur. Vaxtilə K.Sims həmkarları arasında empirik makroiqtisadiyyatda vektor avtoreqresiyasının qatı tərəfdarı və müdafiəçisi kimi şöhrət qazanmışdı. Qeyd olunmalıdır ki, iqtisadiyyatda gözləntilərin əhəmiyyətini vurğulamaq baxımından T.Sarcent ilə eyni fikirdə olan K.Sims iqtisadiyyata iqtisadi siyasətdəki müvəqqəti dəyişikliklər və digər elementlər tərəfindən necə təsir göstərildiyini təhliletmədə "vektor avtoreqresiya"dan istifadəni əsas götürən bir metod formalaşdırmışdır. O və digər tədqiqatçılar bu metoddan mərkəzi bankların müəyyənləşdirdiyi faiz dərəcələrindəki yüksəlişin təsirlərini araşdırarkən istifadə etmişlər.

Əsas elmi əsərləri:

1. Ekonometrik modellərlə siyasi təhlil (*Policy analysis with econometric models. - 1982*);

2. Qiymət səviyyəsi, monetar və fiskal siyasətlə qarşılıqlı əlaqənin təyini üçün sadə model (*A Simple model for study of the determination of the price level and the interaction of monetary and fiscal policy. - 1994*);

3. Mərkəzi bankın müstəqilliyinin fiskal aspektləri (*Fiscal aspects of central bank independence. - 2004*).

İsveç Elmlər Akademiyası, T.Sarcent və K.Simsin formalaşdırdıqları metodların bu gün makroiqtisadi təhlillərin əsas vasitələri olduğunu bildirir.

K.Sims 1989-cu ildən Milli Elmlər Akademiyası və 1988-ci ildən Amerika Sənət və Elmlər Akademiyasının üzvüdür.

■ **2012-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı ABŞ iqtisadçıları Lloyd Şepli** *(Lloyd Stowell Shapley)* **və Elvin Rota** *(Alvin Elliot Roth)* **"Sabit bölüşdürmə nəzəriyyəsinə və bazar planlaşdırılması təcrübəsinə görə" verilmişdir.**

## Lloyd Şepli



Lloyd Stauel Şepli (*1923-2016*) - ABŞ riyaziyyatçısı və iqtisadçısı.

2 iyun 1923-cü ildə ABŞ-ın Massaçusets ştatının Kembric şəhərində anadan olmuşdur. Atası məşhur astronom Harlou Şeplidir. Harvard Universitetində təhsilinə başladıqdan sonra II Dünya müharibəsi davam etdiyi üçün 1943-cü ildə hərbi xidmətə çağırılmışdır. Həmin il ABŞ Hava Qüvvələrində çavuş kimi Çinin Çenqdu bölgəsinə göndərilmiş və orada Sovet Ordusunun istifadə etdiyi hava vəziyyəti şifrələrini açdığına görə ABŞ-ın "Bürünc Ulduz" medalına layiq görülmüşdür. Müharibədən sonra Amerikaya qayıtmış və 1948-ci ildə Harvard Universitetində riyaziyyat ixtisası üzrə bakalavr dərəcəsini almışdır. Sonra ABŞ-ın mühüm nəzəri araşdırma mərkəzlərindən olan RAND korporasiyasında bir il çalışmış, 1950-ci ildə buradan təhsilini davam etdirmək üçün Prinston Universitetinə yollanmış və 1953-cü ildə fəlsəfə doktoru dərəcəsini almışdır. Dissertasiyasında və dissertasiya sonrası araşdırmalarında tanınmış ingilis iqtisadçısı Frencis İsidor Ekort (*1845-1926*) tərəfindən ortaya atılan fikirləri inkişaf etdirərək oyunlar nəzəriyyəsi sahəsində həll anlayışları olan "Şepli dəyəri" və "oyun çəyirdəyi" anlayışlarını ortaya ataraq inkişaf etdirmişdir. Doktorluq dərəcəsini aldıqdan sonra bir müddət Prinston Universitetində müəllim işləmiş və sonra 1946-1981-ci illər

arasında karyerasını RAND korporasiyasında davam etdirmişdir. 1981-ci ildə təqaüdə çıxmış və həmin ildən Los-Ancelesdə Kaliforniya Universitetində riyaziyyat və iqtisadiyyat bölmələrində fəxri emeritius professor kimi çalışmaqdadır.

L.Şepli riyazi iqtisadiyyat, xüsusilə də oyunlar nəzəriyyəsi sahəsində xidmətləri ilə tanınır.

Əsas elmi əsərləri:

1. Xalis rəqabətin konsepsiyası və nəzəriyyəsi (*Concepts and theories of pure competition. - 1967*);

2. Sankt-Peterburq paradoksu: cinayətkarın oyunu? (*The St. Petersburg paradox: a con game? - 1977*).

L.Şepli 1967-ci ildən Amerika Ekonometrika Cəmiyyətinin, 1974-cü ildən Amerika Sənət və Elmlər Akademiyasının, 1979-cu ildən Amerika Milli Akademiyasının, 2007-ci ildən isə Amerika İqtisadiyyat Akademiyasının üzvü olmuşdur.

L.Şepli 12 mart 2016-cı ildə Tuson şəhərində (*ABŞ, Arizona ştatı*) 92 yaşında vəfat etmişdir.

## Elvin Rot



Elvin Eliot Rot (*1951*) - ABŞ iqtisadçısı.

19 dekabr 1951-ci ildə ABŞ-ın Nyu-York şəhərində yəhudi ailəsində anadan olmuşdur. 1971-ci ildə Kolumbiya Universitetini əməliyyatların tədqiqi üzrə bakalavr dərəcəsi ilə bitirmişdir. 1973 və 1974-cü illərdə Stenford Universitetində əməliyyatların tədqiqi üzrə magistr və fəlsəfə doktorluğu dərəcələrini almışdır. Sonra 1982-ci ilə qədər İllinoys Universitetində müəllim işləmiş və həmin ildən Pittsburq Universitetində iqtisadiyyat professoru kimi çalışmağa baş-

lamışdır. Eyni zamanda, həmin universitetin Elm Fəlsəfəsi Mərkəzinin üzvü və "Katz Qradueyt Skul of Bizines"də professor kimi çalışmışdır. 1998-ci ildə Harvard Universitetinə keçmiş və 2012-ci ildə Stenford Univeristetinə qayıdana qədər burada işləmişdir. E.Rot həmçinin 1986-1995-ci illərdə İsrailin Hayfa şəhərində İsrail Texnoloji Universitetində (*Technion - Israel Institute of Technology*), Yerusəlimdə (*Qüds*) Yəhudi Universitetində və Təl-Əviv şəhərində Təl-Əviv Universitetində (*Tel Aviv University*) dərs demişdir. Hazırda Stenford Universitetində tam hüquqlu əməkdaş kimi çalışır.

E.Rotun tədqiqat sahələri oyunlar nəzəriyyəsi, bazar planlaşdırması və eksperimental iqtisadiyyatdır.

Əsas elmi əsərləri:

1. İkiqat uzlaşma: Nəzəri-oyun modelləşmə və təhlildə təlim (*Two-sided matching: a study in game-theoretic modeling and analysis. M.Sotomayorla müştərək. 1990*);

2. İki tərəfli uyğun bazarlar (*Two-sided matching markets. - 1986*).

E.Rot Harvard Universitetinin fəxri professorudur. Amerika Milli Akademiyasının, Amerika Sənət və Elmlər Akademiyası, İqtisadi Araşdırma Milli Bürosu və Ekonometrik Cəmiyyətin üzvüdür. Əsərlərinin toplusu Düke Universiteti Rubenşteyn kitabxanasında saxlanılır.

■ **2013-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatı "Aktivlərin qiymətlərinin dəyişməsinin empirik təhlilinə görə" ABŞ iqtisadçıları Yucin Fama** *(Eugene Francis "Gene" Fama)*, **Lars Peter Hansen** *(Lars Peter Hansen)* **və Robert Şiller** *(Robert James (Bob) Shiller)* **üçlüyünə verilmişdir.**

## Yucin Fama



Yucin Frensiz Fama (*1939*) - ABŞ iqtisadçısı.

14 fevral 1939-cu ildə ABŞ-ın Massaçusets ştatının Boston şəhərində anadan olmuşdur. 1960-cı ildə Tafts Universitetində fransız dili üzrə bakalavr, 1963-cü ildə isə Çikaqo Universitetinin biznes məktəbini bitirərək, işgüzar inzibatçılıq üzrə magistr diplomu almışdır. Y.Fama həmçinin, 1964-cü ildə Çikaqo Universitetinin fəlsəfə doktoru olmuşdur. 1984-cü ildən isə həmin universitetin ali biznes məktəbinin fəxri maliyyə professorudur.

İqtisad elmi dairələrində Y.Fama "müasir maliyyənin atası" kimi tanınır. O, 1960-cı illərdə səhm qiymətlərinin kortəbii inkişaf yolu getdiyini, bu baxımdan, hətta professional investorların belə onları proqnozlaşdırmasının mümkünsüz olduğunu iddia etmişdir. Y.Fama aktiv portfel idarəetməsinin gərəksiz və məsrəfli olduğunu da qeyd etmiş, hedc (*hedge*) fondların nə üçün bu qədər investoru cəlb etdiyini anlamadığını bildirmişdir. Onun fikrincə, səhm qiymətlərinin qısamüddətli dövrdə proqnozlaşdırılmasını çətinləşdirən əsas faktor yeni informasiyanın sürətlə qiymətlərə "daxil olması"dır. Nobel Mükafatları Komitəsi də qeyd etmişdir ki, Y.Famanın əldə etdiyi bu nəticələr nəzəri tədqiqatların istiqamətini və bazar davranışlarını dəyişmişdir. Bu baxımdan da onu ilk elmi dərəcə aldığı andan həm də "bazar ef-

fektivliyi hipotezinin atası" da adlandırırlar.

Əsas elmi əsərləri:

1. Maliyyə nəzəriyyəsi (*The theory of finance. - 1972; M.Millerlə müştərək*);

2. Maliyyənin əsasları (*Foundations of finance. - 1976*);

3. İqtisadi artımın əleyhinə dəyərlər (*Value versus growth: the international evidence. - 1998; K.Frençlə müştərək*);

4. Gəlirlərin və əməkhaqqının proqnozlaşdırılması (*Forecasting profitability and earnings. - 2000; K.Frençlə müştərək*).

Y.Fama 1989-cu ildən Amerika Sənət və Elmlər Akademiyasının akademiki, 2001-ci ildə isə Amerika Maliyyə Assosiasiyasının üzvü seçilmişdir. O, 2005-ci ildə - maliyyə iqtisadiyyatı sahəsində Döyçe Bank tərəfindən yeni təsis edilmiş mükafatın (*Deutsche Bank Prize*) ilk sahibi olmuşdur. Y.Fama tanınmış "Maliyyə iqtisadiyyatı jurnalı"nın (*Journal of Financial Economics*) redaksiya heyətinin üzvüdür.

## Lars Hansen



Lars Peter Hansen (*1952*) - ABŞ iqtisadçısı.

26 oktyabr 1952-ci ildə ABŞ-ın İllinoys ştatının Şampeyn şəhərində anadan olmuşdur. 1974-cü ildə Yuta Universitetini (*University of Utah*) bitirərək riyaziyyat ixtisası üzrə bakalavr və həmin ildə Minnesota Universitetinə daxil olaraq 1978-ci ildə doktor dərəcəsi almışdır. Karnegi və Çikaqo universitetlərində işləmişdir. 2011-ci ildən Çikaqodakı Bekker-Fridman İnstitutunun (*Gary Becker Milton Friedman Institute for Research in Economics*) tədqiqatlar üzrə direktorudur.

L.Hansen ekonometrik model və ya ümumiləşdirilmiş moment metodunu işləyib hazırlayanlardan biri kimi tanınmışdır. O,

əməyin iqtisadiyyatı, beynəlxalq maliyyə, bütövlükdə maliyyə və makroiqtisadiyyat da daxil olmaqla, müxtəlif sahələrdə iqtisadi modellərin təhlili məqsədilə "Ümumiləşmiş momentlər metodu"nun tətbiqinə aid olan əsərlərin müəllifi və ya həmmüəllifi kimi də çıxış etmişdir.

Əsas elmi əsərləri:

1. Anların ümumiləşdirilmiş metodları: zaman sıralarının perspektivi (*Generalized methods of moments: a time series perspective. - 2000*);

2. Uzunmüddətli risk: operator yanaşması (*Long term risk: an operator approach. - 2009; J.Şeyikmanla müştərək*).

L.Hansen 1984-cü ildə Kennet Sinqltonla (*Kenneth Singleton*) birlikdə Friş adına medala layiq görülmüşdür. 1997-ci ildən Çikaqo Universitetinin iqtisadiyyat üzrə fəxri professoru, Amerika Milli Akademiyasının və Amerika Sənət və Elmlər Akademiyasının üzvüdür. O, həmçinin 2006-cı ildə iqtisadiyyat üzrə Ervin Pleyn Nemmers, 2008-ci ildə kəmiyyət tədqiqatlarının innovasiyalı tətbiqinə görə MSRİ qrupunun (*Group-MSRI Prize*) və 2010-cu ildə İspaniyanın elmi tədqiqatlar üzrə ali şurasının (*BBVA Foundation Frontiers of Knowledge Awards*) mükafatlarını da almışdır.

## Robert Şiller



Robert (*Bob*) Ceyms Şiller (*1946*) - ABŞ iqtisadçısı.

29 mart 1946-cı ildə ABŞ-ın Miçiqan ştatının Deytroyt şəhərində anadan olmuşdur. 1967-ci ildə Miçiqan Universitetində bakalavr və Massaçusets Texnologiya İnstitunda 1968-ci ildə magistr və 1972-ci ildə fəlsəfə doktoru dərəcələrini almışdır. 1980-ci ildən İqtisadi Tədqiqatlar Milli

Bürosunun (*NBER*) elmi işçisi olmuşdur. 1982-ci ildən isə Yel Universitetinin iqtisadiyyat professorudur.

R.Şiller 2000-ci illərdə ABŞ-da daşınmaz əmlak "köpüyü"nü proqnozlaşdıran iqtisadçıdır. O, hələ 1980-ci illərdə səhm qiymətlərinin şirkət mənfəət paylarından daha çox dalğalandığı nəticəsinə gəlmişdir. Öz əsərlərində davranış maliyyəsindən tutmuş risklərin idarə edilməsi prosesinə qədər bir sıra iqtisadi mövzuları işıqlandırmış və 1991-ci ildən Riçard Talerlə (*Richard Thaler*) birgə davranış maliyyəsi haqqında NBER seminarının təşkilatçılarından biri olmuşdur. Onun "Macro Markets" kitabı TİAA-GREF təşkilatının "Paul A. Samuelson" mükafatını qazanmışdır.

R.Şiller 200-dən artıq məqalə dərc etdirmiş, beş kitab yazmışdır. Onun əsərləri iqtisadi nəzəriyyənin inkişafına, irəli sürdüyü nəticələr isə bilavasitə siyasi kursun praktikasına və aparılmasına böyük təsir göstərmişdir.

Əsas elmi əsərləri:

1. Bazar dəyişkənliyi (*Market Volatility. - 1990*);
2. Yeni maliyyə qaydası: 21-ci əsrdə risk (*The new financial order: risk in the 21st century. - 2003*);
3. Substandart həll: qlobal maliyyə böhranı necə baş verdi və bu barədə nə etmək lazımdır (*The subprime solution: how today's global financial crisis happened, and what to do about it. - 2008*).

R.Şiller Amerika Sənət və Elmlər Akademiyasının üzvüdür. 2005-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının vitse-prezidenti, 2006-2007-ci illərdə isə Şərq İqtisadiyyat Assosiasiyasının prezidenti olmuşdur. O, 2009-cu ildə maliyyə iqtisadiyyatı sahəsində Döyçe Bankın mükafatını (*"Deutsche Bank Prize"*) almışdır. R.Şiller 2010-cu ildə Xarici Siyasət (*Foreign Policy*) jurnalının versiyasına görə dünyanın aparıcı mütəfəkkirləri siyahısına daxil edilmiş, 2011-ci ildə Blumberq (*Bloomberg*) şirkətinin versiyasına görə isə qlobal maliyyə sferası üzrə 50 nüfuzlu şəxsdən biri olmuşdur.

■ **2014-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "Bazar hakimiyyəti və onun tənzimlənməsinin təhlili"nə görə fransalı iqtisadçı Jan Tirol** *(Jean Marcel Tirole)* **layiq görülmüşdür.**

## Jan Tirol



Jan Marsel Tirol (*1953*) - Fransa iqtisadçısı.

9 avqust 1953-cü ildə Fransanın şimalındakı Trua şəhərində anadan olmuşdur. 1976-cı ildə mühəndislik sahəsində Paris Politexnik Məktəbini (*École Polytechnique*), 1978-ci ildə Körpülər və Yollar Dövlət Məktəbinin (*École nationale des ponts et chaussées*) magistraturasını bitirib. 1978-ci ildə Paris-Dofin Universitetində diskret riyaziyyat üzrə, 1981-ci ildə Massaçusets Texnologiya İnstitutunda iqtisadi nəzəriyyə üzrə doktorluq dərəcələri alıb. J.Tirol 1981-1984-cü illərdə Körpülər və Yollar Dövlət Məktəbində elmi işçi olub, 1984-1991-ci illərdə Massaçusets Texnologiya İnstitutunda professor vəzifəsində çalışıb. 1992-ci ildən isə Fransadakı Tuluza Universitetinin (*Université de Toulouse*) Sənaye İqtisadiyyatı İnstitutunun elmi rəhbəri, eyni zamanda, Massaçusets Texnologiya İnstitutunun qonaq professorudur.

J.Tirol sahə bazarlarının öyrənilməsi, oyunlar nəzəriyyəsi, tədarük və tənzimləmələrdə stimullar nəzəriyyəsi ilə məşğuldur. O, həm də müasir antiinhisar nəzəriyyələrinin banisi hesab edilir.

J.Tirol iqtisadiyyatın hər bir sahəsində antiinhisar tənzimləməsinə fərdi yanaşmağın, eyni üsullardan istifadə etməməyin tərəfdarıdır.

Əsas elmi əsərləri:

1. Sənayenin təşkili nəzəriyyəsi (*The theory of industrial organization. - 1988*);

2. Oyunlar nəzəriyyəsi (*Game theory. - 1991; Fundenberqlə müştərək*);

3. Tənzimləmə və tədarük təşviqi nəzəriyyəsi (*Theory of incentives in regulation and procurement. - 1993; C.-C.Laffontla müştərək*);

4. Bankların həssas tənzimlənməsi (*The prudential regulation of banks. - 1994; M.Devatripontla müştərək*);

5. Telekommunikasiyada rəqabət (*Competition in telecommunications. - 1999; C.-C.Laffontla müştərək*);

6. Maliyyə böhranı, likvidlik və beynəlxalq valyuta sistemi (*Financial crises, liquidity and the international monetary system. - 2002*);

7. Korporotiv maliyyə nəzəriyyəsi (*The theory of corporate finance. - 2006*).

J.Tirol müxtəlif universitetlərin və iqtisadi qurumların mükafatlarını, o cümlədən 2007-ci ildə Fransanın Milli Elmi Tədqiqatlar Mərkəzinin qızıl medalını, 1993-cü ildə Avropa İqtisadi Assosiasiyasının mükafatını almışdır. Amerika Milli Akademiyasının, Amerika Sənət və Elmlər Akademiyasının, Fransa Milli Akademiyasının üzvü və Amerika İqtisadçılar Assosiasiyasının və Münhen İqtisadi Tədqiqatlar Mərkəzinin isə fəxri üzvüdür. 1998-ci ildə Ekonometrik Cəmiyyətin, 2001-ci ildə isə Avropa İqtisadi Assosiasiyasının prezidenti olmuşdur.

■ **2015-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatına "İstehlak, yoxsulluq və rifahla bağlı təhlillərinə görə" Böyük Britaniya və ABŞ iqtisadçısı Enqus Diton** *(Sir Angus Stewart Deaton)* **layiq görülmüşdür.**

## Enqus Diton



Ser Enqus Stuart Diton (*1945*) - Böyük Britaniya və ABŞ iqtisadçısı.

19 oktyabr 1945-ci ildə Britaniyada Şotlandiyanın Edinburq şəhərində anadan olmuşdur. Təhsilini Kembric Universitetində almışdır. E.Diton burada 1967-ci ildə bakalavr, 1971-ci ildə magistr, 1974-cü ildə fəlsəfə doktoru dərəcələri almışdır. 1967-1968-ci illərdə İngiltərə bankında çalışmış, 1976-1983-cü illərdə Bristol Universitetində (*University of Bristol*) işləmişdir. 1983-cü ildə ABŞ-da Prinston Universitetində müəllim kimi fəaliyyətini davam etdirmişdir və hazırda bu universitetin və Vudro Vilson adına İctimai və Beynəlxalq Münasibətlər Məktəbinin professorudur.

E.Ditonun 1980-ci ildə nəşr etdiyi "İdeal tələb sistemi" (*AIDS*) əsəri onun dünya miqyasında tanınmasında böyük rol oynamışdır.

E.Ditonun elmi karyerasında bir neçə əsas istiqaməti fərqləndirmək olar. Bunlardan ən başlıcası alimin məsələlərə özünəməxsus metodoloji yanaşmasıdır: o, araşdırmalarında fərdi təcrübə və ayrı-ayrı adamların, ev təsərrüfatlarının davranışları haqqında məlumatlardan istifadə edir. E.Ditonun fikrincə, makrosəviyyəli standart modellərin tədqiqindən əldə olunan məlumatlardan daha çox belə məlumatları təhlil etməklə, böyük tətbiqi əhəmiyyət daşıyan dəqiq və müfəssəl nətcələr almaq mümkündür.

Əsas elmi əsərləri:

1. İqtisadiyyat və istehlakçı davranışı (*Economics and consumer behavior. - 1980; C.Myulbaerlə müştərək*);

2. Ev təsərrüfatlarının tədqiqinin təhlili (*The analysis of household surveys. - 1997*);

3. Böyük qaçış: sağlamlıq, zənginlik və bərabərsizliyin kökləri (*The great escape: health, wealth, and the origins of inequality. - 2013*).

E.Diton Amerika Ekonometrika Cəmiyyəti tərəfindən 1978-ci ildə "Friş" medalına layiq görülmüş, 2004-cü ildə Leontyev mükafatı almışdır. Amerika Milli Akademiyasının, Amerika Sənət və Elmlər Akademiyasının üzvü, 2007-ci ildən isə Amerika İqtisadçılar Assosiasiyasının sədridir.

■ **2016-cı ildə iqtisadiyyat üzrə Nobel mükafatına Böyük Britaniya və ABŞ iqtisadçısı Oliver Hart** *(Oliver Simon D'Arcy Hart)* **və Finlandiya iqtisadçısı Benqt Holmström** *(Bengt Robert Holmström)* **"Müqavilə nəzəriyyəsinin inkişafına verdikləri töhfələrə görə" layiq görülmüşdür.**

## Oliver Hart



Oliver Saymon D'Arsi Hart (*1948*) - Böyük Britaniya və ABŞ iqtisadçısı.

19 oktyabr 1948-ci ildə Britaniyada London şəhərində yəhudi ailəsində anadan olmuşdur. 1969-cu ildə Kembric Universitetində riyaziyyat üzrə bakalavr, 1972-ci ildə Uorvik Universitetində (*The University of Warwick*) iqtisad üzrə magistr, 1974-cü ildə isə Prinston Universitetində iqtisad doktoru dərəcəsi almışdır. O, 1974-1975-ci illərdə Esseks Univesitetində (*University of Essex*), 1975-1981-ci illərdə Kembric Univesitetinin Çörçil kollecində çalışmışdır. Eyni zamanda, dəvət olunmuş müəllim kimi 1979-1980-ci illərdə ABŞ-da Pensilvaniya Universitetində dərs demişdir. O.Hart 1981-1985-ci illərdə London iqtisad məktəbində, 1985-1993-cü illərdə Massaçusets Texnologiya İnstitutunda iqtisad professoru vəzifəsində çalışmışmışdır, 1993-cü ildən isə Harvard Universitetinin professoru vəzifəsində işləyir.

O.Hartın tədqiqatları müqavilələr nəzəriyyəsi, şirkətlər nəzəriyyəsi, korporativ maliyyə və iqtisadiyyat hüququ məsələlərinə həsr olunmuşdur. Bu tədqiqatlar mülkiyyət strukturunun və müqavilə münasibətlərinin idarəetmədə və korporasiyalar hüdudlarında oynadığı rolda cəmləşir.

Əsas elmi əsərləri:

1. Bazar quruluşunun tamamlanmadığı zaman tarazlığın optimallığı haqqında (*On the optimality of equilibrium when the market structure is incomplete. - 1975*);

2. Əsas agent probleminin təhlili (*An analysis of the principal-agent problem. – 1983. J. Sanfordla müştərək*);

3. Şirkətlər, müqavilələr və maliyyə quruluşu (*Firms, contracts, and financial structure. - 1995*);

4. İstinad nöqtələri keyfiyyətində müqavilələr (*Contracts as reference points. - 2008; J.Hardmanla müştərək*).

O.Hart Amerika İqtisadçılar Assosiasiyasının, Amerika Maliyyə Assosiasiyasının, Amerika Ekonometrika Cəmiyyətinin, Amerika Sənət və Elmlər Akademiyasının, Britaniya Akademiyasının, ABŞ Milli Elmlər Akademiyasının, İqtisadi Nəzəriyyənin İnkişafı Cəmiyyətinin, Maliyyə Nəzəriyyəsi Cəmiyyətinin üzvüdür.

## Benqt Holmström



Benqt Robert Holmström (*1949*) - Finlandiya iqtisadçısı.

18 aprel 1949-cu ildə Finlandiyanın paytaxtı Helsinki şəhərində isveç ailəsində anadan olmuşdur. 1972-ci ildə Helsinki Univesitetində (*University of Helsinki*) riyaziyyat üzrə bakalavr, 1975-ci ildə Stenford Universitetində əməliyyat tədqiqatları sahəsində magistr, 1978-ci ildə isə Stenford Ali biznes məktəbində menecment sahəsi üzrə isə doktor elmi dərəcəsini dərəcəsi almışdır. O, 1979-1982-ci illərdə Şimal-Qərb Universitetinin İdarə elmləri fakültəsində

dosent, 1983-1994-cü illərdə Yel Universitetinin İdarə elmləri fakültəsində professor vəzifələrində çalışmışdır. 1994-cü ildə isə Massaçusets Texnologiya İnstitutunda işləməyə keçmiş və 2003-2006-cı illərdə həmin institutun İqtisadiyyat şöbəsinin (*kafedrasının*) rəhbəri olmuşdur. B.Holmström eyni zamanda, 1999-2012-ci illərdə məşhur "Nokia" korporasiyasının idarə heyətinin üzvü olmuşdur.

B.Holmström təşkilati idarələr içindəki maliyyə böhranlarında likvidlik problemləri üçün müraciət olunan təşviqedici "Müqavilə nəzəriyyəsi" ilə bağlı tədqiqatları ilə tanınmışdır.

Əsas elmi əsərləri:

1. Komandalarda mənəvi təhlükə (*Moral hazard in teams. - 1982*);

2. Şirkətin hüdudlarına yenidən baxılma (*The boundaries of the firm revisited. - 1998; J.Robertslə müştərək*);

3. İdarəetmə stimullaşdırılmasının problemləri: dinamik perspektiv (*Managerial incentive problems: a dynamic perspective. - 1999*).

B.Holmström Amerika Maliyyə Assosiasiyasının, Amerika Sənət və Elmlər Akademiyasının, Amerika Ekonometrika Cəmiyyətinin, İsveç Kral Elmlər Akademiyasının və Finlandiya Ədəbiyyat və Elmlər Akademiyasının üzvüdür.

■ **2017-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatına "Davranış iqtisadiyyatına töhfələrinə görə" ABŞ iqtisadçısı Riçard Taler** *(Richard H. Thaler)* **layiq görülmüşdür.**

## Riçard Taler



Riçard Riçard H. Taler (*1945*) - ABŞ iqtisadçısı.

12 sentyabr 1945-ci ildə ABŞ-da Nyu-Cersi ştatında İst-Orinc şəhərciyində yəhudi ailəsində anadan olmuşdur. Bakalavr dərəcəsini 1967-ci ildə Keyz Qərb Ehtiyat Universitetində qazanmışdır. Roçester Universitetində (*University of Rochester*) magistr təhsilini 1970-ci ildə tamamladıqdan sonra həmin universitetdə doktoranturada oxumuşdur. Əməyin iqtisadiyyatı üzrə məşhur iqtisadçı olan Şervin Rozenin (*1938-2001*) elmi rəhbərliyi altında "Bir həyatı qurtarmanın dəyəri: bazarın proqnozlaşdırılması" (*The value of savıng a life: a market estimate*) adlı doktorluq dissertasiyasını müdafiə edərək 1978-ci ildə iqtisad üzrə fəlsəfə doktoru elmi adını almışdır. 1995-ci ildən ABŞ-ın Çikaqo Universtitetinin Biznes Məktəbində professordur. AND Milli İqtisadiyyat Bürosunun (*NABE*) "Davranış iqtisadiyyatı layihəsi"nə Robert Şiller ilə birlikdə rəhbərlik edən K.Taler, Qərar Araşdırmaları Mərkəzində (*Center for Decision Research*) də fəaliyyət göstərir.

R.Taler davranış iqtisadiyyatı nəzəriyyəsi ilə məşhurdur.

Əsas elmi əsərləri:

1. Kvazimilli iqtisadi nəzəriyyə (*Quasi-rational economics. - 1991*);

2. Qazananların lənəti: iqtisadi həyatın paradoksları və anom-

aliyaları (*The winner's curse: paradoxes and anomalies of economic life. - 1991*);

3. Davranış maliyyəsindəki irəliləyişlər (*Advances in behavioral finance. - 1993*);

4. Yarımrasional iqtisadiyyat (*Quasi-rational economics. - 1994*);

5. Arzuolunmaz davranış: davranış iqtisadiyyatının formalaşması (*Misbehaving: the making of behavioral economics. - 2015*).

R.Taler Amerika Milli Akademiyasının, Amerika Sənət və Elmlər Akademiyasının üzvüdür. İnvestorların davranışlarını tədqiq etmək məqsədilə "Kəşf edilməmiş Menecerlər Davranış Dəyər Fondu" (*Undiscovered Managers Behaviorial Value Fund*) adlı fond qurmuşdur. O, həmçinin 2015-ci ildə ABŞ-da istehsal edilən "Aşağı salmaq oyunu" (*The Big Short*) filmində rol oynamışdır.

- **2018-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatına "İqlim dəyişikliklərinin uzunmüddətli makroiqtisadi təhlilə inteqrasiyasına verdiyi töhfələrə görə" ABŞ iqtisadçıları Uilyam Nordhos** *(William Dawbney Nordhaus)* **və "Texnoloji yeniliklərin uzunmüddətli makroiqtisadi təhlilə inteqrasiyasına verdiyi töhfələrə görə" Pol Maykl Romer** *(Paul Michael Romer)* **layiq görmüşdür.**

## Uilyam Nordhos



Uilyam Dabni Nordhos (*1941*) - ABŞ iqtisadçısı.

31 may 1941-ci ildə ABŞ-da Nyu-Meksika ştatında Albukerk şəhərində yəhudi ailəsində anadan olmuşdur. 1963-cü ildə Yel Universitetində bakalavr, 1967-ci ildə isə Massaçusets Texnologiya İnstitutunda fəlsəfə doktoru dərəcəsi almışdır. 1967-ci ildən Yel Universitetində dərs deyir və 1973-cü ildən həmin universitetin professorudur. 1977-1979-cu illərdə ABŞ prezidenti C.Karterin iqtisadi məsələlər üzrə məsləhətçilər qrupunda çalışmışdır. 2014-2015-ci illərdə Boston Federeal Ehtiyatlar Bankında direktorlar şurasının sədri olmuşdur.

U.Nordhos, iqtisadiyyatla iqlim arasında qlobal qarşılıqlı əlaqəni izah edən modelin ilk yaradıcısıdır. O, iqlim dəyişiklikləri ilə bağlı potensial fəlakət təsirlərinə ciddi yanaşmışdır.

U.Nordhos 20-dən çox kitabın müəllifi və redaktorudur.

Əsas elmi əsərləri:

1. İxtiraçılıq, iqtisadi artım və rifah: texnoloji dəyişikliyin nəzəri işlənməsi (*Invention, growth and welfare: a theoretical treatment of technological change. - 1969*);

2. Enerji resurslarının səmərəli istifadəsi (*The efficient use of energy resources. - 1979*);

3. Sovet iqtisadi islahatı: ən uzun yol (*Soviet economic reform: the longest road. - 1990*);

4. İqtisadiyyat (*Economics. - 1985-2014; P.Samuelsonla müştərək*).

U.Nordhos çoxsaylı mükafatlar almış, medallarla təltif olunmuşdur. O, Amerika İqtisadçılar Assosiasiyasının 2004-cü ildən fəxri üzvü, 2014-cü ildə isə prezidenti olmuşdur. U.Nordhos həmçinin Amerika Milli Elmlər Akademiyasının, Amerika Sənət və Elmlər Akademiyasının, İsveç Kral Elmlər Akademiyasının üzvüdür.

## Pol Romer



Pol Maykl Romer (*1955*) - ABŞ iqtisadçısı.

7 dekabr 1955-ci ildə ABŞ-da Kolorado ştatının Denver şəhərində anadan olmuşdur. 1977-ci ildə Çikaqo Universitetində fizika üzrə bakalavr, 1983-cü ildə həmin universitetdə iqtisad üzrə fəlsəfə doktoru dərəcəsi almışdır.

P.Romer sonrakı fəaliyyətini əvvəlcə Stenford Universitetində, sonra isə Nyu-York Univesitetində professor vəzifəsi ilə davam etdirmişdir. O, həmçinin Nyu-York Univesitetinin nəzdində Merron adına şəhər təsərrüfatının idarəedilməsi İnstitutunda direktor vəzifəsində çalışmışdır. Sonra isə o, təhsil kontenti, ali təhsil bazarında texnologiyalar və xidmətlər təqdim edən "Cengage Learning" qrupuna daxil olan özünün "Apila" adlı şirkətini təsis etmişdir.

P.Romerin elmi yaradıcılığı iqtisadi artım və riyazi iqtisadiyyat sahəsindəki mühüm işlərə həsr edilmişdir.

P.Romerin əsas elmi əsərləri:

1. Artan gəlirlər və iqtisadi artım (*Increasing returns and long-run growth. - 1986*);

2. Yeni mallar, köhnə nəzəriyyə və ticarət məhdudiyyətlərinin təminat xərcləri (*New goods, old theory, and the welfare costs of trade restrictions.- 1994*);

3. Elm, iqtisadi artım və dövlət siyasəti (*Science, economic growth and public policy. - 1996*).

ABŞ-ın məşhur həftəlik “Zaman” (*“Time”*) jurnalı P.Romeri 1997-ci ildə 25 ən nüfuzlu insan siyahısına daxil etmişdir.

Özünün fərdi elmi fəaliyyəti nəticəsində P.Romer çoxsaylı nüfuzlu mükafatlar almışdır. Bu sırada onun 2002-ci ildə AFR-in Nürnberq şəhərində aldığı Retenvald (*Horst Claus Recktenwald*) beynəlxalq iqtisadi mükafatı ön sırada dayanır.

P.Romer hazırda Nyu-York Universitetinin Biznes məktəbinin iqtisadiyyat professoru kimi fəaliyyətini davam etdirir.

■ **2019-cu ildə iqtisadiyyat üzrə Nobel mükafatına "Qlobal yoxsulluğun həllində tətbiqi yanaşmalarına görə" ABŞ iqtisadçısı Abhicit Banerji** *(Abhijit Vinayak Banerjee)*, **Fransa iqtisadçısı xanım Ester Duflo** *(Esther Duflo)* **və ABŞ iqtisadçısı Maykl Kremer** *(Michael Robert Kremer)* **layiq görülmüşdür.**

## Abhicit Banerji



Abhicit Vinayak Banerji (*1961*) - hind əsilli ABŞ iqtisadçısı.

21 fevral 1961-ci ildə Hindistanın Bombey (*indiki Mumbay*) şəhərində anadan olmuşdur. İlk təhsilini Hindistanın Kəlküttə şəhərində məşhur "South Point" məktəbində almışdır. Təhsilini həmin şəhərdə Prezident kollecində davam etdirərək, 1981-ci ildə iqtisadiyyat üzrə bakalavr, 1983-cü ildə isə paytaxt Dehlidə Cavahirləl Hehru Universitetində (*Jawaharlal Nehru University*) iqtisadiyyat üzrə magistr dərəcələrinə yiyələnmişdir. Cavahirləl Hehru Universitetində oxuyarkən tələbə iğtişaşlarında iştirak etdiyinə görə həbs olunmuş, sonra isə ittihamları ləğv edilərək azadlığa çıxmışdır. Təhsilini ABŞ-da Harvard Universitetində davam etdirən A.Banerji burada "İnformasiya iqtisadiyyatının oçerkləri" adlı dissertasiya müdafiə edərək, 1988-ci ildə iqtisadiyyat sahəsi üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. O, elmi-pedoqoji fəaliyyətini Harvard və Prinston universitetlərində, sonra isə Massaçusets Texnologiya İnstitutunda davam etdirmişdir.

A.Banerji 2015-ci ildə 2003-cü ildən bir yerdə işlədiyi xanımı, Nobel laureatı Ester Duflo ilə ailə həyatı qurmuşdur. Onlar 2003-cü ildə amerikalı iqtisadçı Sendhil Mülleynatanla (*1973*) birlikdə

"Yoxsulluqla mübarizə laboratoriyası" təsis etmişdir. A.Banerji Milli İqtisadi Tədqiqatlar Bürosunun (*National Bureau of Economic Research*), İqtisadi və Siyasi Tədqiqatlar Mərkəzinin (*The Center for Economic and Policy Research*) və Kiel Dünya İqtisadiyyatı İnstitutunun (*Kiel Institute for the World Economy*) əməkdaşı, həmçinin İnkişafın İqtisadi Təhlili Araşdırma Bürosunun (*Bureau for the Research in the Economic Analysis of Development*) prezidentidir. BMT-nin Baş katibi olmuş Pan Gi Mun (*1944*) tərəfindən 2015-ci ildən sonra inkişaf hədəflərinin yenilənməsi üzrə ekspertlər qrupuna daxil edilmişdir.

A.Banerji həyat keyfiyyətinin yaxşılaşdırılması və bu sahədə effektivliyin qiymətləndirilməsi üzrə apardığı tədqiqatlarla tanınır.

Əsas elmi əsərləri:

1. Dəyişkənlik və artım (*Volatility and growth. - 2005; F.Aqonla müştərək*);
2. Yoxsulluğu anlamaq (*Understanding poverty. - 2006; B.Rolan və D.Mukerci ilə müştərək*);
3. Zəif İqtisadiyyat: qlobal yoxsulluqla mübarizə yolunun kökündən yenidən düşünülməsi (*Poor economics: a radical rethinking of the way to fight global poverty. - 2011; E.Duflo ilə müştərək*);
4. Sahə təcrübələri kitabçası. I və II cildlər (*Handbook of field experiments. - 2017; E.Duflo ilə müştərək*);
5. Yoxsulluq ölçmələrinin qısa tarixi (*A short history of poverty measurements. - 2019*).

A.Banerji Amerika Sənət və Elmlər Akademiyasının, Amerika Ekonometrika Cəmiyyətinin həqiqi üzvüdür. O, hind mənşəli alimlərə, tədqiqatçılara, mühəndislərə verilən sosial elmlər kateqoriyası (*iqtisadiyyat*) üzrə İnfosis mükafatı (*Infosys Prize*) laureatıdır.

## Ester Duflo



Ester Duflo (*1972*) - Fransa və ABŞ iqtisadçısı.

25 oktyabr 1972-ci ildə Fransanın paytaxtı Paris şəhərində anadan olmuşdur. Burada dövlət məktəbi "Anri-IV" liseyində xüsusi proqram üzrə orta təhsilini başa vurduqdan sonra, Parisin digər nüfuzlu məktəbi - Ekol Normalda (*École Normale Supérieure*) ali təhsil almışdır. Buranı o, bakalavr dərəcəsində tarixçi və iqtisadçı kimi bitirmişdir. 1994-cü ildə isə Paris İqtisad Məktəbini bitirərək (*L'École D'économie de Paris*) magistr, 1999-cu ildə isə ABŞ Massaçusets Texnologiya İnstitutunda gələcək həyat yoldaşı olacaq A.Banerji və tanınmış ABŞ iqtisadçısı Coşua Devid Anqristin (*1960*) rəhbərliyi ilə dissertasiya müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Bundan sonra həmin institutda dosent vəzifəsinsdə işə başlamışdır və hal-hazıra kimi burada dərs deməkdədir.

E.Duflo qlobal yoxsulluğun həlli istiqamətində təcrübədən qaynaqlanan tədiqatları ilə məşhurlaşmışdır.

Əsas elmi əsərləri:

1. Təcrübə, elm və yoxsulluqla mübarizə (*Expérience, science et lutter contre la pauvreté. - 2009*);
2. Zəif İqtisadiyyat: qlobal yoxsulluqla mübarizə yolunun kökündən yenidən düşünülməsi (*Poor economics: a radical rethinking of the way to fight global poverty. - 2011; E.Duflo ilə müştərək*);
3. Santexnik kimi iqtisadçı (*The economist as plumber. - 2017*);
4. Sahə təcrübələri kitabçası. I və II cildlər (*Handbook of field experiments. - 2017; E.Duflo ilə müştərək*).

Nobel mükafatı almağı ilə bağlı Kral İsveç Elmlər Akademiyasına telefonla cavab verərkən E.Duflo söyləmişdir ki, bu mükafatı son dərəcə uğurlu və vacib bir zamanda almışdır, ondan yoxsulluqla mübarizə və uşaqların təhsilini yaxşılaşdırmaq səylərində "meqafon" kimi istifadə etmək istəyir. Həmin vaxt Fransa Prezidenti Emanuel Jan-Mişel Federik Makron (*1977*) E.Dufloya telefon açaraq onu təbrik etmişdir: "Esther Duflonun möhtəşəm Nobel mükafatı fransız iqtisadçıların hazırda dünyanın ən yaxşıları arasında olduğunu xatırladır və bu sahədə aparılan tədqiqatların insanların rifahına müəyyən təsir edəcəyini göstərir".

"Time" jurnalı E.Duflonu 2011-ci ildə dünyanın 100 ən nüfuzlu insanı siyahısına daxil etmişdir. 2012-ci ildə ABŞ-ın məşhur "Xarici siyasət" (*Foreign Policy*) jurnalı tərəfindən də E.Duflo 100 qlobal mütəfəkkir siahısında yer almışdır.

E.Duflo Amerika Milli Akademiyasının, Britaniya Akademiyasının müxbir üzvüdür. 2010-cu ildə Amerika İqtisadçılar Assosiasiyasının Con Beyts Klark medalını, 2013-cü ildə Den Devid (*Dan David Prize*) və 2015-ci ildə İspaniyanın beynəlxalq Avstriya şahzadəsi (*Premios Princesa de Asturias*) mükafatlarını almışdır.

## Maykl Kremer



Maykl Robert Kremer (*1964*) - ABŞ iqtisadçısı.

12 noyabr 1964-cü ildə ABŞ-ın şimal-şərqində yerləşən Nyu-York ştatında eyniadlı şəhərdə yəhudi ailəsində anadan olmuşdur. 1985-ci ildə Harvard Universitetində sosial elmlər üzrə bakalavr və 1992-ci ildə həmin universitetdə iqtisad üzrə fəlsəfə doktoru dərəcəsi almışdır.

1992-1993-cü illərdə Massaçusets Texnologiya İnstitutunda post-dok[4], 1993-cü ildə Çikaqo Universitetində dəvət olunmuş dosent, 1993-1999-cu illərdə Massaçusets Texnologiya İnstitutunda professor olmuşdur. 1999-cu ildən isə Harvard Universitetinin professorudur. O, həmçinin 1994-1995-ci illərdə Stenford Universitetində elmi işçi, 1998-2009-cu illərdə Brukinq Elmi-Tədqiqat İnstitutunda (*Brookings Institution*) böyük elmi işçi vəzifələrində çalışmışdır. 1999-cu ildən isə həm də ABŞ İqtisadi Tədqiqatlar Milli Bürosunda (*National Bureau of Economic Research, NBER*) elmi işçi vəzifəsində işləyir. Bundan başqa, M.Kremer Konnektikut ştatının Nyu Haven şəhərində sosial və beynəlxalq inkişaf problemlərini həll etmək üçün təsis edilmiş Yoxsulluğun Azaldılması İnnovasiya İnstitutunda elmi məsləhətçi olaraq da çalışmaqdadır.

M.Kremer 1999-2004-cü illərdə "İqtisadi inkişaf" (*Journal of Development Economics*) jurnalının, 1998-2008-ci illərdə isə rüblük "İqtisadiyyat" jurnalının (*Quarterly Journal of Economics*) redaktorlarından biri olmuşdur. O, həmçinin 2010-cu ildə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (*USAİD*) innovativ müəssisələrin inkişafı üzrə inkişaf direktoru və 2017-ci ildə Pakistanda İqtisadi Tədqiqatlar Mərkəzində (*Center for Economic Research in Pakistan*) elmi işçi vəzifələrində çalışmışdır.

M.Kremer stimulların öyrənilməsi sahəsində, xüsusən də, inkişaf etməkdə olan ölkələrdə vaksinasiyanı stimullaşdıran mexanizmlərin inkişafı və sosial elmlər sahəsində fəaliyyətin qiymətləndirilməsi üçün randomizə edilmiş metodların tətbiqi barədə tədqiqatlar aparır.

---

[4] Postdok - (*postdoc, postdoctoral research, postdoctoral fellowship*) postdoktorantura, bir sıra ölkələrin universitet və elmi-tədqiqat institutlarında fəlsəfə elmlər doktoru elmi dərəcəsi almış gənc alimlərin tutuduğu müvəqqəti mövqe.

Əsas elmi əsərləri:

1. Əhalinin artımı və texnoloji dəyişiklik: Milyon il b.e.ə. (*Population growth and technological change: one million b.c. - 1990*);

2. Güclü səhiyyə: yaddan çıxmış xəstəliklər haqqında əczaçılıq tədqiqatları üçün stimullar yaratmaq (*Strong medicine: creating incentives for pharmaceutical research on neglected diseases. - 2004*);

3. Vaksinlər üçün bazarlar yaratmaq (*Making markets for vaccines, 2005*).

M.Kremer Amerika Sənət və Elmlər Akademiyasının, Amerika Ekonometrika Cəmiyyətinin üzvüdür. John and Catherine Mak-Arthur Vəqfi tərəfindən hər il ABŞ vətəndaşlarına və ya sakinlərinə verilən Mak-Artur təqaüdünün (*MacArthur Fellows Program*) sahibi, alim və mühəndislər karyerası üçün verilən Prezident mükafatçısıdır (*Presidential Early Career Award for Scientists and Engineers*).

# Nobel iqtisadçılarının iqtisad elmini inkişaf etdirən və zənginləşdirən başlıca nəzəriyyə və konsepsiyaları

Nobel mükafatının verilmə tarixinin başlanğıcından 68 il ötdükdən sonra nominasiyalar sırasına iqtisadiyyat da qatıldı və elmi çevrədə böyük nüfuz qazandı. Bu ərəfədə bir sıra tədqiqatçılar dünya iqtisad elminə töhfələr vermiş elm dahilərinin siyahısını yaratmaqda idilər. Artıq bir çox görkəmli iqtisadçı alimlərin tərcümeyi-halları iqtisadi terminlərlə yanaşı nəşr edilən eksiklopediya və lüğətlərdə geniş yer almaqda idi. İqtisadçı alimlərin elmi fəaliyyətini siyahı formatında ayrıca kitab halına salınması üzrə də tədqiqatlar yerinə yetirilirdi. Burada fərdiləşdirilmiş struktur təyinatda əsas sıralama çox zaman C.Keynsə qədər və ondan sonrakı mərhələləri əhatə etməklə təsnifatlandırılırdı. Fransız iqtisadçısı Mişel Bo (*1935*) ilə Kanada iqtisadçısı Gil Dostaler (*1946-2011*) müştərək tərtib olunan belə bir kitabın - "Böyük iqtisadçıların tarixi və lüğəti" (*M.Beaud and G.Dostaler, Economic thought since Keynes: a history and dictionary of major economists. - 1995*) müəllifləri kimi tanınırdılar. Rusiyalı iqtisadçı akademik Vladimir Valentinoviç Okrepilovun (*1943*) redaktorluğu ilə də bu istiqamətdə populyarlıq qazanmış "İqtisadiyyat üzrə Nobel mükafatı laureatları: tərcümeyi-hal, mühazirələr, şərhlər" adlı çoxcildli kitab da nəşr olunmuşdur. Lakin bu istiqamətdə iqtisadi fikir tarixçisi, niderland iqtisadçısı Mark Blauq (*1927-2011*) daha çox fərqlənmişdir. Onun iki yüz ən məşhur alimin həyatı və yaradıcılığını elmi-bioqrafik əks etdirən "Keynsdən əvvəl 100 böyük iqtisadçı" və "Keynsdən sonra 100 böyük iqtisadçı" kitabları iqtisadi düşüncə tarixinin maraqlı bir bələdçisinə çevrildi. M.Blauqun qısa, məzmunlu, maraqlı, cəlbedici esse və oçerklərindən ibarət olan bu kitabların buraxılışı 1985-ci ilə

təsadüf etmişdi. Müasir iqtisad elminin 100 böyük nümayəndəsi haqqında “Keynsdən sonra 100 Böyük iqtisadçı” adlı ikinci kitabın nəşrindən 10 il sonra siyahıda olanların bir qismi iqtisadiyyat üzrə Nobel Mükafatı laureatçısı oldu. 1985-ci ildə F.Modilyani, 1986-cı ildə C.Bükenen, 1987-ci ildə R.Solou, 1991-ci ildə R.Kouz, 1992-ci ildə H.Bekker, 1993-cü ildə R.Fogel və D.Nort, 1995-ci ildə R.Lukas mükafat aldılar. Bununla belə, M.Blauq yazırdı ki, mükafatı alanlar -1984-cü ildə R.Stoun, 1988-ci ildə M.Alle, 1989-cu ildə T.Hovelmu, 1990-cı ildə H.Markovits, M.Miller və U.Şarp, 1994-cü ildə C.Harsani, C.Neş və R.Zelten, 1996-cı ildə C.Mirrlis və U.Vikri mənim siyahımda olmamışlar. Ümumiyyətlə isə sonrakı dövrlərdə M.Blauqun siyahısında olanların 30 faizindən çoxu bu ali mükafatı almışdır.

İqtisadiyyat üzrə Nobel Mükafatı laureatlarının ötən 50 ildə sayı artmış, onların elmə verdiyi töhfələr yeni həyat dəyərləri yaratmışdır. Belə ki, bu illər ərzində 91 nüfuzlu alim iqtisadi elmin yeni istiqamətlərinin açılması, onun metodoloji bazasının genişləndirilməsi və təkmilləşdirilməsi, iqtisadi praktikanın köklü şəkildə dəyişdirilməsi, dünya iqtisadiyyatının postindustrial orbitlərə girişi, yeni sənaye inqilablarının başlanması, yüksək innovativ inkişafa təkan verən fikir əsaslandırmaları, nəzəriyyə və konsepsiyaları ilə ön sıralarda qərar tutmuşdur. Onlar iqtisadi proseslərin mahiyyəti, bu proseslərdə obyektiv və subyektiv (psixoloji) amillərdən asılılıq, iqtisadi maraqların və davranışların rolu barədə orijinal fikir və təkliflər irəli sürmüşlər. Onların səyləri ilə iqtisadi nəzəriyyədə eksperiment, əksfakt tədqiqatlar (model təqlidi, imitasiyası) və digər metodlar yer almışdır. Bir çox iqtisadçı alimlər dünya iqtisadi artımına, iqtisadi sistemlərin fəaliyyətinin optimallaşdırılmasına, beynəlxalq pul və vergi siyasətinin yaxşılaşdırılmasına xidmət edən xüsusi iqtisadi modellərin qurulmasına görə tanınmışlar.

Neoklassik istiqamətin baniləri - İrlandiya və Britaniya iqtisadçısı Frensis İsidor Edkort (*1945-1926*), İtaliya-İsveç iqtisadçısı V.Pareto (*1948-1923*) və başqaları artıq XIX əsrin sonlarında siyasi iqtisadda riyazi məktəbin əsaslarını yaratdılar. XX əsrin əvvəllərində iqtisad elmi tətbiqi xarakterini ekonometrika elminin təşəkkülündə qəti sınaqdan keçirdi. İqtisadi fənn olaraq ekonometrika tətbiqi iqtisadi obyekt və proseslərin qarşılıqlı rabitəsini riyazi-statistik və model kontekstində öyrənir. Hər dəyişən ekonometrik modelə təyin olunmuş statistik indikator xasdır və onun köməyi ilə təsərrüfat mexanizminin hər hansı bir tərəfi bu və ya digər dəqiqliklə ölçülür. Belə mexanizmlər üzərində qurulmuş modellər yüksək praktiki dəyərləndirilərək dövlətin iqtisadi siyasətinin qurulmasında, firmanın bazar strategiyasında istifadə olunur.

Ekonometrikadakı nailiyyətlər Nobel laureatlarının da tədqiqatlarında məxsusi yer tutur. Bu sırada ilk yer R.Friş və Y.Tinbergenə məxsusdur. Onlar, ilk olaraq, 1969-cu ildə iqtisadi proseslərin təhlili üçün dinamik modellərin hazırlanması və tətbiqi sahəsindəki tədqiqatlarına görə iqtisadiyyat sahəsində Nobel mükafatı almışlar. Onların tədqiqatları iqtisadiyyat elmində böyük nəzəri və təcrübi əhəmiyyət daşımışdır. Ekonometrikanın görkəmli nümayəndələri olmaqla, R.Friş və Y.Tinbergen bu tədqiqatları ilə iqtisadi nəzəriyyəni ciddi riyazi formaya salmış, beləliklə də, empirik kəmiyyət nəticələrinin alınmasına və statistik yoxlanışın həyata keçirilməsinə imkanlar yaratmışlar. R.Friş həm də, iqtisadi planlaşdırma və iqtisadi siyasət modellərinin milli gəlirin hesablanması üzrə statistik instrumentariyanın (*alətlərin*) yaradıcısıdır. O, siyasi iqtisadın riyazi istiqamətinin tərəfdarı olmuş, həmçinin, bir çox ölkələrdə maliyyə və statistikada istifadə edilən "milli hesablar" sisteminin quruluş prinsiplərini işləmişdir. Y.Tinbergen isə əlahiddə olaraq erkən

ekonometrikaya "hörümçəkşəkilli teorem"[5] (*cobweb theorem*) adlı kəşfi və həmçinin, iqtisadi tsikl nəzəriyyəsinin statistik yoxlanışının dinamikası və metodiki nəzəriyyəsi işi ilə töhfələr vermişdir. "Hörümçəkşəkilli teorem" istehsalın və bəzi əmtəə qiymətlərinin tsiklik titrəyişinin tənzimlənməsinin izahı cəhdlərini təqdim edir. Teorem göstərir ki, qiymətlərin tələb və təklifin titrəyişləri əsasında təyin olunduğu mükəmməl rəqabət zamanı istehsal və əmtəə qiymətləri kiçik müddət ərzində tarazlıqdan çıxmalarına baxmayaraq, klassik iqtisadi nəzəriyyədə göstərildiyi kimi, mütləq həmin vəziyyətə qayıtmalıdırlar. "Hörümçəkşəkilli teorem" təcrid olunmuş bazar çərçivəsində kənd təsərrüfatı məhsulunun qiymətinin formalaşması mexanizminin anlaşılmasının dərinləşməsində mühüm rol oynamışdır. O, həmçinin dinamik nəzəriyyədə əsas bənd kimi də əhəmiyyət daşıyır.

Reallıq ondan ibarətdir ki, XX əsrin 30-cu illərində dahi iqtisadçı alim C.Keynsin iqtisadiyyatın dövlət tənzimlənməsi konsepsiyası iqtisadi düşüncənin və iqtisadi siyasətin inkişafına ciddi təsir göstərmişdir. C.Keyns iqtisad elmində inqilab edərək adı ilə bağlı saysız ardıcılları olan keynsçilik məktəbi yaratmışdır. Eyni zamanda, bu məktəbin uzun müddət mövqeyini saxlamasına baxmayaraq, C.Keyns vahid tiskl nəzəriyyəsini yarada bilməmişdir. Onun ardıcılları isə iqtisadiyyatı makroiqtisadi dəyərlər baxımından təhlil etmişlər. Bununla yanaşı, tədqiqatlarda mikroiqtisadi kateqoriyalara da ehtiyac duyulmuşdur. Yaranmış vəziyyət isə iqtisad elmində yeni yaranışları şərtləndirmişdir. Belə ki, ənənəvi iqtisadiyyat üçün ətalət və passivlik xarakterik idi. Onun nəticələri siyasi hakimiyyətin iqtisadi prosesə müdaxiləsi səbəbindən böyük xərclər yaradırdı. 1937-ci ildə C.Hiks iqtisadi

5 "Hörümçəkşəkilli teorem" adlandırılmasında qiymət dəyişməsini təccəssüm etdirən əyri xəttlərin kəsişməsinin bir hörümçək toru təəssüratı yaradan qrafik ilüstrasiyası əsas olmuşdur.

nəzəriyyənin neoklassik və keynsçi məktəblərini inteqrasiya edən nəzəri vəziyyət - neoklassik sintez prinsipini təklif etdi. Sonralar bu yanaşma bütövlükdə P.Samuelson tərəfindən əsaslandırıldı.

Neoklassik sintez, eyni zamanda, pul gəlirini və faiz dərəcəsini təyin etmək üçün iqtisadiyyatın maddi və pul sektorlarının keynsçi inteqrasiyada birləşdirən nəzəriyyədir. 1960-cı illərin ortalarının iqtisadi nəzəriyyəsi məhz neoklassik sintez kimi xarakterizə olunur. O, mövcud neoklassik makroiqtisadiyyat yarım əsrdən çox müddətə ardıcıl və faydalı bir nəzəriyyə yarada bilmədiyi üçün ortaya çıxmış və irəliyə doğru addımlamışdır. Bu nəzəriyyəyə müxtəlif iqtisadi təhlil və iqtisadi-riyazi metodların tətbiqi xasdır. Belə ki, riyazi modellər və hesablamalar məntiqi əsaslandırmaya, funksional qarşılıqlı əlaqələrin müəyyənləşdirilməsinə, nəticə və proqnozların yoxlanılmasına kömək edir. Neoklassik sintez fərqli anlayışlar, məktəblər və istiqamətlər arasında tutarlı nəticələr tapmağı hədəfləyir. Keynsçilik bir çox inkişaf etmiş ölkələrin, xüsusən də, ABŞ-ın iqtisadiyyatının dövlət tənzimlənməsi təcrübəsində istifadə edilmişdir. XX əsrin 50-ci illərinin ortalarında və sonrakı iki onillikdə o, hakim baxışlar sistemi olmuşdur.

1970-ci ilin Nobel mükafatı laureatı P.Samuelson bazar tənzimlənməsinin dövlətin iqtisadiyyata təsiri ilə birləşməsini təklif etmişdir. Göstərmişdir ki, daha kəskin dərin tənəzzül dövründə büdcə, tərəqqi zamanı isə maliyyə-kredit alətlərindən istifadə etmək gərəklidir. O, bazar iqtisadiyyatının və inzibati iqtisadiyyatın əlamətlərini müqayisə edərək iqtisadiyyatı avtomatik tarazlıq vəziyyətində saxlaya bilən bazar mexanizminə üstünlük vermişdir. P.Samuelson qeyd etmişdir ki, bazar iqtisadiyyatı təbii qüvvələrin təsirinə tabedir və sərt iqtisadiyyatdır. Bununla belə, müəyyən bir mərhələdə effektivlik, sabitlik və ədalətlilik baxımdan dövlətin iqtisadiyyata müdaxiləsi də zəruridir. Bu zərurət in-

hisarların, haqsız rəqabətin, iqtisadi və sosial ziddiyyətlərin kəskinləşməsindən irəli gəlir. Dövlət tədbirləri iqtisadiyyatı inhisardan qorumağa, işgüzar dövriyyənin yumşaldılmasını təmin edən sabitləşmə metodlarını dəstəkləməyə, işsizlik və inflyasiyanın qarşısını almağa və iqtisadi artımın stimullaşdırılmasına yönəldilməlidir. P.Samuelson sosial iğtişaşların aradan qaldırılması məqsədilə milli gəlirin yenidən bölüşdürülməsi üçün dövlət proqramlarının tətbiq edilməsini dəstəkləmişdir. Bazar iqtisadiyyatının mexanizmlərini neoklassik mövqedən təhlil edən alim, göstərmişdir ki, dövlətin səmərəliliyi və ədaləti təmin etmək funksiyasından başqa makroiqtisadi stabilliyi tənzimləməsi C.Keynsin və onun ardıcıllarının metodlarına uyğun olaraq həyata keçirməlidir. Onun fikrincə, bazar mexanizmi qiymətləri və istehsalın həcmini müəyyənləşdirir, dövlət isə bazarı vergilərin, subsidiyaların və digər iqtisadi metodların köməyi ilə tənzimləyir. Multiplikator effektini təhlil edərək P.Samuelson belə nəticəyə gəlir ki, alıcılıq qabiliyyətinin artması investisiyalardakı dalğalanmaya (*effektiv tələb*) təsir göstərə bilər.

P.Samuelson həm də daha çox statik və dinamik iqtisadi nəzəriyyənin inkişafına və iqtisadiyyat elmi sahəsində ümumi təhlil səviyyəsinin yüksəlişinə verdiyi töhfələri ilə fərqlənmişdir. O, həmçinin iqtisadi tarazlığın, istehlakın strukturunun səmərəlilik və optimallığın təhlilinə həsr edilmiş bir sıra məşhur elmi kitabların müəllifi, termodinamikanın riyazi aparatını iqtisadi hadisələrin tədqiqinə uyğunlaşdıran ilk iqtisadçı kimi də tanınır.

P.Samuelsonun iqtisadi təhsil sahəsindəki xidmətləri də diqqətəlayiqdir. Belə ki, onun həmkarı, 2018-ci il Nobel laureatı U.Nordhosla birlikdə yazdığı məşhur "İqtisadiyyat" (*Economics*) kitabı dünyanın əksər universitetlərində iqtisadi təlimin öyrənilməsi üçün əsas dərsliklərdən biridir.

II Dünya müharibəsindən sonra C.Keynsin ardıcılları neokeyn-

sçilər (*Keyns təlimini iqtisadiyyatın neoklassik modeli ilə sintez edənlər*) onun baxışlarını inkişaf etdirərək iqtisadiyyatın tsiklik hərəkətinin dövlət tənzimləməsi ilə uzlaşmada öz anlayışlarını irəli sürdülər. Onlar puldan istifadə edən və qeyri-müəyyən vəziyyətə düşən iqtisadiyyatın dinamik xarakterliyini israr etdilər. Vaxt amilinin təbiəti belədir ki, bazarlar həmişə tarazlıq içində olmurlar və onların subyektləri davranışın optimal xəttini müəyyənləşdirmək üçün həmişə düzgün siqnal qəbul etmirlər. Bu elmi sahənin nümayəndələri iqtisadi fikrin inkişafına, həm də, demək olar ki, bütün inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin formalaşmasına təsir edən iqtisadi artım nəzəriyyələrini işlədilər. Neokeynsçiliyin qurucuları Nobel mükafatı laureatları P.Samuelson, S.Kuznes, F.Modilyani, C.Hiks, C.Tobin, C.Mid, R.Solou, L.Kleyn və digərləri oldular.

İqtisadi artım nəzəriyyələrinin görkəmli nümayəndələrinin önündə 1971-ci il Nobel laureatı S.Kuznes dayanır. O, iqtisadi artımı tədqiq edən, onun sürətli və zəif tərəddüdlü iyirmiillik dövrünü ifadələndirən "Kuznes tsikli" anlayışının müəllifidir. İqtisadi artımla bağlı tədqiqatlar digər Nobel laureatları - P.Samuelson (*1970-ci il*), S.Kuznes (*1971-ci il*), T.Kupmans (*1975-ci il*), C.Mid (*1977-ci il*), C.Tobin (*1981-ci il*), R.Solou (*1987-ci il*), M.Alle (*1988-ci il*), D.Nort (*1993-cü il*), R.Lukas (*1995-ci il*), P.Romerin (*2018-ci il*) də əsərlərində əsas tədqiqat mövzularıdır. Belə ki, T.Kupmans cəmiyyətin iqtisadi artımının planlaşdırılması üçün gələcək istehlakın hazırkı dəyərinin cəmiyyət tərəfindən qiymətləndirilməsini əks etdirən faiz - uçot faizinin mühümlüyünü göstərmiş, R.Solou isə iqtisadi artımın "neoklassik" modellərindən birini yaratmışdır. Bu modelinin yaradılması müasir iqtisadi nəzəriyyənin digər bölmələrinin də işlənib hazırlanmasına təsir etmişdir. R.Solounun modelindən əmanətlərin optimallığı probleminin tədqiqində, ictimai ma-

liyyənin vəziyyətinin təhlilində istifadə olunmuşdur. Bu model gələcək iqtisadi inkişafda vergi siyasətində olan dəyişikliklərin mümkün təsirlərinin qiymətləndirilməsinə tətbiq edilmişdir. Ötən əsrin 70-80-ci illərində R.Solounun neoklassik modelindən ümumi tarazlıq nəzəriyyəsi çərçivəsində iqtisadi tsiklin tərəddüdlərinin öyrənilməsində, həmçinin, qiymətli kağızlar bazarının təhlilində uğurla istifadə olunmuşdur. R.Lukas və P.Romer yaratdıqları "Lukas-Romer" adlı modellə iqtisadi artımın yeni nəzəriyyəsinin baniləri olmuşlar. Həmin model iqtisadi artım üçün başlıca amili kimi elmi-tədqiqat, təcrübə-konstruktor işlərinə kapital qoyuluşlarının və insan kapitalına investisiyaların yönəldilməsini özündə ehtiva edir. Əvvəlki makroiqtisadi tədqiqatlar vurğulayırdı ki, texnoloji innovasiyalar iqtisadi artımda əsas drayver rolunda çıxış edir. Bununla belə, iqtisadi qərarların və bazar şərtlərinin yeni texnologiyaların işlənməsini necə təyin etməsi modelləşdirmədi. P.Romer bu problemi həll etdi. O, iqtisadiyyatın şirkətlərin yeni ideya və yeniliklər yaratmaq hazırlığını necə təyin etdiyini göstərdi. Göstərdi ki, böhran və böhranlı vəziyyət olduqca neqativdir. "Böhran - bu elə bir şeydir ki, ona yol vermək qətiyyən tövsiyə edilmir".

Ümumi iqtisadi tarazlıq nəzəriyyəsi və rifah iqtisadi nəzəriyyəsini yenilikçi töhfələrlə zənginləşdirən 1972-ci ilin Nobel laureatları C.Hiks və C.Errounun da elm qarşısında xüsusi xidmətləri vardır. Neoklassik sintez prinsipi ilə tədqiqatlar aparan, mikroiqtisadiyyat sahəsindəki işləmələri ilə məşhurlaşan C.Hiks elmi yaradıcılığında həmçinin aydın bazar kateqoriyaları olan alınan malların miqdarı, onların qiyməti, alıcının gəliri, habelə inflyasiya məsələlərini araşdırmış, "əmək standartı" və "əməkhaqqı-qiymətlər" kimi anlayışları dövriyyəyə gətirmişdir. C.Hiksin ilk irihəcmli elmi əsəri - "Əməkhaqqı nəzəriyyəsi" qeyri-təkmil rəqabət şəraitində əmək bazarının fəaliyyəti və əməkhaqqı me-

xanizminin müəyyənləşdirilməsi ilə bağlı məsələlərin tədqiqinə həsr olunmuşdur. O, burada özünün sənaye konflikti nəzəriyyəsini irəli sürmüşdür. "Dəyər və kapital" əsəri isə alimə böyük reputasiya qazandırmışdır. Bu əsərdə ilk dəfə görkəmli ingilis iqtisadçı, neoklassik nəzəriyyənin banisi Alfred Marşalldan (*1842-1924*) sonra həmin nəzəriyyənin əsaslarının təhlil olunmasına cəhd edilmişdir. "Dünya iqtisadiyyatı haqqında oçerklər" əsərində isə C.Hiks inflyasiya konsepsiyasını təqdim edərək, burada "əmək standartı" və "əməkhaqqı - qiymətlər" anlayışlarını dövriyyəyə gətirmişdir. 1970-ci illərdə onun tədqiqatları iqtisadi nəzəriyyənin inkişaf problemlərinin metodologiyasının işlənməsinə və keynsçi iqtisadi nəzəriyyəyə yenidən baxılması, onun dəqiqləşdirilməsi məsələlərinə həsr olunmuşdur. Bunlar əvvəlki tədqiqatlarla yanaşı, onun "Keynsçi iqtisadi nəzəriyyənin inkişafının böhranı" əsərində xüsusən, genişliklə öz əksini tapmışdır. C.Hiks bu tədqiqatlarında keynsçi nəzəriyyənin bir sıra vacib məqamlarından imtina edərək, onu müasir vəziyyətdə müvafiq yeni müddəalarla zənginləşdirməyə cəhd etmiş və keynsçi nəzəriyyəyə "hiksçi keynsçilik" kimi yeni istiqamət vermişdir. C.Hiks əmtəə və pul bazarlarının qarşılıqlı təsirini təhlil edən aparat - "investisiya - əmanət - likvidlik üstünlüyü - pullar" modeli yaratmış, iqtisadi təhlildə "IS-LM-əyriləri", "müvəqqəti tarazlıq" terminlərini, uzunmüddətli faiz dərəcələrinin formalaşması prosesinə müqabil "gözləmə nəzəriyyəsi"nin əsaslarını gətirmişdir.

C.Hiks keynsçi konsepsiyaya müvafiq olaraq tələb həcminin mütləq elastik olduğunu vurğulayır. P.Samuelson tərəfindən 1939-cu ildə yaradılmış multiplikator və akseleratorun qarşılıqlı təsiri modelini C.Hiks modifikasiya edərək müştərək işgüzar tsikli - Samuelson-Hiks modelini yaratmışdır. Burada titrəyiş konyukturunun mexanizmi akselerasiya prinsipi və multiplikator konsepsiyası bazasında təcəssüm olunur. Tsikllər sxemini kons-

tatasiya edərək C.Hiks dörd fazanın mövcudluğunu irəli sürmüşdür.

K.Errounun tədqiqatları isə riyazi metodlardan geniş isifadə əsasında sosiologiya ilə iqtisadiyyatın qovuşması, bazar tarazlığı nəzəriyyəsi, iqtisadi qərarların optimallaşdırılması, sosial müdafiə məsələlərinə yönəlmişdir. Ona fikirlərini ifadə etməkdə biçimli və ehtiyatlı olmaq xarakterikdir. Lakin vəfatından 5 il öncə - 2012-ci ildə K.Errou altı il ərzində iqtisadi böhranların ardıcıllığının sona çatacağını vəd etmişdi.

Başlıca olaraq giriş və çıxış məlumatlarını təhlil etmiş, sahələrarası əlaqələrin öyrənilməsini, iqtisadiyyatın strukturu və sahələrarası balansın qurulması üzrə iqtisadi-riyazi təhlilin “xərclər-buraxılış” metodunu işləmiş, 1973-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatını almış V.Leontyevin elmi xidmətləri də möhtəşəm hesab olunur. O, demək olar ki, bütün həyatını, sahələrarası balansların “xərclər-buraxılış” əmsalı əsasında qurulmasına həsr etmişdir. V.Leontyev 1953-cü ildə “Amerika iqtisadiyyatının strukturunun tədqiqi” əsərində cəbri-xətti metodun köməyi ilə bütün əmtəə bazarlarının tarazlığına təyinat verən sahələrarası proporsiyalar müəyyən etmiş, sonradan isə bu təyinatını təsdiqləmək üçün ABŞ dövlətinin müvafiq statistik materialları əsasında onu empirik yoxlanışdan keçirmişdir. Giriş-çıxış modeli kimi müəyyənləşdirilən bu elmi nəticə, praktiki olaraq, bir çox sahələrdə: iqtisadiyyatın proqramlaşdırılması və proqnozlaşdırılması istiqamətində geniş tətbiqini tapmışdır. V.Leontyev istehsal amillərinin müqayisəli nəzəriyyəsinin əksinə apardığı tədqiqatla ABŞ-da idxalın ixraca nisbətdə 30% çox olan kapitaltutumluluğunu aşkarlamışdır. Bu nəticə “Leontyev paradoksu” kimi məşhurdur. Nəticə-paradoks bir neçə istiqamətdə şərh edilsə də, əsas fikir üstünlüyü ondan ibarət olmuşdur ki, ABŞ digər inkişaf etmiş ölkələrə nisbətdə elmtutumlu əmtəə istehsalında

üstünlüklər əldə etmiş və bu səbəbdən də, ixracda daha çox ixtisaslı əmək tələb edən, idxalda isə xammal xarakterli böyük kapitaltutumlu xərcli əmtəələr çox olmuşdur. “Leontyev paradoksu” Hekşer-Ulin nəzəriyyəsinin praktiki məqsədlərdə düzxətli və sadələşmiş istifadəsindən artıq aludəçiliklə ifadədən çəkindirməyə xidmət edir.

V.Leontyev bundan başqa beynəlxalq ticarət nəzəriyyəsi mövzusunda da tədqiqatlar aparmış, dünya iqtisadi artımının ətraf mühitə, xüsusən də, təbii resurslarla təminatlılıq baxımından bu artımın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı nisbətə təsiri problemlərinə müraciət etmişdir. Bunun əsasında da BMT xətti ilə onun rəhbərliyi altında hər biri 45 sektoru əhatə edən 15 region üzrə ticarət münasibətlərində balanslaşdırılmış əlaqələrin nəhəng regionlararası, sahələrarası balansı qurulmuşdur. Bu nəticələr “Dünya iqtisadiyyatının gələcəyi” adlı məruzədə dərc olunmuşdur. V.Leontyev zəruri hesablamalar üzrə superkompüterdən istifadə edən ilk iqtisadçı kimi tanınır.

Pul, iqtisadi titrəyişlər və onların iqtisadi, sosial və təşkilati bağlılıqlarını öyrənən tədqiqatlar aparmış, 1974-cü il iqtisadiyyat üzrə Nobel laureatları Q.Mürdal və F.Hayekin də elmi töhfələri yüksək dəyərləndirilir. İdeyaları keynsçiliklə uzlaşan Q.Mürdal sosial-demokratik düşüncənin inkişaf etməsində böyük rol oynamış, pul tarazlığı, demoqrafiya, irqçi münasibətlər, səfalət və yoxsulluq, dünya iqtisadi sistemlərinin inteqrasiyası kimi məsələləri tədqiq etmiş, “Kumulyativ səbəbkarlıq” konsepsiyasını işləmişdir. O, həmçinin, “üçüncü dünya ölkələri”nin sosial-iqtisadi inkişafına dair baxışları ilə də tanınmış, institusionalizmə töhfələr vermişdir. Q.Mürdal sosial-demokratik düşüncənin inkişafındakı xidmətlərinə görə beynəlxalq sosial siyasətin atası hesab olunur. Alimin fikrincə, siyasi və sosial güclərin iqtisadi hadisələrə təsirini nəzərə almayan iqtisadçı təhlükəlidir.

Onun faktiki material genişliyi, aktual iqtisadi və siyasi problemlərin orjinal şərhliliyi ilə fərqlənən əsərləri 1954-cü ildə ABŞ-da qəbul olunan ictimai məktəblərdə irqi ayrıseçkiliyi qadağan edən qanuna böyük təsir göstərmişdir. Bundan başqa, Q.Mürdal 1950-ci ildə UNESCO-nun "İrqçilik məsələsi" (*The race question*) adlı hesabatını imzalayanlardan biri olmuşdur.

İnkişaf etmiş ölkələrdə sosial müqavilə ideyası uğrunda fəal mübarizə aparılır. Sosial dövlətin böhranı, işsizlik, qanunlar və qaydalar problemi fərdin tələblərinin həddi ilə bağlı suallar doğurur. Buna görə konstitusiya problemləri ön plana çıxır və liberalizm yeni məzmunla dolğunlaşır. Neoliberalizm iqtisad elmində və təsərrüfat fəaliyyətinin idarə olunması təcrübəsində bir istiqamətdir. Onun tərəfdarları ənənəvi müddəalara riayət etməklə, bazarın ən səmərəli idarəetmə sistemi olmasını, iqtisadi artım üçün ən yaxşı şəraitin yaradılmasını və iqtisadi agentlərin sərbəstliyinin prioritetliyini önə çəkir, artıq reqlamentasiyadan azad olan iqtisadiyyatın özünü tənzimləmə prinsipini dəstəkləyirlər. Dövlət rəqabət üçün şərait yaratmalı və bu şərtlər olmadıqda nəzarəti həyata keçirməlidir. Müasir neoliberalları konseptual müddəalardan daha çox metodologiyaların ümumiliyi birləşdirir. İqtisadi elmdə bu istiqamətin əsas nəzəriyyəçiləri F.Hayek, M.Fridman, C.Stiqlis, R.Lukas, M.Alle və digərləridir.

XX əsrin 70-80-ci illərinin təcrübəsi bazar sisteminin normal işləməsi üçün dövlətin müdaxiləsinin həqiqi bir təhdid ola biləcəyini göstərdi. Belə bir sistem yeni liberal bazar sistemi ideyalarının ortaya çıxmasını şərtləndirdi. XX əsrdə liberalizmin ən nüfuzlu nəzəriyyəçisi, elm tarixində neoliberal baxışları təmsil edən məşhur iqtisadçı və filosof F.Hayek oldu. F.Hayek təsdiq edirdi ki, bazar düzümünün kortəbii xarakterinə müdaxilə bazar mexanizmini sarsıda və bütövlükdə iqtisadi sistemi iflic edə bilər. O, sosial ədalətin boş bir düsturdan başqa bir şey olmadığını iddia

edirdi və göstərirdi ki, təcrübədə buna nail olmaq cəhdləri azad insanların cəmiyyəti ilə uyğun gəlmir. F.Hayek insan azadlığı prioritetini başlıca prinsip kimi tərənnüm etmişdir. Onun fikrincə, azadlıq fərdiyyətçiliyin inkişafına təkan verir. Məlum olduğu kimi, fərdiyyətçilik isə Avropa sivilizasiyasının əsasıdır və o özünü sevmək, eqoizm deyildir. O, hər bir insanın dünyada özünü reallaşdırmasının mütləq prioritetidir.

F.Hayek C.Keynsin nəzəriyyə və ideyalarının da tənqidçisi kimi məşhurdur. O, həm də azad bazara və iqtisadiyyata dövlətin müdaxilə etməməsi konsepsiyasının ən qatı tərəfdarlarından, kommunizm, etatizm və totalitarizmin tənqidçilərindən biri kimi tanınır. Bu məsələlərdə radikal mövqe tutan alim dövlətin kredit-pul siyasətindən çəkinməsini də tövsiyə etmişdir. Belə ki, liberal demokratik cəmiyyət intəhasızlığını baxışlarında hədəf seçən F.Hayek, hətta dövlətin pul buraxılışında inhisarının da əleyhinə idi. O, əsərlərində emissiya funksiyasının rəqabət aparan özəl banklara verilməsini təkid edirdi. Göstərirdi ki, mərkəzi emissiya bankı daim siyasi təsir və nəzarət çevrəsindədir. Bu hal isə davamlı bazar təminatını əldə etməkdə dövriyyədə olan pulların tənzimlənməsini məhdudlaşdırır. O, zaman yetişdikcə pulların sahibkarlar tərəfindən buraxılacağı perspektivini dəyərləndirmişdir.

F.Hayekin zənnincə, sosial düzüm şüurlu hərəkətin məhsulu ola bilməz. Belə ki, o, bazar tərəfindən şərtlənmiş təbii hərəkətlərin nəticəsidir. Onun "rəqabət çoxlu müstəqil fərdlər tərəfindən reallaşdırılan mərkəzləşdirilmiş planlaşdırmadır" aforizmi iqtisadi fikir tarixində məşhurdur.

1975-ci ildə resursların optimal bölgüsü nəzəriyyəsinə töhfəsinə görə iqtisadiyyat sahəsində Nobel mükafatı almış L.Kantoroviç və T.Kupmans isə ekonometrikada xətti proqramlaşdırma sahəsində tədqiqatları ilə şöhrət qazanmışlar.

İstehsalın optimallaşdırılması və planlaşdırılması, iqtisadi kibernetika istiqamətindəki tədqiqatları ilə yanaşı L.Kantoroviç funksional təhlil sahəsində yarımnizamlı məkanlar (*K - məkanlar*) sinfini elmi dövriyyəyə gətirmiş, ilk dəfə olaraq riyazi hesablamada onu tətbiq etmişdir. O, həmçinin yaxınlaşan metodların ümumi nəzəriyyəsini inkişaf etdirmiş, operator tənliklərin həllinin effektiv metodunu qurmuşdur. L.Kantoroviçin elmə verdiyi mühüm töhfələrdən biri də resursların optimal paylanması nəzəriyyəsi olmuşdur. Resursların optimal bölüşdürülməsi nəzəriyyəsi qiymətlərin və kapital qoyuluşlarının təhlilində istifadə edilən iqtisadi göstəricilərin sistematik qurulması sahəsində yeni riyazi yanaşmalara əsaslanaraq, istifadənin cari və uzunmüddətli planlaşdırılmasının statistik və dinamik modellərinin formalaşdırılmasına təminat verən konsepsiya olmuşdur.

T.Kupmans isə resursların optimal bölgüsü nəzəriyyəsi ilə yanaşı, "fəaliyyət növlərinin təhlili" konsepsiyasının müəllifi kimi də tanınmışdır. O, riyazi vasitələrdən istifadə edərək rəqabət aparan istehlakçılar arasında resursların optimal paylanmasının müəyyənləşdirilməsi üçün yeni bir metod yaratmışdır T.Kupmans həmçinin tərəfdarları ilə birlikdə şirkətin fəaliyyətini təhlil üçün də yeni bir üsulun tərtibini həyata keçirmişdir. İnkişafın proqramlaşdırılması sahəsində ilk cığıraçanlardan olan T.Kupmans cəmiyyətin iqtisadi artımının planlaşdırılması üçün uçot faizinin mühümlüyünü (*gələcək istehlakın hazırkı dəyərinin cəmiyyət tərəfindən qiymətləndirilməsini əks etdirən faiz*) göstərmiş, ümumilikdə, iqtisadi artım problemlərinin tədqiqinə böyük töhfələr vermişdir.

1976-cı ilin iqtisadiyyat sahəsində Nobel mükafatı laureatı M.Fridman nobelçi həmkarı S.Kuznes və digər məşhur iqtisadçılarla əməkdaşlıqdan bəhrələnərək özünün "daimi istehlak gəliri" hipotezini formalaşdırmış və bu hipotez praktiki təsdiqini

tapmışdır. 1957-ci ildə nəşr etdirdiyi "İstehlak funksiyası nəzəriyyəsi" əsərində M.Fridman sübut etmişdir ki, C.Keynsin cari istehlakı cari gəlirlərə uzlaşdıran konsepsiyasının səhv istiqamətə gətirəcəyi qaçılmazdır. Bunun əvəzində o, istehlakçının cari gəlirdə müvəqqəti olanlardan başqa, gözlənilən və ya daimi gəlirə istinad edərək özünün istehlak hesablamalarını qurmadığı barədə nəzəriyyə irəli sürmüşdür. Baxmayaraq ki, daimi gəlir həmişə mövcud deyil, lakin onu son daxil olan pul vəsaitlərinə rəğmən tarazlı ortalamada hesablamaq olar. Bu ortalamanı M.Fridman "təsnifatlanmış yan" adlandırmışdır. M.Fridman tövsiyə etmişdir ki, bütün hallarda tsiklik titrəyişlərə gətirəcək davamlı pul-kredit siyasətindən tamamilə uzaqlaşmaq lazımdır. Bununla bərabər, pul kütləsinin daimi artdığı taktikaya keçid edilməlidər. O, hətta bu artımın 4 faizə bərabər olması qənaətinə də gəlmişdir.

M.Fridman 1950-ci ildə "Marşall planı"nın reallaşması strategiyası üzrə məsləhətlər verərək Parisə gəlmiş və burada "üzən valyuta kursları" ideyasının müdafiəsinə qalxmışdır. O, Bretton-Vuds sazişi əsasında təsbit edilmiş valyuta kurslarının uğursuzluğa düçar olacağını söyləmiş və 1970-ci ildə bu, reallıqda baş vermişdir. O, 1963-cü ildə iqtisadi tarix sahəsində görkəmli mütəxəssis, amerikalı iqtisadçı Anna Şvarsla (*1915-2012*) birgə yazdığı "ABŞ-da pul sisteminin qurulması" əsərində "Böyük depressiya" illərində Federal Ehtiyatlar Sistemini adekvat olaraq ABŞ bank sisteminin likvidlik səviyyəsini dəstəkləməklə bacarıqsızlıq nümayiş etdirməkdə təqsirləndirmişdir. Onun sözlərinə görə, "bütün işlər pullardadır", ondan ötrü ki, nominal gəlirlərin intensiv artımı, üstün olaraq, pul kütləsinin dəyişkənliyi ilə şərtlənir.

M.Fridmanın monetar nəzəriyyəsi onun istifadə etdiyi iqtisadi metodlar haqqında aydın təəssürat yaradır. Onun təqdim etdiyi

kimi, iqtisadi modelləri mücərrəd deyil, real iqtisadi nəticələri proqnozlaşdırma qabiliyyətlinə görə dəyərləndirmək lazımdır.

M.Fridmanın "inflyasiya həmişə pul hadisəsidir" kəlamı məşhurdur. Eyni zamanda, bir sıra elmi səlahiyyət sahibi olan iqtisadçılar bu kəlama müsbət yanaşmamışlar. R.Solou isə monetarist inqilabın lideri - aparıcı iqtisad məktəblərindən birinin - monetarizmin banisi olmayan yeganə nobelçi M.Fridmanı pul təklifinə həddən artıq diqqət göstərdiyinə görə sərt tənqid etmişdir.

1977-ci ilin iqtisadiyyat sahəsində Nobel mükafatçıları - neoklassik məktəbin nümayəndəsi B.Ulin və C.Mid yalnız beynəlxalq ticarət və kapitalın beynəlmiləl hərəkəti nəzəriyyəsindəki yenilikləri ilə fərqlənməmişlər. Vurğulanmalıdır ki, A.Marşall tərəfindən əsası qoyulmuş neoklassik məktəb (*neoklassik nəzəriyyənin*) iqtisadi təhlil metodunu kökündən dəyişdirən "marjinal inqilab"ın nəticəsi olaraq XIX əsrin 70-ci illərində meydana çıxmışdır. Son faydalılıq və son məhsuldarlıq konsepsiyalarının yaranması neoklassik məktəbin mükəmməl rəqabət sferasında bazar sahibkarlığı təsərrüfatının nəzəriyyəsinin işlənməsinə zəmin olmuşdur. Xüsusən, azad rəqabət və qiymət yaranışı mexanizmlərinin təkmilləşən xətti neoklassiklərə fərdi və ictimai tarazlıq konsepsiyasını formalaşdırmaq imkanı vermişdir. Neoklassik məktəb XX əsrin 30-cu illərinə qədər iqtisadi nəzəriyyədə və praktikada hakim mövqedə dayanmışdır. Onun görkəmli nümayəndələri sırasına A.Marşallla yanaşı, ingilis iqtisadçılar Vilyam Stenli Cevons (*1835-1932*) və Artur Semsil Piqu (*1877-1959*), fransız iqtisadçı Mari Espiri Leon Varlas (*1834-1910*), amerikalı iqtisadçılar Con Beyts Klark (*1847-1938*) və İrvin Fişer (*1867-1947*) daxildirlər. Sonrakı mərhələdə Nobel laureatları B.Ulin, A.Lüis və C.Debre onun fəal ardıcılları olmuşlar.

B.Ulinin tədqiqatlarında mərkəzi yeri görkəmli İsveç iqtisadçısı Eli Filip Hekşerin (*1879-1952*) 1919-cu ildə yerinə yetirdiyi "ticarətin gəlirlərə təsiri" tədqiqatına əsaslanan məşhur "Hekşer-Ulin" modeli tutur. Onun bu modeli beynəlxalq ticarət nəzəriyyəsi ilə ümumi tarazlıq nəzəriyyəsini birləşdirərək ticarətin gəlirlərə və onların bölgüsünə təsirini izah edən struktur əsas yaratmışdır. Hekşer və Ulinin nəzəriyyəsinə görə, hər bir ölkənin kapital və əmək amili beynəlxalq ticarətdə iştirakçıdan asılı olaraq qiymət nisbətində müxtəliflik yaratmağı şərtləndirir. Kapitalın qiyməti faiz dərəcəsində, əməyin qiyməti isə əməkhaqqında əks olunur. Əməyin və kapitalın müqayisəli qiymətlərinin səviyyəsi kapital artıqlığı olan ölkələrdə əmək ehtiyatları və kapital defisiti olanlara nisbətdə aşağıdır. Bu hal eyni malın müqayisəli qiymətlərinin müxtəlifliyinə səbəb olur və bundan irəli gələrək, hər bir ölkə nisbətən daha çox faktorlar tələb edən əmtəə istehsalını ixtisaslaşdırmağa çalışır. Ticarətin beynəlmiləlləşməsinin təsiri altında dünya mal dövriyyəsində iştirak edən əmtəələrin müqayisəli qiymətləri eyniləşməyə meyl edirlər. Bu isə həmin əmtəələrin yaradılmasında istifadə edilən istehsal faktorlarının qiymət nisbətinin bərabərləşməsi ilə müşayiət olunur. Bu reallığı əsas götürən Hekşer-Ulin-Samuelson teoreminə görə, xarici ticarətə qoşulmadıqda əmək və kapitalın qiyməti hər ölkədə fərqlənəcək, izafi faktorun qiyməti nisbətən kiçik, defisitli faktorun qiyməti nisbətən yüksək olacaqdır. Hekşer-Ulin nəzəriyyəsi müəyyən qədər mübahisə doğursa da, geniş praktik tətbiqini almışdır. O, bir çox dövlətlərin xarici ticarət strategiyasının formalaşmasında istifadə edilmişdir. B.Ulinin apadığı tədqiqatlar ABŞ iqtisadçıları Volfhanq Stolper (*1912-2002*) və P.Samuelson tərəfindən işlənmiş "amil - qiymət nisbətini uzlaşdırmaq teoremi"nin yaranışına rəvac vermişdir. Bu nəzəriyyəyə görə, xarici ticarət müxtəlif ölkələrdə istehsalın qiymət amillərinin bir

səviyyəyə qaldırılması meyllərini təyin edir. Çəkilən misalın davamı olaraq: Avstraliya əmtəələrinin İngiltərə əmtəələri ilə mübadiləsi Avstraliyada torpağın qiymətinin bahalaşmasına, İngiltərədə isə əməkhaqqının aşağı düşməsinə səbəb olacaq. Hər iki ölkədə torpaq və əməkhaqqının qiymət bərabərliyi əldə edilənə qədər ticari axınlar artmaqda davam edəcəkdir. B.Ulinin nəzəriyyəsinin praktiki tətbiqi göstərir ki, tariflər və digər ticari məhdudiyyətlər gəlirlərin bölgüsünə neqativ təsir göstərir və istehsal amillərinin bir səviyyəyə qalxmasını əngəlləyir.

B.Ulin, həmçinin istehsal texnologiyalarının eyni olmasına baxmayaraq, gəlirlər amilinin fərqli nisbi qiymətlərdə müxtəlifliyi şərtləndirəcəyi kontekstdə, beynəlxalq ticarətin "gəlir amilləri" (*torpaq, əmək və kapital təklifinin nisbi müxtəlifliyi*) müxtəlif olan ölkələr arasında, yaranışı vəziyyətinə əks olaraq, özünün əmtəə axınları istiqamətinin nisbiliyi nəzəriyyəsini əsaslandırmışdır. O, belə bir fikir irəli sürmüşdür ki, ölkələr daxildə ticarətin olmaması və ya məhdudluğu ilə bağlı o əmtəələri ixrac edəcəklər ki, onlar nisbi ucuz və yenə də ticarətin olmaması ilə bağlı o əmtəələri idxal edəcəklər ki, onlar daxildə nisbi bahadırlar. Buna misal olaraq, Avstraliyanın geniş torpaqtutumlu olması ilə bağlı "torpaqintensivli" məhsulları (*yun, ət və s.*), bol işçi qüvvəsinə malik İngiltərənin isə "əməkintensivli" məhsulları (*tekstil məmulatlar*) ixrac etdiyi göstərilir.

C.Mid milli gəlirin hesablanması və bölgüsü, məşğulluq problemləri, beynəlxalq ticarət, tariflər və gömrük ittifaqı, qiymətqoyma, vergiqoyma sahəsindəki tədqiqatları ilə məşhurdur. O, həm də "staqflyasiya" nəzəriyyəsinin banisi, beynəlxalq makroiqtisadi nəzəriyyənin və beynəlxalq iqtisadi siyasətin işlənməsi prioritetlərinin müəllifi kimi də tanınır. C.Mid, eyni zamanda, beynəlxalq ticarət nəzəriyyəsini ilk işləyənlərdən biridir. Bununla bağlı o, "Tədiyyə balansı" əsərində həmin istiqamətdə aparılan

siyasət üçün müvafiq model təklif etmişdir. Bu modelə görə, aparılan siyasətdə iki məqsədə: daxili balanslaşmaya (*tam məşğulluq*) və xarici balanlaşmaya (*tədiyə balansının tarazlığı*) nail olunur. C.Midin milli gəlir, məşğulluq problemləri, tariflər və gömrük ittifaqı, qiymətqoyma, vergiqoyma sahəsindəki tədqiqatları da xüsusi önəm daşıyır. C.Mid təhsil sisteminə töhfə sayılan "İqtisadi təhlil və siyasətə giriş" dərsliyinin müəllifi kimi də məşhurdur. Özünün elmi fəaliyyətinin ilk çağlarında C.Midin maraq dairəsinə səmərəliliklə bərabərlik balansı daxil idi. II Dünya müharibəsi bitdikdən sonra isə o, azad bazar sisteminin səmərəliliyini dəstəkləyən və Britaniya hökuməti tərəfindən həyata keçirilən dövlət tənzimlənməsinin tənqidinə həsr olunmuş kitab yazmışdır. Bununla belə, o, həm də kapitalist sisteminin mənfi iqtisadi nəticələrini görmüş və bütün bu təzadlardan çıxış edərək təkrarən söyləmişdir: "Mənim qəlbim sollara, beynim isə sağlara məxsusdur". C.Mid gömrük ittifaqının yaranışı problemlərinin də müxtəlif aspektlərini təhlil etmişdir. Onun bu sferaya töhfəsi birinci gömrük ittifaqları çərçivəsində baş verən qiymət dəyişiklikləri ilə bağlı tələb olunan əmtəələrin kəmiyyət dəyişikliklərinin faydalılıq və zərərlilik baxımından kompleks təhlili olmuşdur. İkincisi isə o, problemi ümumi tarazlıq nəzəriyyəsi çərçivəsində terminoloji formalaşdırmış və onu gömrük ittifaqına daxil olmayan ölkələrin (*yəni tam dünya iqtisadiyyatı üçün*) rifahına təsir nöqteyi-nəzərindən təhlil etmişdir.

1978-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı qazanmış H.Saymon istehlakçının psixologiyasının öyrənilməsinə və alıcı davranışının motivasiyasına istinad edən biheviorİstik (*ingilsicə - behavior - davranış*) marketinq məktəbinin görkəmli nümayəndəsidir. O, işlərində davranış xarakteri və prinsiplərini ayrıca istehlakçı çevrəsində deyil, bütöv təşkilat baxımından tədqiq etmiş, bazarda təşkilatın müxtəlif cəhətli davranışlarını

əmtəələrin bölgüsü kanallarına bağlamışdır. Klassik iqtisadi nəzəriyyədə firmanın əsas məqsədinin mənfəətin maksimallaşdırılmasından ibarət olması fikrini rədd edən H.Saymon burada birinci yerdə onun qarşısında yaranan çətin problemlərin həlli üçün məqbul qərarların axtarışının dayandığını iddia etmişdir. Alimin "İnzibati davranış" adlı kitabı təşkilat və qərar qəbuletmə nəzəriyyəsində klassik əsər hesab edilir. "İnsan modelləri" əsərində isə o, əvvəlki fikirlərini inkişaf etdirərək, sübuta yetirmişdir ki, qərar qəbuletmənin klassik nəzəriyyəsinin çatışmayan mühüm elementi - informasiyaları emal edən və qərar qəbul edən insanların davranış və idrak keyfiyyətlərinin nəzərə alınmamasıdır. H.Saymon erudisiyalı bir insan olaraq, süni intellekt problemlərinin öyrənilməsi, informasiyaların emalı, problemlərin həlli, diqqət iqtisadiyyatı, elmi kəşfin kompüter modelləşməsi kimi zəmanəmizin bir neçə mühüm elm sahəsində yaradıcı fəaliyyət göstərmişdir. O, işlədilmək üçün ilk dəfə dövriyyəyə "məhdud rasionallıq" (*bounded rationality*), "satisfiksiya" (*satisficing*) kimi anlayışlar gətirmiş, birinci olaraq, mütəşəkkil mürəkkəbliyi təhlil etmiş və təmkin asılılığının bölgüsünü izah etmək üçün "güzəşt bağlılığı" (*preferential attachment*) mexanizmini təklif etmişdir.

1979-cu ildə iqtisadiyyat sahəsində Nobel mükafatı almış T.Şults və V.Lüis inkişaf etməkdə olan ölkələrin problemlərinin tədqiqində yenilikçi alimlərdən olmuşlar. Onlar həmçinin iqtisadi inkişafa dair mühüm tədqiqatlar yerinə yetirmiş, iqtisadiyyatın inkişafı nəzəriyyəsinə mühüm töhfələr vermişlər.

T.Şults kənd təsərrüfatı sahəsində ixtisaslaşmış aparıcı bir alim kimi tanınmışdır. Onun apardığı tədqiqatlar həmçinin dünya iqtisadiyyatında gedən sənayeləşmə siyasətinə əhəmiyyətli təsir göstərmişdir. T.Şults II Dünya müharibəsindən məğlub çıxaraq dağıntılar altında qalan Almaniyanın (*AFR*) və Yaponiyanın çox

sürətli bərpa prosesinin səbəblərini təhlil etmişdir. Qalib Britaniyada müharibədən sonrakı dövrdə hələ xeyli müddət qida kartoçkalarından istifadə edilməsi ilə bu inkişaf arasında müqayisələr aparmışdır. T.Şuls 1950-ci illərdə zəif inkişaf etmiş ölkələr üzrə iqtisadiyyatın bütün sektorlarını, xüsusən də kənd təssərrüfatını əhatə edən "Latın Amerikasına texniki yardım" layihəsi üzərində iş aparmış və bu tədqiqatlarını "insan kapitalı" adlandırmışdır. Bu konsepsiyaya görə, əhalinin təhsil səviyyəsini inkişaf üçün onun informasiya və texnologiyalardan istifadə bacarığı müəyyən edir. 1960-cı ildə "Siyasi iqtisad jurnalı"nda (*Journal of Political Economy*) dərc etdirdiyi "Təhsillə yaradılan kapital" əsərində T.Şults işçi qüvvəsinin dəyərləndirilməsinə təhsil müddətində itirilmiş zamanın xərclərini - təhsil xərclərini də daxil etmişdir. Onun fikrincə, sürətli bərpa prosesində səhiyyənin durumu və əhalinin təhsil səviyyəsinin yüksək olması həlledici rol oynamışdır. Təhsil insanları daha məhsuldar edir, yaxşı səhiyyə isə investisiyaları təhsil sferasında saxlayır. T.Şultsun insan kapitalı nəzəriyyəsi 1980-ci illərdə Bretton-Vuds beynəlxalq maliyyə sistemi institutlarının invesitisiyaların peşəkar və texniki təhsil sahəsinə yönəldilməsi motivasiyasının əsasında dayanmışdır. Mübahisəli olan və bəzən rədd edilən bu konsepsiya zaman-zaman müəyyən dəqiqləşdirmələrə məruz qalaraq, təsdiqini tapmışdır. Mahiyyətcə, T.Şults insan kapitalına dəyərlər verən inqilab banisi kimi şöhrət tapmışdır.

T.Şultsun nobelçi həmkarı, neoklassik məktəbin görkəmli nümayəndəsi V.Lüis 1950-ci illərdən başlayaraq, "üçüncü dünya"nın iqtisadi problemləri ilə dərindən məşğul olan iqtisadçılardandır. Bu, həm də ondan irəli gəlmişdir ki, II Dünya müharibəsinin bitməsi ilə bir çox Avropa müstəmləkələri müstəqillik əldə etmişlər. Bu hadisələr iqtisadçıların maraqlarını dünya iqtisadi terminologiyasında, müvafiq olaraq, "Şimal" ad-

landırılan inkişaf etmiş kapitalist ölkələrindən "Cənub" adlandırılan inkişaf etməkdə olan ölkələrin iqtisadi problemlərinin öyrənilməsinə yönəltmişdir. Həmin dövrlərdə bir sıra iqtisadçılar hesab edirdilər ki, inkişaf etməkdə olan ölkələr öz ənənəvi məhsullarının ixracından əldə etdikləri mənfəəti sürətli iqtisadi artım əldə etmək üçün sənaye sektoruna istiqamətləndirməlidirlər. Onların baxışları Qərbi Avropanın iqtisadiyyatının bərpası ilə bağlı o zaman həyata keçirilən "Marşall planı"nın uğurları ilə də praktiki təsdiqini tapırdı. V.Lüis isə tədqiqatları prosesində inkişaf etmiş ölkələr üçün "dual iqtisadiyyat" modeli işləyərək əks nəticəyə gəldi. O, müəyyən etdi ki, "üçüncü dünya" ölkələri izafi sayda savadlı olmayan kənd təsərrüfatı işçilərinə malikdirlər. Onlar müəyyən biliklər almaqla, nisbi istehsal xərcləri müqabilində, inkişaf etməkdə olan ticarət və emal sənayesi sektorlarına cəlb edilə bilərlər. Onun fikrincə, bu yolla alınan mənfəətlə "üçüncü dünya" ölkələri özlərinin tərəqqisi üçün zəruri olan yığım və kapital əldə edə bilərlər. Onun elmi tədqiqatları və yanaşmaları Qərbi Avropanın iqtisadiyyatının bərpası üzrə reallaşdırılan "Marşall planı"nın nəticələri ilə praktiki uzlaşma tapmışdır. Digər tərəfdən V.Lüisin nöqteyi-nəzərincə, "üçüncü dünya"ya "Marşall planı" deyil, nəsə digər bir proqram gərəklidir. Belə ki, xarici ticarət yoxsul ölkələrdə iqtisadi tərəqqinin mühərriki rolunda çıxış edə bilməz. O, həmçinin xarici investisiyalara da skeptik yanaşmışdır. Bununla belə, V.Lüis sənaye maliyyələşməsinə və insan kapitalının inkişafına səbəb olacaq təhsilə yüksək investisiya axınlarının cəlb edilməsini zəruri hesab etmişdir. Bütün bu model yanaşmalarını o, 1951-ci ildə Nobel mükafatı üzrə həmkarı T.Şultsun da iştirakı ilə hazırlanmış, BMT-yə təqdim edilən hesabatın bir hissəsi olaraq, "Kiçik gəlirləri olan ölkələrdə iqtisadi inkişaf" (*Economic development in low-income countries*) məruzəsində dərc etdirmişdir. 1955-ci ildə dərc etdir-

diyi "İqtisadi artım nəzəriyyəsi" (*Theory of economic growth*) əsəri ilə o, bu modeli bir qədər də təkmiləşdirmiş və genişləndirmişdir. V.Lüis ABŞ-da qara dərili əhalinin vəziyyətinə də böyük maraq göstərmişdir. O, bu vəziyyəti "üçüncü dünya" ölkələrindəki əhalinin vəziyyəti ilə oxşar hesab etmişdir. Buna görə də Amerika universitetlərində qara dərililər üçün xüsusi mühazirə kurslarının təşkil edilməsi məsələsini qaldırmışdır.

1980-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatını almış L.Kleyn də ekonometrik modellərin qurulması sahəsində tədqiqatlar yerinə yetirmiş, nüfuzlu iqtisadçılardandır. Onun tədqiqatları ekonometrika, iqtisadi fəallıq, statistika, tələb və əmanətlər, ayrı-ayrı ölkələrin statistik modellərinin vahid sistemə inteqrasiyasına həsr edilmişdir. L.Kleynin bu istiqamətlərdəki tədqiqatları bütün dünyada ekonometrik modellərin işlənməsinə təsir göstərmişdir. O, "digər nəsil" (*LSEM modelləri*) dünyasının iqtisadi və riyazi modellərini inkişaf etdirən aparıcı mütəxəssislərdən biridir. LSEM modeli qlobal iqtisadiyyatı və ya müəyyən bir bölgənin iqtisadiyyatını təsvir etmək üçün hərtərəfli ekonometrik tənliklər sistemidir. O, həmçinin iqtisadi tsikllər və bunların iqtisadi siyasətlərə uyğunlaşdırılması sahəsində olan tədqiqatları ilə də tanınmışdır. 1960-cı illərin sonundan başlayaraq isə L.Kleynin təşəbbüsü ilə bir sıra ölkələr üzrə BMT tərəfindən dəstəklənən iqtisadi inkişaf modellərinin işlənilməsinə başlanılmışdı. Bu tədqiqatlar müxtəlif ölkələrdə neftin qiymətinin inflyasiya, məşğulluq və ticarət balansına təsirinə yönəlmişdi. Empirik makroiqtisadi tədqiqatlar sayəsində bu layihə yeni perspektivlər açaraq böyük nəzəri və praktiki əhəmiyyətə malik olmuş və bir çox ölkələrdə müvafiq ekonometrik modellərin yaradılmasını stimullaşdırmışdır. L.Kleyn bu tədqiqatlara başladıqdan sonra 40 il ərzində dünyada işgüzar fəallıq titrəyişlərinin ekonometrik modellərinin yaradılması və təhlili sahəsində aparıcı

alim kimi tanınmışdır. Onun daha mühüm nailiyyətləri sırasına, həmçinin, ümumi keynsçi modelin statistik formaya çevrilməsi daxildir. L.Kleyn tərəfindən yaradılan model, I Dünya müharibəsi ilə bağlı olduğu kimi, II Dünya müharibəsindən sonra da Amerika iqtisadiyyatının depressiyaya uğrayacağı barədə baxışların əksinə yönəlmişdir. Həqiqətən də, Amerika iqtisadiyyatı duruş gətirdi və L.Kleynin proqnozu özünü doğrultdu. Bu, ordudan tərxis olunanların alıcılıq qabiliyyəti hesabına istehlak mallarına tələbatın artması sayəsində baş verdi. L.Kleyn yetirməsi, tanınmış amerikalı iqtisadçı Artur Stenli Holdberqerlə (*1930-2009*) birlikdə "Kleyn-Holdberq" adlanan Amerika iqtisadi modelinin müəllifidir. 20 səviyyəni əhatə edən modeldə Keyns iqtisadi nəzəriyyəsinə xas olan istehlak tələbi dominant mövqedə dayanır. Bu model indi də aktuallığını itirməmişdir. L.Kleyn "Qloballaşma: milli iqtisadiyyatlara çağırış" əsərində qeyd edir: "Bir sıra ölkələr iqtisadi inkişafın müxtəlif mərhələlərində olduqlarından industrial təsisatların xarakterliliyi və prioritetlər baxımından fərqlənirlər. Buna görə də onlar "açıq qapı siyasəti"ni birdən və bərabər ölçüdə aparmamalıdırlar. Bununla belə, qloballaşmanın gücünə sonsuz olaraq müqavimət də göstərilməməlidir. Vacibdir ki, prosesin idarə edilməsi mütəmadi olaraq öyrənilsin və iqtisadiyyat onun məcrasına yönəlsin".

1981-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı almış C.Tobin maliyyə bazarları, məşğulluq, istehsal və qiymətlərlə bağlı münasibətlərin təhlili üzrə tədqiqatları ilə tanınmışdır. Onun 1970-ci illərin əvvələrində xarici valyuta əməliyyatlarının vergiyə cəlb edilməsi ilə əlaqədar verdiyi təklif yeni tədqiqatların aparılmasına səbəb olmuşdur. Alimin fikrincə, əgər bu vergi yükü 0,1-0,25 faiz aralıqda təsbit olunarsa, onda bu transsərhəd valyuta spekulyasiyasının məhdudlaşdırılmasına, əməliyyatların əksər hissəsinin faydasız olmasına gətirib çıxaracaqdır. Nəticədə on-

ların mənfi təsiri, xüsusən də, inkişaf etmiş ölkələr üçün azalacaqdır. C.Tobinin hesablamalarına görə, bu vergilər ildə 150 milyard ABŞ dolları həcmində gəlir gətirə bilər və həmin məbləği isə BVF ilə milli banklar arasında bölüşdürmək olar. Bu təklifin inkişaf etməkdə olan ölkələrdə çoxlu tərəfdarı vardır. C.Tobindən fərqli olaraq onlar bu vergidən iqtisadi geriliyi olan ölkələrdə bərabərsizliklə, yoxsulluqla mübarizədə, təhsil və səhiyyənin inkişafında istifadə etməyi təklif edirlər. Əksər neoliberallar isə təklifə son dərəcə kəskin mövqe nümayiş etdirirlər. Onlar hesab edirlər ki, belə vergi tətbiq edənlər xarici aləmdən təcrid olunacaq və onların iqtisadi geriliyi daha da dərinləşəcəkdir.

C.Tobin "portfel investisiyaları" (*portfolio theory*) konsepsiyasının müəllifi kimi də tanınır. O, hesab edir ki, hər bir investor gəlir səviyyəsi və onun itirilməsi riski arasında seçim etdikdə bu meyarı bütün maliyyə və real aktivlər spektrinə aid edir. Hər bir situasiyada müqabil optimal aktivlər portfeli strukturu olur. Dövlətin maliyyə-kredit və büdcə siyasəti aktiv strukturun seçiminə təsir edir. Bu reallıq, eyni zamanda, iqtisadi sistemin real dəyişkənlərinə - investisiyalara, əmanətlərə və istehlaka da təsir göstərir. İqtisadi proseslərin və onların hökumətin mümkün iqtisadi siyasətinə təsirinin təhlili baxımdan C.Tobin bu "portfel yanaşmasını" müasir neoklassik nəzəriyyə (*monetarizm də daxil olmaqla*) ilə qarşı-qarşıya qoyaraq dövlətin makroiqtisadi siyasətinin qeyri-səmərəliliyini göstərir.

C.Tobinin elmi yaradıcılığında iqtisadi konyukturadan asılı olaraq əməkhaqqının dəyişməsi problemlərinə də geniş yer verilmişdir. O, sübut etmişdir ki, mərkəzi bankın istənilən əməliyyatı, sadəcə olaraq, pul vahidinin məzmununu dəyişmir (*nominal effekt*), həm də bütün real parametrlərə - faiz dərəcələrinə, mübadilə kursuna, əmanətlərə, investisiyalara və inflyasiya gözləntilərinə toxunur.

C.Tobin düşünür ki, həyat son dərəcə dəyişkən və mürəkkəbdir. Hər an baş verən pozuntular və onların yaratdıqları effektlər haqqında yeni informasiyalar meydana çıxır. Ona görə də, monetaristlərin güman etdikləri kimi, siyasətdə möhkəmlənmiş oriyentir və qaydalara daim istinad etmək olmaz. Oriyentir və alətlər fundamental məqsədlərə nail olma maraqlarından irəli gələrək, dəyişikliklərə məruz qalmalıdırlar. O, hesab edir ki, müasir makroiqtisadi siyasətdə ən ciddi problem sürətlənməyən inflyasiya templərinə sığınan işsizlik səviyyəsinə nail olmadadır. (*NAIRU-non - accelerating inflation rate of unemployment*).

1982-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülən C.Stiqler sənaye strukturlarının, bazarların funksionallığı, dövlət tənzimlənməsinin səbəb və nəticələri istiqamətindəki yenilikçi tədqiqatları ilə tanınır. C.Stiqler 1949-cu ildə tanınmış amerikalı iqtisadçı, Harvard Sənaye Təşkilatı Məktəbinin nümayəndəsi Eduard Çemberlenin (*1899-1967*) "inhisarçı rəqabət" doktrinasına qarşı tənqidi çıxışlar etmişdir. O, E.Çemberlenin bu nəzəriyyəsinin tanınmasına baxmayaraq, onun müvafiq istiqamətdə proqnozlaşmaya az yararlı olduğunu iddia etmişdir. Özünün 1951-ci ildə "Əmək bölgüsü bazar ölçüləri ilə məhdudlaşır" adlı oçerkində Adam Smitin müvafiq tədqiqatlarını "firmanın ölçüləri nəqliyyat xərcləri və əhali sıxlığı ilə məhdudlaşır" mülahizələri ilə inkişaf etdirmişdir. Digər bir oçerkində - "İqtisadiyyat istehsal miqyaslarında" (*1958*) iqtisad elmində "sənaye təşkilatı" nəzəriyyəsinin ayrılmaz elementinə çevrilmiş "yaşama prinsipi"ni gətirmişdir. C.Stiqler texnologiyaların və bazar situasiyasının dəyişməsi fonunda istehsal sferasında qalmaq, yaşamını təmin etmək üçün müəssisənin mümkün kiçik ölçülərini (*istehsal məhsulu vahidi və ya məşğul işçi qüvvəsi ilə ölçülən*) şərtləndirən "səmərəliliyin minimal miqyasını" müəyyən etmişdir.

1960-cı illərdə C.Stiqler "sahələrin təşkili" nəzəriyyəsinin - təmərküzləşmə, satıcı və alıcı, məhsul diferensiasiyası, struktur məsrəflər, çıxış baryerləri nöqteyi- nəzərindən bazar quruluşunun öyrənilməsinə daha çox maraq göstərməyə başlamış və bu istiqamətdə fərqli empirik material və tədqiqatlarla çıxış etmişdir. Sonrakı dövrlərdə C.Stiqler yenə də, əsaslı olaraq, "sənaye təşkilatı" nəzəriyyəsinin işlənməsi istiqamətindəki tədqiqatlarını davam etdirmişdir. 1964-cü ildə yazdığı "Oliqopoliya nəzəriyyəsi" əsərində o, təhrik olunan gizli sazişlərin kartellərin uğurlarını necə məhdudlaşdırdığını göstərmişdir. Bu tədqiqatın nəticələri 1980-ci illərdə OPEK-də anoloji problemlərin ortaya çıxmasında öz təsdiqini tapmışdır.

C.Stiqler digər görkəmli iqtisadçı müasirlərindən fərqli olaraq tədqiqatlarında riyaziyyatdan istifadədən çəkinmiş, daha çox aydın, eleqant və erudik ifadəliliyə əsaslanan ədəbi üsluba üstünlük vermişdir. Onun üçün aydın və sadə iqtisadi nəzəriyyə empirik tədqiqatlar üzrə hipotezlərin yoxlanılmasında zəruri bir əsas kimi təyinat tapmışdır.

C.Stiqler həm də keçmiş iqtisadçı-nəzəriyyəçilərin ideyaları, tədqiqatları və talelərinin şərhi sahəsində dünya avtoriteti kimi tanınmışdır. O, həmçinin bu ideyaların ictimai fəaliyyətə keçirilməsi bacarığı ilə də məşhurlaşmışdır.

1983-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatını neoklassik məktəbin görkəmli nümayəndəsi C.Debre almışdır. Qeyd olunmalıdır ki, yekcins olmayan neoklassik məktəb nümayəndələri, klassiklərdən fərqli olaraq, iqtisadiyyatın dövlət tənzimləməsinin zəruriliyini inkar etmirlər. Lakin bunun məhdudlaşdırılmasının vacibliyinə inanırlar. Həmin məktəbi təmsil edən iqtisadçılar maraq dairələri ilə də fərqlidirlər. Onlar iqtisadi reallıq təhlilinə fərqli metodlar və yanaşmalar tətbiq edirlər. Neoklassik məktəbin əlamətdar xüsusiyyəti ondan ibarətdir ki, burada yalnız

təsviri material kimi deyil, həm də nəzəri təhlil üçün bir vasitə olan qrafiklərdən, sxemlər və iqtisadi modellərdən geniş istifadə edilir. C.Debre də neoklassik məktəbdə ümumi tarazlıq nəzəriyyəsi üzrə görkəmli iqtisadçılardandır. O, A.Smit və L.Varlasın müvafiq tədqiqatlarını incəliklərinə qədər tədqiq etmişdir. C.Debre ümumi tarazlıq nəzəriyyəsinin bir sıra mühüm suallarına cavab vermişdir. O, bazar iqtisadiyyatının “görünməz əl”in allokasion effekt[6] yaratdığı bütün mümkün şərtləri bir araya gətirmiş, dayanıqlı tarazlıq problemini dərindən təhlil edərək öyrənmişdir. Bu sahədəki tədqiqatlarının nəticəsi kimi C.Debre qlobal iqtisadi sistemdə bazar tarazlığının stabillik əldə etməsini bazarda çoxsaylı agentlərin mövcudluğu şəraiti ilə bağlamışdır. Onun məşhur “Dəyər nəzəriyyəsi: iqtisadi tarazlığın aksiomatik təhlili” adlı kitabı özünün universiallığı, ifadəetmə üslubu və riyazi qətiyyətliliyi ilə fərqlənərək XX əsrin mühüm klassik iqtisadi əsərləri sırasında yer almışdır. C.Debre böyük səmərəliliklə müəyyən vergiqoyma siyasəti nəticəsində rifah halı səviyyəsinin aşağı düşməsi kimi çətin praktiki problemlərin öyrənilməsində riyazi alətlərdən istifadə etmişdir. Onun özü və həmkarları tərəfindən tətbiq edilən aksiomatik metod iqtisadi təhlildə standart alətə çevrilmişdir. 1950-ci illərdə bu metoddan ümumi tarazlıq, faydalılıq və istehsal nəzəriyyələrində geniş istifadə olunmuşdur. 1980-ci illərdə isə həmin metodlar makroiqtisadi təhlil, sənaye təşkilatlarının öyrənilməsi, ictimai maliyyə və digər bu kimi istiqamətlərdə istifadəyə götürülmüşdür.

C.Debrenin məşhur mühazirələri özünün riyazi ciddiliyi və faktiki olaraq, sözlü izahatların olmaması ilə fərqlənmişdir. Yüksək mücərrəd fikirli, mürəkkəb riyazi aparatlı bu tədqiqatlar çox

[6] Allokasion effekt - allokasion səmərəlilik (*ingiliscə - allocation effect - yerləşdirmə effekti*) bölgü effekti - resurslardan effektivli istifadə kombinasiyası əsasında minimal məsrəfləri təmin edən rasional strukturlu məhsul istehsalı.

zaman iqtisadçılar tərəfindən asan anlaşılmamışdır. Bütün bunlara baxmayaraq, onun əsərləri iqtisad elminin davamlı irəliləyişinə rəvac vermişdir. O, bir çox həmkarlarından fərqli olaraq sənayedə və ya dövlətdə işləmək təkliflərini qəbul etməmiş, Berklidə sakit həyat tərzi keçirmişdir.

1984-cu ildə iqtisadiyyat sahəsində Nobel mükafatı almış R.Stoun milli hesablar sisteminin yaradılması sahəsində bir çox ilklərə imza atmışdır. “Stounun milli hesablar sistemi” ilk dəfə 1953-cü ildə BMT-nin Statistika şöbəsi tərəfindən dərc edilmişdir. Bu sistem, sadəcə olaraq, yalnız milli gəlirin tərkib hissələrini ekonometrik ölçülərdə özündə birləşdirən cədvəllər sırası deyil, həm də hər bir xərc növünə uyğun gələn gəlirlər fonunda qarşılıqlı uzlaşmanı əks etdirən ikiqat mühasibatlıq şəbəkəsidir. Onun milli hesablar siteminin standartlaşmasının yaradılması ilə bağlı işləri müxtəlif variasiyalarda iki sonrakı onilliyi də əhatə etmişdir. R.Stounun çoxsaylı məqalə və məruzələri maliyyəyə, istehlak davranışlarının empirik təhlilinə həsr olunmuşdur. Bu təhlillərin ümumiləşməsi onun müştərək işləmiş olduğu “İstehlak xərclərinin ölçülməsi və istehlakçıların 1920-1938-ci illərdə Birləşmiş Krallıqda davranışı” (*The measurement of consumers expenditure and behaviour in the United Kingdom, 1920-1938, 1954-1966*) adlı əsərində öz dolğun əksini tapmışdır. Mahiyyətcə, bu, istehlak funksiyasının təhlili əsasında ilk tədqiqat olmuşdur. 1960-cı illərdə R.Stoun əvvəlki tədqiqatları ilə yanaşı, əmanətlər probleminin və həmçinin, əmanətçilər qismində fərdlərin davranışlarına təsir edən amillərin təhlili işlərinə qatılmışdır. O, uzun illər sosial hesablar matrisasını tələb və istehsal bərabərliyi ilə birləşdirən artımın Kembric modelinin yaradılması sahəsindəki araşdırmalara rəhbərlik etmişdir. Bu model hökumətin iqtisadi siyasətinin hazırlanmasında istifadə üçün nəzərdə tutulmuşdur.

1985-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq

görülmüş F.Modilyani mikro və makroiqtisadi nəzəriyyənin müxtəlif aspektlərinin və əmanətlərə münasibətlərdə insanların davranışlarının təhlili ilə iqtisad elminə böyük töhfələr vermişdir. Onun mikroiqtisadiyyat sahəsindəki araşdırmaları daha çox kapital nəzəriyyəsi, kapital qoyuluşlarının maliyyələşməsi, kapitalın struktutu ilə bağlı istiqamətləri əhatə etmişdir. F.Modilyaninin bu sahədəki tədqiqatları iqtisadi ədəbiyyatlarda "Kapitalın dəyəri haqqında Modilyani-Miller teoremi" kimi məşhurdur. O, keynsçi tədqiqatların davamçısı olaraq bu istiqamətdə də nəzəriyyənin inkişafında xidmətlər göstərmişdir. 1980-1990-cı illərdə F.Modilyani keynsçi və monetar nəzəriyyənin uzlaşdırılmasına böyük diqqət yetirmişdir. Onun fikrincə, keynsçilərlə monetaristlər arasında əsas fərq təkcə pulun roluna münasibətdə deyildir. Burada başlıca cəhət odur ki, "neomonetaristlər etiraf edirlər ki, bazar iqtisadiyyatı məcmu məhsulun, işsizliyin və qiymətin dəyişkənliklərinə bağlıdır. Buna görə də onlar korrektə oluna bilər və korrektə olunmalıdırlar". Daha yəqini isə bu istiqamətlər üzrə fərq fəlsəfi əsaslarda - iqtisadiyyatın dövlət tənzimlənməsi imkanlarına olan münasibətlərdədir. F.Modilyani isbatlayır ki, müasir kapitalist iqtisadiyyatının xarici şoklara daha dayanıqlı olmasına baxmayaraq, o, böhrandan çıxışlarda tarazlığın tez bərpa olunmasında yetərli işlək mexanizmə malik deyildir.

Qeyd olunmalıdır ki, bütün bunlarla yanaşı, F.Modilyani Federal Ehtiyatlar Sisteminin sifarişləri əsasında ABŞ-ın yeni iqtisadi modelinin işlənməsində aktiv iştirak etmişdir. O, həmçinin müxtəlif təyinatlı dövlət və özəl layihələrin hazırlanmasında səmərəli elmi fəaliyyəti ilə də fərqlənmişdir. Keynsin "istehlakçının funksiyası" nəzəriyyəsini təkmilləşdirməyi qarşıya məqsəd qoyaraq F.Modilyani ayrılıqda hər bir fərdin makroiqtisadi davranışı üzrə məntiqi baza düşünmüş və onu yaratmışdır. Onu daha məşhurlaşdıran şəxsi əmanətlərin yaranışı ilə bağlı "həyat tsikli"

modeli olmuşdur. Burada o, təsdiq etmişdir ki, əmanətlər üzrə əsas prinsip daimi həyat standartının cəlbediciliyinin saxlanılması imkanlarına malik olmaqdır.

1986-cı ildə iqtisadiyyat sahəsində Nobel mükafatına almış C.Bükenen konstitusiya iqtisadiyyatının[7] banisi və yeni siyasi iqtisad məktəbinin yaradıcılarından biri kimi tanınır. C.Bükenenə görə, konstitusionalizm etikası konstitusiya quruluşunun əsas məsələsidir. Burada fərd, əsas davranış qaydası kimi, mənəvi qanuna əsaslanaraq bütün həmvətənləri ilə birlikdə məsuliyyət daşıyır. Konstitusiya iqtisadiyyatının başlıca məsələsi mülkiyyət və ondan irəli gələn münasibətlərdə bərqərar olur. Mülkiyyət münasibətlərinin həll aspektinin düzülüşü yalnız hüquqi konfiqurasiyadan deyil, bütövlükdə iqtisadi sistemin təbiətindən irəli gəlir. Burada milli mental dəyərlər əsas təməl sütunlarını təşkil edir. Dövlətin konstitusiya düzümü fonunda ideoloji faktorların yetərliyi və mövcudluğu da istisna olunmur. Konstitusiya iqtisadiyyatı da, başlıca olaraq, sosial ədalət prinsiplərini rəhbər tutur. Sosial ədalət prinsipləri əksər ölkələrin konstitusiyalarında təsbit edilsə də, hər bir ölkədə ümumi və əlahiddə fenomenallıqla müşayiət olunur. Lakin onun həqiqi və həyati yaşayışlı reallığı və tamlığı demokratik quruluşlu inkişaf etmiş dövlətlərin əsas yaşayış prinsipləri sırasındadır. Konstitusiya iqtisadiyyatının bərqərar olması deklorativ səciyyə daşımır. Onun işlək mexanizminin formalaşması və dövriyyəsi dövləti idarəetmənin bir sıra qolları və alətləri ilə ərsəyə yetir, tənzimlənir və təkmilləşdirilir.

---

[7]Konstitusiya iqtisadiyyati (*ingiliscə - constitutional economics - konstitusiya iqtisadiyyatı*) konstitusiyada zəmanəti verilən iqtisadi və sosial hüquqlara, həmçinin iqtisadiyyatın strukturu və işləməsi arasındakı qarşılıqlı əlaqəli problemlər toxunan məsələlərdən irəli gələn dövlət qərarlarının qəbul olunmasında hüquqi və iqtisadi amillərin qarşılıqlı təsirini təsvir və təhlil etmək, iqtisadiyyatla və konstitusionalizmin kəsişməsində elmi və praktik istiqamət.

Büdcə problemləri, qərar qəbuletmənin siyasi-hüquqi əsaslarının işlənməsi onun əsas tədqiqatlarını təşkil edir. C.Bükenen "ictimai seçim" nəzəriyyəsi və politologiyaya aid olan ənənəvi sferalarda iqtisadi metodların tətbiqini tədqiq edən görkəmli alim kimi də dünya şöhrəti qazanmışdır. "İctimai seçim" nəzəriyyəsi ayrı-ayrı fərdlərin seçici və ya vergi ödəyiciləri, lobbistlər və ya siyasi xadimliyə namizədlər, seçilmiş siyasətçilər və ya siyasi partiya üzvləri, bürokratlar və ya hökumət rəhbərləri və hakimlər kimi davranışının bütövlükdə siyasi birliyin vəziyyətinə təsirini proqnozlaşdırmağa cəhd edir. İqtisadi nəzəriyyə isə, əksinə, ayrı-ayrı fərdlərin davranışını onların alıcı və ya satıcılar, istehsalçılar və ya fəhlələr, investorlar və ya sahibkarlar kimi iqtisadi rolunda, bütövlükdə iqtisadiyyat səviyyəsində təzahür edən nəticələri ilə əlaqələndirməyə yönəlir.

Siyasi mübadiləni öyrənərkən, C.Bükenen ictimai seçimin iki konseptual fərqli səviyyəsini - seçimin ilkin konstitusiya səviyyəsini (*konstitusiya qəbul olunana qədərki*) və postkonstitusiya səviyyəsini ayırır. İkinci səviyyənin tədqiqi siyasi təsisatların iqtisadi siyasətinin işlənməsini nəzərdə tutursa, birinci səviyyənin tədqiqi konstitusiyanın iqtisadi nəzəriyyəsinin işlənməsini əhatə edir. İki seçim səviyyəsi arasında fərq insanların oyun zamanı etdikləri seçimə oxşar kimi meydana çıxa bilər. Əvvəl oyunun qaydaları seçilir, sonra bu qaydalar çərçivəsində oyunun strategiyası müəyyənləşdirilir. Ümumi şəkildə konstitusiya siyasi oyun üçün qaydalar toplusu kimi təqdim edilə bilər.

İsveç Kral Elmlər Akademiyasının fikrincə, "C.Bükenenin başlıca nailiyyəti ondan ibarətdir ki, o, daim və inadla əsaslı qaydaların əhəmiyyətini vurğulamış və qarşılıqlı faydaya nail olmaq məqsədilə siyasi sistem konsepsiyasını mübadilə prosesi kimi tətbiq etmişdir".

1987-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatını almış

R.Solou iqtisadi artım nəzəriyyəsində fundamental tədqiqatların müəllifidir. O, həmçinin artımın müxtəlif amillərinin müqayisəli öyrənilməsi, iqtisadi inkişafa texnoloji kəşflərin təsiri, urbanizasiya, məşğulluq, yerdən istifadə problemləri üzrə də ətraflı tədqiqatlar aparmışdır. İqtisadi artımın R.Solou tərəfindən yaradılmış neoklassik modeli müasir makroiqtisadi nəzəriyyənin işlənib hazırlanması üçün əsas olmuşdur. R.Solou milli məhsulun artımında müxtəlif istehsal amillərinin rolunun empirik qiymətlərini vermişdir. Onun təhlilləri göstərmişdir ki, uzun zaman kəsiyində götürülmüş bütün texniki təkmilləşdirmələr müəyyən mənada "neytraldır", belə ki, onlar əməkhaqqının həcmi ilə kapital olan gəlir arasında milli məhsulun artımının bölüşdürülməsinə təsir göstərməmişdir. R.Solou belə bir nəticəyə gəlmişdir ki, məhsulun başlanğıc artımının yalnız kiçik payı əmək və kapitalın artan xərcləri ilə izah edilə bilər. O, sübut etmişdir ki, 1909-cu ildən 1949-cu ilə qədər olan dövrdə Amerika iqtisadiyyatının artımının 7/8 hissəsini texniki tərəqqiyə və yalnız 1/8 hissəsini kapital qoyuluşlarına aid etmək olar. R.Solou aktual iqtisadi problemlərlə yanaşı, iqtisadi nəzəriyyənin başqa sahələrinə də zəngin töhfələr vermişdir.

1988-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı almış M.Alle bazarlar nəzəriyyəsi və resursların səmərəli istifadəsi sahəsində yenilikçi töhfələri ilə fərqlənmişdir. O, Fransa marjinalist məktəbinin banisi kimi digər nəzəriyyə və konsepsiyaların - tarazlıq və ictimai optimumun ümumi nəzəriyyəsi, iqtisadi artım nəzəriyyəsi və maksimum effektivlik nəzəriyyəsi, bölgü nəzəriyyəsi, pul nəzəriyyəsi və seçim nəzəriyyəsi, "Ekvivalentlik teoremi", "Alle paradoksu" və iri dövlət inhisarları üçün rəqabət planlaşdırılması konsepsiyasının da müəllifidir. Onun ekonometrik işləmələri, tətbiqi iqtisadiyyat-idarəetmə, gəlirin və vergiqoymanın bölüşdürülməsi, monetar siyasət, energetikanın,

nəqliyyatın və hasilat sənayesinin iqtisadiyyatı sahələrində tədqiqatları, həmçinin, ümumi bazar ölkələrinin poladtökmə və kömür sənayesində rəqabətin təsiri haqqındakı araşdırmaları və bu sənaye sahələrində effektivliyin yüksəldilməsi üzrə tövsiyələri 1960-1970-ci illərdə Fransa hökumətinin iqtisadi siyasətinə böyük praktiki təsir göstərmişdir.

M.Alle Avropanın federativ quruluşu və vahid Avropa valyutasının qəbul edilməsinin tərəfdarı kimi də tanınır. O, davamlı məhsuldar tədqiqatları ilə son 25 il ərzində özünün tarazlıq nəzəriyyəsinə dinamik aspektləri gücləndirmək yolu ilə daha ümumi xarakter verməyə çalışmışdır. Bütün bu və digər tədqiqatlarının elmi nəticələrini M.Alle “Mənfəətin ümumi nəzəriyyəsi” adlı əsərində genişliklə şərh etmişdir.

1989-cu ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülən T.Hovelmu iqtisad elminə ekonometrikanın əsaslarında ehtimal nəzəriyyəsinin rolunun izahı və eyni vaxtda iqtisadi strukturların tədqiqi ilə bağlı töhfələri ilə tanınır. T.Hovelmu həm də statistika və dinamika nəzəriyyələrinin ayrılmasına ilk dəfə dərindən yanaşanlar sırasında olmuş və müvafiq statistik instrumentari ilə ekonometrik modellərin əsaslarının yaradılmasına təkan vermişdir. Bu, müəyyən ehtimallar zəminində iqtisadiyyatın bir sahəsində baş verən dəyişikliklərin digər sahələrdə əksini tapmasını qabaqcadan deməyə, yəni iqtisadiyyatın gələcəyini görmə sahəsində iqtisadi terminlərlə təqdim edilmiş statistik ehtimal nəzəriyyəsini işləyib hazırlamağa imkan vermişdir. Onun hazırladığı iqtisadi-statistik modellər milli iqtisadiyyatların mümkün inkişafını qabaqcadan göstərməyə, dövlətin iqtisadi siyasətini daha dəqiq və qəti formalaşdırmağa və planlaşdırmağa imkan yaradır.

T.Hovelmuya görə, müxtəlif sosial qruplar istehlaka birmənalı olmayan meyil və ya yığıma zidd təsir göstərirlər. Sahibkarlarda, şəhər və kənd əhalisində də istehlaka meyil eyni deyil. Azad peşə

sahibləri gəlirlərinin nisbətən az hissəsini əmanət olaraq saxlayırlar, müntəzəm əməkhaqqı alanlar isə onlardan da aşağı miqdarda yığıma meyil göstərirlər. O, həmçinin müəyyən etmişdir ki, "istehlaka son həddli meyil" istehlak predmetindən asılı olaraq dəyişir. T.Hovelmu iqtisadi nəzəriyyənin bir çox digər sahələrinin tədqiqinə, xüsusən də, makroiqtisadi səviyyədə tsikllilik tərəddüdlərinin təhlilinə, həmçinin fiskal siyasətdən qiymətlər nəzəriyyəsi və iqtisadi fikir tarixinədəki çoxsaylı məsələlərin araşdırılmasına elmi töhfələr vermişdir. Bununla belə, əsərlərinin çox hissəsi yalnız Norveç dilində nəşr edildiyindən onun görüşləri öz ölkəsinin hüdudlarından kənarda genişliklə tədqiq olunmamışdır.

1990-cı ildə iqtisadiyyat sahəsində Nobel mükafatına maliyyə nəzəriyyəsində yenilikçi tədqiqatları ilə fərqlənən H.Markovits, M.Miller və U.Şarp layiq görülmüşlər.

H.Markovits müasir bazar iqtisadiyyatında müxtəlif istehsal sahələri arasında resursların bölüşdürüldüyü maliyyə bazarlarları ilə bağlı mühüm tədqiqatlar yerinə yetirmişdir. O, hələ ötən əsrin 50-ci illərində daha optimal "portfel seçimi" nəzəriyyəsini işləyib hazırlamaqla müvafiq sahədə mövcud problemlərin həllinə çox mühüm töhfə vermişdir. H.Markovitsin hazırladığı nəzəriyyə müasir iqtisadiyyatda dəyərlərin daha az risk dərəcəsi ilə daha faydalı yerləşdirilməsini müəyyən etmək üçün nəzəriyyəçilərin və praktiklərin əlində güclü bir alətə çevrilmişdir. O, maliyyə bazarı iştirakçılarının hərəkət motivlərini qiymətli kağızların alışı ilə əlaqədar investorların gələcək gəlirlərinin maksimllaşdırılmasına və risklərin minimallaşdırılmasına çalışması nöqteyi-nəzərindən təhlil etmişdir. Maliyyə bazarının bir çox mürəkkəb problemləri H.Markovitsin yaratdığı "səmərəli investisiya portfelinin seçilməsi" nəzəriyyəsində öz əksini tapmışdır. Meydana çıxmasından yarım əsr vaxt keçməsinə baxmayaraq, bu nəzəriyyə hələ də elmi dəyərini və təcrübi əhəmiyyətini itirməmişdir.

Maliyyə bazarı subyektlərinin bu nəzəri əsasda işlənib hazırlanmış davranış modeli qiymətli kağızlara dair qərarların qəbulunda onların gözlənilən gəlir səviyyəsini və risk dərəcəsini rəhbər tutmasını şərtləndirir. H.Markovitsin "portfel seçimi" nəzəriyyəsi müxtəlif çeşidli aktivlərə kapital qoyulması yolu ilə təcrübədə yoxlanılaraq aprobasiya olunmuşdur. Bu nəzəriyyə hazırda biznes mühitinə möhkəm daxil olmuş və investorlar üçün çox mühüm alətə çevrilmişdir. Bu nəzəriyyənin aktuallığını nəzərə alaraq, onu hətta ABŞ-ın orta məktəblərində belə tədris edirlər.

H.Markovits həm də iqtisadi modellərin işlənib hazırlanmasına öz töhfəsini vermiş, kompüterdə stilistik modellərin işlənməsi üçün yeni proqramlaşdırma dili yaratmışdır.

M.Millerin elmi fəaliyyətinin əsasını maliyyə korporasiyaları probleminin tədqiqi təşkil edir. O, görkəmli ABŞ iqtisadçısı F.Modilyani ilə birgə korporasiyaların maliyyələşdirilməsi və bazarda şirkətlərin dəyər qiyməti nəzəriyyəsini işləyib hazırlamaqla qiymətli kağızlar bazarlarının tədqiqinə mühüm töhfələr vermişdir. Bu nəzəriyyə, bir tərəfdən, müəssisənin maliyyə aktivlərinin strukturu və dividendlər siyasəti arasında, digər tərəfdən isə, müəssisənin bazar qiymətləndirmə dəyəri arasında əlaqəni və ya onun olmaması səbəblərini izah edir. M.Miller və F.Modilyani hələ 1956-cı ildə "Kapitalın dəyəri, korporasiyaların maliyyələşdirilməsi və investisiyalar nəzəriyyəsi" adlı məqalə dərc etdirmiş, bununla da "Miller-Modilyani teoremi"nin əsasını qoymuşlar. Bu teorem qiymətli kağızların bazar dəyəri və kapitalın dəyərindən asılı olaraq şirkətlərin əsas fondlarının strukturu və dividendlərin bölüşdürülməsi strategiyası arasında münasibətləri izah edir. Teoremdə deyilir ki, "məsələn, bir sənaye şirkətinin qiymətli kağızlara etdiyi qoyuluşlar onun birbaşa öz istehsal fondlarına etdiyi qoyuluşlardan daha önəmlidir", belə ki, qiymətli kağızlar portfeli ilə düzgün hesablanmış əməliyyatlar, bir qayda olaraq, daha mənfəətli olur.

M.Miller maliyyə bazarlarının səmərəliliyini onların təkamülünün gedişi fonunda tədqiq etmişdir. Bunun parlaq nəticələri maliyyə bazarlarının beynəlmiləlləşməsində, dünyanın müxtəlif maliyyə mərkəzlərində 24 saat ərzində satıla bilən qiymətli kağızların geniş çeşidi ilə vahid qlobal bazarın formalaşmasında genişliklə təzahür etmişdir.

M.Millerin fikrincə, səhmlərin ənənəvi alışı və depozit yığımı hüdudlarından kənara çıxan ən mühüm yeni maliyyə alətlərini öyrənmək və onlardan düzgün istifadə etmək böyük səmərə verə bilər. Alimin tədqiqatları göstərir ki, maliyyə bazarlarında əməliyyatların həcminin xeyli genişlənməsi kommersiya kağızları, valyuta və faiz svopları, valyuta və faiz opsionları, forvard və fyüçers sazişləri kimi qiymətli kağız növlərinin meydana gəlməsinə səbəb olmuşdur. Bu alətlərdən bir çoxu qiymətin, faiz dərəcəsinin və valyuta məzənnəsinin dəyişməsi risklərindən sığortalanmaq tələbini ödəyir.

U.Şarp investisiyalar, qiymətli kağızlar, maliyyə bazarlarında qiymətqoyma məsələlərinin tədiqi sahəsində böyük elmi uğurlar qazanmışdır. Əsərlərində səhmlər bazarında meyillərin tədqiqini önə çəkən alim bu çevrədə əsas diqqəti səhmlərin məzənnələrinin tərəddüdlərinin bir-biri ilə əlaqəli olması faktına yönəltməklə yanaşı, həm də analitik aparatı başqa bir aspekt - səhm kotirovkalarının tərəddüdləri ilə bütövlükdə bazar arasında olan əlaqənin necə baş verməsinin üzərində qurmuşdur.

Məlumdur ki, investisiyalar bazarı bahalaşmağa meyilli olduğu kimi, ucuzlaşmağa da meyillidir, lakin analitiklər üçün əsas məsələ ondan ibarətdir ki, bu zaman konkret götürülmüş səhmlərin qiyməti artacaq ya düşəcək? Bununla yanaşı, U.Şarp daha bir mühüm detalı nəzərə almışdır. Məsələ burasındadır ki, dünya fond bazarında ABŞ-ın məlum xəzinədarlıq veksellərі sabitlik ölçüsü hesab edilir. U.Şarp bu veksellərі gələcək düsturunun

ikinci elementi kimi götürmüşdür. Sonralar o, investora tələb olunan səhmin gəlirliliyinin risksiz dərəcə ilə buna müvafiq risk üçün aldığı mükafatın məcmusu olduğunu göstərən məşhur düsturunu qurmuşdur. U.Şarpın düsturu kapital aktivlərinin qiymətləndiril-məsinin mövcud modeli üçün əsl təməl olmuşdur. Bu model nəzəri planda onun nobelçi həmkarı H.Markovitsin metodunu çox gözəl tamamlayır. Bununla belə, H.Markovitsin modelinin qavrayış və tətbiq üçün daha mürəkkəb olduğunu nəzərə almaq lazımdır. U.Şarpın modelinin üstünlüyü onun fəaliyyət üçün daha sərbəst meydan açmasındadır.

1991-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülən müasir neoklassik məktəbin təmsilçisi, yeni institusionalizmin banilərindən biri R.Kouz iqtisadiyyatın institusional strukturunda və fəaliyyətində tranzaksiya xərclərinin, həmçinin mülkiyyət hüquqlarının dəqiq mənasının açılışı və izahı sahəsində liderlik əldə etmişdir. O, özünün çox məşhur "Firmanın təbiəti" əsərində "tranzaksiya" adlandırdığı xüsusi növ xərclərlə əlaqədar əlahiddə bir konsepsiya işləmiş, iqtisad elminə "tranzaksiya xərcləri" adlanan termin gətirmişdir. Bu xərclər müqavilələrin bağlanması ilə əlaqədar meydana çıxan məsrəflər kimi informasiyanın toplanması və emalı, danşıqların aparılması və qərarların qəbul edilməsi, müqavilələrin yerinə yetirilməsinə nəzarət və onların hüquqi müdafiəsi üçün çəkilən xərcləri özündə ehtiva edir.

R.Kouz 1960-cı ildə dərc etdirdiyi "Sosial xərclərin problemi" adlanan məşhur məqaləsində isə göstərir ki, xarici effektlər tərəflər arasında sazişin köməyi ilə aşağıdakı şərtlərlə internalizasiya[8] oluna bilər. Hökumətin müdaxiləsi yalnız mülkiyyət hüququnun spesifikasiyasından ibarətdir. Konkret olaraq, ayrıca

[8] internalizasiya (*latınca - interims - daxili*) şirkət üçün başqa şirkətlərin, təşkilatların, şəxslərin fəaliyyətindən asılı olan xarici müsbət və mənfi effektlərin qiymətinin onların bazar tənzimlənməsinin həyata keçirilməsi imkanları məqsədilə həmin effektlərin məsrəflərinə və ya gəlirinə daxil edilməsi.

fərd və ya qrup üçün hüquq subyektini və obyektini, o cümlədən həmin subyektin səlahiyyətlər dairəsini müəyyən etməklə, eyni zamanda, sıfıra bərabər və digər bərabər şərtlərlə onlara riayət olunmanı və tranzaksiya xərclərini təmin edən mexanizm üçün müstəsnalıq rejiminin (*bu rejimdə subyekt, effektivli olaraq, müstəsna səlahiyyətlərindən istifadə etməklə digər iqtisadi agentləri qərarvermə prosesindən çıxarmaq imkanındadır*) yaradılmasından ibarətdir. Bu nəzəriyyə "Kouz teoremi" adlanır və mahiyyətcə, iqtisadi müqavilələrdə assimmetrik informasiyanın[9] istisnası şəraitində ətraf mühitlə bağlı problemlərin dövlətin iştirakı olmadan mülkiyyətçilər arasında səmərəli həllinin tapılmasına yönəlmişdir.

Sıfır tranzaksiya xərcləri zamanı bazarın istənilən xarici effektlərlə işləmək bacarığı müddəası yeni institusional iqtisadi nəzəriyyədə ilk dəfə 1966-cı ildə iqtisadiyyat üzrə Nobel mükafatı laureatı C.Stiqler tərəfindən belə şərh edilmişdir: "Əgər mülkiyyət hüquqları dəqiq müəyyənləşdirilmişsə və tranzaksiya xərcləri sıfıra bərabərdirsə, onda resursların yerləşdirilməsi (*istehsalın strukturu*), mülkiyyət hüquqlarının bölünməsi dəyişikliklərindən asılı olmayaraq, sabit və effektiv qalacaq". C.Stiqlerin bu qənaəti öz-özlüyündə R.Krouzun adı çəkilən "Sosial xərclərin problemi" məqaləsindən qaynaqlanmışdır. R.Kouz isə həmin konsepsiyanı "eksternaliyalar[10] istənilən fəaliyyətin xarici təsirli nəticələridir (*hansı ki, birbaşa onun iştirakçılarına deyil, üçüncü şəxslərə aid edilir*) " nümunəsində sübut etmişdir.

Əvvəllər bu problemi tanınmış ingilis iqtisadçısı A.Piqu "Rifahın iqtisadi nəzəriyyəsi" kitabında nəzərdən keçirmişdir.

[9] assimmetrik informasiya (*ingiliscə - asymmetric information*) - işlə əlaqədar bir qrupun lazımi informasiyaya malikliyi digərinin isə maliksizliyi situasiyası.

[10] eksternaliya (*ingiliscə - externality - xarici*) xarici effekt (təsir); iqtisadi nəzəriyyədə bazar tranzaksiyalarının (*əməliyyatının*) bazar tərəfindən vasitəçilik edilməyən üçüncü tərəflərə təsiri.

A.Piqunun fikrincə, mənfi eksternaliyalar nemətlərin artıq istehsalına, müsbət eksternaliyalar isə kəsirli istehsala səbəb olur. O, "bazarın uğursuzluğu" (*bazarın fiaskosu*) adlandırdığı belə vəziyyətlərin yaranmaması üçün dövlətin iqtisadiyyata müdaxiləsini tövsiyə etmişdi.

R.Kouz eksternaliyaların hökmən "bazarın uğursuzluğu"na apardığı fikrini təkzib etmişdir. Onun fikrincə, eksternaliyalar probleminin neytrallaşdırılması üçün resurslara olan mülkiyyət hüquqlarının dəqiq bölgüsü və tranzaksiya xərclərinin minimallaşdırılması zəruridir.

R.Kouzun bütün əsərlərinin leytmotivini sosial təşkilatın hər hansı formasının - dövlət, bazar və ya firmanın yaranışının, davamlı fəaliyyətinin böyük xərclər tələb etməsi tezisi təşkil edir. Buradan görünür ki, müxtəlif sosial institutlar bu xərclərin səviyyəsinə və strukturuna görə bir-birindən kəskin fərqlənə bilər və ictimaiyyətə bir qədər ucuz başa gələn institutlar daha effektiv ola bilər.

1992-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülən H.Bekker mikroiqtisadi təhlil sferasında insan və qeyri-bazar davranışları sahəsində qarşılıqlı münasibətlərin yayılması ilə bağlı mühüm tədqiqatlar yerinə yetirmişdir. O, orijinal və nüfuzlu iqtisadçılardan biri kimi tanınır. Alimin elmi maraqlarının başlıca sahəsini "insan kapitalı" nəzəriyyəsinin işlənib hazırlanması təşkil edir. H.Bekker ilk olaraq əmək bazarında ayrı-seçkilik probleminin neoklassik təhlilini vermişdir. Eləcə də, o, birincilər sırasında "insan amili"nə kapital qoyuluşları nəzəriyyəsinin praktiki tətbiqi sahələrini göstərmişdir.

Yenilikçi alim olaraq H.Bekker iqtisadi təhlil nöqteyi-nəzərindən cinayətkarlıq problemlərinin öyrənilməsinə də töhfə vermişdir. Onun bu kontekstdə yanaşmasının fərqləndirici xüsusiyyəti hər hansı sosial təzahürü və ictimai həyat sferasını iqti-

sadi təhlilin əlavə sahəsi kimi nəzərdən keçirməsidir. H.Bekker öz metodunun tətbiqi üçün növbəti sahə olaraq cinayət və cəzanın iqtisadi təhlilini - iqtisadiyyat və hüququn birləşdiyi nöqtədə yerləşən mövzunu seçmişdir. "Qanunu pozanların davranışı" anlayışına "xərclər" və "mənfəət" iqtisadi anlayışlarını tətbiq etmək cəhdi də ilk olaraq H.Bekkerə məxsusdur.

İqtisadi agentlərin vaxt bölgüsünü təhlil edərkən, H.Bekker öz müşahidələrini, necə deyərlər, "ailənin yeni iqtisadiyyatı" şəklində ümumiləşdirmişdir ki, bu da nikah, boşanma, uşaqların doğulması haqqında qərarların qəbul edilməsi və s. kimi halların iqtisadi təhlilinə imkan yaratmışdır. O, ailə iqtisadiyyatı sahəsində tədqiqatlarında ailə, o cümlədən nikah, boşanma, uşaqların sayının seçilməsi, onların sağlamlığı, tərbiyəsi, tədrisi, təhsili və s. ilə bağlı məsələlərin həllinin dolğun iqtisadi təhlilini vermişdir. Bu sahədə H.Bekkerin tədqiqatları "yeni istehlak nəzəriyyəsi" (*new theory of consumption*) adını almışdır. Onun adı, həmçinin, iqtisadi icmalçı kimi işlədiyi "Biznes həftəliyi"ndən (*Business Week*) geniş oxucu kütləsinə yaxşı məlumdur. Buradakı köşəsində alim ABŞ-da və onun hüdudlarından kənarda iqtisadi həyatın ən əlamətdar hadisələrinin icmallarını dərc etdirmişdir.

1993-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatı R.Fogel və D.Norta verilmişdir. Onlar iqtisadi və nəzəri dəyişmələri izah etmək üçün iqtisadi nəzəriyyə və kəmiyyət metodları tətbiq edərək iqtisadi tarix mövzusundakı tədqiqatlara yeniliklər gətirdiklər üçün bu mükafata layiq görülmüşlər.

R.Fogel hələ doktorluq dissertasiyasını üzərində işləyərkən artıq iqtisadi tarix sahəsində yeni fikirli tədqiqatçı kimi məşhurlaşmaqda idi. Əgər əvvəllər iqtisadi tarix, sadəcə, keçmişin təsərrüfat həyatını təsvir edən və yalnız əsrin ortalarında təsərrüfat sistemlərinin təkamülü meyillərinin təhlilinə başlayan tarixi tədqiqatların bir növü kimi nəzərdən keçirilirdisə, "yeni

iqtisadi tarix"in nümayəndələrinin (*termin olaraq elmi dövriyyəyə R.Fogel tərəfindən gətirilmişdir*) əsərlərində ona ciddilliklə "köhnənin təkrar istehsalı deyil, genişliklə iqtisadi hadisələrin kəmiyyət qiymətləri ilə məşğul olan sahə" kimi yanaşılır. Bu məktəbin tərəfdarları ölçmələrin rolunun lazımınca qiymətləndirilməməsinə son qoymağa çalışırlar və amerika iqtisadi tarixini möhkəm kəmiyyət əsasında qurmağı qarşılarına vəzifə qoymuşdular.

R.Fogel özünün birinci kitabı ilə əvvəlcə Birləşmiş Ştatların qərbində, sonra isə bütövlükdə ABŞ-da dəmir yollarının rolu və inkişaf şəraiti haqqında formalaşmış təsəvvürləri köklü surətdə dəyişdi. Ənənəvi olaraq belə hesab edilirdi ki, 1840-1890-cı illərdə dəmir yolları bu ölkənin iqtisadi yüksəlişində əvəzsiz rol oynamışdır. Belə ki, onlar ən səmərəli nəqliyyat vasitəsi kimi əmtəə dövriyyəsinin artmasına kömək edir, yeni torpaqların mənimsənilməsini stimullaşdırır, bundan başqa, sənayenin, hər şeydən əvvəl isə poladtökmə sahəsinin inkişafına təkan verirdi. R.Fogelin əsərləri göstərdi ki, bütün bunlar son dərəcə şişirdilmiş təsəvvürlərdir. Dəmir yollarının həqiqi rolunun qiymətləndirilməsi üçün o, "kontrafakt" deyilən modellərdən istifadə etmiş, yəni statistik məlumatlar əsasında həmin şəraitdə dəmir yollarının olmadığı vəziyyətdə ABŞ iqtisadiyyatının mümkün inkişafının gedişini qiymətləndirmişdir və belə qənaətə gəlmişdir ki, dəmir yollarının əhəmiyyəti heç də həlledici hesab edilməməlidir. Su yolları da nəqliyyat vasitəsi kimi dəmir yollarını əvəz edə bilərdi və bu zaman Amerika ÜDM-i 3%-dən artıq düşməyəcəkdi, eyni zamanda, yeni torpaqların mənimsənilməsi də, praktiki olaraq, kanalların şaxələnmiş sistemi sayəsində ləngiməyəcək, poladtökmə sənayesinin məhsullarına olan tələbin çoxu da yeni relslərin istehsalına deyil, köhnələrinin əvəzlənməsinə və həmçinin, digər metallurgiya məmulatlarının istehsalına yönələcəkdi.

Konkret anlamda bu iqtisadi dirçəlişdə dəmir yolları, əvvəllər hesab edildiyi kimi, heç də son dərəcə əhəmiyyətli hesab olunmamalıdır. Görkəmli iqtisadçı alimin əsərləri Amerika tarixinin real gedişi haqqında mövcud təsəvvürləri dəyişdirmiş və gələcək işlərə istiqamət verərək, iqtisadiyyatı öyrənən tarixçilərin tədqiqatlarına olduqca güclü təsir göstərmişdir.

R.Fogel "kliometrika"nın[11] və "yeni iqtisadi tarix"in - tarixi hadisələrin təhlilinə və qabaqcadan xəbər verilməsinə statistik, ekonometrik, riyazi metodların və modellərin tətbiqinin banilərindən biridir.

D.Nortun tədqiqatları isə iqtisadi tarixlə yanaşı iqtisadi artım, institusional amillərin təhlili, ölkələrin yoxsulluğu və zənginliyi səbəblərinin araşdırılması ilə bağlı olmuşdur. O, iqtisadi tarix sahəsində müasir tədqiqatların cığıraçanı və kliometrikanın banilərindən biridir. Hazırda bu sahə ilə məşğul olan məşhur alimlərin əksəriyyəti D.Nortun məktəbini keçmişdir. Onu digər iqtisad tarixçilərindən iqtisadi parametrlərin kəmiyyət və statistik qiymətləndirilməsi, həmçinin kontrafakt modellərinin qurulması deyil, real tarixi hadisə və təzahürlərin təhlilinə, onların izahının axtarışına olan cəhdləri fərqləndirir. D.Nort üçün bu cür təhlilin aləti olaraq yeni institusional iqtisadi tarixin analitik aparatı və xüsusilə, tranzaksion məsrəflərin iqtisadi tarixi çıxış edir. Bu tədqiqat ənənəsinin mərkəzində institut anlayışı, yəni "cəmiyyətdə oyun qaydaları" dayanır, başqa cür insanlar tərəfindən qoyulmuş, insanların qarşılıqlı hərəkətlərini formalaşdıran və siyasi, sosial, iqtisadi mübadilə sahəsində stimulları strukturlaşdıran məhdudiyyətlər durur.

[11] kliometrika (*ingiliscə - cliometrics - klio və metriya, analoji ekonometrika*) iqtisadi tarixin tədqiqarları sahəsində iqtisadi nəzəriyyə və ekonometrik metod və modellərin tətbiqi ilə bağlı fənlərarası istiqamət; tarixi tədqiqatda riyazi metodların tətbiqi ilə geniş əlaqələndirilir, yəni kəmiyyət tarixi ilə eyniləşdirilir. Fənnin adı yunan mifologiyasındakı tarix və qəhrəmanlıq poeziyası müzası (*ilahə*) olan "Klio" adından gəlir.

Onilliklər boyu ölkələrin bir-birindən olduqca fərqlənməsi, uzun müddət ərzində kifayət qədər səmərəsiz iqtisadiyyatların qalması D.Nortu düşündürən əsas məsələlərdən olmuşdur. O, bu gerçəkliklərin izahını texnologiyaların təkamülünə həsr edilmiş tədqiqatlarda axtarmağı təklif edir. D.Nort, tarixdə iki iqtisadi inqilab qeyd edir: birincisi, torpağa mülkiyyət hüququnun tətbiqi, ikincisi, müəllif hüquqlarının meydana çıxması. Alim göstərir ki, iqtisadi fəaliyyətin əsas vəzifəsi resurs məhdudluğu şəraitində öz tələbatını maksimum dərəcədə yerinə yetirməkdən ibarət olsa da, o, istənilən iqtisadi sistemdə və istənilən ölkədə dəyişməz qalır və bu məsələnin həlli üsulları ayrı-ayrı ölkələrdə müxtəlif vaxtlarda xeyli fərqli səciyyə daşımışdır. İnkişaf etmiş iqtisadiyyatlar milli, mədəni, tarixi ənənələri, yəni onların institutlarının fərqlərini müxtəlifləşdirir. Digər tərəfdən, müasir institusional strukturlu mürəkkəb iqtisadi sistemlərin özləri uzunmüddətli təkamül prosesində yaranmışdır ki, bunun öyrənilməsi özözlüyündə tarixi tədqiqatın predmetini təşkil edir. Buna görə də, D.Nortun fikrincə, iqtisadiyyatı öyrənən tarixçinin elmi maraqlarının mərkəzində institusional strukturun təkamülü durmalıdır, belə ki, həm keçmişin hadisələrinin düzgün başa düşülməsi, həm də bu və ya digər ölkələrdə indiki vəziyyətin səbəblərinin təhlili məhz ondan asılıdır.

D.Nortun ideyaları yeni institusional iqtisadiyyatın formalaşması istiqamətində aparılan tədqiqatlara təkan vermişdir. Görkəmli iqtisadçı alimin davranış qaydalarının və iqtisadiyyatın qarşılıqlı əlaqələri problemlərinə, müxtəlif institutların iqtisadi və sosial-iqtisadi inkişaf proseslərinə təsirinə həsr edilmiş bir sıra dəyərli əsərləri bunu sübut edir.

1994-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatına "qeyri-kooperativ oyunlar" nəzəriyyəsində tarazlığı əsaslı təhlil etmiş alimlər - C.Harsani, C.Neş və R.Zelten layiq görüldülər. Bu sırada adı öndə çəkilən əsərləri ilə iqtisadi təhlil aləti kimi oyunlar

nəzəriyyəsinin tətbiqi imkanlarını xeyli genişləndirən C.Harsani həm də ekonometrika, riyazi iqtisadiyyat, rifah iqtisadiyyatı, mikroiqtisadiyyat və etika sahələrində də mühüm tədqiqatların müəllifi kimi tanınır. Bununla belə o, daha çox informasiyanın dolğun olmaması ilə səciyyələndirilən qeyri-kooperativ oyunlar üçün Con Neşin tarazlıq konsepsiyasının təkmilləşdirilməsi ilə əlaqədar tədqiqatları ilə məşhurdur. Bu sinif oyunların təhlilinin predmeti agentlərin nəinki qarşılıqlı razılaşmaya (*C.Neşə görə, tarazlığın şərtlərindən biri*) nail olmadıqları, həm də tərəfdaş oyunçuların məqsədlərini (*oyun nəzəriyyəsinin terminlərində üstünlük verilən*) bilmədikləri və bir-birinin strategiyaları haqqında məlumatsızlığı hallarıdır.

C.Harsanin tədqiqatları iqtisad elminin nisbətən yeni sahəsi - informasiya iqtisadiyyatı üçün nəzəri təməl olmuşdur. Bu yeni sahə o faktdan irəli gəlir ki, bazarda və ya bir təşkilat daxilində qərar qəbul edən iqtisadi münasibətlərin subyektləri müxtəlif informasiyalara malik olduqları halda bir-birilərinin məqsədlərini (*üstünlük verdikləri*) bilmədən optimal hərəkət strategiyası seçir. Qeyd olunmalıdır ki, informasiya iqtisadiyyatı ÜDM-in inkişaf sürətini, həmçinin vətəndaş cəmiyyətinin yetkinlik dərəcəsini, inkişafını və təşəkkülünü müəyyən edir, sosial sferanın iqtisadi artım və inkişafına təkan verir.

C.Neş oyunlar nəzəriyyəsi sahəsində apardığı tədqiqatları ilə dünya iqtisadiyyatının inkişafında böyük rol oynamış, elmi metodun əsaslarını yaratmış və bu sahədə başlıca mütəxəssislərdən biri kimi şöhrət tapmışdır.

Məşhur macar əsilli Amerika riyaziyyatçısı Con Fon Neyman (*1903-1957*) və Amerika riyaziyyatçısı və iqtisadçısı Oskar Morgenştern (*1902-1977*) sıfır məbləğli oyunlarla məşğul olmuşlar ki, burada bir tərəfin uduşu digərinin məğlubiyyətinə bərabərdir. 1950-1953-cü illərdə C.Neş, mübaliğəsiz demək olar ki, dörd in-

qilabi əsər dərc etdirmiş, burada qalib gəlmiş oyunçuların uduşlarının məbləğinin uduzmuş oyunçuların məğlubiyyət məbləğinə bərabər olmadığı oyunlar sinfinin sıfır olmayan məbləğli oyunlarının dərin təhlilini vermişdir. Bu oyuna misal - əməkhaqqının artırılması üzrə həmkarlar ittifaqları ilə şirkətin rəhbərliyi arasında danışıqlar ola bilər. Belə vəziyyət ya hər iki tərəfin zərər çəkəcəyi uzunmüddətli tətil, ya da qarşılıqlı faydalı razılıqla başa çatmış olar. C.Neş vəziyyəti ekonometrik modelləşdirib, sonralar "Neş tarazlığı" və ya "qeyri-kooperativ tarazlıq" adlarını almış rəqabətin yeni simasını nəzərdən keçirə bilmişdir. Nəticəvi olaraq isə burada hər iki tərəf ideal strategiyadan istifadə edir, bu da dayanıqlı tarazlıq yaratmağa səbəb olur. Oyunçulara bu tarazlığı saxlamaq sərf edir, belə ki, hər hansı dəyişiklik onların vəziyyətini yalnız pisləşdirə bilər.

Həmkarları C.Harsan və C.Neş kimi riyaziyyatçı olan R.Zelten də eksperimental iqtisadiyyat sahəsində ilk tədqiqatçılardan hesab olunur. O, həmçinin təcrübi iqtisadiyyatın qurucularından biri kimi tanınır. R.Zelten həm də ekonometrik və məhdud səmərəlilik mövzusundakı tədqiqatları ilə də məşhurdur. Onun iqtisad elminə verdiyi başlıca töhfə isə qeyri-kooperativ oyunlar nəzəriyyəsində tarazlığın əsaslı təhlili ilə bağlıdır.

1995-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatını rasional gözləmə fərziyyəsinin işlənməsinə, makroiqtisadi təhlilin dəyişməsi və iqtisadi siyasət anlamının dərinləşdirilməsi sahəsindəki tədqiqatlarına görə alan R.Lukas dünyanın ən nüfuzlu iqtisadçıları sırasındadır. O, bu vaxta qədər daha çox keynsçiliyin təsiri altında olan makroiqtisadi nəzəriyyənin əsaslarını şübhə altında qoymuş və makroiqtisadi modelin mikroiqtisadi modellərin ümumiləşdirilmiş interpretasiyasına əsaslanmalı olması fikri ilə iqtisad elminə yenilik gətirmişdir. R.Lukas həmçinin iqtisadi siyasətin "Lukas tənqidi" tərifini işləyib hazırlamışdır. Bu tərif

ondan ibarətdir ki, iqtisadiyyatda inflyasiya ilə işsizlik arasında müşahidə olunan qarşılıqlı münasibətlər iqtisadi siyasətə cavab olaraq dəyişə bilər. Həmin yanaşma neoklassik iqtisadi nəzəriyyənin və yeni keynsçiliyin inkişafına səbəb olmuşdur.

R.Lukas gözləmələrin səmərəliliyinin nəticələrinin öyrənilməsi sahəsində də məşhurlaşmış və səmərəli gözləmələr konsepsiyasının yaradıcısı, həmçinin bu sahədə yeni məktəbin banisi kimi tanınmışdır. O, tədqiqatlarında informasiya iqtisadiyyatı sahəsində natamam informasiya nəzəriyyəsini də inkişaf etdirmiş, "Lukas adaları modeli" (*Lucas-islands model*) adlandırılan natamam informasiya modeli işləyib hazırlamışdır. Bu model tədqiqatın daha əhəmiyyətli nəticəsi kimi "Lukasın məcmu təklif funksiyası" çıxış edir.

R.Lukasın işləyib hazırladığı təklif nəzəriyyəsinin əsasında sistemsiz monetar siyasətin insanları yanlış yola yönəldəcəyi ehtimalı dayanır. Alimin insan kapitalının yığımı üzrə tanınmış yapon iqtisadçısı Hirofumi Uzava (*1928*) ilə müştərək işləyib hazırladığı "Lukas-Uzava modeli"nin və kapitalın inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə axmaması məsələsinin nəzərdən keiçirilməsindən ibarət olan "Lukas paradoksu"nun da iqtisad elmində özünəməxsus yeri vardır.

Bundan başqa, R.Lukas amerika iqtisadçısı, Nobel laureatı P.Romerlə yanaşı, "Lukas-Romer" modeli kimi məşhur olan iqtisadi artımın yeni nəzəriyyəsinin də banisidir. Bu modelə görə, iqtisadi artımın başlıca amili elmi-tədqiqat təcrübə-konstruktor işlərinə kapital qoyuluşlarının və insan kapitalına investisiyaların artması ilə bağlıdır. Romer və Lukasın modellərinin nəticələrindən biri həm də ondan ibarətdir ki, insan kapitalı resurslarına və inkişaf etmiş elmə sahib olan iqtisadiyyat uzunmüddətli perspektivdə bu üstünlüklərdən məhrum olan iqtisadiyyatdan daha çox artım şansına malikdir.

1996-cı ildə də iqtisadiyyat sahəsində Nobel mükafatının verilməsi assimetrik informasiya ilə bağlı olmuşdur. Mükafata layiq görülmüş C.Mirrlis və U.Vikri həm də stimulların iqtisadi nəzəriyyəsi sahəsindəki fundamental nailiyyətləri ilə fərqlənmişlər.

C.Mirrlisin əsas tədqiqatları natamam informasiya şəraitində vergiqoyma, sosial sığorta, pul nəzəriyyəsi, iqtisadi institutlarla bağlı olmuşdur. C.Mirrlis 1970-ci illərin ortalarında Nobel mükafatını bölüşdüyü U.Vikri tərəfindən 1940-cı illərin sonunda formalaşdırılmış mütərəqqi vergiqoymanın optimal modelinin qurulması məsələsinin həlli metodunu işləyib hazırlamışdır. O, mütərəqqi vergiqoymanın optimal modelinin qurulması zamanı istifadə edilən "Mirrlis metodu"nun müəllifi kimi də tanınır. C.Mirrlis "yeganə kəsişmə" (*single crossing*) adlandırılan kəskin şərti təyin etməklə problemi xeyli sadələşdirmişdir ki, bu da onun həllini mümkün etmişdir. Onun bu təhlili prinsipial ideya mahiyyəti daşıyır. Bu prinsipə görə, natamam informasiya şəraitində stimullar probleminin həlli "bölüşdürücü mexanizm" (*allocation mechanism*) adlandırılan, nisbətən məhdud məsələlər sinfinə aid edilir. Onun tətbiqi kontraktların optimal surətdə tərtib olunmasını və iqtisadi münasibətlər subyektlərinin stimullaşdırılması ilə müəyyən şəkildə hərəkət etməklə əlaqədar digər problemlərin həllini asanlaşdırır.

C.Mirrlis metodu kompleks informasiyanın müasir təhlilinin və stimullaşdırma problemlərinin başlıca tərkib hissəsi olmuşdur. Onun bu yanaşması başqa agentin hərəkətlərini qabaqcadan nəzərə almaq mümkün olmadığı vəziyyətlərdə, başqa cür, daha çox sığorta şirkətlərinin tez-tez qarşılaşdıqları mənəvi risk (*moral hazard*) adlandırılan hallarda xüsusilə məhsuldardır. Onların fəaliyyətində olan itkilər təkcə xarici amillərin (*hava şəraiti, təbiət kataklizmləri və s.*) hərəkəti ilə deyil, həm də sığorta

şirkətlərinə sığorta polisinin özünün hərəkətini nəzarətdə saxlamağın baha başa gəlməsi ilə bağlı ola bilər. Analoji problemlər sosial sığorta sahəsində də meydana gəlir. Bu qəbildən olan məsələlərin həlli zamanı risk dərəcəsinin düzgün qiymətləndirilməsi, fərdləri özlərinə və öz mülkiyyətlərinə qarşı məsuliyyətli olmağa sövq edən təsir üsullarının tapılması çox önəmlidir. "Mənəvi risk" probleminin riyazi təhlili zamanı meydana çıxan texniki çətinliklər mütərəqqi vergiqoymanın optimal modelinin qurulması problemlərinə oxşardır və C.Mirrlis problemi, sadəcə, yenidən işlədikdən sonra bu tip məsələlərin həllinə yol tapmışdır.

C.Mirrlis ekonometrika, informasiya iqtisadiyyatı ilə yanaşı, iqtisad elminin digər bölmələrinə də töhfələr vermişdir. O, Amerika iqtisadçısı, Nobel laureatı P.Daymondla əməkdaşlıq etməklə, müxtəlif ölkələrdə istehlak mallarına qoyulan vergilərin strukturunun tədqiqatını aparmışdır. Həmin tədqiqatlarla müəyyənləşdirmişdir ki, xırda ölkələrin açıq iqtisadiyyatlarında xarici mallara tariflər qoymaq məqsədəuyğun deyil, istehsal amilləri olan əmək və kapitala vergilər isə istehsalçının deyil, istehlakçının üzərinə düşməlidir. Bu fikir inkişaf etməkdə olan ölkələrin iqtisadi siyasətlərinin layihələrini qiymətləndirmək üçün mühüm təcrübi nəticələrə malik olmuşdur.

Asimmetrik informasiya sahəsindəki tədqiqatları ilə məşhurlaşmış U.Vikrini də mikroiqtisadiyyat problemləri, makroiqtisadi təhlil və həmçinin iqtisadi siyasət sahəsindəki məsələlər maraqlandırmışdır. Belə ki, insan psixikasının təbiəti, onunla bağlı informasiyanın qeyri-müəyyənliyi və yetərsizliyi alimin mikro və makroiqtisadi nəzəriyyələrlə bağlı tədqiqatlarında mühüm rol oynamışdır. Bununla belə, onun əsas tədqiqatları asimmetrik informasiya şəraitində vergiqoyma, qiymətqoyma, resurs bölgüsü və iqtisadi stimullara həsr edilmişdirr. Alim özünün adı ilə bağlı

"Vikri hərracları" modelinin müəllifidir.

U.Vikrinin şəhər nəqliyyatı, xüsusilə də, sürətli tranzit sistemləri üçün qiymətqoyma probleminin işlənib hazırlanmasına verdiyi töhfə hamı tərəfindən qəbul edilmişdir. O, əmin idi ki, qiymətlər nəqliyyatın doğurduğu neqativ effektləri nəzərə almalıdır.

U.Vikri makroiqtisadiyyat sahəsində keynsçi nəzəriyyənin ardıcıl inkişaf etdirilməsinin tərəfdarı idi. O, mikroiqtisadi təhlildən makroiqtisadiyyata keçidi təklif etdiyi "metastatik zamanlararası tarazlıq" nəzəriyyəsinin köməyi ilə həyata keçirməyə cəhd göstərmişdir ki, bunun da mühüm elementləri informasiyada qeyri-müəyyənliklərin olması və etibarsızlılığı (*asimmetriklik*) idi. O, hesab edirdi ki, keynsçi iqtisadi siyasətin yeridilməsini məhz bu şərtlər çətinləşdirir. U.Vikri yazırdı: "Biz iqtisadiyyatın artımını sürətləndirmə metodlarını bilirik, lakin bu artımın inflyasiyadan çox real artıma gətirəcəyinə əmin olmaq üçün etibarlı alətlərimiz yoxdur. Bizim resessiya doğurmadan iqtisadiyyatın sürətini azaltmaq üçün yararlı əyləc sistemimiz də yoxdur". O, hesab edirdi ki, iqtisadiyyat işsizliyin müxtəlif normalarında tarazlıq vəziyyətində qala bilər - hər şey gözləmələrdən, hökumətin siyasətindən və institusional dəyişikliklərdən asılıdır. Həm də qeyd olunmalıdır ki, "işsizliyin təbii səviyyəsi" nəzəriyyəsi U.Vikriyə yad idi.

U.Vikrinin ictimai xidmətlər sferasında qiymətqoyma sahəsindəki işləri də az praktiki əhəmiyyət kəsb etmir. Onun payı təkcə bu problemin nəzəri əsaslandırılmasında deyil, həm də ictimai nəqliyyat sferasında effektiv qiymətqoyma sisteminin işlənib hazırlanmasında öz ideyalarının praktiki tətbiqindən ibarətdir. 1950-ci illərdə nəticəsi həmin sahədə qiymətqoymanın baza prinsipinin yaxşılaşdırılması olan Nyu-York metrosunda gedişhaqqının təhlili daha populyar olmuşdur. Bu tədqiqatın

genişliyi və dolğunluğu bu gün də çoxlarını heyran qoyur. Özünün son tədqiqatlarında U.Vikri artan inflyasiyanın təhlükəsi olmadan məşğulluğun yüksək səviyyəsini təmin edən iqtisadi siyasətin yeni alətlərini hazırlamağa çalışmışdır.

1997-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına maliyyə sahəsində tədqiqatları ilə tanınmış, derivativlərin (*törəmə qiymətli kağızlar*) dəyərinin yeni hesablama metodikasını işləmiş R.Merton və M.Şoulz layiq görülmüşlər.

R.Mertonun maliyyə iqtisadiyyatına fundamental töhfəsi opsionların və ya ikinci əl (*təkrar*) qiymətli kağızların dəyərinin qiymətləndirilməsi üçün istifadə olunan "Blek-Şoulz düsturu"nun çıxarılması metodunun orijinal işlənib hazırlanmasından ibarət olmuşdur. Bu metod sonradan özünün geniş tətbiqini tapmışdır. Ona Nobel mükafatı məhz ikinci əl qiymətli kağızların qiymətləndirilməsi metoduna görə verilmişdir. Bu düstur üzərində ilk dəfə amerikalı iqtisadçı F.Blek işləməyə başlamışdı. F.Blek və M.Şoulz tərəfindən təklif olunan düstur əvvəl opsionun qiymətinin praktiki tərifinə heç bir aidiyyəti olmayan nəzəri xarakter daşımışdır. Lakin düsturun çıxarılmasının əsas ideyasını məhz R.Merton təklif etmişdir ki, bunun sayəsində o, daha universal xarakter və praktiki əhəmiyyət almışdır.

R.Mertonun tədqiqatları bilavasitə praktiki vəzifələrdən irəli gəlirdi. Belə ki, 1960-cı illərdə maliyyə bazarlarına həm ABŞ-da, həm də bütövlükdə dünya üzrə ümumilikdə sabitlik və dayanıqlıq xas idi. Yaranmış vəziyyət investorlardan və firmalardan riski müəyyənləşdirmək üçün ən yeni texnologiyalardan istifadə etməyi tələb etmirdi. Lakin 1970-ci illərdə həmin maliyyə bazarlarında mühüm dəyişikliklər baş verdi. Onlar bir sıra səbəblərdən: Bretton-Vuds sisteminin iflası və müəyyən edilmiş valyuta kurslarından üzən kurslara keçid, dolların devalvasiyası, dünyanın neft bazarlarında qiymətqoyma mexanizminin dəyişməsi, ABŞ-

da inflyasiya proseslərinin inkişafı, fond bazarında real mənfəətlərin aşağı düşməsi nəticəsində meydana gəlmişdi. Bütün bunlar müxtəlif strukturlu iqtisadi mühitdə riskin idarə edilməsi problemlərinin işlənib hazırlanmasına xüsusi diqqət tələb edirdi.

R.Merton informasiya və informasiya iqtisadiyyatı sahəsində tədqiqatlar da aparmışdır. Onun iqtisadi həyata verdiyi prinsipial töhfə bundan ibarət olmuşdur ki, riskin kompensasiyası üçün dinamik ticarət strategiyası ticarət əməliyyatları çərçivəsində riskdən mükəmməl müdafiəni təmin edə bilərdi. Belə ki, əgər kimsə daim sığortasız alver edə bilirsə, onda əsas və riskə məruz qalmayan aktivlərdən istifadə edən dinamik ticarət strategiyası opsionun ödənilməsinin dəqiq təkrarı olacaqır. Buradan alınan nəticə belədir: maliyyə mühitində ticarət əməliyyatlarının fasiləsiz dövriyyəsində opsionun qiyməti Blek-Şoulz düsturu ilə müəyyənləşdiriləcəkdir. Başqa cür - ən azı, arbitraj mənfəət adlandırılan, yəni qiymətli kağızların və ya müxtəlif bazarlarda malların alqı-satqısı ilə bağlı mənfəət üçün imkan olmalıdır. Sonradan R.Merton modelin tətbiqini xeyli genişləndirmiş və düsturun son versiyasını "Blek-Şoulz opsionlarının qiymətqoyma modeli" adlandırmışdır.

R.Mertonun maliyyə aktivlərinin qiymətləndirilməsi üzrə işləyib hazırladığı texnologiyaların tətbiqi müasir nümunəvi maliyyə sistemi formalaşma mərhələsində olan ölkələr üçün mühüm əhəmiyyət daşıyır.

F.Blek və M.Şoulzun tədqiqatları ilə yanaşı, R.Mertonun da tədqiqatları riyazi maliyyə nəzəriyyəsi və maliyyə təcrübəsinin yeni iqtisadi fənni çərçivəsində ikinci əl qiymətli kağızlar bazarının artımının əsasını qoymuşdur. Bu metod informasiya texnologiyaları və kompüter məlumatları ilə yanaşı, müxtəlif maliyyə institutlarının praktiki fəaliyyətində və bütün dünyada maliyyə bazarlarında geniş tətbiq edilir.

M.Şoulz da, qeyd edildiyi kimi, opsionların qiymətləndirilməsi ilə bağlı Blek-Şoulz düsturunun kəşfi ilə məşhurlaşmışdır. O, qarşılıqlı münasibətləri və qanunauyğunluqları aşkara çıxarmaqla, qiymətli kağızlar bazarını daha qlobal miqyasda nəzərdən keçirmişdir. M.Şoulz deyirdi: "Biz lap nağıllardakı uşaqlar kimi idik, o mənada ki, hər yerdə opsionları təsvir edirdik, opsionlar həyatda qarşılaşdığımız hər şeydə idi...". M.Şoulz hesab edirdi ki, onun kəşfi faydalı olacaq və gözləmirdi ki, bu kəşf maliyyə aləmini alt-üst edəcəkdir. Lakin tezliklə məlum oldu ki, bu iş məhz belədir.

1970-ci illərin əvvəlində F.Blek, M.Şoulz və R.Merton fond bazarlarının qiymətqoyma nəzəriyyəsində fundamental bir kəşfə imza atdılar. Vurğulandığı kimi, bu nəticə Blek-Şoulz-Merton modeli kimi məşhurdur. Blek-Şoulz modeli treyderlərin ondan istifadə etməklə qiymət müəyyən etdikləri və opsionları hedcləşdirdikləri üsullara böyük təsir göstərmişdir. Bundan başqa, həmin model son iyirmi il ərzində maliyyə mühəndisliyinin inkişafına güclü təkan vermişdir. 1997-ci ildə bu modeli yaratdıqlarına görə R.Merton və M.Şoulz iqtisadiyyat sahəsində Nobel mükafatı almışlar. Təəssüf ki, bu hadisədən öncə 1995-ci ildə F.Blek vəfat etmişdir. Belə olmasa idi, şübhəsiz ki, o da laureatlar sırasında olacaqdı. Avropa opsionlarının dividendsiz səhmlərinin alınması və satılmasının qiymətləndirilməsi üçün nəzərdə tutulmuş Blek-Şoulz modelinin yaranma prosesini təsvir etdikdə görərik ki, burada retrospektiv məlumatlar və opsionların qiymətləri əsasında volativlik necə qiymətləndirilir. Təcrübədə Blek-Şoulz metodu nəinki opsionların dəyərinin hesablanması üçün, həm də digər maliyyə aktivləri üçün yararlı oldu.

Ekonometrik təhlillər apararaq, M.Şoulz həmkarı professor Ceffri Mark Volfsonla (*1934-2018*) müştərək vergi planlaşdırılması üçün nəzəriyyə işləyib hazırlamış, bununla da vergi işində

mühüm tədqiqatçılardan biri kimi də tanınmışdır. Lakin iş elə gətirmişdir ki, 2003-cü ildə M.Şoulz vergidən yayınma ilə bağlı qalmaqalın iştirakçısı olmuşdur. Bu, onun həmkarı P.Mertonla birgə 1994-cü ildə təsis etdiyi və maliyyə risklərinin idarə edilməsi strategiyası üzrə ən etibarlı tərəfdaş hesab olunan LTCM (*Long-Term Capital Management*) hedc-fondunun bir neçə ay ərzində gözlənilmədən iflasa uğraması nəticəsində baş vermişdir. Qalmaqalla bağlı məhkəmə prosesində dövlət tərəfindən ekspert kimi iqtisadiyyat üzrə daha bir Nobel mükafatçısı C.Stiqlis çıxış etmişdir.

1998-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı almış Hindistan iqtisadçısı A.Sen rifah iqtisadi nəzəriyyəsi sahəsində mühüm tədqiqatlar yerinə yetirmişdir. Bununla yanaşı, o, ictimai seçim nəzəriyyəsi, milli gəlir, aclıq problemləri istiqamətində də tədqiqatlar yerinə yetirmişdir. A.Senin işləyib hazırladığı, yoxsulluq statistikasında cəmiyyətin rifah dərəcəsini ölçən yeni indekslər sistemi və başqa indikatorlar geniş tətbiqini tapmışdır. Cəmiyyətin dəyərlərini təmsil edən rifah funksiyaları ilə sıx bağlı olan alimin bu işləri ictimai seçim nəzəriyyəsinin mühüm praktiki əlavəsi kimi nəzərdən keçirilir.

A.Senin metodikası insanların yoxsulluq səviyyəsindən *(poverty line*) nə qədər aşağı düşməsini göstərməyə, həmçinin iqtisadi mobilliyin (*economic mobility*) səviyyəsini aşağı salan amilləri (*social factors*), yəni insanların dəyişən iqtisadi şəraitə uyğunlaşmaq qabiliyyətini müəyyən etməyə imkan verir. Həlledici rolu olan belə amillər sırasına o, yoxsulların səhhətinin vəziyyətini (*poor health*) və təhsilin aşağı səviyyəsini şamil edir. A.Sen hesab edir ki, fərdi yardıma istiqamətlənmiş iqtisadi siyasət yoxsulluq səviyyəsindən bir neçə dollar aşağı səviyyədə olanlara yönəlmişdir, yoxsulluq girdabında dolaşanlara isə onun təsiri yetərsizdir.

A.Sen tədqiqatlarında müəyyən etməyə çalışmışdır ki, insanlar öz gəlirindən və əmlak vəziyyətindən asılı olaraq nə qədər qida məhsulları ala bilərlər. O, Hindistanda, Banqladeşdə, Efiopiyada və Mərkəzi Afrika ölkələrində aclıq problemlərini konkret tədqiq edərək, aclığın səbəbini, istisnasız olaraq, qida məhsullarının çatışmaması ilə bağlayan Qərb iqtisadi nəzəriyyəsindəki təsəvvürləri şübhə altına almışdır. O, göstərmişdir ki, başqa amillər, məsələn, xüsusilə inflyasiya spiralının inkişafı fonunda azalan əməkhaqqı, əlverişsiz hava şəraitindən və ya səhv iqtisadi siyasətlə bağlı olaraq ərzaq mallarının qiymətinin qalxması kimi amillər ərzaq bölgüsü prosesinə daha çox təsir edir və daha yoxsul əhali təbəqələri arasında aclıq problemini kəskinləşdirir. A.Senin əsərləri yoxsulluq probleminə daha geniş yanaşmanın yayılmasına kömək etmiş və inkişaf etməkdə olan ölkələrə iqtisadi yardım beynəlxalq siyasətə öz təsirini göstərmişdir. A.Sen BMT-nin insan inkişafı və insan potensialının inkişaf indeksi haqqında illik hesabatlarının konseptual strukturunun müəyyənləşdirilməsinə böyük töhfə vermişdir.

1999-cu ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülmüş R.Mandel pul və fiskal siyasətin, həmçinin optimal valyuta zonalarının təhlili sahəsindəki fundamental tədqiqatları ilə tanınmışdır. Büdcə və pul-kredit siyasətinin valyuta kursları rejimindən asılılığını xarakterizə edən modelin işlənib hazırlanması da ona məxsusdur. Bu model kapitalın tam mobilliyi zamanı müəyyən edilmiş məzənnə şəraitində pul-kredit siyasətinin və çevik valyuta məzənnəsi şəraitində büdcə siyasətinin qeyri-effektivliyini nəzərdə tutur. Bununla belə, R.Mandelin “optimal valyuta zonası” nəzəriyyəsi daha böyük şöhrət qazanmışdır. Bu nəzəriyyəyə görə, vahid valyuta tətbiq edən bir qrup ölkə qiymətlərin daha yüksək şəffaflığı, tranzaksiya xərclərinin aşağı düşməsi, qeyri-müəyyənliyin azalması və rəqabətin güclənməsi

səbəblərindən müəyyən iqtisadi qazanc əldə edir. Bu zaman ayrı-ayrı dövlətlər iqtisadi tənzimlənmənin müstəqil pul-kredit siyasəti və valyuta məzənnələrinin sərbəst təyin olunması kimi alətlərdən imtina etməlidir. "Asimmetrik şoklar" halında bu şəraitdəki vəziyyət mobil işçi qüvvəsi, əməkhaqqının çevikliyi və həmin "zona"nın mərkəzi pul orqanı tərəfindən həyata keçirilən maliyyə resurslarının yenidən bölgüsü sayəsində düzələ bilər. R.Mandelin bu nəzəriyyəsi Avropa İttifaqı çərçivəsində vahid valyuta məkanının formalaşması və Avropa inteqrasiyasının inkişafında yeni addım - dövriyyəyə yeni valyuta vahidi - avronun daxil edilməsi ilə (*1999*) konseptual əsaslandırma kimi qəbul edilmişdir. 1999-cu ildə məhz "optimal valyuta zonası" nəzəriyyəsini işləyib hazırladığına görə onun müəllifi şərəfli Nobel mükafatı laureatı adına layiq görülmüşdür.

R.Mandelin tədqiqatları həm də neoliberalizmin nəzəri əsası olmuşdur. Müasir iqtisadiyyat dərsliklərində bir neçə kiçik ölkənin ideal açıq iqtisadiyyat modeli üçün "Mandel-Fleminq modeli" adından istifadə edilir. Lakin təhlilin dərinliyinə, genişliyinə və gücünə görə R.Mandelin iqtisad elminə töhfəsi daha yüksək əhəmiyyəti ilə seçilir.

Böyük maliyyə bilicisi olan R.Mandelin mütərəqqi baxışları hələ 1970-ci illərin sonunda mühafizəkar hesab edilən bir çox siyasətçilərin diqqətini cəlb etmişdir. ABŞ hökumətində bu məsələ ətrafında yaranmış mübahisəyə baxmayaraq, R.Mandel öz fikrini müdafiə etməli olurdu. Hökumətdə bir tərəf hesab edirdi ki, artan büdcə kəsiri səbəbindən iqtisadi böhran baş verəcək. Digərləri isə düşünürdülər ki, vergilərin aşağı salınması ölkə iqtisadiyyatını xilas edə biləcək zəruri dərman rolunu oynayacaq. Bununla belə, praktiki olaraq, R.Mandelin həmkarlarının hamısı, həmçinin tanınmış siyasətçilər belə hesab edirlər ki, onun tədqiqat işi vergiqoymanın aşağı salınması tərəfinə istiqamətin inkişaf et-

diyi möhkəm təməl yaratmışdır. Maraqlı faktdır ki, ABŞ-ın mərhum Prezidenti R.Reyqanın özü 1980-ci ildə R.Mandelin fikir və ideyalarını fəal müdafiə edənlərdən olmuşdur.

2000-ci ildə selektiv seçimlərin nəzəriyyə və metodlarının işlənməsi sahəsindəki tədqiqatlarına görə iqtisadiyyat sahəsində Nobel mükafatı almış C.Hekman və D.Makfaddenin də iqtisad elminə verdiyi töhfələr mühümdür.

C.Hekmanının əsas elmi maraq sahəsi ekonometrika, əmək, əhali, insan resursları iqtisadiyyatıdır. Onun tədqiqatları çoxsaylı sosial proqramların iqtisadiyyata və bütövlükdə cəmiyyətə təsirinin qiymətləndirilməsi baxımından həm metodoloji, həm də emprik maraq doğurur. Görkəmli alim vergilərin əmək təklifinə və insan kapitalı sərmayələrinə, dövlət və özəl peşə təhsilinin əməkhaqqına və məşğulluğa, inkişaf etməkdə olan ölkələrdə həmkarlar ittifaqlarının əmək bazarına təsiri, həmçinin ixtisaslaşmış attestasiyaların əhəmiyyəti problemləri ilə məşğul olmuşdur. O, təsadüfi və şüurlu seçimin ekonometrik modellərini, bölgünün alternativ modellərini, longitud (*ingiliscə longitud - uzunmüddətli*) təhlil metodikasını işləyib hazırlamışdır.

C.Hekman vergilərin əmək təklifinə və investisiyaların insan kapitalına, dövlət və özəl peşə təhsilinin əməkhaqqına və məşğulluğa, inkişaf etməkdə olan ölkələrdə həmkarlar ittifaqlarının əmək bazarına təsiri, həmçinin, yüksək ixtisaslı attestasiya (*skill certification programs*) proqramlarının əhəmiyyəti problemləri ilə məşğul olmuşdur. O, həm də təsadüfi seçimin və ya diskret seçimin[12] ekonometrik modelləri, longitud təhlilin (*longitudinal analysis*) metodikalarının işlənib hazırlanması, əmək bazarının iqtisadiyyatı və gəlir bölgüsünün alternativ modelləri ilə də məşğul olmuşdur.

[12] Diskret seçim modelləri (*latınca - discretus - bölünmüş, aralıq, ingiliscə - discrete choice models - diskret seçim modelləri*) iki və ya daha çox alternativ arasındakı seçimi izah etməyə və proqnozlaşdırmağa imkan verən iqtisadi (*ekonometrik*) modellərdir. Diskret seçim modelləri iqtisadi subyektin və ya vəziyyətin bəzi xüsusiyyətlərinə əsaslanaraq bu və ya digər alternativi seçmə ehtimalını qiymətləndirməyə imkan verir.

C.Hekmanın əsərləri firmalar tərəfindən həyata keçirilən və təhlilinin predmeti təsərrüfat və investisiyalar daxilində xərclərin problemlər dairəsi olan sənaye təşkilatlarına, əmək bazarına və dövlət siyasətinin təsirinə qədər mikroiqtisadi tədqiqatlar sırasına aid olub, iqtisadi nəzəriyyə və statistikanın qovşağında yerləşir.

Mikroekonometrika mikroiqtisadi məlumatların təhlilinin metodologiyasını, yəni fərdlərin böyük qruplarının, təsərrüfat və ya firmaların cəlb olunduğu proseslərin iqtisadi informasiyasını təklif edir. Mikroiqtisadi məlumatların tətbiqi sahəsinin genişlənməsi və bu məlumatların kompüter emalının bütün artan imkanları bu gün hələ yaxın vaxtlara qədər ağlasığmaz görünən bir çox empirik tədqiqatların aparılmasını mümkün edir.

D.Makfaddenin elmi nailiyyətləri iqtisadi tədqiqatların dəqiqliyinin yüksəldilməsinə kömək etmişdir. Alimlər hələ D.Makfaddenə qədər də iqtisad elmi üçün mikrosəviyyənin mühümlüyünü dərk edirdilər. Lakin onlar, haqlı olaraq, dövrün texniki məhdudiyyətlərinin mikrosəviyyələrin yığılmasını və emalını son dərəcə əməktutumlu vəzifəyə çevirdiyini də bildirirdilər. Təcrübi məqsədlər üçün nəzəriyyəçilər bazarın bütün iştirakçılarını, istisnasız olaraq, rasional seçim həyata keçirmək qabiliyyətində olan "iqtisadiyyat adamı"na bərabər tutmalı olurdular.

Rasional "iqtisadiyyat adamı" konsepsiyası ilə bağlı problemlərdən yan keçmək üçün D.Makfadden real insanları - onların diskret seçimə təsir edən, iqtisadi nəticələri olan vərdiş və əqidələrini, nəyə üstünlük verdiklərini öyrənməyi qərara aldı. İş, həyat yoldaşı seçmək, uşaqların sayı - bütün bunlar fərdin iqtisadi vəziyyətinin asılı olduğu mümkün diskret seçimin bir neçə nümunəsidir, başqa şəxslərin diskret seçimi ilə birgə isə - bütün iqtisadiyyatın inkişafıdır.

D.Makfadden ən mühüm amillərin iqtisadi seçimə təsirini riyazi baxımdan hesablamağa uğurlu cəhd göstərmişdir. Seçim

prosesinin psixoloji tədqiqatlarına əsaslanaraq, o, multinominal lüngit-model işləyib hazırlamışdır ki, bu modelə görə, insanların onlara təklif edilən variantlardan birini mütləq seçməsi ehtimalı mövcuddur. Bu model müəyyən nəqliyyat növünə olan istehlak tələbinin mövcud variantlardan asılılığını aydınlaşdırmağa imkan vermişdir. Ondan ilk istifadə nümunəsi San-Fransisko sahillərində sürətli dəmir yolunun tikintisi olmuşdur.

D.Makfadden yerli sakinlərin işə gedərkən hərəkət üsulunun fərdi seçimini müəyyən edən amilləri tədqiq edərək, nəqliyyat planlaşdırılması prosesini təkmilləşdirmişdir. Kimsə işə avtomobillə gedir, digərləri piyada getməyi seçir, qalanlar isə dəmir yolundan istifadə etməyə hazır idi. Bu model sayəsində yanacağın qiymətinin qalxması, dəmiryol stansiyalarına əlçatanlığın artması, ömrün uzadılması kimi dəyişikliklərdən sonra bu və ya digər nəqliyyat növünü seçən insanların faizini dəqiq proqnozlaşdırmaq mümkün olmuşdur. Beləliklə, D.Makfadden ilk olaraq diskret seçim təhlilinin metodologiyasını təklif etmişdir. Bununla belə, Makfadden modelinin nəqliyyat problemlərini həll etmək üçün işlənib hazırlanmasına baxmayaraq, ondan başqa məqsədlər üçün də istifadə etmək olar. Alim öz metodundan yaşayış yeri və təhsil seçiminin, enerji və rabitəyə olan tələbin təhlilinin tədqiqi zamanı istifadə etmişdir.

2001-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatını bazarları asimmetrik informasiya prinsiplərinə əsasən təhlil etdiklərinə görə C.Akerlof, M.Spens və C.Stiqlis almışlar.

C.Akerlof informasiya iqtisadiyyatının banisi kimi bu sırada müasir dövrün ən orijinal iqtisadçılarından bir olaraq tanınır. Ona dünya şöhrəti və daha sonra 2001-ci ildə Nobel mükafatı gətirən 1970-ci ildə yazdığı “Limonlar bazarı” adlı məqaləsi olmuşdur. C.Akerlofun sonra yazdığı digər bir məqaləsini dərc etdirmək cəhdi müqavimətlə qarşılanmışdır. Redaktorlar gənc iqtisadçıya

məqalədə toxunulan problemlər adi olduğu üçün ciddi akademik jurnalda dərc edilməyə yaramadığını bildirmişlər. Lakin məqalə dərc edildikdən sonra iqtisad elmində sensasiyaya yaratmışdır. Əlbəttə, həmin məqalənin predmeti sitrus bitkiləri və ya “limon” bazarı deyildir. Bir jarqon olaraq Amerikada işlənmiş avtomobilləri “limon” adlandırırdılar. Belə avtomobillər sürəkli istifadə olunmasına baxmayaraq, xarici görünüşlərinə görə aşınma dərəcəsi çətin müəyyən edilirdi. Bu kontekstdə C.Akerlof müasir bazarlarda tez-tez rast gəlinən informasiyanın asimmetrikliyi problemini: satıcının satdığı malın keyfiyyəti haqqında alıcıdan çox məlumatlı olduğu halı nəzərdən keçirmişdir. Əgər alıcı çox aşınmış avtomobili yaxşı avtomobildən fərqləndirə bilmirsə, satıcı isə onları eyni dərəcədə tərifləyirsə, kifayət qədər elementar məntiqi düşüncə yolu ilə belə nəticəyə gəlmək olar ki, “limonlar” bazarında mənfi seçim olacaq. Yəni yaxşı maşınlar alıcıların əlində qalacaq, pislər isə yenidən satılmaq üçün bazara qayıdacaqdır. Sonda, lazımi tədbirlər görülməsə, bazar dağılacaq və burada yalnız pis maşınlar qalacaqdır. C.Akerlofun məqaləsində “limonlar” bazarı abstrakt səviyyədə nəzərdən keçirilsə də, sonralar empirik tədqiqatlar bu nəticələri təsdiqləmişdir.

İşlənmiş avtomobillər bazarı C.Akerlofun kəşf etdiyi informasiyanın asimmetrikliyi effektinin təzahürünün yeganə və ən aktual nümunəsi olmamışdır. Hindistanda iş təcrübəsini xatırlayan C.Akerlof 1960-cı illərdə bu ölkənin kredit bazarlarında əks seleksiya - kənd sələmçilərinin faiz dərəcəsini böyük şəhərlərdə qəbul edilmiş dərəcələrdən iki dəfə çox müəyyən etdikləri barədə yazırdı. Məsələ burasındadır ki, bu sələmçilər rəqabətdən qurtulmuşlar. Şəhərdə kredit götürərək kənd sakinlərini kreditləşdirən dəllallar isə borcalanların ödənişqabiliyyətliliyi haqqında məlumatlı deyildirlər və buna görə də riskə girərək belə borcluları cəlb etməklə müflisləşə bilərlər. Bu vəziyyət vahid

bazar infrastrukturu olmayan "üçüncü dünya" ölkələrinin əksəriyyəti üçün tipikdir (*1990-cı ildən isə bir çox keçid iqtisadiyyatlı ölkələr üçün də*). "Limonlar" bazarına başqa misal qiymətli kağızlar bazarındakı adekvat vəziyyətlə bağlıdır. Belə ki, yalnız səhmlərin buraxılışını təşkil edənlər onların etibarlılığı barədə düzgün informasiyaya malik olurlar, alıcılar isə satıcıların sözlərinə inanmağa məcburdur. Postsovet respublikalarında 1990-cı illərin birinci yarısında səhm "qızdırması" C.Akerlofun "limonlar" bazarının deqradasiyası haqqında qəanətlərini təsdiq etdi.

C.Akerlof, həmçinin əmək bazarında milli azlıqların ayrı-seçkiliyi problemini də tədqiq etmişdir. Bu mövzu C.Akerlofu iqtisadi nəzəriyyə ilə sosiologiyanın qovşağına və eyniliklə də iqtisadi təhlilə neoklassik iqtisadi nəzəriyyə üçün qeyri-ənənəvi olan - insanlar arasında simpatiya və hörmət kimi amillərin daxil edilməsinə gətirdi. C.Akerlofun digər elmi marağı kasta sistemi (*bağlı qruplar - klanlar*) və onun iqtisadi effektivliyə neqativ təsiri olmuşdur.

Diqqəti elmi tədqiqatlarının hər hansı dar sahəsində cəmləşdirən bir çox həmkarlarından fərqli olaraq, C.Akerlof elmi maraqlarının son dərəcə geniş diapazonu ilə də seçilmişdir. O, iqtisadiyyatı sosiologiya, psixologiya, antropologiya və digər ictimai elmlərlə birləşdirməyə çalışır. C.Akerlofun yazdığı onlarla məqalə arasında yoxsulluğun iqtisadi təhlili, milli ayrı-seçkilik, hind kasta sistemi, cinayətkarlıq, valyuta siyasəti, əmək bazarları və s. haqqında tədqiqatları göstərmək olar.

Eyni nailiyyətlər üzrə mükafat almış M.Spens isə "iş yerləri bazarının siqnal modeli" ilə tanınmışdır. Onun bu modeli sonralar müqavilələr nəzəriyyəsinin təkmilləşdirilməsinə əsaslar yaratmışdır.

M.Spensin "bazar siqnalları" nəzəriyyəsinə görə, satıcılar öz xidmətlərinin keyfiyyəti barədə alıcılara əlavə məlumat təklif et-

məklə satış həcmini artırmaq imkanı qazanırlar. Əlavə məlumat kimi firma nişanları, zəmanətlər, tövsiyələr, yüksək qiymətləndirmə çıxış edə bilər. Siqnalların ötürülməsi tələb edir ki, iqtisadi agentlər başqa agentləri öz işgüzar imkanlarına, məhsulun dəyərinə və keyfiyyətinə inandırmaq üçün baha başa gələn tədbirlər həyata keçirsinlər. Siqnal ötürücüləri, yəni iş yerinə namizədlər arasında buna sərf edilən xərclər fərqli olmazsa, bu zaman siqnalların ötürülməsi də uğurlu olmayacaqdır. İşəgötürən namizədlər arasında daha yüksək və buna müvafiq olaraq, daha baha başa gəlmiş təhsili olanları seçir. Təhsil səviyyəsində fərq yoxdursa, işəgötürən namizədlərdən hansının daha məhsuldar olmasını müəyyən edə bilmir.

M.Spens, həmçinin əmək bazarı və təhsil xidmətləri üçün gözləntilərə (*expectations-based equilibria*) əsaslanan iqtisadi tarazlıq imkanını da göstərmişdir. Onun interpretasiyasında, eyni məhsuldarlığa malik olsalar da, Avropa irqli kişilərin qadınlar və qara dərililərlə müqayisədə daha yüksək əməkhaqqı almaq potensialı vardır.

M.Spens siqnalların ötürülməsi ideyasını inkişaf etdirərək, onların bir neçə müxtəlif növünü nəzərdən keçirmişdir:

- məhsuldarlıq siqnalı: bahalı reklam və istehsalçıların geniş zəmanətləri;
- güclü rəqabət mövqeləri siqnalı: qiymətlərin və satışın aqressiv enməsi;
- yüksək gəlirlər siqnalı: firmanın fəaliyyətinin səhmlərin emissiyası hesabına deyil, istiqrazların buraxılışı hesabına genişlənməsinin maliyyələşdirilməsi;
- pullu hakimiyyət orqanlarının kompromisə getmədən yüksək inflyasiya ilə bacarmaq cəhdinin siqnalı: restruktiv pul-kredit siyasəti.

Siqnallar nəzəriyyəsində korporasiyalar tərəfindən dividend-

lərin ödənilməsi siyasəti xüsusi yer tutur. Nəyə görə korporasiyalar öz səhmdarlarına dividendlər verirlər? Baxmayaraq ki, bu ödənişlərdən əvvəlcə korporasiyanın gəlirləri kimi, sonra ayrı-ayrı şəxslərin gəlirləri kimi ikiqat vergi tutulur. Korporasiya bütün gəlirləri özünə saxlayarsa və onları öz fəaliyyətini genişləndirməyə sərf edərsə, müəssisə də böyüyər, səhmdarlar da səhmlərin məzənnəsinin artması hesabına qazanardı. Bununla belə, korporasiyalar dividendlərin ödənilməsi siyasətini yürütməkdə davam edirlər. Cavab ondan ibarətdir ki, dividendlər korporasiyanın və onun əla perspektivlərinin rifah siqnalıdır. Bazar oyunçuları dividendləri yaxşı məlumat kimi interpretasiya edir və səhmlərin məzənnəsi artır.

İnformasiya iqtisadiyyatı üzrə tədqiqatlardan başqa, M.Spens sığorta bazarlarının təhlili, sənaye təşkilatı nəzəriyyəsi, elektron kommersiyanın iqtisadiyyatı ilə də məşğul olmuşdur. Lakin alimin bu sahələrdə tədqiqatları o qədər də məşhur deyildir.

Özün bu sahədəki geniş elmi səviyyəliliyi ilə fəqlənən C.Stiqlisin təqdiqatlarında informasiya iqtisadiyyatı geniş yer tutur. O, amerika iqtisadçısı Sanford Cey Qrossmanla (*1953*) həmmüəllif olduğu və “İnformasiya və rəqabətli qiymət sistemi” (*“Information and competitive price systems”. - 1976*) kitabında toplanmış bir sıra novator məqalələrində göstərmişdir ki, iqtisadi agentlərin bazar tərəfindən təqdim olunan alternativ imkanlar haqqında məlumatlı olması kimi ənənəvi yanlışlıq heç də göründüyü qədər sadə deyildir. Ondan imtina etdikdə (*əslində, elə belə də etmək lazımdır*), realist olsaq, nəinki israr etmərik ki, mükəmməl rəqabət iqtisadi rifahı optimallaşdırır, hətta mükəmməl rəqabətin mütləq tələb və təklifin bərabərliyinə gətirəcəyi barədə də heç danışa bilmərik. Mükəmməl rəqabət üçün ədalətli olan isə inhisarçı rəqabət və oliqopoliya üçün də ədalətlidir. Bu məqalələr texniki cəhətdən mürəkkəb olub, daha çox sığorta xidmətləri bazarlarının

təhlilinin nəticələrini ümumiləşdirir. Burada ifadə edilmiş nöqteyi-nəzər hələ iqtisadiyyat üzrə dərsliklərdə özünə yer almamışdır, halbuki C.Stiqlisin özünün yazdığı "İqtisadiyyat" dərsliyi (*Economics, W.W.Norton. - 1993*) yaranmış vəziyyəti kökündən dəyişməyin ilk cəhdi olmuşdur. Lakin C.Stiqlisin informasiya iqtisadiyyatı sahəsində kəşfləri tranzaksiya xərclərinə, mülkiyyət hüquqlarına, qeyri-müəyyənlik şəraitində natamam kontraktlara və qərar qəbuletmənin təhlilinə olan diqqətin artmasının daha geniş meylinin yalnız bir elementidir ki, bu da artıq tələbələrin təhsilinə təsir etməyə başlamışdır: bu gün birinci kurs tələbələrinin mənimsədiyi sadə həqiqətlərdən çoxu vaxtilə orta və yuxarı kurs tələbələri üçün naməlum olaraq qalırdı.

C.Stiqlis, eyni zamanda, effektiv ödəniş üzərində də araşdırmalar aparmışdır və niyə işsizliyin olduğunu, niyə maaşların iş axtaranların nəzarətində olmadığını və neoklassik paradiqmanın könülsüz işsizliyə cavab verib-vermədiyini araşdırmışdır, Şarpiro-Stiqlis modelinin yaradılmasında iştirak etmişdir.

C.Stiqlis intəhasız bazarın, monetarizmin və neoklassik siyasi iqtisad məktəbinin və eyniliklə də qloballaşmanın neoliberal qavranılmasının, Dünya Bankının, BVF-nin inkişaf etməkdə olan ölkələrdəki və Rusiyadakı siyasətinin kəskin tənqidçilərindəndir. "Mən o qədər də sadəlövh deyiləm ki, bazarın özü-özlüyündə sosial problemləri həll etməsinə inanım. Bərabərsizlik, işsizlik, ətraf mühitin çirklənməsi dövlətin fəal müdaxiləsi olmadan həll edilə bilməz".

2002-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına müştərək olaraq iqtisadi psixologiya sahəsindəki tədqiqatlarına görə D.Kaneman və V.Smit layiq görüldülər.

Bu mükafatı iqtisadi qeyri-müəyyənlik şəraitində qərar qəbul etmədə psixoloji aspektlərin öyrənilməsinə görə alan D.Kaneman sübut etmişdir ki, insanların qəbul etdikləri qərarlar "homo eco-

nomicus" (*iqtisadiyyat adamı*) standart iqtisadi modelində nəzərdə tutulanlardan əhəmiyyətli dərəcədə kənara çıxır. D.Kanemana qədər də "iqtisadiyyat adamı" modelini tənqidi edənlər olmuşdur (*məsələn, Nobel mükafatı laureatları H.Saymon və M.Alleni xatırlamaq olar*). Ancaq məhz D.Kaneman və həmkarları qərar qəbuletmə psixologiyasını ilk dəfə olaraq sistematik şəkildə öyrənməyə başlamışlar.

D.Kaneman israilli həmkarı Amos Tverski ilə birlikdə həm də "davranış iqtisadiyyatı" (*behavioral economics*) adlanan elmi istiqamətin də əsasını qoymuşdur. Onların apardıqları çoxsaylı sınaqlarda adamlara müxtəlif alternativlər arasında seçim aparmaq təklif olunmuşdur. Bu eksperimentlər göstərmişdir ki, adamlar nə gözlənilən qazanc və itkilərin kəmiyyətini, nə də bununla bağlı ehtimalları rasional qiymətləndirə bilirlər. Birincisi, aşkar edilmişdir ki, itirəcəklərindən və ya qazanacaqlarından asılı olaraq, insanlar qazanc və itkilərin nisbəti nöqteyi-nəzərindən ekvivalent situasiyalara müxtəlif cür reaksiya verirlər. Bu hadisə "rifah dəyişikənliyinə asimmetrik reaksiya" adlandırılır. İnsan itkidən qorxur, yəni onun itki və qazanc hissləri qeyri-simmetrikdir: məsələn, 100 ABŞ dolları qazanc əldə etməkdən insanın məmnunluğunun dərəcəsi həmin məbləğin itkisindən yaranan məyusluğun dərəcəsindən xeyli aşağı olur. Buna görə də insanlar itkidən qaçmaq üçün risk etməyə hazırdılar, amma qazanc üçün risk etməyə meyilli deyillər. İkincisi, eksperimentlər göstərmişdir ki, insanlar ehtimalların qiymətləndirilməsində səhv etməyə meyillidirlər. Belə ki, onlar baş verəcəyi şübhə doğurmayan hadisələrin mümkünlüyünü gərəyincə qiymətləndirmir və ağlabatanlığı daha az olan hadisələr barədə ehtimalları şişirdirlər. Alimlər maraqlı bir qanunauyğunluq aşkarlamışlar: hətta ehtimal nəzəriyyəsini yaxşı bilən riyaziyyatçı-tələbələr belə real həyat situasiyalarında öz biliklərindən istifadə etmir, mövcud stereotiplərə, xurafat və emosiyalara əsaslanırlar.

D.Kaneman və A.Tverski ehtimal nəzəriyyəsinə əsaslanan qərar qəbuletmə nəzəriyyəsinin əvəzinə yeni nəzəriyyə - perspektiv nəzəriyyə (*prospect theory*) təklif etmişlər. Bu nəzəriyyəyə görə, normal insan mütləq ifadədə gələcək qazanclarını düzgün qiymətləndirməyə qabil deyil və o, əslində, həmin qazancları, hər şeydən əvvəl, öz vəziyyətini pisləşdirməməyə can atmaqla, hamı tərəfindən qəbul edilmiş bir sıra standartlarla müqayisədə qiymətləndirir. İnsanların "iqtisadiyyat adamı" mövqeyindən izah edilə bilməyən bir çox qeyri-rasional hərəkətlərini "perspektiv nəzəriyyəsi"nin köməyi ilə izah etmək mümkündür.

Uzun müddət belə hesab edilmişdir ki, iqtisadiyyat - nəzəri ideyaların təcrübədə yoxlanılması, prinsipcə, mümkün olmayan elmlərə aiddir. İqtisadi tədqiqatlarda eksperimental metodların tədqiqinə görə Nobel mükafatına layiq görülmüş V.Smit bu fikri təkzib etmişdir. O, eksperimental iqtisadi nəzəriyyənin (*experimental economics*) - təsərrüfat həyatının real situasiyalarını, əvvəllər olduğu kimi, riyazi modellərlə deyil, insanlarla aparılan təcrübələrdə canlandıran nəzəri istiqamətin əsasını qoyanlardan və onun aparıcı nümayəndələrindən biri olmuşdur.

Tarazlı qiymətlərin formalaşdırılması, hərrac və fond birjalarının işlərinin modelləşdirilməsi üzrə V.Smitin apardığı təcrübələr daha məşhurdur. Bu təcrübələr, əsasən, ənənəvi iqtisadi nəzəriyyələri təsdiq etmişdir. V.Smitin yazdığı kimi, "özü də gözləniləndən də yaxşı təsdiqini tapır, ələlxüsus, bu konsepsiyaları yoxlamağın ümumiyyətlə mümkünlüyünün əvvəllər heç kimin ağlına gəlmədiyini nəzərə aldıqda..."

V.Smitlə eyni vaxtda iqtisadi nəzəriyyənin yoxlanması ilə məşğul olan, lakin tam başqa nəticələrə gəlmiş, onun keçmiş opponenti Nobel mükafatı ortağı D.Kanemanın fikrincə, iqtisadi psixologiyanın məlumatları iqtisadiyyatın ənənəvi aksiomlarını təsdiq yox, inkar edir. D.Kanemanın sorğu nəticələri ilə V.Smitin eksperimentləri arasındakı ziddiyyətləri onunla izah etmək olar

ki, birincisi insanlara “vahid” situasiya təklif edildikdə onların davranışlarını, ikincisi isə bir-biri ilə davamlı qarşılıqlı münasibətləri şəraitində insanların davranışlarını tədqiq etmişdir.

2003-cü ildə iqtisadiyyat üzrə Nobel mükafatına, müştərək olaraq, R.İnql və K.Qrencer layiq görülmüşlər.

R.İnql bu mükafatı zaman dəyişmələri ilə bağlı iqtisadi müvəqqəti sıraların təhlili metodunu işlədiyinə görə almışdır. 1979-cu ildə M.Fridmanın inflyasiya gözləntiləri konsepsiyasını nəzərdən keçirən R.İnql belə hesab etmişdir ki, gələcək qiymətlər haqqında qeyri-müəyyənlik zamanla dəyişə bilər. Gələcək inflyasiya haqqında qeyri-müəyyənliyin yüksək olması resessiya təhlükəsi doğurur. Belə vaxtlarda şirkətlər investisiyalar qoymağa çəkinir, əhali isə istehlakı azaldır.

Ekonometrik tədqiqatlar aparan alim bazarda sakitliyi tsiklik dəyişən yüksək qeyri-müəyyənlik olan dövrlərin proqnozlaşdırılması üçün “avtoreqressiv şərti heteroskedastiklik modeli”ni (*ingiliscə abberviaturası - ARCH*) işləyib hazırlamışdır. Sonra R.İnql öz məsləkdaşları ilə birlikdə iqtisadi göstəricilərin tərəddüdlərinin dəqiq proqnozlaşdırılması üçün ixtira edilmiş bu aləti bir neçə dəfə təkmilləşdirmişdir. 1982-ci ildə isə aşkar etmişdir ki, ARCH modeli iqtisadiyyatda rast gəlinən müvəqqəti sıralar çoxluğunu çox dəqiq təsvir edir.

ARCH modeli və onun çoxsaylı variasiyaları təkcə alimlərin deyil, ondan səhmlərin və investisiya portfellərinin dəyərinin qiymətləndirilməsi üçün istifadə edən maliyyə analitiklərinin də arsenalında layiqli yer tutmuşdur. Məsələn, gələcək volatilliyin hesablanması opsionların və maliyyə derivativlərinin qiymətlərinin müəyyən edilməsində mühüm rol oynayır.

1996-cı ildən Beynəlxalq Bazel Müqavilələri Mərkəzi banklar tərəfindən bank aktivlərinin risklərinin mütləq qiymətləndirilməsini nəzərdə tutur. Deməli, İnql modeli bank kapitalının

əvəzedilməz tənzimlənmə və nəzarət vasitəsinə çevrilmişdir. Həmçinin, İnql modelləri ÜDM-in və valyuta məzənnəsinin inflyasiyasının öyrənilməsi zamanı da istifadə olunur.

İqtisadiyyatda müvəqqəti sıraların təhlilinin kointeqrasiya metodunun işlənməsinə görə Nobel mükafatı almış K.Qrencerin tədqiqatlarının əsas mövzusu mühüm iqtisadi göstəricilər arasında qarşılıqlı əlaqələrin öyrənilməsi ilə bağlıdır. Bu qarşılıqlı əlaqələri uzun zaman fasilələri - zaman sıraları üçün iqtisadi göstəricilərin qiymətləri haqqında məlumatların köməyilə təhlil edirlər. Makroiqtisadi müvəqqəti sıraların çoxu onunla xarakterizə edilir ki, onlar trenddən (*baza meyli*) və volatillikdən (*trend ətrafında təsadüfi tərəddüdlər*) ibarətdir. Onun Nobel mükafatı üzrə həmkarı R.İnql volatilliyi öyrənməyi ilə məşhurdursa, K.Qrencerin özünün başlıca əsərləri trendin dəyişməsinə həsr edilmişdir.

1974-cü ildə K.Qrencer göstərmişdir ki, stasionar sıraların təhlili üçün tətbiq edilən statistik metodlar (*trend daimi olduqda*), onları dinamik sıralar üçün tətbiq etdikdə (*dəyişən trendlə*), düzgün olmayan nəticələr verə bilər.

Təhlilin ənənəvi statistik metodları, bir-birindən heç cür asılı olmayan göstəricilərin qarşılıqlı əlaqəsini göstərən zaman statistik tələ meydana gətirə bilər. Bu tələdən yan keçmək üçün K.Qrencer 1980-ci illərdə statistik təhlilin yeni metodunu işləyib hazırlamışdır. Bununla aşkar olundu ki, trendin dəyişməsinin müəyyən kombinasiyaları zamanda dəyişməz qala bilər ki, bu da stasionar sıralar üçün hazırlanmış metodlardan istifadə edərək, statistik nəticələri düzəltməyə imkan verir. K.Qrencer bu metodu kointeqrasiya (*cointegration*) adlandırmışdır.

Onun işləyib hazırladığı ekonometrik, iqtisadi-statistik təhlilin metodları iqtisadçılara uzunmüddətli meyilləri daha yaxşı izah etməyə və iqtisadiyyatın inkişaf yollarının daha dəqiq proqnozlarını qurmağa imkan verir.

2004-cü ildə E.Preskott və F.Kidland iqtisadiyyat üzrə Nobel mükafatını müştərək yeinə yetirdikləri iki əsərdə təqdim etdikləri işə görə almışlar. 1977-ci ildə yazdıqları birinci "Qaydalar hüquqlardan önəmlidir: optimal planların yetərsizliyi" (*Rules rather than discretion: the inconsistency of optimal plans*) adlanan əsərdə müəlliflər bildirirdilər ki, iqtisadi planlaşdırmanın və siyasətin məqsəd və vəzifələri - iqtisadiyyatda arzuolunan reaksiya doğurmaqdır. Onlar göstərirdilər ki, dövlətin gələcək iqtisadi siyasətinin proqnozlaşdırılan nəticələrindən gözləntilər elə həmin siyasətin özünün dayanıqsızlığına, hətta iflasına gətirib çıxara bilər. Bu prosesin modelləşdirilməsi ilə məşğul olan alimlər oyunlar nəzəriyyəsinin köməyilə aşkar etmişlər ki, iqtisadi siyasət, son nəticədə, hökumətin ardıcıl olaraq dəqiq müəyyənləşdirilmiş iqtisadi qaydalara riayət edərək alacağı nəticələrdən də pis nəticə verəcəkdir.

Bəzi hallarda cəmiyyət və hökumət "oyun"u, ümumiyyətlə, bütün iqtisadiyyatın qeyri-sabitliyinə gətirib çıxarar. Buradan, təbii olaraq, onların nəzəriyyəsindən irəli gələn belə praktiki nəticə əldə etmək olar ki, dövlət həmişə cari siyasi konyunkturdan asılı olmamalı və aşağı inflyasiya tərəfdarı kimi tanınmalıdır.

1982-ci ildə E.Preskott və F.Kidland yazdıqları ikinci, "Quruculuq vaxtı və aqreqat tərəddüdlər" (*Time to build and aggregate fluctuations*) adlı əsərdə iqtisadi tsikllərin hərəkətverici qüvvələrinin nəzəri şərhini verdilər. Onlar göstərdilər ki, iqtisadi tərəddüdlərin əsas hərəkətverici qüvvəsi "təklif şokları", yəni texnoloji dəyişikliklərdir. Preskott-Kidland modelində biznes-tsikl aşağıdakı şəkildə görünür: əvvəlcə əmək məhsuldarlığı artmağa başlayır, bu isə, təbii olaraq, əməkhaqqının artmasına səbəb olur. Buradan görünür ki, insanlar çox işləyir, az dincəlirlər. Onlar bu gün nə qədər çox işləyərsə, sabahkı asudə vaxtlarını daha yüksək qiymətləndirərlər. Ona görə də, əgər əməkhaqqının yeni səviyyəsi

daha artmırsa, əmək məhsuldarlığı stabilləşir, bəzən isə aşağı düşməyə başlayır - bu, növbəti texnoloji "təkan" nəticəsində sona yetə bilən resessiyadır. Neqativ "təklif şokları" zamanı (*məsələn, neftin qiyməti kəskin artarsa*) onların təklif etdikləri model dəqiqliyi ilə əksinə görünür.

Beləliklə, E.Preskott və F.Kidland müasir iqtisadi tərəddüdlər nəzəriyyəsinin baniləri hesab edilir.

2005-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına, müştərək olaraq, R.Aumann və T.Şellinq layiq görülmüşlər. Onlar bu mükafatı oyunlar nəzəriyyəsinin təhlili ilə münaqişə və əməkdaşlıq haqqında bilikləri zəngiləşdirdiklərinə görə almışlar. Nobel Mükafatları Komitəsi ikinci dəfə idi ki, oyunlar nəzəriyyəsinin tədqiqini mükafatlandırırdı (*birinci dəfə 1994-cü ildə "Qeyri-kooperativ oyunlar nəzəriyyəsində tarazlığın fundamental təhlilinə görə"*).

R.Aumannın əsərlərində sübuta yetirilir ki, təkrarlanan kooperativ oyunlarda oyunçulardan hər birinə öz tərəfdaşlarının maraqlarını gözləmək daha sərfəlidir. Belə ki, onlar sürətli qazanc dalınca qaçarlarsa, tərəfdaşlarının etibarını itirər və uzunmüddətli perspektivdə onların itkiləri qazanclarından artıq olar. R.Aumann oyun iştirakçılarının sayının kooperativ oyunlara təsirini, onların qarşılıqlı əlaqələrinin müntəzəmliyini, proqnozlaşdırmaların keyfiyyətini, digər oyunçuların hərəkətlərinin müəyyənlik dərəcəsini də tədqiq etmişdir. Onun tədqiqatlarının nəticələrindən bazar sövdələşməsinin hər bir iştirakçısının müqavilələrin vicdanla yerinə yetirilməsində maraqlı olduğu təqdirdə bazarın "görünməz əli"nin fəaliyyət mexanizminin izah edilməsində istifadə olunur. Bu nəticələr sübut edir ki, məsələn, bir neçə iri şirkətin rəqabəti zamanı onlara "qiymət müharibəsi" aparmaq yox, satış bazarlarını bölüşdürmək barədə razılığa gəlmək daha sərfəlidir.

R.Aumannın tədqiqatları hərbi münaqişələr nəzəriyyəsinə də

təsir göstərmişdir. 1964-1965-ci illərdə o, Silahlanmaya Nəzarət üzrə Amerika agentliyində işləyərək, Silahlar üzərində nəzarət haqqında Cenevrə Sazişi üzrə danışıqların aparılması üçün ABŞ-ın optimal strategiyasını işləyib hazırlamışdır. O, özünün "Hərb və sülh" adlı Nobel mühazirəsində uzunmüddətli hərbi münaqişələri (*məsələn, ərəb-İsrail müharibələrini*) təkrarlanan oyunlar kimi nəzərdən keçirməyi təklif etmişdir. R.Aumann sübut etmişdir ki, belə oyunlarda razılaşma siyasəti yeni güzəştlərə ümid doğurur və obyektiv olaraq yeni müharibələrə aparır. Buradan da belə bir praqmatik nəticəyə gəlir ki, bu halların qarşısını almaq üçün gerçək müharibə təhlükəsi yaradan silahlanma daha səmərəlidir. Beləliklə, R.Aumannın konsepsiyasına görə, sülh istəyirsənsə, açıq-aşkar müharibəyə hazırlaşmalısan.

Bir çox başqa institusionalçı-iqtisadçılar kimi, T.Şellinq üçün də tədqiqatların tematik çoxcəhətliliyi səciyyəvidir. O, özünün məşhur "Münaqişələrin strategiyası" əsərində səmərəli strateji qarşılıqlı əlaqələrin yeni prinsiplərini ifadə etmişdir. T.Şellinqin fikrincə, "oyunçular"ın uzunmüddətli qarşılıqlı əlaqəsi gedişində fokal nöqtələr (*focal points)* - tərəflərin qarşılıqlı olaraq daha çox üstünlük verdikləri haqqında biliklərlə əlaqədar hər tərəf üçün sərfəli qərarlar formalaşır. Bu zaman münaqişə iştirakçısı öz mövqelərini düzgün öhdəliklər (*credible commitments*) - heç nəyə baxmayaraq, seçilmiş strategiyaya riayət edəcəyini inandırıcı sübutlar təqdim etməklə gücləndirə bilər. Xüsusilə də, qızğın nüvə silahlanmasında müdafiə obyektləri hər şeydən əvvəl şəhərlər yox, raket şaxtaları olduğu zaman avtomatik cavab zərbəsi konsepsiyasına riayət etmək sərfəlidir.

Münaqişə iştirakçıları arasında danışıqlar prosesində ən sərfəlisi "yalan"dır, belə ki, bu zaman öz mövqeyini möhkəmləndirmək üçün tərəflərdən biri biləkdən opponentinin mövqeyi haqqında məlumatlı olduğunu gizlədir. Məsələn, nüvə silahı

haqqında danışıqlar prosesində rəqibin avtomatik cavab zərbəsi endirməsi imkanına və niyyətinə inanmamağı göstərmək sərfəli ola bilər.

Müasir siyasi iqtisad - politoloji problemlərin iqtisadi təhlili ilə yanaşı, T.Şellinq insan fəaliyyətinin bir çox başqa sahələrində də strateji qarşılıqlı əlaqələri öyrənirdi. Məsələn, alim mütəşəkkil cinayətkarlığı tədqiq edərkən belə bir nəticəyə gəlmişdir ki, onun məqsədi cəmiyyətin məqsədləri ilə üst-üstə düşür (*xüsusilə də, mütəşəkkil cinayətkarlıq özü də polisin fəallığının artmasına gətirib çıxaran qətllərin minimuma endirilməsində maraqlıdır*). Buna görə də cəmiyyət üçün mütəşəkkil cinayətkar birliklərin saxlanması "mafiya ilə müharibə"dən daha sərfəli ola bilər. İqtisadçılar arasında sosiomədəni problemləri - məsələn, ərazi seqreqasiyasının formalaşması səbəblərini (*getto, "çaynataun" törəmələri və s.*) öyrənənlər sırasında məhz T.Şellinq birincilərdən olmuşdur.

Birlikdə fəaliyyət göstərərkən insanların öz faydalarını dərhal deyil, uzun müddət ərzində maksimallaşdırmağa çalışması zamanı strateji cəhətdən rasional davranışın öyrənilməsi - ümumi metodoloji yanaşma kimi onun elmi işlərinin əsasını təşkil edir. Banilərindən birinin T.Şellinq hesab edildiyi oyunlar nəzəriyyəsi də məhz bu davranışı öyrənir.

T.Şellinqin ideyaları birmənalı olmayan qiymətləndirmələr doğurur. Bir tərəfdən, 2005-ci ildə ona Nobel mükafatının verilməsi qərarı elan edildikdən sonra İsveç Kral Akademiyasına bu qərarı ləğv etmək çağırışı ilə açıq məktub daxil olmuşdu ki, həmin məktub oyunlar nəzəriyyəsinin tədqiqatçılarını ABŞ və İsrail hərbi siyasəti üçün nəzəri əsas hazırlamaqla "müharibəyə yardımda" ittiham edirdi. Onu, xüsusilə də, ideyalarının Vyetnamda 1960-cı illərin Amerika güc strategiyasının əsası olduğu üçün ittiham edirdilər. Antiqlobalçılar da T.Şellinqi 2000-ci ildə

ABŞ Prezidenti kiçik C.Buşun hökumətini Kioto protokolunu imzalamaqdan imtina etdiyini dəstəklədiyinə görə günahlandırırlar. Digər tərəfdən, bir çoxları qeyd edirdilər ki, 2005-ci ilin iqtisadiyyat üzrə Nobel mükafatı, ikinci Nobel sülh mükafatıdır. Məsələ burasındadır ki, T.Şellinq 1950-1970-ci illərdə yazdığı əsərlərində sübuta yetirir ki, xarici siyasətə rasional yanaşdıqda, nüvə silahının artması (*habelə adi silahlanmadan istifadə etməklə*) qızğın silahlanma iştirakçıları arasında hər hansı hərbi münaqişə ehtimalının azalmasını şərtləndirir. T.Şellinqin dəlilləri ABŞ nüvə strategiyasının əsasını təşkil edib və ona gətirib çıxarıb ki, nüvə arsenalının artımı qlobal hərbi münaqişəyə səbəb olmayıb. Hələ 1993-cü ildə Karib böhranının 30 illiyi münasibətilə T.Şellinq "nüvə müharibəsinin qarşısının alınması" ilə bağlı əsərlərinə görə ABŞ Milli Elmlər Akademiyasının mükafatına layiq görülmüşdür.

2006-cı ildə iqtisadiyyat sahəsində Nobel mükafatı makroiqtisadi siyasətdəki aralıq ticarət dövriyyələrini təhlil etdiyinə görə E.Felpsə verilmişdir. O, iqtisadi baxışlarına görə neokeynsçi hesab olunur. E.Felps M.Fridmanla təxminən eyni dövrdə - 1967-ci ildə müstəqil olaraq özünün "təbii səviyyə" hipotezini söyləmişdir. Bu hipotezin mahiyyəti ondan ibarətdir ki, hər bir iqtisadiyyat üçün əməkhaqqının və qiymətlərin dəyişilməsi ilə bağlı fərdlərin gözləntilərinin bu dəyişikliklərin gerçək səviyyəsinə tam uyğun gəldiyi "təbii" və ya tarazlı məşğulluq səviyyəsi səciyyəvidir. Hökumətin ekspansiv fiskal və monetar siyasətin köməyi ilə işsizliyin səviyyəsini bu "tarazlı" həddən hər hansı şəkildə aşağı salmaq cəhdləri əməkhaqqı və qiymətlərin artacağı ehtimalını doğruldur və bu da, öz növbəsində, inflyasiyanı gücləndirən davranışlara təkan verir, həmin proses isə yalnız işsizlik yenidən, özü də bu dəfə daha yüksək inflyasiya şəraitində, təbii səviyyəyə çatdıqdan sonra dayanır.

E.Felpsin nöqteyi-nəzərincə, təbii səviyyə hipotezi, hər şeydən əvvəl, işsizliyi yaradan səbəblərin əsas, lakin heç də yeganə komponenti olmayan iş axtarmaqla bağlıdır. Keynsçi nəzəriyyə işsizliyə məcburiyyət kimi baxır və fərz edir ki, işsiz insanlar fəal şəkildə məşğulluq yeri axtarırlar. C.Keyns də bütün sələfləri kimi, etiraf edirdi ki, məcburi "dövri" işsizliklə yanaşı, konkret insanların konkret vəziyyəti ilə bağlı "təsadüfi" işsizlik də mövcuddur. Lakin bu, bütün problemin əhəmiyyətsiz, ümumi işsizlyin yalnız 1-2%-ni verən bir amili hesab edilirdi.

Bununla belə, 1960-cı illərdə bəzi iqtisadçılar diqqət yetirməyə başladılar ki, işsiz fəhlələr heç də həmişə ilk qarşılarına çıxan təkliflə razılaşmır, daha sanballı və daha yüksək əməkhaqqı olan iş axtarırlar və işsizlik dövrü uzandıqca, onlar tədricən öz iddialarının səviyyəsini aşağı salırlar. Bundan əlavə, iş axtarışı çoxlu vaxt tələb etdiyinə görə, insanlar yaxşı iş tapmaqla yanaşı, əllərindəki işi də itirə bilərlər və işsizlik üzrə müavinətlərin səviyyəsi yüksək olduqca, onlar iş axtaracaqlar.

E.Felps əsərlərinin birində iqtisadiyyatı arxipelaq kimi təqdim etmişdir. Həmin arxipelaqın hər bir adasında fəhlələr buradakı yerli əməkhaqqını qəbul edib-etməmək və ya başqa adaya köçmək qərarı verirlər. Bu zaman daha yaxşı əməkhaqqı axtarışı bir qədər vaxt aparır və könüllü işsizlik doğurur. E.Felpsin tədqiqatlarının başlıca obyekti bazarın qeyri-bərabərçəkili vəziyyətlərinin potensialı və onların iqtisadiyyata təsiri olmuşdur.

Ötən əsrin 80-ci illərində E.Felps işsizliyin təbii göstəricisini müəyyən edən amilləri öyrənməyə başlamışdır. O, 1994-cü ildə özünün "Struktur böhranlar: məşğulluğun, faiz və aktivlərin müasir tarazlıq nəzəriyyəsi" əsərini nəşr etdirmişdir. Ümumilikdə E.Felps 80-dən çox elmi məqalənin, 90-dan çox digər iqtisadi sənədin - hesabat və məruzənin müəllifidir. O, həmçinin makro

və mikroiqtisadiyyat sahəsində çoxsaylı kitablar, o cümlədən "Siyasi iqtisad" dərsliyi yazmışdır.

2007-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatını L.Qurviç, E.Meskin və R.Mayerson optimal mexanizmlər nəzəriyyəsinin əsaslarını yaratdıqları üçün almışlar. Bu nəzəriyyə ictimai rifahın bölgü prosesində iqtisadi faydadan mühüm olduğu vəziyyətləri də nəzərə almağa əsas yaradır.

L.Qurviçin yaratdığı və sonradan həmlaureatların inkişaf etdirdikləri nəzəriyyə məhdud resursların optimal bölüşdürülməsi məsələlərini nəzərdən keçirir. Əvvəllər bunun üçün bazarlar nəzəriyyəsindən istifadə olunurdu. Lakin həmin nəzəriyyənin təklif etdiyi reseptlər yalnız real həyatda əldə edilməsi mümkün olmayan ideal şəraitlərdə işləyir. Optimal mexanizmlər nəzəriyyəsi isə ən ədalətli deyil, daha effektiv bölgü yolunu axtarır.

L.Qurviçin fikrincə, mexanizm iştirakçıların bir-biri ilə və ya "məlumatlar mərkəzi" ilə məlumatlarla mübadilə apardıqları oyundur, qabaqcadan verilən qaydalar isə hər məlumat toplusu üçün resursların bölüşdürülməsini müəyyən edir. O, məlumatlar mübadiləsinin gedişində alınan mütənasib vəziyyətləri tədqiq etmişdir. Onun məqsədi bütün iştirakçılar üçün optimal qərarların seçilməsi olmuşdur.

L.Qurviçin sxemi hətta oyunçuların resurslar üçün başqalarının nə qədər ödəyəcəyini bilmədiyi vaxtlarda da işləyir. Hərracı təşkil edən sistem hər kəsin tələbini daha tam yerinə yetirməyə cəhd edir. Bu zaman oyun iştirakçıları mal və xidmətlərə olan qiymətlərini sistemə gizli surətdə yönəldirlər. Nəzəriyyə oyun qaydalarını işləyib hazırlayana onun digər iştirakçılardan daha az məlumatlandırıldığı şəraitdə daha effektiv nəticə əldə etməyə imkan verir. Nəticədə alınan bölgü ədalətliliyə maksimal yaxın olur. 12 il sonra L.Qurviç bu təhlilə tədqiqat sahəsini darlaşdıran və məhdudlaşdıran "açıqlıq prinsipini" tətbiq edərək, onu xeyli sadələşdirmişdir.

L.Qurviçin oyunları bütün maraqlı tərəflər üçün nəyi isə daha çox fayda götürməklə almaq və satmağı başa düşməyə imkan verir. Dövlətin və inhisarların optimal qarşılıqlı münasibətlərinin axtarışı xüsusi maraq doğurur.

E.Meskinin elmi fəaliyyətinin əsas sahələrindən biri bazarın fəaliyyətinin optimal mexanizmləri nəzəriyyəsinin inkişaf etdirilməsi ilə bağlı olmuşdur. Məhz bu nəzəriyyənin inkişaf etdirilməsinə görə ona L.Qurviç və R.Mayersonla birlikdə Nobel mükafatı təqdim edilmişdir. E.Meskin həmçinin, oyunlar nəzəriyyəsi və iqtisad elmində riyazi metodların inkişafı ilə də məşğul olur. O, iqtisad nəzəriyyəsinin ən müxtəlif sahələrində tədqiqatlar aparmışdır. Bu sahələr sırasında stimullar iqtisadiyyatını və kontraktlar nəzəriyyəsini göstərmək olar. Onun optimal mexanizmlər nəzəriyyəsi, satış nəzəriyyəsi və ardıcıl oyun nəzəriyyəsi üzrə tədqiqatları da yaxşı məlumdur. Alimin cari tədqiqat layihələrinə vergitutma, seçkilərin keçirilməsinin müxtəlif qaydalarının müqayisəsi, qeyri-bərabərliklərin səbəblərinin öyrənilməsi və koalisiyanın formalaşması prosesinin tədqiqi daxildir.

E.Meskin, həmçinin aqrar iqtisadiyyat, kollektiv seçim nəzəriyyəsi, sahibkarlıq, maliyyə, iqtisadiyyatın tarixi və fəlsəfəsi, sənaye təşkili, beynəlxalq ticarət, hüquq və intellektual mülkiyyət, mikroiqtisadiyyat, ictimai sektorun iqtisadiyyatı, ictimai sektorun maliyyəsi, innovasiya iqtisadiyyatı, texnoloji və sənaye dinamikası üzrə əsərlərin müəllifidir. Onun son elmi əsərləri seçkinin müxtəlif qaydalarının öyrənilməsinə, onların dəyişməsi və kombinator strukturu məsələlərinə həsr edilmişdir.

R.Mayersonun elmi maraqlarının başlıca sahəsi bölgü mexanizmləri nəzəriyyəsi olmuşdur ki, bu nəzəriyyənin işlənib hazırlanmasında o, nobelçi həmkarları L.Qurviç və E.Meskinlə yanaşı böyük rol oynamışdır. Alimlər tərəfindən hazırlanmış bu nəzəriyyə fərdi maraq və qismən təşəbbüs nəzərə alınmaqla op-

timal mexanizmlərin formalaşmasının zəruriliyi anlayışını dərinləşdirmişdir.

R.Mayersonun optimal mexanizmlər nəzəriyyəsinə unikal töhfəsi resursların zəruri ayrılması ilə informasiyanın dürüst olduğuna zəmanət kimi məlumatverən agentlərin almalı olduğu pul məbləğləri arasında fundamental əlaqənin kəşfinə əsaslanır. Optimal mexanizmlər nəzəriyyəsi bazara yer olmayan sistemlərdən fərqli olaraq işləyən situasiyaları fərqləndirməyə imkan verir. Beləliklə, bu nəzəriyyə iqtisadçılara effektiv ticarət metodikalarının, idarəetmə sxemlərinin və səsvermə prosedurlarının müəyyən edilməsində çox kömək edir. Hazırda optimal mexanizmlər nəzəriyyəsi iqtisadiyyatın və politologiyanın bir sıra mühüm sahələrində əhəmiyyətli rol oynayır.

R.Mayersonun elmi tədqiqatlarının digər istiqaməti oyunlar nəzəriyyəsidir. O, oyunlar nəzəriyyəsinin əsas metodiki prinsiplərini, qəbuletməmə və riskin bölüşdürülməsi problemlərini işləyib hazırlamışdır.

1991-ci ildə R.Mayerson oyunlar nəzəriyyəsi üzrə dərslik çap etdirmiş, həmçinin bu sahənin mənşəyi və inkişafına həsr edilmiş tarixi əsərini nəşr etdirmişdir.

2008-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatını ticarət modellərinin təhlili və iqtisadi fəaliyyətin yeri haqqında tədqiqatları ilə bağlı P.Kruqman almışdır. Onun elmi əsərləri dolayısı ilə təkcə iqtisadiyyata deyil, həm də siyasi quruluşlara da aiddir. Bu baxımdan, P.Kruqman Amerika siyasi diskussiyasının başlıca liberal səslərindən biri hesab edilir. Daha çox ticarət sferasını tədqiq edən alimin tədqiqatlarında ticarət daha çox müqayisəli üstünlüklərlə deyil, regional təmərküzləşmə və iqtisadi iştirakın miqyası ilə izah olunur. Bu onun müvafiq sahəyə verdiyi başlıca töhfələrdən sayılır. P.Kruqman, həmçinin istehlakçıların müxtəlifliyə üstünlük vermələrinin mühümlüyü, fərqli markaya, yük-

sək maya dəyərinə malik malların digərlərini sıxışdıraraq daha çox yaşamaları barədə geniş təhlili izahlar da vermişdir. Alimin bütövlükdə azad ticarəti və qloballaşmanı dəstəkləyən bu yeni nəzəriyyəsi onun biliklər sahəsinin baza obyektinə çevrilmiş və Nobel mükafatı almasına zəmin olmuşdur.

P.Kruqmanın yaratdığı ticarət nəzəriyyəsi həm də tədricən yeni iqtisadi coğrafiyaya çevrilmişdir. Onun 1991-ci ildə iqtisadi coğrafiya üzrə dərc etdirdiyi konstruktiv məqalə bu sahədə ən çox sitat gətirilən iqtisadi əsərlərdəndir.

P.Kruqman İraqdakı müharibənin tənqidçisi kimi də tanınmışdır. Onun "Böyük cavab" kitabı ABŞ Prezideni olmuş kiçik C.Buşun iqtisadi və xarici siyasətinin tənqidinə həsr edilmişdir. Alim Amerikada gəlirlərin artan qeyri-bərabərliyinin, yoxsullarla müharibə aparmaqda respublikaçıların ideologiyasının ittihamçısı kimi çıxış etmişdir. Bunu - ABŞ-da XX əsrin sonunda gəlirlərdə qeyri-bərabərliyin artmasını "Liberalın vicdanı" adlı kitabında ətraflı təsvir etmişdir.

P.Kruqman mürəkkəb iqtisadi problemləri populyarlaşdırmaq və sadələşdirmək qabiliyyətinə görə də tanınır. O, həmçinin kifayət qədər açıq şəkildə siyasətçiləri və iqtisadçıları tənqid edirdi. Özünü keynsçi iqtisadçı mövqeyində hesab edərək P.Kruqman C.Keynsin əsərlərinə yenidən marağın artmasında mühüm rol oynamışdır. Bununla belə, o, keynsçiliyin bəzi modellərinin mürəkkəbliyinə və sərtliyinə tənqidi yanaşmış, həmçinin, C.Hiksin ixtira etdiyi İSLM modelini də irəliyə aparmışdır.

P.Kruqmana makroiqtisadiyyat və büdcə siyasəti ilə bağlı əsəri də şöhrət gətirmişdir. O, Asiya böhranını və itirilmiş yapon onilliyini öyrənmiş, özünün "İqtisadi depressiyanın qayıtması" kitabında Yaponiyanın düşdüyü likvidlik tələlərindən genişliklə bəhs etmişdir. 2008-ci il iqtisadi böhranından sonra P.Kruqman asketizmin tənqidçilərindən biri olmuşdur. O, iddia edirdi ki, qabaqcıl

iqtisadiyyatlar likvidliyin klassik tələsinə düşmüşlər. Bu situasiyada P.Kruqman iddia edirdi ki, hökumətlər faiz dərəcələrinin yüksəlməsinə yol vermədən və ya inflyasiya doğurmadan pul çap edib büdcənin böyük defisitini optimallaşdıra bilərlər. Onun "likvidlik tələsi" modeli aşağı inflyasiya və artımın bərpasının aşağı sürətini öncədən deməyə imkan verir.

P.Krugman iqtisadi fikirlərini keynsçi və siyasi baxışlarını "liberal" (*Amerika terminologiyasında liberal, Avropa terminologiyalarında "sosial-demokrat"*) olaraq müəyyən edir. O, yaradıcılığını epistemoloji[13] prinsiplərini formalaşdırmışdır. Ardıcıl olaraq, "Bitkoin konsepsiyası"nı və administrasiyasız valyuta mövcudluğu ideyasını ardıcıl olaraq rədd edir. Bu baxışlarına görə dəfələrlə Bitkoin icması tərəfindən tənqid olunmuşdur.

P.Kruqman 20-dən artıq kitabın müəllifi olaraq çoxsaylı peşəkar jurnal və elmi məcmuələrdə 200-dən artıq elmi məqalə çap etdirmişdir. O, həmçinin "Nyu-York Tayms" üçün aktual iqtisadi və siyasi məsələlərə həsr olunmuş 750-dən çox xülasə yazmışdır. Onun Kaliforniya Universitetinin iqtisadiyyat professoru Moris Obstfeldlə (*1952*) müştərək yazdığı "Beynəlxalq iqtisadiyyat: nəzəriyyə və siyasət" kitabı Amerika kollecləri üçün beynəlxalq iqtisadiyyat üzrə dəyərli dərsliyə çevrilmişdir.

2009-cu ildə iqtisadiyyat sahəsində Nobel mükafatını ümumi iqtisadi idarəetmənin təhlilinə verdiyi töhfələrə görə E.Ostrom və iqtisadi idarəetməni, xüsusən, firmanın sərhədlərini təhlil etdiyinə görə O.Uilyamson almışlar. Ümumilikdə, onlara bu mükafat "İqtisadi təşkilatlar sahəsində tədqiqatlara görə" verilmişdir.

E.Ostrom əvvəllər, əsasən, faydalı əmtəə və xidmətlər istehsalında ictimai qərarların öyrənilməsi və variantların seçilməsi

[13] epistemologiya (*yunanca - ἐπιστήμη - bilik, bacarıq və λόγος - təlim*) məlumatın təbiəti, əhatəsi və mənbəyi üzrə fəlsəfi-metodoloji istiqamət; məlumat fəlsəfəsi olaraq da adlandırılır. İngiliscə sinonimi qnoseologiyadır (*idrak*).

üzərində işləmişdir. Sonradan isə faydalı resursların böyük “məhsuldarlığı”nın saxlanmasının uzunmüddətli sxeminin təmin edilməsində əkin sahələrinin, meşələrin, neft yataqlarının, suvarma sistemlərinin və balıq tutulan yerlərin timsalında insanların ekosistemlərlə qarşılıqlı əlaqəsi məsələlərinin tədqiqi ilə məşğul olmuşdur. Tədqiqatların gedişində o, göstərmişdir ki, bir çox cəmiyyətlər tez və ya gec ekoloji iflasın qarşısının alınması və istifadə olunan resursların bərpasının təmin edilməsi üçün sxemlərin işlənib hazırlanması fikrinə gəlirlər. Halbuki bu sxemlər heç də həmişə effektiv olmur. Sonralar E.Ostrom bu mövzuda bir sıra əsərlər dərc etdirmiş, son nəticədə etiraf etmişdir ki, insan-təbiət qarşılıqlı əlaqəsinin problemlərinin ideal həlli, sadəcə, mövcud olmaya da bilər.

E.Ostromun dövlət və ictimai siyasətin təhlili ilə bağlı işləyib hazırladığı yanaşma - “İAD” (*İnstitutional analysis and development*) xüsusi maraq doğurur. Belə ki, bu yanaşma əvvəllər mövcud olanlardan elə fərqlənir ki, sonradan onu ictimai seçimin ayrıca nəzəri məktəbi kimi səciyyələndirməyə başlamışlar.

Politologiya elmləri doktoru E.Ostrom ənənəvi iqtisadçılar sırasına daxil edilməyə də bilər. Lakin Nobel laureatı C.Akerlof onun əsərini bu sahə üçün “son dərəcə əhəmiyyətli” adlandırmışdır. O, hesab edirdi ki, “E.Ostromu ictimai davranış normalarının necə formalaşdığı və onlara riayət edilməsinə nəzarət maraqlandırır. Bu normalar iqtisad elmində “çatışmayan həlqə”-dir. Siz hamının bir-biri ilə əməkdaşlıq etdiyi tarazlığa çox yaxın ola bilərsiniz. Lakin insanları əməkdaşlıq etməyə məcbur etmək üçün sizə yenə nə isə tələb olunur. İnsanları əməkdaşlığa məcbur edən məhz normalardır”.

O.Uilyamsonun elmi əsərlərində tranzaksiyanın təhlili onun yaradıcılığının baş elementinə çevirmişdir. Bununla yanaşı, o, 1960-cı ildə iqtisadi təfəkkürdə meydana gəlmiş yeni istiqamətin

- davranış iqtisadi nəzəriyyəsinin bir neçə konsepsiyasını da təklif etmişdir. Birinci konsepsiya - məhdudlaşdırılmış səmərəlilik - ətraflı məlumatların hamısını toplamadan və bütün mümkün hesablamaları aparmadan qərarların qəbul olunmasını ehtiva edir. Gələcək hadisələrin inkişafının bütün variantlarını müəyyən etmək və bütün dəyişiklikləri qabaqcadan tapmaq, müqavilə tərtib etmək mümkün deyildir. İkinci konsepsiya - opportunizm - tərəfdaşların məqsədlərinə ziyan olmaqla gizli və ya açıq-aşkar öz maraqlarına görə hərəkət etməkdir. Belə ki, opportunizm ehtimalı mövcudluğuna görə, tranzaksiya təhlükəlidir və müqavilə şəklində hüquqi təminat tələbindədir.

Vurğulanmalıdır ki, bütövlükdə O.Uilyamson və onun ardıcılları iqtisad elminin ümumi məntiqinin tərəfdarlarıdır. Bu cəhət isə eyniliklə bütövlükdə onun fundamental nəzəriyyədəki əsas zəif həlqələrindən hesab olunur. Şirkət, müqavilə və ya bazar tranzaksiya məsrəflərinin mövcudluğuna effektiv cavabdır - onların nəzəriyyəsinin ideologiyası da budur. Bu xüsusiyyəti O.Uilyamson özünün “Kapitalizmin iqtisadi institutları” əsərinə giriş kimi vermişdir. O, tranzaksiya məsrəfləri nöqteyi-nəzərindən iqtisadi təşkilatın hərtərəfli təhlilinə səy göstərəcəyi istəyində olacağını bildirmişdir. Hərtərəfli təhlil isə, sözsüz ki, “eyni hadisənin öyrənilməsinin müxtəlif üsullarını” tələb edir. Buna baxmayaraq, O.Uilyamson, şübhəsiz, hesab edirdi ki, bu təhlildə tranzaksiya məsrəflərinin minimuma endirilməsi daha çox xüsusi çəkiyə malikdir. Bütün bunlarla yanaşı, O.Uilyamson minimallaşdırma və səmərəlilik metodu nöqteyi-nəzərindən öz yanaşmasının neoklassik iqtisadi nəzəriyyə ilə yaxınlıq təşkil etdiyini də etiraf etmişdir.

2010-cu ildə iqtisadiyyat sahəsində Nobel mükafatı bazarların axtarış modeli ilə bağlı apardıqları tədqiqatlarına görə P.Daymond, D.Mortensen və K.Pissaridesə verilmişdir. Nobel mükafat-

ları Komitəsinin rəyinə görə, hər üç alimin tədqiqatları aşağıdakı suallara cavab verir: "Bazarda çoxlu boş iş yerləri olduğu halda niyə adamların çoxu işsiz qalır?" və "İqtisadiyyatın idarə edilməsi işsizliyə necə təsir edir?". Alimlərin bu istiqamətdəki əsərlərinin bir çoxu on illər öncə nəşr edilsə də, mükafata təqdimolunma ərəfəsində həmin tədqiqatlar daha akutal səciyyə daşımışdır.

Laureatlar arasında müvafiq tədqiqat istiqamətində yalnız P.Daymond "patriarx" hesab olunur. Belə ki, o, aktiv olaraq "ləngimə" nəzəriyyəsinin işlənməsinə hələ ötən əsrin 70-ci illərindən başlamışdı. Sonradan D.Mortensen və K.Pissarides də ona qoşulmuşlar.

Alimlərin birgə işləri "DMP" - "Daymond-Mortensen-Pissarides" modeli adını almışdır. Əmək bazarının materialları əsasında hazırlanmış bu model bazar iqtisadiyyatında axtarış sisteminin necə işləməsini təcəssüm etdirir. Tədqiqatçılar əsaslandırırlar ki, işsiz xoşuna gəldiyi iş yerini tapdıqda, bu zaman onun məvacibi yalnız peşə keyfiyyətlərindən deyil, həmçinin əmək bazarındakı situasiyadan asılı olacaqdır. Başqa sözlə, işsizlər nə qədər çoxdursa, yaxşı əməkhaqqı almaq şansı da o qədər azdır.

Klassik bazar münasibətləri nəzəriyyəsində alıcı və satıcılar biri-birini heç bir əmək məsrəfi və pul xərci olmadan tapırlar. Bu nəzəriyyəyə görə, qiymət qarşılıqlı rabitədə tələb və təklif nisbəti əsasında tərəddüd edir. Sistemdə ədalətli qiymət qoyuluşu isə əmtəələrin bütünlüklə alınmasına gətirib çıxarır və artıq heç nə qalmır. Həqiqətdə isə proses bir qədər fərqli baş verir. Əks halda əmək bazarında bu qədər boş iş yerlərinin qalması mümkün olmazdı. Əmlak bazarında bütün mənzillər satılardı. Mağazalarda isə reallaşdırılmayan min tonlarla məhsul qalardı. Bununla belə, məlumdur ki, əslində, lazımi əmtəənin axtarışı xeyli zaman resursu tələb edir. Hətta alıcı və satıcı biri-birini tapsalar belə,

qiymət, satış şərtləri və s. bu kimi amillər üzündən sövdələşmə baş tutmaya da bilər. Əmtəənin satışa çıxarılması anından onun sövdələşmə anına qədər keçdiyi zamanın özündə də pul dəyəri var və o xərc olaraq bu və ya digər məhsulun son qiymətinə daxil edilməlidir. Nobelçiləri məhz belə "ləngimə", alıcı və satıcı arasında faydalı sövdələşmə axtarışı maraqlandırmışdır.

P.Daymond sosial sığorta və vergitutma problemləri üzrə nüfuzlu alimlərdən hesab olunur. O, dövlət borcu və kapital yığımı ilə bağlı tədqiqatlara böyük töhfələr vermişdir. P.Daymondun ABŞ-ın sabiq Prezidenti B.Obama administrasiyasında İdarəetmə və Büdcə Bürosunun direktoru olmuş bankir və iqtisadçı Piter Riçard Orzaqla (*1968*) müştərək yazdığı kitab geniş populyarlıq qazanmışdır. "Sosial müdafiənin qorunması: 2004-cü ilin balanslı yanaşması" (*Saving social security: a balanced approach*) adlanan bu müştərək əsərdə müəlliflər sosial təminat haqqında müzakirələr aparmışlar. Ümumiyyətlə, P.Daymondun əsas marağı Amerika sosial müdafiə siyasətinin təhlilinə, həmçinin, digər ölkələrdə, məsələn, Çində bu müdafiənin analoqlarına yönəlmişdir. O, mövcud sosial müdafiə siyasətinin yaxşılaşdırılması üzrə çoxlu sayda təkliflər irəli sürmüşdür. Belə ki, bu təkliflərdən biri sosial sığortaya olan ayırmaların az miqdarda artırılması, digəri isə vergitutmaya məruz qalan gəlirlərin payının artırılması ilə bağlıdır.

D.Mortensen razılaşdırma nəzəriyyəsinin ləngiyən (*fraksion*) işsizliyə tətbiqi haqqında bir çox cəhətdən innovativ tədqiqatları ilə də məşhurdur. Onun maraq dairəsinə həmçinin, işçi qüvvəsinin axıcılığı, əmək bazarları, əmək resurslarının yenidən bölüşdürülməsi məsələləri, tədqiqatların problemləri və inkişafı, adi şəxsiyyətlərarası münasibətlərin bu proseslərə təsiri daxildir.

K.Pissaridesin mühüm əhəmiyyət kəsb edən əsəri 1994-cü ildə "İqtisadi tədqiqatlar" məcmuəsində dərc edilmiş (*D.Mortensen*

*ilə birlikdə*) "İş yerlərinin yaradılması və işsizliyin ləğvi üzrə işlər"dir. Bu məqalə ötən iki onillik ərzində hər iki müəllifin əsərləri əsasında qurulmuşdur. Burada təsvir edilən Mortensen-Pissarides modeli müasir makroiqtisadiyyata böyük təsir göstərmişdir və bu gün iqtisadiyyatın əsas modellərindən sayılır. K.Pissaridesin ədəbiyyat etalonu olan "İşsizlik nəzəriyyəsinin tarazlığı" kitabı onun D.Mortensenlə müştərək işindən sonra müəllifi tərəfindən yenidən nəzərdən keçirilmiş və ikinci dəfə nəşr edilmişdir. Bu əsər iş yerlərinin yaradılması təhlilinin nəticəsidir.

2011-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı makroiqtisadiyyatda səbəb və nəticə əlaqəliliyi üzrə tədqiqatlarına görə T.Sarcentə və K.Simsə verilmişdir. Nobel Komitəsinin bəyanatında qeyd olunmuşdur ki, iqtisadi siyasətlə ümumi daxili məhsul, inflyasiya, işsizlik, investisiyalar və başqa makroiqtsadi göstəricilər arasında əlaqə ilə bağlı həmişə suallar yaranır. Yəni iqtisadi siyasəti necə dəyişmək mümkündür ki, daxili məhsul artsın və ya investisiya daha çox yatırılsın, işsizlik azalsın? T.Sarcent və K.Sims bu suallara cavab tapmaq üçün xüsusi üsullar hazırlamışlar. Onlar "faiz dərəcələrindəki müvəqqəti yüksəlişin və ya vergi dərəcələrinin azaldılmasının ÜDM və inflyasiya kimi makroiqtisadi parametrlərə necə təsir göstərdiyini, mərkəzi bankların inflyasiya hədəflərində dəyişikliyə getməsi və ya hökumətlərin büdcə tarazlığı üçün məqsədini dəyişdirməsi halında nə olacağını" araşdırmışlar. Həmçinin ÜDM, inflyasiya, məşğulluq və investisiyalar kimi müxtəlif makroiqtisadi parametrlər və iqtisadi siyasət arasındakı təsadüfi əlaqə ilə bağlı digər suallara cavab vermək üçün də metodlar formalaşdırmışlar. Cütlüyün araşdırmasına görə, bu hadisələr, əsasən, ikitərəfli əlaqə formasında inkişaf edir. Yəni siyasət iqtisadiyyata, eyni zamanda, iqtisadiyyat da siyasətə təsir göstərir.

T.Sarcent və K.Simsin metodları bu təsadüfi əlaqənin müəyyənləşdirilməsində tətbiq oluna və gözləntilərin rolunu açıqlaya bilər. Bu, həmçinin gözlənilməz siyasi tədbirlərlə yanaşı, sistemli siyasi dəyişikliklərin təsirlərini təsbit etməyə də imkan yaradır. Geniş aspektdə laureatların ümumi səciyyə daşıyan tədqiqatları siyasət dəyişiklikləri və ya artan neft qiymətlərinin istehsal, inflyasiya və məşğulluq üzərindəki təsirlərini dərketmənin yollarını, həmçinin faiz dərəcələri və vergilərin müvəqqəti azaldılmasının inflyasiya ilə korrelyasiya təşkil etdiyini göstərir. Ayrılıqda T.Sarcentin elmi yaradıcılığı sistemli siyasət dəyişikliklərinə, K.Simsin isə iqtisadiyyatda ortaya çıxa biləcək neft qiymətlərinin artması və ya ev təsərrüfatları istehlakında kəskin azalması hallarına fokslanmışdır.

Makroiqtisadiyyat, monetar iqtisadiyyat və zaman ardıcıllıqları ekonometrikası sahəsindəki tədqiqatları ilə məşhurlaşan T.Sarcent iddia edir ki, siyasətçilər müntəzəm olaraq iqtisadiyyatı siyasətdə qabaqcadan söylənilən dəyişikliklər vasitəsilə manipulyasiya edə bilmirlər. O, nəzəriyyəyə ekonometrik modellərdə özünün yeni riyazi metodlarının tətbiqi ilə mühüm töhfə vermişdir.

T.Sarcent rasional gözləntilər nəzəriyyəsinə (*bu nəzəriyyənin digər banisi Robert Lukas - oğuldur*) əsaslanan yeni klassik makroiqtisadiyyatın banilərindən biridir. O, bir sıra ölkələrin ilk mərhələdə yüksək inflyasiya siyasəti tətbiqetmə meylində olduğu, ancaq əvvəl-axır iqtisadi siyasətlərində sistemli dəyişikliyə getdiyi və aşağı inflyasiya siyasətinə döndüyü, II Dünya müharibəsindən sonrakı dövrü də araşdırmışdır.

K.Sims Bayesian nəzəriyyəsi[14] və Bayesian ehtimalına əsasla-

[14] Bayesian nəzəriyyəsi və Bayesian ehtimal (*Bayesian theory and Bayesian probability*) ingilis riyaziyyatçısı Tomas Bayesin (1702-1761) şərəfinə xüsusi bir hadisəni isbat edən teoremə (*Bayes teoremi*) görə adlandırılmışdır. Termin olaraq 1950-ci ildən “bayesian” adlanır və böyük hissədə birbaşa T.Bayeslə əlaqəli deyil.

nan Bayesiya statistikasının[15] iqtisadi siyasətin dürüst ifadəsinin və qiymətləndirilməsinin qeyri-adi effektivliyini sübuta yetirərək, onu çox fəal müdafiə edirdi. K.Simsin "sevmədiyi" metodlar da var idi. Belə ki, o, makroiqtisadiyyatda baş verən "rasional gözləntilər inqilabı"na qarşı çıxış edirdi. Alimin fikrincə, bu metodları radikal və tam mənada hər şeyin əsasları və əvəzi kimi nəzərdən keçirməkdənsə, onlara daha çox ekonometrik metodikalara əlavə kimi yanaşmaq lazımdır.

K.Simsin məşhur praktiki izahları arasında "qiymət səviyyələri" vergi nəzəriyyəsini və rasional qeyri-diqqət nəzəriyyəsini xüsusi xatırlatmaq lazımdır. Qiymət səviyyələrinin vergi nəzəriyyəsini K.Sims tanınmış Amerika iqtisadçıları Erik Liper (*Eric M. Leeper*) və Maykl Din Vudfordla (*1955*) birlikdə işləyib hazırlamışdır. Həmin nəzəriyyə dövlət vergi sisteminin qiymətlərin səviyyəsinə real təsir göstərdiyini nəzərdə tuturdu. Sabit qiymət səviyyəsinin saxlanması üçün vergiləri hər hansı yol verilən səviyyədə saxlamaq zəruridir. Büdcə aparılan işlərin tsikli çərçivəsində tarazlaşacaqdır, struktur defisiti isə yol verilən variant kimi nəzərdən keçirilə bilməz. Bu nəzəriyyə həm də qiymətlər səviyyəsinin, ilk növbədə (*müstəsna hallarda olmasa da*), pul kütləsindən asılı olduğunu nəzərdə tutan klassik modelə tam zidd idi.

K.Sims mərkəzi bankın valyuta siyasətinin səbəb-nəticə əlaqələri istiqamətində giriş üsulu işləyib hazırlamışdır. Onun bu istiqamətdə əsərləri M.Fridman kimi monetaristlərin nəzəriyyələrini təsdiqləmişdir. Belə ki, monetaristlər iddia edirdilər ki, valyuta ehtiyatlarında dəyişikliklər inflyasiyaya təsir etməyə

[15] Bayesiya statistikası (*Bayesian statistics*), Bayesian ehtimalının şərhinə əsaslanan statistika sahəsində bir nəzəriyyə, təcrübə işığında mövcud fikirlərin yenilənməsini əhatə edən statistik bir modeldir. Hesab olunur ki, parametrlər haqqında fikirlər əvvəlki görünüşün ölçülməmiş hədlərinə və son müşahidələrin nəticəsinə əsaslanaraq müntəzəm nəzərdən keçirilir. Son müşahidələrin nəticələrinin ölçüsü müəyyən zaman mərhələsində aparılan müşahidələrin nəticələrinin dəyişməsindən asılıdır.

qadirdir. Həmçinin, göstərilmişdir ki, bu halda səbəb-nəticə əlaqəsi hər iki istiqamətdə işləməyə qadirdir, belə ki, ətraf aləmin hər hansı amilləri (*faiz dərəcələri və ya inflyasiyanın səviyyəsi kimi*) pul kütlələrinə də təsir edə bilir.

2012-ci ildə sabit bölüşdürmə nəzəriyyəsi və bazar planlaşdırılması təcrübəsi sahəsindəki tədqiqatlarına görə iqtisadiyyat üzrə Nobel mükafatı, müştərək olaraq, L.Şepli və E.Rota verilmişdir. Hər iki iqtisadçı öz tədqiqatlarını iqtisadiyyatda əsas problemlərdən olan "qeyri-mükəmməl bazar şəraitində müxtəlif subyektləri ən yaxşı formada görüşdürmək, onları bərabərləşdirmək, resurs təminatını reallaşdırmaq və qiymətsiz bazar layihəsini tətbiq etmək" sahəsinə həsr etmişdir. Onlar tədqiqatlarını ayrı-ayrılıqda aparsalar da, Nobel Komitəsinə görə, hər iki iqtisadçının tədqiqatları bir-birini tamamlayır.

L.Şepli oyunlar nəzəriyyəsinin canlı baş təmsilçilərindən biri kimi qəbul edilir. O, ilk olaraq, iki tərəfin iştirak etdiyi stoxastik antaqonist oyunu öyrənmiş, həmçinin, Amerika riyaziyyatçısı Riçard Ernest Bellmanın (*1920-1984*) tənliklərini ümumiləşdirmişdir. L.Şepli digər iqtisadçı-riyaziyyatçılarla müştərək olaraq matrisa oyunlarını təsvir edən o qədər tam nəzəriyyələr işləyib hazırlamışdır ki, onlar artıq uzun illərdir yenilənmir. L.Şepli həm də faydalılıq nəzəriyyəsinə böyük töhfə vermişdir. O, "Neyman-Morgenştern"in davamlı çoxluqları problemini həll etməyə imkan verən təməlin böyük hissəsini qurmuşdur. Bundan başqa, Şepli dəyəri, Stokastik oyunlar, Bondareva-Şepli teoremi, Şepli-Şubik güc indeksi, Gale-Şepli alqoritmi, potensial oyun konsepsiyası, Aumann-Şepli qiymətləndirməsi, Harsani-Şepli həlli və Şepli-Folkman lemma teoremi də onun adı ilə bağlıdır. L.Şepli riyaziyyatçı, ekonometrikaçı olsa da, onun bütün əsərləri iqtisadi nəzəriyyəyə böyük təsir göstərmişdir.

L.Şepli, həmçinin həmkarları ilə birlikdə sabit bölüşdürmənin

təmin olunması üçün Qale-Şepli alqoritmini inkişaf etdirmişdir. Bəs bölüşdürmə nəzəriyyəsi gündəlik həyatda necə qarşımıza çıxır? L.Şepli hesab edir ki, bir çox bazarlarda həllər qiymət mexanizmindən istifadə edilmədən tapılır. Məsələn, məktəblərə tələbələrin yerləşdirilməsi. Burada yeganə ölçü illik təhsil haqqını ödəmək ola bilməz. Tələbənin uğur səviyyəsi, araşdırma qabiliyyəti və uyğunlaşma bacarığı da diqqətə alınmalıdır. Əgər "yalnız qiyməti ödəyən xidməti və malı alar" prinsipi tətbiq olunursa, uğur səviyyəsi aşağı olan bir tələbə yalnız təhsil haqqı ödəyərək məktəbə gedə bilirsə, uğursuz olacaq və resurs israfı doğuracaqdır. Bu baxımdan "bölüşdürmə nəzəriyyəsi" məhsuldarlıq və ədalətlilik kimi iqtisadi prinsipləri nəzərə alaraq, əməliyyatların həyata keçirilməsini təmin edir.

L.Şeplinin həmkarı E.Rot üç əsas elmi xidmətinə görə Nobel mükafatına layiq görülmüşdür. O, ilk növbədə L.Şeplinin inkişaf etdirdiyi "bölüşdürmə nəzəriyyəsi"nin ABŞ-da həkimlərin xəstəxanada staj üçün bölüşdürülməsində istifadə olunan sistem ilə eyni olduğunu təsbit etmiş və həkim bazarının yenidən dizayn olunmasına kömək etmişdir. Çünkü yeni həkimlərin xəstəxana seçimi və xəstəxanaların həkim seçimlərində bazar çatışmazlıqları ortaya çıxa bilər. İkincisi, E.Rot bu nəzəriyyənin inkişaf etdirilməsində L.Şepli ilə yanaşı, ABŞ-ın Boston Universitetində çalışan türk iqtisadçısı, professor Tayfun Sönməzin də böyük xidmətlər göstərdiyi "birtərəfli bölüşdürmə (*yerləşdirmə*) nəzəriyyəsi" sahəsində tədqiqatlar aparmışdır. O, T.Sönməz və Düke Universitetində çalışan digər bir türk iqtisadçı, professor Atilla Abdülkadiroğlunun inkişaf etdirdiyi mexanizmləri ABŞ-da tələbələrin ibtidai və orta məktəblərə yerləşdirilmələri sahəsində tətbiq etmişdir. Nəhayət, üçüncüsü, E.Rot Boston Universitetindən türk professorlar T.Sönməz və Utku Ünverin də mühüm xidmətləri ilə canlı donorların böyrəklərinin barter edilərək mü-

nasib xəstələrə verilməsi prinsipinə əsaslanan orqan barteri mexanizmlərinin inkişaf etdirilməsinə və böyrək barteri mərkəzlərinin qurulmasına rəhbərlik etmişdir.

E.Rot tədqiqatları ilə minlərlə insana böyük fayda gətirmişdir Bu tədqiqatlar "real dünya" problemlərinin həllində iqtisadi nəzəriyyədən istifadəyə yönəlmiş tədqiqatlar kimi qəbul olunur. Belə ki, onun araşdırmaları digərlərindən fərqli olaraq, daha anlaşılandır. E.Rotun işlədiyi nəzəriyyə "ideal tərəfdaş" adlanır. Mahiyyəti çox sadədir: sizin kiməsə və ya nəyəsə ehtiyacınız varsa, axtarış üçün lazımi meyarları irəli sürün və arzu etdiyinizi əldə edəcəksiz. Mürəkkəb heç nə yoxdur, o, isə nəinki sadəcə kömək edir, həm də insanların həyatını xilas edir. E.Rot tibb işçisi olmasa da, orqanların transplantologiyasında inqilab etmişdir - böyrəklərin köçürülməsi üçün donor axtarışı alqoritmini işləyib hazırlamışdır. Son illər məhz onun tədqiqatları sayəsində həkimlər 3 minə qədər xəstəni müalicə etməyə nail olmuşlar.

2013-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatı aktiv qiymətlərinin empirik təhlilinə görə Y.Famaya, L.Hansenə və R.Şillerə verilmişdir. Laureatların hamısı maliyyə bazarlarının təhlili istiqamətində ixtisaslaşmışdır və elmi işləri həm nəzəriyyəçi, həm də peşəkar investorların fəaliyyətinə birbaşa təsir göstərmişdir.

"Müasir maliyyənin atası" adlandırılan Y.Fama bazarın effektivliyini müəyyən edən iki mühüm anlayış təklif etmişdir: Birincisi, o, effektivliyin üç növünü fərqləndirmişdir: (*1*) - effektivliyin güclü forması, (*2*) - yarımgüclü forması və (*3*) - zəif forması. Effektivliyin zəif formasında söhbət, sadəcə, tarixi qiymətlərdən gedir, yəni informasiya qiymətlərinin dəyişməsi tarixi meyillərdən irəli gəlir və deməli, bu halda qazanc əldə etmək nəzərdə tutulmur. Başqa sözlə, adi səhmlərin qiymətləri sərbəst deyil və keçmiş qiymətlər də gələcək qiymətlərin necə olacağı barədə bir

söz deməyə imkan vermir. Hipotezin bazarların effektivliyi haqqında yarımgüclü forması, səhm və istiqrazların qiymətlərində sürətlə əksini tapan şirkət bildirişləri və ya illik mənfəət göstəriciləri də daxil olmaqla, bütün kütləvi informasiyanın uçotunu nəzərdə tutur. Nəhayət, effektivliyin güclü formasında səhm və istiqrazların qiymətləri qiymətə daxil olan bütün mümkün informasiyanı tam əks etdirir. Bu informasiyanın hamıya və ya müstəsna olaraq, şirkətin direktorlar şurasına əlçatan olmasının heç bir fərqi yoxdur, yəni treyderlər və investorlar bazar kənarlaşmasını aşkar etmək üçün fundamental məlumatlardan istifadə etmək imkanına malik olmayacaqlar. Beləliklə, informasiya varsa, o, qiymətdə əks olunur. İkincisi, Y.Fama bazarın effektivliyi anlayışının bazar tarazlığı modelindən imtina ilə müşayiət olunmadan rədd edilməyəcəyini nümayiş etdirdi. İqtisadçı qeyd edir ki, bazarın effektivliyi hipotezi gözlənilən gəlirlilik kontekstində yoxlanmalıdır. Əsas aktivlərin qiymətqoyma modelindən məhz burada istifadə olunur. Bazar planlarında sistematik düzəlişlər modeli bazar iştirakçıları tərəfindən onların gözləntilərinin həddən artıq optimist və əksinə olmasını aşkar etmələri nəticəsində meydana çıxır. Tədqiqatçılar model çərçivəsində tamamilə əvvəlki səviyyəyə qayıtmaq ümidi ilə hər hansı anomaliyaları aradan qaldırmaq üçün öz modellərini müxtəlif amillər əlavə etməklə dəyişə bilər.

Y.Fama ameikalı maliyyəçi professor Kennet Frençlə (*1954*) birlikdə əsərlər seriyası yazmışdır ki, burada aktivlərin gəlirliliyinin qiymətləndirilməsi modelinin (*CAPM*) şübhəyə alınması önə çəkilmişdir. Həmin əsərlərdə iddia olunur ki, hər bir səhm üçün "beta"nı hesablayarkən portfelin və ya müəyyən edilən səhmin az və ya çox dərəcədə dəyişkən olduğunu müəyyən etmək mümkündür. Bundan başqa, Y.Fama 1990-cı il iqtisadiyyat üzrə Nobel mükafatının sahibi M.Millerlə birlikdə "Maliyyə nəzəriy-

yəsi (*The theory of finance*) dərsliyinin də müəllifidir. O, həmçinin C.Makbetlə (*James D. Macbeth*) birlikdə "Risk, qayıdış və tarazlıq: empirik testlər" (*Risk, return, and equilibrium: empirical tests*) kitabını yazmışdır. Bu kitab aktivlərin qiymətqoyma modelinin parametrlərinin qiymətləndirilməsi üçün yararlı olan və hazırda geniş istifadə olunan Makbet-Faman reqressiyanın iki mərhələsini geniş təsvir edir.

L.Hansen maliyyə riyaziyyatı və statistika üzrə ixtisaslaşmışdır. O, ekonometrik modellər, əməyin iqtisadiyyatı, beynəlxalq maliyyə, ümumiləşmiş momentlər metodu kimi tədqiqatlar yerinə yetirmişdir. L.Hansen amerikalı iqtisadçı Ravi Cahannatanla (*1949*) birlikdə o, "Hansen-Jagannathan bound" adı ilə məlum olan teoremi irəli sürmüşdür. Braziliya-Amerika iqtisadçısı Xose Aleksandr Şeynkmanla (*1948*) birlikdə zamanında işlədiyi tədqiqatlar uzunmüddətli risklərin öyrənilməsinə aiddir, özünün digər əsərlərində isə o, "reprezentativ agent" modelinə müraciət edir. L.Hansen, həmçinin 2001-ci ilin iqtisadiyyat üzrə Nobel mükafatı laureatı T.Sarcentlə birlikdə makroiqtisadi modelləşdirmə üçün bütöv idarəetmə nəzəriyyəsinin nəticələrini tədqiq etdiyi "Möhkəmlik" (*Robustness*) əsərini yazmışdır. O, həm də "İqtisadiyyat və ekonometrika sahəsində nailiyyətlər" (*Advances in economics and econometrics*) və "Maliyyə ekonometrikası kitabçası" (*Handbook of financial econometrics*) əsərlərinin redaktorlarından biri olmuşdur.

R.Şiller isə özünün elmi tədqiqatları ilə risklərin inkişafı, maliyyə bazarlarında dəyişkənlik, "köpüklər" və böhranlar kimi məsələlərin dərkinə verdiyi töhfələrlə alimlər, praktiklər və siyasətçilər arasında böyük maraq doğurmuşdur. O, 1981-ci ildə "American Economic Review" jurnalında həmin an iqtisadi mühitdə dominantlıq edən effektiv bazar modelinə meydan oxuyan bir məqalə dərc etdirmişdir. R.Şiller iddia edirdi ki, səmərəli

fond bazarında investorlar səhmlərin qiymətlərini müəyyənləşdirərkən cari dəyərə diskont edilmiş gözlənilən gələcək dividend gəlirləri əsas götürəcəklər. O, 1920-ci ildən Amerika fond bazarının məhsuldarlığını təhlil etmiş və belə nəticəyə gəlmişdir ki, gələcəyə rasional baxışda bazarda volatillik əvvəldən nəzərdə tutulduğundan daha çox olmuşdur.

1987-ci ilin oktyabr ayında fond bazarı çökdükdən sonra maliyyə davranış bazarı öz mövqelərini sadələşdirdi. R.Şillerin əsərinə investorların və səhm satıcılarının çox vaxt rasional hesablama yolu ilə deyil, emosiyaları rəhbər tutaraq qərar verdikləri barədə hipotezi təsdiqləyən tədqiqatlar xülasəsi daxil edilmişdir. Onun 2000-ci ildə yazdığı və sonradan bestseller olan "İrrasional tükənmə" (*"Irrational exuberance"*) kitabı xəbərdarlıq edirdi ki, fond bazarı 2000-ci ilin martında, ən yüksək nöqtəsinə çataraq "köpüyə" çevriləcək ki, bu da kəskin düşkünlük gətirəcək.

R.Şiller 2006-cı ildə ABŞ-da daşınmaz əmlak qiymətlərinin hədsiz dərəcədə şişdiyini müəyyən edərək, bunun böhrana yol açacağını proqnozlaşdırmışdır. R.Şiller, eyni zamanda, daşınmaz əmlak qiymət indeksi - Keys-Şiller indeksinə də adını verən bir iqtisadçıdır. Bu indeks ABŞ-da daşınmaz əmlak qiymətlərinin 2000-ci ildən 2006-cı iləqək ikiqat artdığını ortaya çıxarmış, daha sonra isə bu qiymətlər 2008-ci il böhranında 35% azalmışdır. R.Şiller investorların irrasional qərarlar verə bildiyini, bunun da səhmlərdən daşınmaz əmlaka qədər bır sıra aktivlərdə "köpüyə" səbəb olduğunu qeyd etmişdir.

2014-cü ildə iqtisadiyyat sahəsində iri şirkətlərin bazar gücü və idarəetməsi istiqamətindəki tədqiqatlarına görə Nobel mükafatını J.Tirol almışdır. Nobel Komitəsinin mətbuat üçün açıqlamasında bildirilmişdir ki, sahələrin əksəriyyətində bir neçə iri şirkət və ya inhisar üstünlüyə malikdirlər ki, belə bazarlarda da tənzimlənmənin olmaması çox vaxt sosial baxımdan arzu-

edilməz nəticələrə, məsələn, əsassız dərəcədə yüksək qiymətlərə və ya öz rəqiblərinin bazara girişinə imkan verməyən yarıtmaz şirkətlərin dominantlığına gətirib çıxarır.

1980-ci illərin ortalarından etibarən J.Tirol öz araşdırmaları ilə bazardakı bu tip iflas vəziyyətlərinin tədqiqinə yeni bir nəfəs vermişdir. Onun bazara hökm edən şirkətlərlə bağlı təhlili aşağıdakı başlıca siyasi məsələyə söykənən vahid bir nəzəriyyəni özündə ehtiva edir: hökumət birləşmiş şirkətlərlə və ya kartellərlə necə rəftar etməli, inhisarları necə tənzimləməlidir?

Nobel Komitəsi hesab edir ki, fransalı alimin araşdırmalarına əsaslanaraq, hökumətlər öz məhsuldarlıqlarını artırmaqda kömək göstərməklə iri şirkətlərə dəstək verə və bununla da onların öz rəqiblərinə və istehlakçılara zərər vurmasının qarşısını ala bilərlər.

J.Tirolun elmi yaradıcılığında mikroiqsadiyyat sahəsindəki tədqiqatlarla yanaşı, ekonometrik işləmələr, oyunlar nəzəriyyəsi, maliyyə koproasiyaları ilə bağlı araşdırmalar xüsusi yer tutur. Onun kollektiv “Akerlof modeli konsepsiyası”nın inkişafı ilə bağlı tədqiqatları da maraq doğurur. Həmin konsepsiya reputasiya, keyfiyyət (*malın, xidmətin*), düzgün (*vicdanlı, doğru*) davranış kimi anlayışları riyazi model şəklində formalaşdırır və təsvir edir. J.Tirolun təklif etdiyi bu konsepsiya əsasında digər müəlliflər də oxşar mövzularda, xüsusilə, cəmiyyətdə korrupsiya haqqında bir çox yeni əsərlər yazmışlar.

2015-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatına istehlak təhlili, yoxsulluq və iqtisadi rifah mövzusunda tədqiqatlarına görə E.Diton layiq görülmüşdür. O, iqtisadiyyat üzrə elmi-populyar kitabların müəllifi, həmçinin başqa dövlətlərə iqtisadi yardım göstərməyin əleyhdarı kimi də tanınır. Alim dəfələrlə bəyan etmişdir ki, iqtisadi firavanlıq əldə etmək üçün dövlətin iş qabiliyyətini yüksəltmək lazımdır, iqtisadi yardımla bunu başa gətir-

mək mümkün deyildir. İqtisadi gerçəkliklər müxtəlif ölkələrdə və müxtəlif insanlar üçün müxtəlif olur. Yoxsul və varlı adamlar müxtəlif ərzaqlar istehlak edirlər və hər birinin də davranış xüsusiyyətlərinin yeri və zamanı fərqlənir. Yoxsulluğun tədqiqində bunu nəzərə almaq xüsusilə vacibdir: dövlət və qeyri-dövlət təşkilatları yoxsulluqla mübarizə aparmaq üçün dəqiq başa düşməlidirlər ki, bu hal yerlərdə necə təzahür edir. Yoxsulluğu günə 1,9 ABŞ dolları 90 sent həddində müəyyənləşdirmək və dünya üzrə hansı göstəricilərin alınacağına baxmaq yetərli deyildir. Anlamaq lazımdır ki, gündə 1,9 ABŞ dolları Nigeriyada, Nepalda, Nankində nə deməkdir. Fərdi istehlaka maraq E.Ditonu həm də sağlamlıq problemlərini öyrənməyə sövq etmişdir. Dünyanın əksər yerlərində səhiyyə məsrəfləri xərclərin əhəmiyyətli hissəsini təşkil edir. Bununla belə, əgər adamlar filmlərə baxmağı sevdikləri üçün kinoya bilet alırlarsa, həkimlərin göstərdiyi xidmətlərə görə pulu heç də onların kabinetlərinə baş çəkməyi xoşladıqlarına görə vermirlər.

2016-cı ildə iqtisadiyyat üzrə Nobel mükafatını O.Hart və B.Holmström müqavilə nəzəriyyəsinə verdikləri töhfələrə görə almışlar.

“Müasir iqtisadiyyatlar saysız-hesabsız müqavilələrdən ibarətdir.” O.Hart və B.Holmströmün irəli sürdüyü yeni nəzəri müddəalar real həyatın müqavilələri və qurumları ilə yanaşı, müqavilə tərtibinin də ehtimal olunan təhlükələrini anlamaq baxımından böyük əhəmiyyətə malikdir. O.Hart və B.Holmström 1970-ci illərdə müqavilə nəzəriyyəsini perspektivli bir sahə kimi ortaya atmış, sonrakı illərdə isə bu nəzəriyyənin praktiki məsələlərini də tədqiq etmişlər. Onların ən adekvat müqavilə tənzimləmələri ilə bağlı təhlilləri bir sıra sahələrdə siyasət formalaşdırmağın intellektual təməllərini müəyyənləşdirir.

Müqavilələr nəzəriyyəsini geniş tədqiq edən O.Hartın tədqiqat-

ları geniş profilli olmuşdur. Belə ki, o, şirkətlər nəzəriyyəsini, korporativ maliyyəni və iqtisadiyyat hüququnu da ətraflı araşdırmışdır. Bu tədqiqatlar alimn mülkiyyət və müqavilə münasibətlərinin idarə olunması sahəsində elmi ixtisaslaşmasını təmin etmişdir.

Müqavilə nəzəriyyəsinin inkişafına O.Hartla birlikdə töhfə verən həmkarı B.Holmström isə onu məhsuldar sahə olaraq meydana çıxartmış və bu nəzəriyyənin geniş tətbiqi yollarını tədqiq etmişdir. B.Holmström, həmçinin “dinamik stimullar” adlanan nəzəriyyə də işləmiş, agentin əməkhaqqının onun hərəkətlərini qiymətləndirmək üçün vacib olan və hərəkətləri ilə əlaqəli olmayan zəif təsirlənən amillərin ölçülərindən asılılığını şərtləndirən “məlumatlandırma prinsipi” ilə çıxış etmişdir. Sonradan bu prinsip onun adı ilə “Holmström prinsipi” kimi tanınmışdır. B.Holmström izah edirdi ki, agent mükafatlandırılmasını iqtisadiyyatın vəziyyəti ilə bağlı amillərlə asılı etmək lazım deyil. Məsələn, bu mükafat şirkət səhmlərinin mütləq dəyərinin dinamikası ilə əlaqələndirilə bilməz. Daha düzgün isə həmin səhmlərin dəyərinin dinamikasının bu sahədəki digər səhmlərin dəyərinin dinamikasına nisbətdə nəzərə alınmasıdır.

2017-ci ildə R.Taler davranış iqtisadiyyatına töhfələrinə görə iqtisadiyyat üzrə Nobel mükafatı almışdır.

R.Taler davranış iqtisadiyyatı ilə yanaşı, davranış maliyyəsi və qərar qəbuletmə mexanizmləri haqqında digər tədqiqatlar da aparmışdır. O, özünün araşdırmalarında iqtisadiyyatda geniş yayılmış “hər kəsin rasional və eqoist olduğu” fərziyyəsi əvəzinə “insani” ola biləcəyi fərziyyəsindən istifadə edirdi. Onun amerikalı hüquqşünas-alim və siyasi fəal Cass Robert Sunstein (1954*) ilə birlikdə 2008-ci ildə yazdığı “Düyün” (Nudge) adlı* əsəri ən çox satılan kitablar siyahısına daxil olmuşdur. “Düyün-dümsük” nəzəriyyəsi büdcə kəsrlərinin xərc hədəflərini məhdud-

laşdırdığı dövrdə siyasətçilərin səs verənlərə təsir göstərmək və cəmiyyəti dizayn etmək məqsədilə göstərə biləcəkləri təşəbbüsləri təqdim edir. ABŞ-ın sabiq Prezidenti B.Obama və Böyük Britaniyanın sabiq Baş naziri D.Kameron (*1966*) da davranış iqtisadiyyatının ölkə valyutasını qoruyub-qoruya bilməyəcəyini araşdıran tədqiqat qrupları yaratmışdılar.

2018-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatını iqlim dəyişiklikləri ilə bağlı makroiqtisadi təhlillərə görə U.Nordhos və texnoloji yeniliklərin makroiqtisadi təhlilinə görə P.Romer almışlar.

U.Nordhos iqtisadiyyatla iqlim arasında qlobal qarşılıqlı əlaqəni izah edən modelin yaradıcısı kimi tanınır. O, idarə olunmayan ekosistemlərdən əhəmiyyətli dərəcədə asılı, başqa sözlə, təbii yağıntılara, axınlara, temperatura, habelə iqlim dəyişikliyinə ən həssas olan iqtisadiyyatın sektorları ilə bağlı mühüm elmi tədqiqatlar yerinə yetirmişdir. Bu kateqoriyaya isə kənd təsərrüfatı, meşə təsərrüfatı, təbiətdə istirahət və onlara yaxın sahələr aid edilmişdir.

U.Nordhos məşhur iqtisadçı, Nobel mükafatı laureatı P.Samuelsonla birlikdə yazdığı, 1985-ci ildən dünyanın əksər aparıcı universitetlərində tədris olunan, dünyanın bir çox dillərinə tərcümə edilmiş orijinal "İqtisadiyyat" dərsliyinin həmmüəllifi kimi şöhrət qazanmışdır. O, həmkarı, iqtisadçı, Nobel mükafatı laureatı C.Tobinlə birlikdə yazdığı "İstehlak artımdırmı?" məqaləsi ilə də məşhurlaşmışdır. Bu məqalədə iqtisadi dayanıqlığın qiymətləndirilməsinin ilk modeli olaraq İqtisadi Rifah Ölçüsü (*Davamlı İqtisadi Rifah İndeksi - Index of Sustainable Economic Welfare*) təqdim edilmişdir. O, həmçinin milli gəlirin cari tədbirlərini tənqid etməsi ilə də tanınır. U.Nordhos "əgər biz son yüz ildə real gəlir artımının dəqiq qiymətləndirilməsini almaq istəyiriksə, onda biz necəsə istehlak etdiyimiz əmtəə və xidmətlərin keyfiyyət və

çeşidində böyük dəyişiklikləri nəzərə alan hər hansı bir şəkildə atın xidmətlərini maşınla, kuryer xidmətlərini "Poni" ekspressi faksimil aparatı ilə, sürətçıxaran kağızı kserekslə, qaranlıq və kimsəsiz gecələri televizor seyr etməklə və baş beyindəki əməliyyatları maqnit-rezonans tomoqrafiyası ilə müqayisə edən qiymətlər indeksi qurmalıyıq".

U.Nordhosun nobel tərəfdaşı P.Romer riyazi iqtisadiyyatın müxtəlif aspektlərini özündə əks etdirən bir sıra elmi dəyərli əsərlərin müəllifidir. O, bu əsərləri ilə nümayiş etdirmişdir ki, texnoloji dəyişikliklər, ilk növbədə, elmi-tədqiqat laboratoriyalarında aparılan niyyətli fəaliyyət və hərəkətlərin nəticəsidir.

P.Romerin mühüm işləri iqtisadi artıma həsr edilmişdir. O, ideyaları əmtəələrdən fərqləndirən və bazar iqtisadiyyatının inkişafı üçün hansı tələblərin zəruri olmasını şərtləndirən "endoqen artım" adlanan nəzəriyyənin əsasını qoymuşdur. Göstərmişdir ki, hansı iqtisadi amillər şirkətin innovativ aktivliyini idarə edir. P.Romer iqtisadi artımı endogen edən faktiki səbəbin ilk modellərindən birini təklif etmişdir.

P.Romerin tədqiqatları makroiqtisadi təhlilə yanaşmada çevriliş yaratmışdır. O, zaman alimlər Yaponiya, İsrail, "Şərqi Asiya pələngləri" (*Cənubi Koreya, Sinqapur, Honkonq və Tayvan*) ölkələrində sürətli artım haqqında silsilə yazılar dərc edirdilər. Lakin bu artımların mənbəyində nəyin dayandığını anlamadan onlar haqqında, demək olar ki, söz açmırdılar. Məsələyə xüsusi diqqət ayıran P.Romer texnoloji yeniliyin və biliyin istehsalda əlavə bir amil olması və bu istiqamətdə toplanan biliklərin əmək məhsuldarlığına və kapitala müsbət təsir göstərməsinə dair nəzəriyyə təklif etdi. Bununla yanaşı, o, həm də belə iqtisadi artımın idarə edilməsini innovasiyaları iqtisadi siyasətlə bağlılıqda stimullaşdırılmasının vacib olduğunu əsaslandırdı. Bu da digər iqtisadçılara və praktiki təsisatlara yeni bir alətlər dəsti verdi.

P.Romer həm də "Errou-Romer modeli"nin əsasını qoyanlardandır. Bununla belə, o, adı ilə bağlı "Romer modeli"nin də müəllifidir. Bu modeldə iqtisadi artımın başlıca amili kimi ETTKİ-yə kapital qoyuluşlarının artımı və insan kapitalına yönələn investisiyalar dayanır. P.Romerin burada qənaətə gəldiyi nəticə ondan ibarətdir ki, insan kapitalı və inkişaf etmiş elmlə zəngin olan iqtisadiyyat, uzunmüddətli perspektivdə, bu imkanlardan məhrum olan iqtisadiyyatla müqayisədə daha üstün iqtisadi artım fürsətinə sahib olur.

2019-cu ildə iqtisadiyyat üzrə Nobel mükafatını qlobal yoxsulluğun həllində tətbiqi yanaşmalarına görə A.Banerci, E.Duflo və M.Kremer almışlar.

A.Banerci həmkarları ilə birlikdə insanların həyat keyfiyyətinin yaxşılaşdırılması, müvafiq dövlət proqramlarının effektivliyinin qiymətləndirilməsi sahəsində tədqiqatlar yerinə yetirmişdir. Bunun üçün analoji olan klinik sınaq və səhiyyə tədqiqatlarında geniş yayılmış "Təsadüfi idarə olunan sınaq"dan (*Randomized controlled trial*) istifadə olunmuşdur. Yoxsulluq problemi ilə bağlı öz laboratoriyasının proqramları əsasında ehtiyacı olanların özlərinin əldə edə biləcəklərinin və kənar köməyə ehtiyac duyulacaqlarının hüdudlarını müəyyən etmək üçün A.Banerci Hindistan və Afrikadan faktiki materiallar toplayaraq tədqiqatlarını zənginləşdirmişdir. O, bir sıra ölkələrdə eksperimentlər apararaq, kasıb insanların nəyi satın aldıqlarını, övladlarının sağlamlığına necə baxdıqlarını, nə qədər uşaq sahibi olmaq istədiklərini, məktəbə gedən övladlarının niyə hələ də çox şeyi öyrənə bilmədiklərini, mikromaliyyənin faydalı olmasına rəğmən problemin həllində möcüzə effekti yaratmadığını izah etmişdir. Bu sferada 18 ölkədə aparılan tədqiqatlar göstərmişdir ki, kənd yerlərindəki yoxsullar gəlirlərinin 36-70%-ni, şəhərlərdəki yoxsullar isə 53%-dən 74% arasındakı gəlirlərini qidaya xərcləyirlər. Bununla belə, onlar bahalı, dadlı və yüksək kalorili qidalara üstünlük verir və

həyatı daha az bozlaşdıran və monoton edən digər xərclərə hazırlıqlı olduqlarını nümayiş etdirirlər. Xüsusilə, yoxsulların, demək olar ki, televiziyaya çıxışı olmayan Hindistanın şimalındakı Racasthan əyalətində, onlar müxtəlif bayramlar üçün ailə büdcəsinin 14%-ni xərcləyirlər. Kəndlərdəki kasıbların 56%-nin radio, 21%-nin televizoru olduğu Nikaraquada isə bir çox ailələr heç bir bayrama pul xərcləmirlər. Uzun illər davam edən araşdırmaların nəticəsi problemi bir anda həll etmək üçün sehrli üsulun olmadığı qənaətini vermişdir. Bundan başqa, gəlirin sadə bir artımı heç də mütləq olmadan qidalanmanın keyfiyyətinin yüksəlməsinə gətirmir. Ona görə ki, artımlar əlavə istəklər ortaya çıxarır. Bu baxımdan doğru istiqamətə aparan addımların siyahısı tərtib edilmişdir (*HİV-ə yoluxmamaq üçün nə etməli, ucuz duz - dəmir və yod ilə zənginləşdirilmiş duzdur və s.*). Bütün bunların nəticəsi isə "Yoxsulluq iqtisadiyyatı: dünyada yoxsulluqla mübarizə yollarının kökündən yenidən düşünülməsi" (*Poor economics: a radical rethinking of the way to fight global poverty. - 2011*) kitabında yayımlanmışdır.

E.Duflo da qlobal yoxsulluqla bağlı çoxsaylı tədqiqatların müəllifidir. O, tədqiqatlarının nəzəri işləmələrini və aprobasiyasını həyat yoldaşı A.Banerci və görkəmli iqtisadçı S.Mülleynatanla birlikdə 2015-ci ildə Massaçusets Texnologiya İnstitutunun nəzdində yaratdıqları "Yoxsulluqla mübarizə laboratoriyası"nda yerinə yetirmişdir. Burada aidiyyəti üzrə 200-dən çox empirik inkişaf təcrübəsi aparılmış, "təsadüfi idarə olunan sınaq" üzrə çoxsaylı mütəxəssis-praktiklər hazırlanmışdır.

E.Duflo tədqiqat karyerasının böyük bir hissəsini Hindistana və Afrikaya səyahət etməklə genişləndirmişdir. O, burada yoxsulluğun azaldılması üzrə hansı proqramların təsirli olduğunu anlamağa çalışmış və bu istiqamətdə gözlənilməz nəticələrə gəlmişdir. E.Duflo sadə bir düşüncəni - maddi yardımın "yoxsulluq tələsindən" çıxmaq istəyənlər üçün faydalı olduğunu (*və ya*

*azad bazarın bəzi tənqidçilərinin dediyi kimi, faydasızdır*) tutmaq əvəzinə detallara vararaq sual edir: "Ağcaqanad torlarını pulsuz paylamaq və ya satmaq lazımdırmı? Uşaqları məktəbə cəlb etməyə və həqiqətən, orada oxuduğuna əmin olmağa nə kömək edəcək? Yerli sakinləri peyvənd etmək üçün həkimləri kəndlərə göndərmək lazımdırmı? Kisələrlə düyü paylamağa dəyərmi? Və ya bu və digər? Yoxsa heç?"

O, inkişaf etməkdə olan ölkələrdə qadınların rolunu araşdıraraq belə bir qənaətə gəlmişdir: "Məsələn, Hindistandakı kənd məclislərində qadınlara qərar qəbul etmək imkanı verilərsə, uşaqların qidalanması və təhsilə yiyələnməsi, ehtimal ki, daha yaxşı olar. Bu o deməkdirmi ki, qadınlar dünyanı idarə etsələr, yoxsulluq yox olub gedəcək?" E.Duflo hesab edir ki, bu yetərli olmasa da, vəziyyəti yaxşılaşdıra bilər. "Ümumi qəbul edilmişdir ki, Afrikada qadınlar süfrədə yeməyin olması üçün məsuliyyət daşıyırlar. Buna görə də resurlar qadınlara verildikdə uşaqlar daha yaxşı vəziyyətdə olurlar. Lakin qadınların müstəqilliyinin hamımızı zəngin və sağlam edəcəyinə gətirəcəyi də gözlənilməməlidir".

M.Kremer stimulların öyrənilməsi sahəsində tədqiqatları ilə tanınır. O, 1993-cü ildə bir-birini tamamlayan səlahiyyətlər əsasında "O-üzüklər" adlanan iqtisadi inkişaf nəzəriyyəsini (*O-ring theory of economic development*) yaratmış, 1970-ci illərin əvvəlinə qədər müşahidə olunan dünya əhalisinin hiperbolik böyüməsi fenomeninə və demoqrafik keçidin iqtisadi mexanizmlərinə ən uyğun izahlardan birini təklif etmişdir. Beynəlxalq Artım Mərkəzi tərəfindən keçirilən Böyümə Həftəsi-2010-da M.Kremer özünün insan kapitalı sahəsindəki araşdırmalarını təqdim etmişdir.

Bütün bunlar onu göstərir ki, iqtisadiyyat üzrə Nobel mükafatı sahibləri müasir dünya iqtisadiyyatının fundamental problemlərinin təhlilinə və iqtisadi elmin müxtəlif sahələrində bir çox tətbiqi tədqiqatların inkişafına mühüm töhfələr vermişlər. Bu daha

çox iqtisadi nəzəriyyənin bölmələri olan ekonometrika, makroiqtisadiyyat və mikroiqtisadiyyat, maliyyə və kredit, pul nəzəriyyəsi və vegilər, şirkətlərin, müəssisələrin iqtisadiyyatı, beynəlxalq ticarət, informasiya iqtisadiyyatı, iqtisadi statistika, iqtisadi psixologiya və sosiologiya, iqtisadi fikir tarixi sahələrini əhatə etmişdir. Nobel iqtisadiyyatı statistikası göstərir ki, ilk laureatlar olmaqla, mükafatçıların böyük hissəsi ekonometrikadakı nailiyyətlərə görə ön sıraya çıxmışlar. Ekonometrik nailiyyətlər birbaşa və dolayısı ilə R.Friş, Y.Tinbergen, V.Leontyev, L.Kleyn, T.Hovelmu, L.Kantoroviç, T.Kupmans, D.Makfadden, C.Hekman, R.İnql, C.Debre, C.Stoun, M.Alle, C.Neş, C.Harsani, R.Zelten, C.Mirrlis, U.Vikri, M.Şoulz, E.Spens, K.Qrencer, T.Sarcent, K.Sims, O.Uilyamson, L.Şepli, J.Tirol, E.Diton, O.Hart, B.Holmström, A.Banerci və M.Kremerin tədqiqatlarında mühüm yer tutmuşdur. Vurğulanmalıdır ki “ekonometrika”, “makroiqtisadiyyat” və “mikroiqtisadiyyat” terminlərinin dövriyyəyə çıxışı iqtisadiyyat üzrə ilk Nobel laureatlarından bir olan R.Frişin adı ilə bağlıdır. Məhz buna görə də “makroiqtisadiyyat” və “mikroiqtisadiyyat” sahəsində mükafatların verilməsi ötən əsrin 70-ci illərindən start götürür. Belə ki, “makroiqtisadiyyat” üzrə tədqiqatlara görə ilk laureat 1974-cü ildə Q.Mürdal və F.Hayek olmuşlar. Sonradan 1976-cı ildə M.Fridman, 1977-ci ildə B.Ulin və C.Mid, 1980-ci ildə L.Kleyn, 1981-ci ildə C.Tobin, 1985-ci ildə F.Modilyani, 1995-ci ildə R.Lukas, 1996-cı ildə U.Vikri, 1999-cu ildə R.Mandel, 2004-cü ildə F.Kidland və E.Preskott, 2008-ci ildə P.Kruqman, 2011-ci ildə T.Sarcent və K.Sims və 2018-ci ildə U.Nordhos, P.Romer bu və ya digər dərəcədə makroiqtisadi tədqiqatlara görə Nobel mükafatına layiq görülmüşlər. Mikroiqtisadiyyat üzrə isə ilk laureat 1978-ci ildə H.Saymon olmuşdur. Sonradan 1982-ci ildə C.Stiqler, 1991-ci ildə R.Kouz, 1992-ci ildə H.Bekker, 2000-ci ildə C.Hekman və D.Makfadden, 2007-ci ildə L.Qurviç, E.Meskin və R.Mayerson,

2009-cu ildə E.Ostrom və O.Vilyamson, 2010-cu ildə P.Daymond, D.Mortensen və K.Pissarides, 2014-cü ildə J.Tirol bu sahədəki nailiyyətləri dolğunlaşdırmışlar. İqtisadiyyat üzrə Nobel mükafatı istiqamətlərindən daha geniş olanı maliyyə və vergilərlə bağlıdır. Bu sırada maliyyə və kredit sahəsi üzrə laureatlar 1984-cü ildə C.Stoun, 1985-ci ildə F.Modilyani, 1986-cı ildə C.Bükenen, 1990-cı ildə H.Markovits, M.Miller və U.Şarp, 1997-ci ildə R.Merton və M.Şoulz, 1999-cu ildə R.Mandel, 2003-cü ildə R.İnql, 2013-cü ildə Y.Fama, L.Hansen və R.Şiller, 2014-cü ildə J.Tirol, 2016-cı ildə O.Hart və B.Holmström, 2017-ci ildə R.Taler adı ilə bağlıdır. Vergilər sahəsi üzrə araşdırmalar isə bu və ya digər dərəcədə C.Hiks, C.Arrou, M.Fridman, C.Mid, C.Tobin, C.Debre, C.Bükenen, R.Solou, M.Alle, C.Mirrlis, U.Vikri, M.Şoulz, R.Mandel, C.Hekman, F.Kidland, E.Meskin, P.Daymond, T.Sarcent və K.Simsin tədqiqatlarında yer almışdır.

İqtisadiyyat üzrə Nobel laureatlarının tədqiqatlarında iqtisad elminin özü və onun ayrı-ayrı sahələri üzrə nəzəriyyələrin işlənməsi, təkmilləşdirilməsi istiqamətindəki işləmələr də məxsusi yer tutur. Bu sahədə iqtisadiyyatın inkişafı nəzəriyyəsi üzrə 1979-cu ildə T.Şults və V.Lüis, 1971-ci ildə S.Kuznes və 2019-cu ildə M.Kremer, iqtisadi artım nəzəriyyəsi üzrə 1970-ci ildə P.Samuelson, 1971-ci ildə S.Kuznes, 1975-ci ildə T.Kupmans, 1977-ci ildə C.Mid, 1981-ci ildə C.Tobin, 1987-ci ildə R.Solou, 1988-ci ildə M.Alle, 1993-cü ildə D.Nort, 1995-ci ildə R.Lukas və 2018-ci ildə P.Romer, tarazlıq nəzəriyyəsi üzrə 1970-ci il də P.Samuelson, 1972-ci il də C.Hiks və K.Errou, 1983-cü ildə C.Debre, 1988-ci ildə M.Alle, 2006-cı ildə E.Felps, oyunlar nəzəriyyəsi üzrə 1994-cü il də C.Harsani, C.Neş və R.Zelten, 2005-ci il də R.Aumann və T.Şellinq, 2007-ci ildə L.Qurviç E.Meskin və R.Mayerson, 2012-ci ildə L.Şepli və 2014-cü ildə J.Tirol, resursların optimal bölgüsü nəzəriyyəsi üzrə 1975-ci ildə L.Kantoroviç və T.Kup-

mans, 1982-ci ildə C.Stiqler, 1988-ci ildə M.Alle, 1996-cı ildə U.Vikri və 2007-ci ildə L.Qurviç, iqtisadi rifah nəzəriyyəsi üzrə 1972-ci ildə C.Hiks və C.Errou, 1998-ci ildə A.Sen, 1983-cü ildə C.Debre, 1994-cü ildə C.Harsani, 1996-cı ildə C.Mirrlis, 2015-ci ildə E.Diton fərqlənmişlər. Bundan başqa, iqtisadiyyat üzrə Nobel laureatlarının tədqiqatlarında giriş və çıxış məlumatlarının təhlili üzrə 1973-cü ildə V.Leontyev, informasiya iqtisadiyyatı üzrə 1972-ci ildə K.Errou, 1978-ci ildə H.Saymon, 1994-cü ildə C.Harsani və R.Zelten, 1995-ci ildə R.Lukas, 1996-cı ildə C.Mirrlis və U.Vikri, 1997-ci ildə R.Merton, 2001-ci ildə C.Akerlof, E.Spens və C.Stiqlisin, iqtisadi fikir tarixi üzrə 1971-ci ildə S.Kuznes, 1987-ci ildə R.Solou, 1993-cü ildə R.Fogel və D.Nortun, iqtisadi psixologiya üzrə 1978-ci ildə H.Saymon, 2000-ci ildə C.Akerlof və D.Makfadden və 2002-ci ildə D.Kaneman və V.Smitin, insan kapitalı üzrə 1992-ci ildə H.Bekker, 1995-ci ildə P.Lukas, 2000-ci ildə C.Hekman, 2018-ci ildə M.Romer və 2019-cu il M.Kremerin araşdırmaları geniş əksini tapmışdır.

Nobelçi iqtisadçılar elm və tətbiq sahəsi üzrə araşdırmaları ilə yanaşı, təhsil sisteminə də töhfələr vermişlər. Onların tədqiqatlarından, sözsüz ki, təhsil ocaqlarında geniş istifadə edilmişdir. Bununla yanaşı, bir sıra nobelçi iqtisadçılar ixtisaslaşmış elm sahəsinin bütövlükdə mənimsənilməsi üçün ayrıca sanballı dərslikl ər yazmışlar. P.Samuelsonun (*1985-ci ildən Nobel laureatı U.Nordhosla birgə*) yazdığı "İqtisadiyyat: təhlilə giriş" (*Economics: an introductory analysis*) dərsliyi onun vizit kartına çevrilmiş, 1948-ci ildən nəşrindən bəri 40 dilə tərcümə olunaraq, 4 milyon nüsxədən çox sayda satılmışdır. Bundan başqa, C.Stiqlisin də ayrıca yazdığı "İqtisadiyyat", həmçinin C.Midin "İqtisadi təhlil və siyasətə giriş", L.Kleynin "Ekonometrika", M.Miller və Y.Famanın "Maliyyə nəzəriyyəsi", E.Felpsin "Siyasi iqtisad", R.Mayersonun "Oyunlar nəzəriyyəsi" və P.Kruqmanın

"Beynəlxalq iqtisadiyyat" dərslikləri də geniş yayılmışlar. Həmin dərsliklər, demək olar ki, bazar iqtisadiyyatı sferasında təlimlər verən universitetlərinin hamısında ən əsas tədris vəsaitlərindədir.

Nobelçi iqtisadçılar iqtisad məktəblərinin təşəkkülü və inkişafına da töhfələr vermişlər. P.Samuelson, S.Kuznes, F.Modilyani, C.Hiks, C.Tobin, C.Mid, R.Solou, L.Kleyn, E.Felps, P.Kruqman həm də neokeynsçiliyin qurucuları kimi tanınmışlar. Xüsusi ilə vurğulanmalıdır ki, P.Samuelson "neoklassik sintez" (*neolassik mikroiqtisadiyyatın keynsçi makroiqtisadiyyatla bir konsepsiyada birləşməsi*) konsepsiyasının təşəbbüsçülərindən və "neokeynsçilik" (*Keyns təliminin iqtisadiyyatın neoklassik modeli ilə sintezi*) məktəbinin yaradıcılarından biri kimi tanınır. İdeyaları keynsçiliklə bağlı Q.Mürdal institusionalizmin inkişafına töhfələr vermiş, neoliberalizm istiqamətinin əsas nəzəriyyəçiləri sırasında isə F.Hayek, M.Fridman, C.Stiqler, R.Lukas, M.Alle, R.Mandel dayanmışlar. M.Fridman 8 iqtisad məktəbindən birinin - monetarizmin banisi olan yeganə nobelçi olmuşdur.

Nobel iqtisadiyyatını üniversitetlər üzrə böldükdə isə Çikaqo Universiteti (*University of Chicago*), Kaliforniya Universiteti (*University of California*), Harvard Universiteti (*Harvard University*), Prinston Universiti (*Princeton University*), Kembric Universiteti (*University of Cambridge*), Kolumbiya Universiteti (*Columbia University*), Massaçusets Texnologiya İnstitutu (*Massachusetts Institute of Technology*), Stenford Universiteti (*Stanford University*), Oslo Universiteti (*Universitetet i Oslo*), Karnegi-Mellon Universiteti (*Carnegie Mellon University*), Corc Meyson Universiteti (*George Mason University*), Nyu-York Universiteti (*New York University*) və daha 20-dən çox ali təhsil ocağının öndə getdiyi müəyyənləşir.

# Nəticə

Nobel iqtisadiyyatı ilə bağlı apardığımız araşdırmalar göstərdi ki, Nobellər şəcərəsi yaranışında iqtisadi fəal əhali qurupu sırasında olmuşdur. Bu iqtisadi fəallıq XIX ərin ortalarından etibarən ata Emmanuel Nobelin adı ilə bağlı olmuş, Alfred Nobelin elmi kəşfləri, onun tətbiqi nəticələri, 3 qardaş - Lüdviq, Robert və Alfred Nobellərin (*çar ordusunun polkovniki Pyotr Bilderlinqlə birlikdə*) 1879-cu ildə Bakı neftinin istismarı ilə bağlı yaratdıqları (*sonradan kiçik Emmanuel Nobelin idarə etdiyi*) "Nobel qardaşlarının neft istehsalı şirkəti" sayəsində isə zirvəyə çatmışdır. Bu gerçəklik Nobellər ailəsinin keçdiyi həyat yolu və biznes quruculuğu ilə bağlı tədqiqat araşdırmaları ilə bir daha əsaslandırılmışdır. Bununla belə, tədqiqat işində Nobel mükafatları fondunun yaradılmasında Bakı neftinin rolunu və mühümlüyünü yəqinləşdirən amil və cəhətlər, tarixi faktlar, hadisələrin şahidlərinin yazdıqları, Nobel nəslinin davamçılarının söylədikləri sistemli və təhlili yanaşmada şərh olunmuşdur. Nobellərin biznesinin tutumlu və sürəkli hissəsinin Bakı mədənləri ilə bağlılığı və Alfred Nobelin təsis etdiyi məşhur mükafatın fondunun əhəmiyyətli hissəsinin Abşeron torpağının dağ rentası hesabına və həmçinin Bakı fəhlələrinin əməyi ilə qazanılması amili yetərli və əsasdır. Nobel Ailəsi Cəmiyyətinin sədri, müasirimiz professor Tomas Tayden də bu qənaətdədir. Özünün Nobel qardaşlarının Rusiya imperiyasında və xüsusən, Azərbaycandakı fəaliyyətinə həsr edilmiş məşhur "Nobellər və Bakı nefti" adlı kitabının "Ön söz"ündə T.Tayden yazır: "Nobel mükafatının ianəçisi Alfred Nobel vəfat edəndə əmlakının əksər hissəsi onun dinamit şirkətlərinin deyil, o zaman dünyanın ən iri neft şirkətlərindən biri olan "Nobel qardaşlarının neft istehsalı şirkəti"nin gəlirləri təşkil etmişdir".

Monoqrafik tədqiqatda, həmçinin Nobel mükafatının özəlliklərinə, onun sistem fərqliliklərinə, qaydalar çevrəsinə də yeni reallıqlar baxımından yanaşılmış, laureatlarının statistik forumu təhlil olunaraq təyinetmə və təqdimat sferasındakı maraq doğuran məqamlara analitik nəzər yetirilmişdir. Bu hissədə çıxarılan nəticədə mükafat sistemindəki zəif nöqtələr və çatışmazlıqlar, Nobel Komitəsində təsisçi prinsiplərindən kənarlaşma və yayınma, qərarların qəbulunda subyektiv təzahür, qaliblərin seçimində lobbiçi təsir və tərəfkeşlik meyillərinin görüntüsü önə çəkilir. Araşdırmalar Nobel mükafatının dövriyyəyə girdiyi andan onu qalmaqallı vəziyyətlərin, kuryoz və odiyoz hadisələrin, çoxsaylı neqativlərin əhatə etdiyinə bir daha əsaslar verir. Bu çevrədə dissonas doğuran hallar daha çox dövlət və hökumət başçıları ilə əlaqədardır. Belə ki, müxtəlif cəbhələrdə müharibələr aparanlar, müstəmləkəçi ambisiyaları ilə fərqlənənlər, kağız üzərində ani, möhkəm olmayan sülh yaradanlar mükafatlar almışlar. Bir sıra hallarda isə mükafat birtərəfli qaydada, qarşı tərəfi - ölkə rəhbərini nəzərə almadan təyin edilmişdir. Təəssüf doğuran hal isə namizədlər sırasına müstəmləkəçiliyə qarşı “güc tətbiq etməmək” metodlarından istifadə etməklə mübarizə aparan Mahatma Qandinin və onun kimi digərlərinin adları deyil, faşist lideri Adolf Hitlerin, İsveçrə parlamentində 4 adamın qətlinə görə həbsdə olan amerikalı qanqster Stenli “Tuki” Uilyamsın adlarının daxil edilməsidir. Azərbaycanda 20 yanvar qətliamı ilə yanaşı, Alma-Ata, Vilnüs, Riqa və Tbilisi şəhərlərində törədilən qanlı hadisələrin müəllifi Mixail Qorbaçovun da Nobel sülh mükafatı alması tə’ssüf doğurur.

Sülh laureatları arasında ABŞ elitası da liderlik etmiş, prezidentlərdən savayı, vitse-prezidentlər, dövlət katibləri, hərbiçilər mükafat alanlar sırasında olmuşlar. Ədəbiyyat nominasiyasında isə Tolstoylar kənarda qalmış, Çörçillər mütləq ən yaxşı olmuşlar.

Alfred Nobelin vətənindən kənarda tanınmayan, mükafatın ədəbiyyat sahəsi üzrə laureat seçmində iştirak edən yazıçılar da qloballaşdırılmışlar. Bu nominasiyada çılpaqlığın yüksəliş həddi çox yaxın keçmişdə, 2017-ci ildə baş vermişdir. Cinsi təcavüz qalmaqalı nəticəsində İsveç Akademiyasının 18 üzvündən 7-si istefa vermiş, bununla da 2018-ci ildə mükafatçını müəyyənləşdirmək üçün jüridə yetərsay olmamışdır. Yekunda 2018-ci il ədəbiyyat üzrə Nobel mükafatı 2019-cu ilə keçirilmişdir. Bu isə, obrazlı desək, dünya iqtisadiyyatında olduğu kimi, İsveç Akademiyasında da böhranın yaşandığını səciyyələndirən göstəriciyə çevrilmişdir. Yaranmış böhran deqradativ olmasa da, qeyri-obyektivliyi daha da qabartmış, nüfuz simmetriyasına pozucu təsir gətirmişdir.

Nobel laureatlarının seçimində məşhur fizikin kimya sahəsi üzrə mükafata layiq görülməsi, mükafat almış tədqiqat nəticələrinin sonradan sağlamlıq üçün təhlükəliliyini yəqinləşdirməklə qadağan edilməsi, ilk kosmik uçuşun təşkilatçılarının bilinməyən nominasiyada mükafatlandırılmasına cəhd edilməsi kimi halların yaşanması da bir reallıq olmuşdur.

Bundan başqa, son illərin mükafatları mənzərəsinə nəzər yetirdikdə dəqiq elmlər sahəsində bu təltifatın konkret bir elmi kəşf üçün deyil, hələ bilinməyən müəyyən bir prosesi öyrənmək üçün verildiyi müəyyən olunmuşdur. Laureatlar sırasında vətəndaşı olduğu ölkədəki siyasi sistemə müxalifətdə dayananlar, süni şəkildə məşhurlaşdırılanlar, kövrək sülh yaradanlar, müxtəlif psevdoqəhrəmanlar və digər bu kimi meyilli təşəbüsslərdə olanlar da nəzərə çarpmışdır.

Ekspertlər indəyədək Nobel sülh mükafatı alanların hər 3 nəfərdən birinin uyğunsuzluqları qənaətində olmuşlar. Əslində, həmin vəziyyət bütün nominasiyalara şamil edilməlidir. Bu sferada sistemli neqativ hallar daha çox ötən əsrin 50-60-cı illərindən

sonra qabarıqlığı ilə sezilmişdir. Aparılan araşdırmalar da bütün bunların gerçək olduğuna bir daha yəqinlik gətirmişdir. Bu barədə təhlili baxış növbəti illərdə Nobel sülh laureatının Venesueladan, Ukraynadan və hətta Ermənistandan çıxacağını da istisna etmir. Burada özünü kosmopolit kimi təqdim etməyə çalışan, dissident, şəxsi maraqlarından çıxış edərək vətəni hər vəchlə qamçılayan azərbaycanlılar da görüntülənə bilər. Belə ssenariyə çoxsaylı adekvat tarixi qənaətlər əsas yaradır.

Araşdırmalar həm də o reallığı bir daha təsdiqləyir ki, Nobel mükafatı alanların mənsub olduqları ölkələrin siyahısında ABŞ liderlik edir. Burada mübahisə olunmayan və olunan məqamlar çoxdur. Əvvəla sirr deyil ki, ABŞ dünyada ən mühüm elmi tədqiqatların yerinə yetirildiyi, bu sahənin davamlı investisiyalaşdırıldığı ölkədir. Bu baxımdan güclü kəmiyyət və keyfiyyət fəqlilikləri onun elm adamlarının mükafatçılar sırasında öncül yer tutumasını daha şanslı edir. Digər tərəfdən, ABŞ həm də elmi naliyyətləri geniş dəstəklənmə mexanizminə sahibdir. Belə vəziyyət isə mükafatın onun təsiri altına keçməsini, qlobal səviyyədən regionala enməsini səciyyələndirir. Lakin bütün bunlara baxmayaraq, uğurları sülh nominasiyası və bir qədər də ədəbiyyat sahəsinə aid etmək çətindir. Bir çox elm sahələri üzrə mükafat alan amerikalıların yəhudi əsilli olması da başqa bir reallıqdır. Belə ki, dünya əhalisinin çox az, hətta bir faizə çatmayan qismini təşkil edən yəhudi və ya yəhudi əsillilər laureatlar sırasında hər 5 nəfərdən biridir. Laureatlar sırasında ana vətənləri İsraildən olanlarsa, barmaqla sayıla bilər. Afrikadan və müsəlman dünyasından isə laureat sayı son dərəcə məhduddur.

Mükafatçılar arasında gender bərabərsizliyi də diqqəti cəlb edir. Belə ki, qadın laureatların sayı 6%-dən bir qədər çoxdur. Onların yarıdan azı elm sahələrinin təmsilçiləridir.

Tədqiqat işində bütün bu "ayrı-seçkilik", standart müxtəlifliyi görüntüləri içərsində azərbaycanlıların Nobel mükafatı ala bilməsi məsələsi də təhlil olunmuşdur. Əslində, vəziyyət belə nəticəlidir. 1962-ci ildə fizika sahəsində Nobel mükafatına layiq görülmüş görkəmli alim Lev Landau Bakıda doğulmuş və Bakı Dövlət Universitetinin tələbəsi olmuşdur. 2005-ci ildə baş direktoru ilə birlikdə Nobel sülh mükafatı alan MAGATE-nin əməkdaşları arasında, kollektiv üzv kimi, azərbaycanlı alim Bəxtiyar Siracov da olmuşdur. Bu sıyahıya Böyük Britaniyada yaşayan, 2003-cü il Nobel sülh mükafatçısı, əslən İrandan olan hüqüq müdafiəçisi Şirin İbadinin də adı daxil edilə bilər. 1940-cı il fiziologiya və tibb sahəsi üzrə professor Sona Rəhimovanın və 1999-cu də yenə də fiziologiya və tibb sahəsi üzrə biologiya elmləri doktoru Nemət Qasımovun adları Nobel mükafatına namizədlər sırasında keçən azərbaycanlılar olmuşlar.

Yuxarıda göstərilənlər Nobel mükafatının gələcəyinin olmadığı, onun yaxın dövrlərdə ləğvinin qaçılmazlığı qənaətinə gətirir. Faktlar, təhlil və araşdırmalar prosesin qeyd edilən istiqamətə doğru yönəldiyini bir daha anladır.

Alfred Nobelin təsis etdiyi mükafatın əsas qaynaq elementini Bakı neft kapitalı təşkil etsə də, onu əlahiddə şəkildə almaq azərbaycanlılara, hələ ki, müyəssər olmamışdır. Bu heç də o demək deyildir ki, Azərbayan Respublikasında Nobel meyarlarına uyğun namizəd tapılmamışdır. Hesab edilir ki, Azərbaycanın ədəbiyyat sahəsi üzrə bu mükafata namizədlər çıxarmaq imkanı xeyli genişdir. Həmin imkanlar əvvəllər də, indi də yetərli olmuşdur. Bu məntiqi fikir yalnız Nobel mükafatı almış ədəbiyyatçıların siyahısına nəzər yetirməklə aparılan məntiqi müqayisəli təhlillərə əsaslanmır. Belə ki, ölkəmizin çoxəsrlik ədəbi məktəbinin möhtəşəmliyi sual doğurmur. Azərbaycan ədəbiyyatı dünyanın azsaylı nəhəng çevrələrindən biridir. Nobeli almaq üçün isə,

sadəcə, səylər artırılmalı, tərcümələr genişləndirməli, təşkilatlanma dərinləşdirilməli, müqabil lobbiçi fəaliyyətlərə başlanılmalıdır. Bunu həm də Nobel mükafatının özünün ruhu tələb edir. Digər tərəfdən, bunlarsız da Azərbaycanda Nobel ödülündən yuxarıda olan ədib və naşirlər kifayət qədərdir.

Elm sahəsində mənzərə bir qədər fərqlənsə də, burada da yetərli potensial mövcuddur. Nobel mükafatlarının dinamik zamanlarında Azərbaycanın müstəqil dövlət kimi çıxış etməməsi onun alimlərinin dəyərli tədqiqatlarının bu müstəviyə çıxarılmasında əsas maneələrdən olmuşdur. Lakin bu istiqamətdə uğurlara qəti imza atmaq üçün elm sferası daha güclü və hərtərəfli stimulaşdırılaraq inkişaf etdirilməli, elm fədailəri, ayrı-ayrı istedadlar, elmi məktəb qurucuları xüsusi dəstək almalıdırlar. Eyni zamanda, təhsil sistemi qlobal çağırışlara uyğun olaraq hər keçid mərhələdə reformasiyalarla inkişafını davam etdirməli, alim nüfuzu adı kimi daim adekvat olaraq ali pilləyə qaldırılmalıdır. Bütün bunlarla yanaşı, daha real addımlar atılmalı, Azərbaycan Nobel İnformasiya Mərkəzinin fəaliyyəti davamlı diqqət mərkəzində saxlanılmalı, onun AMEA, milli universitetlər və ölkənin ayrı-ayrı elm və təhsil ocaqları ilə geniş inteqrasiyası möhkəm və çevik olmalı, ölkənin elm, təhsil və insan kapitalının inkişafı yüksələn güc və yeni potensialla irəliləməlidir.

Tədqiqat işində Nobel mükafatları üzrə əlahiddə məqam İsveç bankının təşəbbüsçüsü olduğu iqtisadiyyat üzrə nominasiyanın təsisatı və laureatların bu sahədə elmə və təcrübəyə verdikləri töhfələrlə bağlıdır. Bu istiqamət əslində bizim tədqiqatın leytmotivini təşkil edən “Nobel iqtisadiyyatı”nın məntiqinə köklənmişdir. Bundan irəli gələrək, monoqrafik tədqiqatda elmi-metodoloji əsaslandırmalar ilə “Nobel iqtisadiyyatı”na mahiyyət verilmiş və o, yeni bir anlayış olaraq elmi dövriyyəyə gətirilmişdir. “Nobel iqtisadiyyatı” postkeyns dövründə iqtisad elminin nəzəriyyə və

konsepsiyaların məzmununun ekonometrtik sübutlarla zənginləşdirilərək təkmilləşdirilməsi, iqtisadi axının reallıqlarına uyğun gələn yenilərinin təşəkkülünü şərtləndirmiş ayrıca elmi mərhələ kimi səciyyələndirilir. Bu mərhələ İsveç bankının 300-cü ilinə qovuşduğu və iqtisadiyyat üzrə Nobel mükafatının təsis edildiyi 1969-cu ildən laureat olmuşlarla yanaşı, həmin mükafatı sözügedən dövrdə almamış iqtisad elminə xüsusi yaradıcı xidmətlər göstərmiş görkəmli iqtisadçıların (*institusionalizmin banisi C.Gelbreyt, postkeynsçi istiqamətin görkəmli nümayəndələri C.Robinson və digərləri*) yaradıcılığından başlayaraq davam edir. Bununla yanaşı, tədqiqat işində "iqtisadiyyat üzrə Nobel mükafatı laureatları" anlayışının ilk dəfə olaraq lakonik təqdimatda "nobelçi iqtisadçılar" termini ilə əvəzləndirilməsi də nəzərə alınmalıdır.

Tədqiqat prosesində bu nəticəliliyin dolğunluğuna nail olmaq üçün müxtəlif ədəbiyyatlar və müvafiq materiallar bir araya gətirilərək geniş təhlil işi aparılmış, laureatların keçdiyi həyat yolu öyrənilərək, onlara bu nüfuzlu mükafatı qazandırmış tədqiqatları, ümümilikdə iqtisad elmini irəlilədən və zənginləşdirən başlıca nəzəriyyə və konsepsiyaları araşdırılmışdır. Eyni zamanda, bu sistem yanaşmasında zəruri olan digər müqabil elmentlərə də diqqət ayrılmışdır. Belə ki, nobelçi iqtisadçıların tədqiqatlarına təhlili nəzər yetirdikdə bir daha müəyyənləşdirilmişdir ki, həmin laureatların dünyada tanınmasında onların aktual mövzular üzrə dərc etdikləri nəşrlər deyil, bu mükafatdan çox öncə yazdıqları dəyərli elmi əsərləri mühüm rol oynamışdır. Belə ki, tədqiqat nailiyyətlərinə görə R.Kouz 60 il, R.Merton və M.Şoulz isə 20 il sonra Nobel mükafatı almışlar. Burada da Alfred Nobelin vəsiyyətlərinə zidd məqam vardır. Çünki o öz vəsiyyətlərində mükafatın həmin ildə yüksək nailiyyət əldə etmiş şəxslərə verilməsini tələb etmişdir.

XX əsrin son onilliklərində Nobel Komitəsinə açıq tənqidlərin ünvanlandığı məqamlarda iqtisadiyyat üzrə də nominasiyaya münasibət adekvat olmuşdur. Burada təkrarlanan fikir ondan ibarətdir ki, mükafat iqtisadçılara, əsasən, onların yaşlı olduqları vaxtlarda verilmiş və bu laureatlar əksərən mükafat sonrası elmi yaradıcılıqlarında fəallıq nümayiş etdirə bilməmişlər. Bütün bu arzuolunmaz təzahürlər və digər məqamlar sonda işi o yerə gətirmişdir ki, kütləfi informasiya vasitələrində Nobel mükafatının köhnəldiyi, müasir elmi reallıqlarla ayaqlaşmadığı və onu ləğv etmək vaxtının yetişdiyi  barədə silsilə yazılar dərc edilmişdir. Nobellərin vətəni İsveçdə də mətbuat mükafatların "keçid yaşında" olanlara verilməsi və burada yeniləşməyə, gəncləşməyə ehtiyacın olmasını haqqında söz açmışdır.

Vurğulanmalıdır ki, nobelçi iqtisadçılar fərqli ölkələrdən olsalar da, əsərlərini ingilis dilində yazmış və ya onları ingilis dilinə tərcümə etdirmişlər. Başqa nominasiyalar üçün səciyyəvi olan bu məsələ iqtisadiyyat sahəsində daha kəskin dayanmışdır. Digər tərəfdən, o da qeyd edilməlidir ki, mükafat alanların əksəriyyəti inkişaf etmiş ölkələrin nümayəndələri, əsasən, demokrat və liberal iqtisadçılar olmuşlar. Onlar dünyadakı mövcud iqtisadi problemlərin həlli istiqamətində praktiki əhəmiyyəti nəzəriyyələr işləmiş, ümidverici pozitiv yanaşmaları olan təkliflər irəli sürmüşlər.

Elmi-analitik və statistik tədqiqatlar göstərmişdir ki, nobelçi iqtisadçıların mühüm hissəsi ekonometriya, statistika və riyazi modelləşdirmə sahəsinin inkişafındakı töhfələri ilə fərqlənmişlər. Onlar sırasında ixtisasca ekonometrikaçı olanlar digərlərini bir qədər üstələyir. Həmin alimlər tərəfindən, əsaslı olaraq, daha çox iqtisadi inkişaf, iqtisadi artım, iqtisadi rifah, tarazlıq, oyunlar, resursların optimal bölgüsü və digər bu kimi nəzəriyyələrə yeni işləmələr əlavə edilmişdir. Onlar makroiqtisadiyyat, mikroiqti-

sadiyyat, giriş və çıxış məlumatlarının təhlili, informasiya iqtisadiyyatı, maliyyə və kredit, vergitutma məsələləri, iqtisadi psixologiya, iqtisadi fikir tarixi, insan kapitalı kimi iqtisad elminin ayrı-ayrı sahələrində elmə və təcrübəyə dəyərli yaradıcı töhfələr vermişlər. Bundan başqa, nobelçi iqtisadçıların tədqiqatlarında bir sıra digər mövcud nəzəriyyə və konsepsiyalar da təkmiləşdirilmiş və yeniləri işlənmişdir. Buraya "sənaye konflikti" nəzəriyyəsi, "sənaye təşkilatı" nəzəriyyəsi, "ictimai seçim" nəzəriyyəsi, "bazarlar" nəzəriyyəsi, "portfel seçimi" nəzəriyyəsi, "yeni istehlak nəzəriyyəsi", "optimal valyuta zonası" nəzəriyyəsi, "siqnallar" nəzəriyyəsi, "optimal mexanizmlər" nəzəriyyəsi, "ticarət" nəzəriyyəsi, "razılaşdırma" nəzəriyyəsi, "sabit bölüşdürmə" nəzəriyyəsi, "müqavilə" nəzəriyyəsi, "səmərəli gözləmələr" konsepsiyası, ailə iqtisadiyyatı, konstitusiya iqtisadiyyatı, kənd təsərrüfatı iqtisadiyyatı, dünya iqtisadiyyatı, korrupsiya, investisiyalar, sosial sığorta, qlobal yoxsulluq, iqlim dəyişiklikləri və digər bu kimi sahə və istiqamətlər aid edilir.

Nobelçi iqtisadçılar həmçinin ixtisaslaşdıqları elm sahələrinin təbliği sahəsində də mühüm işlər görərək, elm-təhsil auditoriyasını sanballı dərsliklərlə təchiz etmişlər. Onlar iqtisad elminin məktəb və istiqamətlərini fundamental tədqiqatları ilə zənginləşdirmiş, işlədikləri universitetlərin şöhrətinə şan qatmışlar.

Digər nominasiyalarda olduğu kimi, iqtisadçı nobelçilər qrupunda da ABŞ öndə olmuşdur. Bu həm də ondan irəli gəlmişdir ki, iqtisadiyyat üzrə Nobel laureatları öz həmmüəlliflərinin, tələbə və həmkarlarının mükafata namizədliklərini irəli sürməyə hüquqludurlar. ABŞ-da isə onların sayı xeyli çoxdur. Bu çoxluq daha çox namizəd irəli sürmək imkanı yaradır. Nobel iqtisadiyyatı statistikası da bu iqtisadi əqrabalığı, faktiki olaraq, çox aydın göstərir. Belə ki, R.Solou V.Leontyevin yanında çalışmış, R.Merton P.Samuelsonun, H.Markovits T.Kupmansın, M.Şoulz

M.Millerin rəhbərliyi altında işləmiş, P.Samuelsonla U.Nordhos həm də birlikdə dərslik (*baxmayaraq ki, U.Nordhos mükafat alanda P.Samuelson çoxdan vəfat etmişdi*) yazmışlar. Burada bir xüsusi hal da nəzərə alınmalıdır ki, hazırda Nobel mükafatçılarının işlərinə əsaslanmayan iqtisadiyyatla bağlı hər hansı dərsliyin müasir və tam hesab olunması çətindir.

Nobelçi iqtisadçıların uğur qazanmasında statistik materiallara əhatəli giriş amili də mühüm olmuşdur. Bu iqtisad elmindəki axtarışlarda vacib və prinsipial şərtdir. Buna görə də bir çox nobelçi iqtisadçılar beynəlxalq təsisatlarda və dövlət işində çalışmış, ABŞ-da "Düşüncələr fabriki" məşhur RAND korporasiyasında işləmiş, ABŞ prezidentlərinin bu və ya digər dərəcədə məsləhətçiləri və müşavirləri olmuşlar. Y.Tinbergen BMT-nin Planlaşdırma Komitəsinə rəhbərlik etmiş, Q.Mürdal bu qurumun Avropa üzrə iqtisadi komissiyasının icraçı katibi, B.Ulin İsveçin Ticarət naziri, F.Modilyani ABŞ Federal Ehtiyatlar Sisteminin İdarəetmə Şurasının üzvü, D.Nort ABŞ Milli İqtisadi Tədqiqatlar Bürosunun direktoru, P.Samuelson ABŞ prezidentləri C.Kennedi və L.Consonun, M.Fridman ABŞ prezidenti R.Niksonun və L.Kleyn ABŞ prezidenti C.Karterin məsləhətçiləri olmuşlar. Bundan başqa, V.Leontyev ABŞ prezidenti F.Ruzveltin hökümətində məsləhətçi, C.Tobin ABŞ prezidenti C.Kennedinin administrasiyasında İqtisadiyyat Komitəsinin sədri, C.Akerlof ABŞ prezidenti R.Niksonun yanında iqtisadi məsləhətçilər komitəsinin əməkdaşı və ABŞ prezidenti B.Klinton adminsitrasiyasında isə həmin komitənin rəhbəri vəzifələrində işləmişlər. C.Stiqlis də, həmçinin ABŞ prezidenti B.Klintonun iqtisadi məsləhətçilər komitəsinə rəhbərlik etmiş, P.Kruqman ABŞ prezidenti Ronald Reyqan administrasiyasının iqtisadçı məsləhətçilər şurasının əməkdaşı kimi çalışmış, U.Nordhos ABŞ prezidenti C.Karterin iqtisadi məsələlər üzrə məsləhətçilər qrupunda işləmişdir.

Beləliklə, apardığımız tədqiqatın nəticələri bir daha təsdiqləyir ki, maliyyə başlanğıcının yetərli hissəsi Bakı neft kapitalından qaynaqlanan Nobel mükafatı elmi inkişafa, bəşəri sivilizasiyanın yeni mərhələsində sosial təkamülə vaxtında qarşılıq verən, irəliləyişlərə məxsusi zəmin yaradan fenomendir. Onun bir əsrdən çox keçdiyi tarixi yol böyük pozitivləri ilə yanaşı, arzuolunmaz müxtəlif çalarları ilə də qarşılıqlar yaratmışdır. Ziddiyyətli fikirlərin olmasına baxmayaraq, onun 50 yaşını ötmüş yeni yaranışı - Nobel iqtisadiyyatı da sosial-iqtisadi həyata töhfələr vermiş, nobelçi iqtisadçıların yaradıcılıqları əsasında yeni konsepsiyalar və nəzəri təkmilləşdirmələr, həmçinin ekonometrik modelləşmələr iqtisad elminin inkişafına təkan vermiş, onu daha da zənginləşdirmişdir.

İqtisadiyyat və iqtisad elmi sürəkli və zəngin bir tarixə malikdir. İnsanlar daim onların rifah səviyyələrinə birbaşa və ya dolayısı ilə təsir edən proseslərə biganə olmamışlar. Bu baxımdan da Nobel iqtisadiyyatı və nobelçi iqtisadçıların əsərləri müasir iqtisadiyyat sahəsi elmlərinin yeni ensiklopediyasına çevrilmişdir. Onun predmetini isə iqtisad elminin postkeynsçi və neokeynsçi istiqamətlərinin açılması, metodoloji bazasının mükəmmələşdirilməsi, habelə iqtisadi həyatın köklü dəyişməsi təşkil etmişdir.

# Qaynaqlar

**Azərbaycan dilində:**

1. Qurani Kərim.
2. Axundov B.Y. İnqilabdan əvvəlki Bakı neft sənayesində inhisarçı kapitalizm. Bakı: "Elm", 1959, 295 s.
3. Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Bakı: "Azərnəşr", 1998, 356 s.
4. Azərbaycan SSR atlası, Bakı-Moskva: 1963, 213 s.
5. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. Bakı: 1997, 478 s.
6. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: "Elm", 2003, 520 s.
7. Bakıxanov A. Gülüstani-İrəm. Bakı: "Minarə", 2000, 224 s
8. "Böyük İqtisadi Ensiklopediya". VII cilddə. / akademik Ziyad Səmədzadənin baş redaktorluğu ilə. Bakı: "Letterpress" nəşriyat evi, 2012-2015.
9. Hacızadə E.M. Azərbaycanın quruda neftqazçıxarma kompleksində iqtisadi islahatlar və səmərəlilik problemləri. Bakı: "Elm", 1998, 144 s.
10. Hacızadə E.M. Azərbaycanın təbii qaz potensialı: reallıqlar və virtual cizgilər. Bakı: "Elm", 2001, 186 s.
11. Hacızadə E.M. Neftqazçıxarma kompleksinin iqtisadi inkişaf modeli. Bakı: "Elm", 2002, 472 s.
12. Hacızadə E.M., Abdullayev Z.S. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası. Bakı: "Elm", 2003, 512 s.
13. Hacızadə E.M., Bağırzadə E.R. Azərbaycan iqtisadiyyatının dünyadakı reytinqi. Bakı: "Elm", 2011, 128 s.
14. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı: "Elm", 2006, 509 s.
15. Hacızadə E.M. Dünya iqtisadiyyatı və Azərbaycan. Bakı: "Letterpess", 2018, 912 s.
16. Həsənov M. Nobellər neft, milyonçular və qoçular şəhərində. Bakı: "TEAS Press", 2019, 168 s.
17. Keyns C.M. Məşğulluq, mənfəət və pulun ümumi məruzəsi. Bakı: "Qanun", 2001, 380 s.

18. Mirzəcanzadə A.X. Neft və qaz yataqlarının işlənməsi və istismarının nəzəri əsasları. Bakı: 1960, 326 s.
19. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı: "Yazıçı" nəşriyyatı, 1982, 672 s.
20. Nobellər və Bakı Nefti / tərc., red. A.Y. Dubina [et al.]; tərt. H.Həsənov; elmi red. C.Bəhramov; layihə müəl.: A.Hüseynova, N.Abbasova, Ə.Məlikova. Bakı: 2009, 188 s.
21. Rəsulzadə M.Ə. Azərbaycan Cumhuriyyəti. Bakı: 1990, 113 s.
22. Səmədzadə Z.Ə. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, "Elm və təhsil", 2009, 608 s.
23. Şəkərəliyev A.Ş., Əliyev S.T., Cavadov M.Ə. Nobel mükafatı almış iqtisadçılar və onların nəzəriyyələri. Bakı: Elm, 2004, 204 s.
24. Türk dünyasının sabit, davamlı inkişafı üçün Qarabağ probleminin həlli mühüm şərt kimi / Gəldik, gördük, yazdıq... Bakı: "Bilik", 2013, 232 s.
25. Topçubaşov Ə.M. Azərbaycan təşəkkülü. Bakı: 1994, 116 s.

**İngilis dilində:**

26. Avner Offer, Gabriel Söderberg. The Nobel Factor: The Prize in Economics, Social Democracy, and the Market Turn. 340 p.
27. Bergengren, Erik. Alfred Nobel: The Man and His Work, Thomas Nelson, 1962, 222 p.
28. Harsanyi J.C. Papers in Game Theory. Luxembourg: Springer, 2010, 260 p.
29. James Edward Meade. Principles of Political Economy. 4 volumes. Chicago: Aldine Publishing Company, 1965-1976.
30. Krugman P.R. Wells R. Economics. Worth Publishers, 2005, 1200 p.
31. Krugman P.R. Obstfeld M. International Economics: Theory and Policy. Prentice Hall, 2008, 712 p.
32. Lewis W.A. The Dual Economy Revisited // The Manchester School of Economics and Social Studies. 1979, No. 47, pp. 211-229.

33. Lorens Kleyn. Economic Theory and Econometrics. Philadelphia, 1985, 583 p.
34. Miller R.C. International Political Economy: Contrasting World Views. Routledge 2008, 259 p.
35. Michel Beaud, Gilles Dostaler. Economic Thought Since Keynes: A History and Dictionary of Major Economists. London and New York, 1997, 511 p.
36. Richard Stone. Aspects of economic and social modelling. Geneve: Editions Droz, 1981, 159 p.
37. Shiller R. Market Volatility. MIT Press, 1990, 478 p.
38. Shiller R. The New Financial Order: Risk in the 21st Century. Princeton University Press, 2003, 384 p.
39. Shiller R. The Subprime Solution: How Today's Global Financial Crisis Happened, and What to Do about It. Princeton University Press, 2008, 208 p.
40. Tinbergen J. On the Theory of Economic Policy. Contributions to economic analysis, I. Amsterdam, North Holland Publishing Company, 1952, 78 p.
41. Theodor Sults. Economic Value of Education. Columbia Univ Pr: 1963, 92 p.
42. Tjalling C. Koopmans Three Essays on the State of Economic Science. New York: McGraw-Hill. 1957, 243 p.

**Rus dilində:**

43. Алиев И.Г. Каспийская нефть Азербайджана. М.: "Известия", 2003, 798 с.
44. Алияров С.С. Нефтяные монополии в Азербайджане в период I Мировой войны. Баку: 1974, 229 с.
45. Акерлоф Дж., Шиллер Р. Охота на простака. Экономика манипуляций и обмана. М.: ООО "Манн, Иванов и Фербер", 2017, 320 с.
46. Алле Морис. Экономика как наука. М.: "Наука для общества", РГГУ, 1995, 168 с.

47. Амиров А.Д. Добыча нефти. Баку: “Азернешр”, 1963, 330 с.
48. Бартенев С.А. Экономические теории и школы. М.: “БЕК”, 1996, 322 с.
49. Блауг М. “Методология экономической науки и как экономисты обясняет”. М.: “Дело” ЛТД. 1994, 435 с.
50. Блауг М. 100 великих экономистов до Кейнса. СПб.: Экономическая школа. 2005, 352 с.
51. Блауг М. 100 великих экономистов после Кейнса. СПб. : Экономическая школа. 2005, 352 с.
52. Беккер Г.С. Человеческое поведение: экономический подход. М.: ГУ “ВШЭ”, 2003, 672 с.
53. Боди З. Мертон Р. Финансы. М.: “Вильямс”, 2007, 347 с.
54. Бьюкенен Дж. М. Сочинения. Конституция экономической политики. Расчёт согласия. Границы свободы. М.: “Таурус Альфа”, 1997, 560 с.
55. Дебре Жерар. Теория ценности: аксиоматический анализ экономического равновесия. М.: “Дело”, 2018, 240 с.
56. Довбенко М.В., Осик Ю.И.Современные экономические теории в трудах нобелиантов. М.: Издательство “Академия Естествознания”, 2011, 305 с.
57. Герберт Саймон. Науки об искусственном. М.: “Едиториал” УРСС, 2004, 142 с.
58. Ергин Д. Добыча. Всемирная история борьбы за нефть, деньги и власть. М.: “Де Нова”, 1999, 968 с.
59. Канеман Д. Внимание и усилие. М.: “Смысл”, 2006, 288 с.
60. Канеман Д., Словик П., Тверски А. Принятие решений в неопределенности: Правила и предубеждения. Харьков: “Гуманитарный центр”, 2005, 632 с.
61. Канторович Л. В. Математико-экономические работы. Новосибирск: “Наука”, 2011, 760 с.
62. Коллон М. Нефть, PR, война: Глобальный контроль над ресурсами планеты. М.: “Крымский мост-9Д”, 2002, 414 с.
63. Коуз Р. Фирма, рынок и право. М.: “Дело” ЛТД, 1993, 192 с.
64. Коуз Р. Природы фирмы. М.: 1995, 346 с.

65. Кругман П.Р. Кредо либерала. М.: "Европа", 2009, 368 с.
66. Кругман П.Р. Возвращение Великой депрессии? М.: "Эксмо", 2009, 336 с.
67. Лауреаты Нобелевской премии по экономике: Автобиографии, лекции, комментарии. / Под ред. В.В.Окрепилова. в трех томах. 1997-2009. СПб.: "Наука", 2010.
68. Леонтьев В.В. Межотраслевая экономика. М.: "Экономика", 1997, 479 с.
69. Лукас Р.Э. Лекции по экономическому росту. М.: Издательство "Института Гайдара", 2013, 288 с.
70. Майбурд Е.М. Введение в историю экономической мысли. От пророков до профессоров. М.: "Дело", Вита-Пресс, 1996, 287 с.
71. Маршал А. Принципы экономической науки. В трех томах. М.: "Дело", 1993.
72. Мир-Бабаев М.Ф. Краткая история азербайджанской нефти. Баку: "Азернешр", 2009, 376 с.
73. Мюрдаль Г. Современные проблемы "третьего мира". М.: "Прогресс", 1972, 767 с.
74. Назар С. Игры разума. История жизни Джона Нэша, гениального математика и лауреата Нобелевской премии. М.: "Corpus", 2017, 752 с.
75. Нобелевские лауреаты XX века. Экономика : энцикл. слов. М.: РОССПЭН, 2001. 336 с.
76. Осбринк Б. Империя Нобелей: история о заменитых шведах, Бакинской нефти и революция в России. М.: "Текст", 2003, 409 с.
77. Орландо де Руддер. Альфред Нобель. Ростов-на-Дону: "Феникс", 1997, 320 с.
78. Пол Самуэльсон, Вильям Нордхаус. Экономика - Economics, 19 е. М.: "Вильямс", 2014, 1360 с.
79. Победа была бы невозможна без Бакинской нефти. под редакцией академика Зияда Самедзаде. Баку. Специальный выпуск газеты "Игтисадиййат" и Союза экономистов Азербайджана. 2005, 103 с.

80. Россия и мировой бизнес: дела и судьбы. Альфред Нобель, Адольф Ротштейн, Герман Спитцер, Рудольф Дизель / Ред. и предисл. В.И. Новыкина. М.: РОССПЭН, 1996, 312 с.
81. Самедзаде З.А. "Этапы большого пути - Экономика Азербайджана за полвека, её новые реалии и перспетивы". Баку: Издтельско-Полиграфический Центр "НУРЛАР", 2004, 936 с.
82. Сен А.К. Азиатские ценности и экономический рост // Всемирный доклад по культуре. 1998 год. Культура, творчество и рынок М.: "Ладомир", 2001. 488 с.
83. Сен А.К. Развитие как свобода. М.: "Новое издательство", 2004. 432 с.
84. Смит, Вернон Ломакс. Экспериментальная экономика: комплекс исследований, по совокупности которых автору присуждена Нобелевская премия / Вернон Смит; пер. с англ. [под науч. ред. Р. М. Нуреева]. М.: ИРИСЭН : "Мысль", 2008, 804 с.
85. Стиглиц Д., Сен А., Фитусси Ж.-П. Неверно оценивая нашу жизнь: Почему ВВП не имеет смысла? Доклад Комиссии по измерению эффективности экономики и социального прогресса. М.: Издательство "Института Гайдара", 2016, 216 с.
86. Стиглер Дж. Дж. Гражданин и государство. Эссе о регулировании. М.: Издательство "Института Гайдара", 2017, 336 с.
87. Султанов Ч. Электроэнергетика Азербайджана. Баку: "Чашыоглы", 2013, 223 с.
88. Тироль Ж. Теория корпоративных финансов: в 2 кн. М.: Издательский дом "Дело" РАНХиГС, 2017, Кн.1 - 672 с.; Кн.2 - 640 с.
89. Тобин Дж. Денежная политика и экономический рост. М.: URSS. 2010, 272 с.
90. Хайек Фридрих Август фон: Конституция свободы. М.: "Новое издательство", 2018, 528 с.
91. Ха-Джун Чанг. Как устроена экономика. М.: Литагент "МИФ без БК", 2015, 460 с.
92. Хикс Джон Р. Стоимость и капитал. М.: "Прогресс", 1993, 488 с.
93. Улин Б. Межрегиональная и международная торговля. М.: "Дело", 2004, 416 с.

94. Уильям Ф. Шарп, Гордон Дж. Александер, Джеффри В. Бэйли. Инвестиции. М.: "Инфра-М", 2001, 1028 с.
95. Уильямсон О. Экономические институты капитализма: Фирмы, рынки, "отношенческая" контрактация. СПб.: "Лениздат"; "CEV Press", 1996, 702 с.
96. Уильямсон О. Природа фирмы. М.: "Дело", 2001, 360 с.
97. Философия экономики. Антология. Под ред. Хаусмана Д.М.: "ИНФРА-М", 2012, 520 с.
98. Фридмен М. Количественная теория денег. М.: 1996, 416 с.
99. Фридмен М. Если-бы деньги заговорили. М.: "Дело", 1999, 345 с.
100. Чумаков В.Ю. Нобели. Становление нефтяной промышленности в России. М.: "Бизнеском", 2011, 256 с.
101. Шеллинг Т. Стратегия конфликта. М.: "ИРИСЭН", 2007, 366 с.
102. Шеллинг Т. Микромотивы и макровыбор. М.: Издательство "Института Гайдара", 2016, 344 с.
103. Эдмунд Фелпс. Массовое процветание: Как низовые инновации стали источником рабочих мест, новых возможностей и изменений. М.: Издательство "Института Гайдара", Фонд "Либеральная миссия", 2015, 472 с.
104. Эрроу К. Дж. Коллективный выбор и индивидуальные ценности. М.: ГУ "ВШЭ", 2004, 204 с.

**Veb-saytlar:**

105. www.president.az - Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı.
106. http://lib.aliyevheritage.org/az/2541517.html - "Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti". "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron kitabxana. Bakı şəhəri, 29 dekabr, 2000-ci il.
107. www.cabmin.gov.az - Azərbaycan Respublikasının Nazirlər Kabineti.

108. www.economy.gov.az - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi.
109. www.mie.gov.az - Azərbaycan Respublikasının Energetika Nazirliyi.
110. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.
111. www.heydar-aliyev-foundation.org - Heydər Əliyev Fondu.
112. www.socar.com - Azərbaycan Respublikası Dövlət Neft şirkəti.
113. www.oilfund.az - Azərbaycan Respublikası Dövlət Neft Fondu.
114. www.e-qanun.az - Azərbaycan Respublikasının qanunvericilik aktları.
115. www.un.org - Birləşmiş Millətlər Təşkilatı
116. www.weforum.org - Beynəlxalq İqtisadi Forum - Davos Forumu.
117. www.imf.org - Beynəlxalq Valyuta Fondu.
118. www.worldbank.org - Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı.
119. www.europa.eu.int - Avropa İttifaqı.
120. www.opec.org - Neft İxracatçısı Ölkələri Təşkilatı.
121. www.ptpu.ru/issues - Roma Klubu.
122. www.ek-lit.agava.ru/smitsod.htm - Адам Смит. “Исследование о природе и причинах богатства народов”.
123. www.ek-lit.agava.ru/ricsod.htm - Давид Рикардо. “Начала политической экономии и налогообложения”.
124. www.gallery.economicus.ru - İqtisadçılar qalereyası.
125. www.elshanhajizadeh.com - prof. Elşən Hacızadənin saytı.
126. https://www.riksbank.se/ İsvec Mərkəzi Bankı
127. https://www.oligarhia.com/kak-poyavilas-nobelevskaya-premiya-po-ekonomike.html - İqtisadiyyat üzrə Nobel mükafatı necə yarandı.
128. https://az.wikipedia.org/wiki/İqtisadiyyat_üzrə_Nobel_mükafatı_laureatlarının_siyahısı_- İqtisadiyyat üzrə Nobel mükafatı laureatlarının siyahısı.

# İxtisarla yazılmış sözlər

| | |
|---|---|
| ABŞ | - Amerika Birləşmiş Ştatları |
| AES | - Atom Elektrik Stansiyası |
| AFR | - Almaniya Federativ Respublikası |
| AMEA | - Azərbaycan Milli Elmlər Akademiyası |
| B.e.ə. | - Bizim eradan əvvəl |
| BƏƏ | - Birləşmiş Ərəb Əmirlikləri |
| BMT | - Birləşmiş Millətlər Təşkilatı |
| BVF | - Beynəlxalq Valyuta Fondu |
| ETT | - Elmi-TexnikiTərəqqi |
| ETTKİ | - Elmi-Tədqiqat, Təcrübə-Konstruktor İşləri |
| FRS | - Federal Ehtiyatlar Sistemi |
| HİV | - İnsanın İmmunçatışmazlığı Virusu |
| İKT | - İnformasiya və kommunikasiya texnologiyaları |
| QHT | - Qeyri-hökumət təşkilatları |
| NATO | - Şimali Atlantika hərbi siyasi bloku |
| OPEK | - Neft İxrac Edən Ölkələr Təşkilatı |
| RAND | - Research and Development - "Tədqiqat və inkişaf" |
| SSRİ | - Sovet Sosialist Respublikaları İttifaqı - Sovet İttifaqı |
| ÜDM | - Ümumi Daxili Məhsul |

Доктор экономических наук, профессор
Гаджизаде Эльшан Махмуд оглы

# Нобелевская экономика

Аннотация

Учреждение Нобелевской премии по экономике и творческая работа лауреатов в этой номинации за последние 50 лет в целом способствовали формированию нового этапа в экономической науке. В монографии с предметным анализом и концептуальным обоснованием достижения исследователей посткейнсианского периода в синхронизации с результатами деятельности лауреатов, которые существенно улучшили содержание экономических теорий и сформировали новые течения и направления в экономической науке обусловлено называть этапом "Нобелевская экономика". Помимо этого, в исследовательской работе впервые было предложено целенаправленным считать замену термина "Лауреаты Нобелевской премии по экономике" лаконичным термином "Нобелевские экономисты".

В монографии в контексте новых исследований также представлена генеалогия нобелевского поколении и их деятельность в Азербайджане и еще раз доказан тот факт, что бакинская нефть и труд бакинских нефтяников выступал качестве основного элемента источника формирования Фонда Нобелевской премии.

Также, были описаны характерные черты Нобелевской премии с точки зрения негативов и позитивов, освещены превращенные исторической реальностью в этой сфере курьезные и одиозных события, проанализирован жизненный путь

нобелевских экономистов в обширном научном формате, представалены в отдельности и сгруппированы системно их заслуги, которые благодаря их научным открытиям и исследовательским мотивациям прогрессировали и модернизировали экономическую науку, повысили качество жизни и ускоряли переход в экономику знаний.

Монография предназначена для студентов, докторантов, преподавателей, научных работников, специалистов в области экономики и, в целом, широкого круга читателей. Одной из ее целей также является целенаправленное разъяснение на энциклопедической основе знаний о Нобелевской премии, нобелевской экономике и нобелевских экономистах и помощь в получении профессионального и квалифицированного обзора в этой области.

Doctor of Economics, Professor
Hajizadeh Elshan Mahmud oglu

# Nobel economy

Abstract

The establishment of the Nobel Prize in Economics and the creative work of the laureates in this category over the past 50 years have generally contributed to the formation of a new stage in economic science. In the monograph with the subject analysis and the conceptual justification of achievement of researchers of the post-Keynesian period in synchronization with results of activity of laureates which essentially improved the maintenance of economic theories and formed new currents and directions in economic science it is necessary to call a stage "Nobel economy". In addition, the research paper for the first time suggested purposeful to consider the replacement of the term "Nobel laureates in Economics" laconic term "Nobel economists".

The monograph in the context of new research also presents the genealogy of the Nobel generation and their activities in Azerbaijan and once again proves the fact that Baku oil and the work of Baku oilmen acted as the main element of the source of formation of the Nobel Prize Fund.

Also, the characteristic features of the Nobel prize in terms of negatives and positives were described, funny and odious events turned by historical reality in this sphere were highlighted, the life path of Nobel economists was analyzed in an extensive sci-

entific format, their merits were presented separately and grouped systematically, which, thanks to their scientific discoveries and research motivations, progressed and modernized economic science, increased the quality of life and accelerated the transition to the knowledge economy.

The monograph is intended for students, doctoral students, teachers, researchers, specialists in the field of Economics and, in General, a wide range of readers. One of its aims is also to provide a focused, encyclopedic explanation of the knowledge of the Nobel prize, Nobel Economics and Nobel economists, and to assist in obtaining a professional and qualified review in this field.

# MÜNDƏRİCAT

GİRİŞ ........ 5

**Nobellər ailəsi və Nobel mükafatları**
Alfred Nobel və Nobellər ailəsi ........ 10
Nobel mükafatları fondunun yaradılmasında Bakı neftinin rolu və mühümlüyü ........ 18
Nobel mükafatı: fərqli cəhətlər, qaydalar və prinsiplər ........ 28
Nobel mükafatı laureatlarının statistik forumu ........ 34
Kuryoz və odioz hadisələr ........ 42
Azərbaycanda Nobel Komitəsi təsisatı, mükafatı alan və ala bilməyən azərbaycanlılar ........ 58
İsveç bankının təşəbbüsü və İqtisadiyyat üzrə Nobel mükafatı təsisatı ...... 67

**İllər, laureatlar və tədqiqatlar**
1969. Raqnar Friş, Yan Tinbergen ........ 80
1970. Pol Samuelson ........ 84
1971. Saymon Kuznes ........ 86
1972. Con Hiks, Kennet Errou ........ 88
1973. Vasili Leontyev ........ 93
1974. Qunnar Mürdal, Fridrix Hayek ........ 96
1975. Leonid Kantoroviç, Tyallinq Kupmans ........ 100
1976. Milton Fridman ........ 104
1977. Bertil Ulin, Ceyms Mid ........ 107
1978. Herbert Saymon ........ 111
1979. Teodor Şults, Vilyam Lüis ........ 113
1980. Lourens Kleyn ........ 118
1981. Ceyms Tobin ........ 120
1982. Corc Stiqler ........ 122
1983. Cerard Debre ........ 124
1984. Riçard Stoun ........ 126
1985. Franko Modilyani ........ 128
1986. Ceyms Bükenen ........ 130
1987. Robert Solou ........ 133
1988. Moris Alle ........ 135
1989. Trüqve Hovelmu ........ 137
1990. Harri Markovits, Merton Miller, Uilyam Şarp ........ 139

1991. Ronald Kouz ... 144
1992. Harri Bekker ... 146
1993. Robert Fogel, Duqlas Nort ... 148
1994. Con Harsani, Con Neş, Reynhard Zelten ... 152
1995. Robert Lukas ... 158
1996. Ceyms Mirrlis, Uilyam Vikri ... 160
1997. Robert Merton, Mayron Şoulz ... 163
1998. Amartya Sen ... 166
1999. Robert Mandel ... 168
2000. Ceyms Hekman, Daniel Makfadden ... 170
2001. Corc Akerlof, Maykl Spens, Cozef Stiqlis ... 174
2002. Daniel Kaneman, Vernon Smit ... 179
2003. Robert İnql, Klayv Qrencer ... 183
2004. Finn Kidland, Edvard Preskott ... 186
2005. Robert Aumann, Tomas Şellinq ... 189
2006. Edmund Felps ... 192
2007. Leonid Qurviç, Erik Meskin, Rocer Mayerson ... 195
2008. Pol Kruqman ... 200
2009. Elinor Ostrom, Oliver Uilyamson ... 202
2010. Piter Daymond, Deyl Mortensen, Kristofer Pissarides ... 205
2011. Tomas Sarcent, Kristofer Sims ... 209
2012. Lloyd Şepli, Elvin Rot ... 213
2013. Yucin Fama, Lars Hansen, Robert Şiller ... 216
2014. Jan Tirol ... 220
2015. Enqus Diton ... 222
2016. Oliver Hart, Benqt Holmström ... 224
2017. Riçard Taler ... 227
2018. Uilyam Nordhos, Pol Romer ... 229
2019. Abhicit Banerji, Ester Duflo, Maykl Kremer ... 232

Nobel iqtisadçılarının iqtisad elmini inkişaf etdirən və zənginləşdirən başlıca nəzəriyyə və konsepsiyaları ... 238

**Nəticə** ... 342
**Qaynaqlar** ... 353
**İxtisarla yazılmış sözlər** ... 361
**Аннотация** ... 362
**Abstract** ... 364

Elşən Hacızadə

# NOBEL İQTİSADİYYATI

MONOQRAFİYA

**Tərtibat**
Elşən Əliyev

**Kompüter dizaynı**
Sevda Süleymanova

**Korrektor**
Samir Sultanov

ISBN: 978-9952-523-20-1
ISBN: 978-9949-01-594-8 (*HARD COPY*)
ISBN: 978-9949-01-595-5 (*SOFT COPY*)

Çapa imzalanmışdır: 24.01.2020.
Kağız formatı 60x90 1/16.
Şərti çap vərəqi - 23. Tiraj 500.
"POLİQRAFAZ" mətbəəsində çap olunmuşdur.
Ünvan: Xırdalan şəhəri, M.Ə.Rəsulzadə, 12.
Telefon: 012 342 76 30; 012 342 76 31
Web: www.poliqraf.az